# 72 Kəlam

## Seyid Əli Xamenei

**Bakı-2018**

Kitabın nəşrinə
Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən rəy (09 Yanvar 2018-ci tarixli DK-1354/H saylı məktub) verilmişdir.

Tərcümə edən:

Ağabala Mehdiyev

Seyid Əli Xamenei. 72 KƏLAM
Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi
2018, 288 səh.

## Ön söz

Bir daha məhərrəm ayı gəlib çatır və şəhidlər sərvəri İmam Hüseynin (ə) ad və xatirəsi İslam cəmiyyətini öz gözəl qoxusu ilə ətirləndirir. Böyük Aşura hadisəsindən keçən əsrlər boyu çoxsaylı alim, fəqih, mütəfəkkir və tədqiqatçılar İmam Hüseynin (ə) və o həzrətin vəfalı səhabələrinin hərəkatının fəlsəfəsini bəyan və təbliğ etmək istiqamətində çalışıblar və müxtəlif əsərlər yazıb dini maarifi dərk etmək istəyən insanların ixtiyarında qoyublar.

İmam Hüseyn (ə) hərəkatının bərəkət və nəticələrindən bəhrələnmək istiqamətində göstərilən səylər arasında imam Xomeyninin adı ulduz kimi parlayır. İmam Xomeyninin vəfatından sonra Ayətullah seyid Əli Xamenei də Aşur a hərəkatına çox böyük diqqət göstərib və müxtəlif münasibətlərlə etdiyi çıxışlarda İslam tarixinin bu böyük hadisəsini izah edib və ona aydınlıq gətirib.

Ayətullah Xamenei həzrətlərinin bu barədəki çıxışlarında diqqəti çəkən xüsusiyyət onun hərtərəfliliyi, eyni zamanda İmam Hüseyn (ə) hərəkatının aşkar və gizli cəhətlərinin dəqiq, yararlı, tarixə əsaslanan, elmi və analitik təhlilə söykənən şəkildə bəyan edilməsidir. Misal üçün aşağıda qeyd edilənlərə işarə etmək olar:

Dinin əsası ilə Aşura arasında sıx bağlılıq var və din onun sayəsində yaşayır. İmam Hüseynin (ə) belə bir fədakarlıq və şücaət göstərməsinin səbəb və kökü o həzrətin mənəviyyat, ixlas və bəsirəti, bir sözlə, kamil insan olmasıdır. Digər tərəfdən, Aşurada çoxsaylı ibrət və dərslər var və hər bir müsəlmana və bütün müsəlman millətlərə həmin dərsləri öyrənmək və həmin ibrətlərə diqqət etmək vacibdir. Çünki Aşuranın ən böyük ibrəti İslam cəmiyyətinin əlli ildən az bir müddətdə dəyişməsi və tənəzzülə uğraması olub. Aşura hərəkatında və həmçinin islam tarixinin ilk əlli ilinin tarixi hadisələrində cəmiyyətin seçilən şəxslərinin, xüsusilə haqq tərəfdə olan şəxslərin mühüm və ibrətamiz rolu olub. Bəsirətsizlik xəstəliyi və bəlası, həmçinin ondan da təhlükəli olan dünyapərəstlik Peyğəmbər (s) Əhli-beytinin şəhidliyinə səbəb olduğu kimi, bütün zamanlarda İslam cəmiyyətinin tənəzzülünə səbəb olan və zəmanənin yezidlərinin yenidən cəmiyyətə hakim olması ilə nəticələnə biləcək bir bəladır.

Gərək hamı məhərrəm və səfər aylarında Hüseyn təlimlərini təbliğ etmək, öyrənmək və öyrətməklə məşğul olsun və bununla yanaşı, tarix boyu bəzi nadanların bu parlaq və nurani hərəkatla əlaqələndirdikləri xurafatlardan çəkinsinlər. Onlar gərək Aşura hadisəsinin başvermə səbəblərini bəyan etməyə səy göstərməklə yanaşı, ənənəvi əzadarlıqları, yəni xalis məzmunlu və mənbələrə əsaslanan rövzə oxunmasını və sinə vurmağı da yaddan çıxarmasınlar. İmam Hüseynin (ə) hərəkatının fəlsəfə və hədəfinin təfsir edilməsində nə hökumət yaradılmasını imamın yeganə hədəfi sayan baxış, nə də şəhidliyi imamın yeganə hədəfi kimi təqdim edən baxış kamildir. Əksinə, əsas hədəf İslam ümmətində qarşıya çıxan azğınlıq müqabilində boyuna düşən ilahi cihad vəzifəsinə şüurlu surətdə və şücaətlə əməl etmək və vacib "yaxşılığa dəvət və pislikdən çəkindirmə"[1] prinsipini həyata keçirmək olub. Belə bir hədəflə əldə edilən istənilən nəticə qələbədir, istər İslam hökumətinin qurulması olsun, istər şəhidlik. Bu kitabda İmam Hüseyn (ə) hərəkatında üç ünsürün – məntiq, şücaət və duyğu – mövcud olması və onlarla digər dərs və ibrətamiz nüanslarla tanış olacaqsınız.

**Bu kitab haqqında**

Əlinizdə olan bu kitab Ayətullah Xamenei həzrətlərinin İmam Hüseyn hərəkatına aid müxtəlif məsələlər barəsindəki çıxışlarının seçilmiş hissələrindən ibarətdir. Həmin çıxışlar 1989-cu ilin may ayından 2011-ci ilin iyun ayına kimi müxtəlif görüş və məclislərdə edilib və 72 söz formasında bir yerə toplanıb. Həmin çıxışların bəzisi, məsələn, 2-ci və 5-ci sözlər bir neçə cümlə həddində, bəzisi, məsələn, 27 və 44-cü sözlər isə zamanın tələbi və mövzunun əhəmiyyətinə görə daha böyük həcmə malikdir.

Həmçinin 72-ci sözdə Ayətullah Xamenei həzrətlərinin müxtəlif çıxışlarında Aşura qəhrəmanlığı məzmunlu duaları toplanaraq təqdim edilmişdir.

Bu kitabda məsələlər tarixi ardıcıllıq əsasında düzülmüşdür. Lakin məsələləri mövzu bölgüsü əsasında mütaliə etmək istəyən oxuculara kömək etmək məqsədi ilə kitabın əvvəlində mövzu mündəricatı da təqdim edilmişdir.

***

Ümid edirik ki, İmam Hüseyn (ə) əzadarları, Allahın istəyi ilə, məhərrəm ayında əzadarlıq məclislərində iştirak edib ilahi ayinlərə ehtiram göstərmək və Kərbəla şəhid və əsirləri karvanına matəm saxlamaqla yanaşı, o

[1] Bu prinsip fars dilində (çox vaxt bizim dilimizdə də) "əmr be məruz və nəhy əz münkər", ərəb dilində isə "əmrun bil-məruf və nəhyun anil-münkər" kimi işlənir. – Red.

şəhid imamın hədəf və amallarını dərk etmək və İslamın bu böyük keşikçisinin ad və yolunu qorumaq istiqamətində uğur qazanacaqlar.

Müvəffəqiyyət Allah tərəfindəndir.

Əlirza Muxtarpur Qəhrudi.

**1.**

## Məhərrəmin təsirləri: Hakimiyyət, İslamın ucalması və onun bərəkətlənməsinə ümid

### İslam inqilabının İmam Hüseyn (ə) hərəkatından təsirlənməsi

Məhərrəm və Aşura məsələsi barədə bunu qeyd etməliyəm ki, bizim hərəkatın ruhi, ümumi istiqaməti və onun qələbə çalmasının dayağı diqqətin həzrət İmam Hüseynə (ə) və Aşuraya aid məsələlərə yönəlməsi olub. Bu məsələ bəzilərinə ağır görünə bilər, lakin bu, həqiqətdir. Heç bir düşüncə – hətta möhkəm imanla birgə olmuş olsaydı belə – milyonluq xalq kütləsini özlərinə vəzifə bildikləri şeyin yerinə yetirilməsində müxtəlif fədakarlıqlar göstərməyə zərrəcə tərəddüd etməyəcək formada hərəkətə gətirə bilməzdi.

### İmanın səmərəliliyində məhəbbətin müsbət təsiri

Ümumiyyətlə, iman dərin eşq və məhəbbətlə, emosional rəng və ruhla birgə olmayınca lazımi səmərəyə malik olmur. İmanı əməl və hərəkət məqamında səmərəli – özü də yüksək həddə – edən şey məhəbbətdir. Biz məhəbbət olmadan hərəkatı qabağa apara bilməzdik. Bizim ixtiyarımızda İslam təfəkküründə məhəbbətin ən yüksək forması – yəni Əhli-beytə məhəbbət – var. Bu məhəbbətin zirvəsi Kərbəla və Aşura məsələsindədir və ilahi şəxsiyyətlərin həmin gün göstərdikləri fədakarlıqların dəyərli yadigarlarını qorumaqdan ibarətdir. Onlar şiə tarix və mədəniyyəti üçün yadigar saxlanılmış əmanətlərdir.

### Emosional məsələlərin etiqadi məsələlərdən ayrılması barədə "ziyalı" təlqinləri

İslami məsələlərin yeni baxışlarla təqdim edildiyi və cəlbedici göründüyü, din və İslam ilə elə də çox bağlılığı olmayan şəxslər üçün maraqlı mövzu sayıldığı, İslam təfəkküründə yeni meyillərin pis şey olmadığı – əksinə, İslam aləmi və xüsusilə gənclər üçün xəzinə sayılırdı – həmin günlərdə belə bir "ziyalı" meyli yaranmışdı ki, gəlin biz iman və etiqad məsələlərini emosional və hissi məsələlərdən – o cümlədən Aşuraya aid məsələlərdən, rövzə oxunmasından və ağlamaq məsələsindən – ayıraq!

Aşura hadisələrinin və İmam Hüseynin (ə) fədakarlıqlarının bəyan edilməsində bəzi şeylər deyilirdi və bəzən hadisələr təhrif edilərək çatdırılırdı. Buna görə də bəlkə də, həmin günlərdə bu söz bir çoxlarına cəlbedici gəlirdi və bu meyillər geniş yayılırdı. Lakin biz əməldə gördük ki, bu məsələ imam Xomeyni tərəfindən rəsmi və aşkar şəkildə və Aşura hadisələri çərçivəsində bəyan edilməyincə heç bir ciddi və gerçək addım atılmadı.

### İmam Hüseyn (ə) hərəkatının hədəfi haqq-ədalətin bərqərar edilməsi olub

Bu, əməl məqamında idi. Təbliğat, reallıq və təsbit etmək məqamında da məsələ aydındır. İmam Hüseynin (ə) hərəkatı haqq-ədalətin bərqərar edilməsi üçün idi " **انما خرجت لطب الاصلاح فی امة جدی ارید ان آمر بالمعروف و انهی عن المنکر**". "Mən (Mədinədən) cəddimin ümmətində islahat aparmaq üçün çıxmışam. Mən yaxşılığa dəvət və pislikdən çəkindirmək istəyirəm".[1] Ən yaxşı ziyarətnamələrdən olan "Ərbəin" ziyarətnaməsində belə oxuyuruq: "**و منح النصح و بذل مهجته فیک لیستنقذ عبادک من الجهالة و حیرة الضلالة**"[2] "Onlara mehribanlıqla öyüd-nəsihət verdi, öz pak qanını Sənin yolunda bağışladı ki, bəndələrini nadanlıqdan və azğınlıq sərgərdanlığından xilas etsin". O həzrət, yolda həzrət Peyğəmbərdən (s) nəql edilən hədisi bəyan edərək buyurub: " **ایها الناس ان رسول الله صلی الله علیه و آله و سلم قال: من رأی سلطاناً جائراً مستحلاً لحرم الله، ناکثاً لعهد الله، مخالفاً لسنة رسول الله صلی الله علیه و آله و سلم یعمل فی عباد الله بالاثم و العدوان فلم یغیر علیه بفعل و لا قول کان حقاً علی الله ان یدخله مدخله**" "Camaat! Həzrət Peyğəmbər (s) buyurub: Əgər kimsə zalım hakimin Allahın haramını halal etdiyini, Allahın əhdini pozduğunu, Peyğəmbər sünnəsinə qarşı çıxdığını, Allahın bəndələri ilə günah və ədavətlə davrandığını görsə və öz dil və əməli ilə ona qarşı bir iş görməsə, həmin şəxsi o zalım gedən yerə aparmaq Allah-taalanın haqqıdır.[3]

O həzrətin bütün hərəkət və sözlərindən, həmçinin məsumlardan o həzrət barəsində nəql edilən bütün sözlərdən belə məlum olur ki, hədəf haqq-ədalətin və Allahın dininin bərqərar olması, şəriət hakimiyyətinin

---

[1] Biharul-ənvar, c. 44, s. 329
[2] Biharul-ənvar, c. 98, s. 331
[3] Biharul-ənvar, c. 44, s. 382

yaradılması, zülm, sitəm və azğınlığın kökünün kəsilməsi olub. Məqsəd həzrət Peyğəmbərin (s) və digər peyğəmbərlərin yolunun davam etdirilməsi olub: "**...يا وارث آدم صفوة الله يا وارث نوح نبى الله**" "Ey Allahın seçilmiş bəndəsi – Adəmin varisi; ey Allahın peyğəmbəri – Nuhun varisi..."[1] Peyğəmbərlərin nə üçün gəlməsi də aydındır: "**ليقوم الناس بالقسط**"[2] Haqq-ədalətin bərqərar edilməsi və İslami hökumət və quruluşun yaradılması.

**İslam inqilabının əsas istiqamətləndiricisi İmam Hüseyn (ə) hərəkatının hədəfləri olub**

Bizim hərəkatımızı istiqamətləndirən və bu gün də istiqamətləndirməli olan şey tam dəqiqliklə Hüseyn ibn Əlinin (ə, yolunda mübarizə etdiyi şeydir. Biz bu gün müxtəlif cəbhələrdə, bu quruluşun yolunda və onu qorumaq üçün canını qurban vermiş şəhidlərimiz üçün şüurlu şəkildə əzadarlıq edirik. Xalqımız düşmən tərəfindən məruz qaldığımız müharibədə, yaxud müxtəlif düşmən, münafiq və kafirlərlə mübarizədə şəhid olmuş gəncin həmin quruluşun yolunun şəhidi olmasına, həmin quruluş və inqilabi qorumaq və onun sütunlarını möhkəmləndirmək üçün şəhid olmasına əsla şübhə etmir. Halbuki bugünkü şəhidlərin vəziyyəti tam tənhalıq və qürbətdə mübarizə etmiş və həmin yolu getmək üçün heç kəs tərəfindən təşviq edilməyən, əksinə, hamı və İslamın tanınmış simaları tərəfindən çəkindirilən Kərbəla şəhidlərindən tam fərqlidir. Lakin buna baxmayaraq, onların iman və eşqi o qədər çox idi ki, getdilər, qəribcəsinə, məzlumcasına və tənha şəhid oldular.

**İmamların (ə) İslami quruluş yaratmaq istiqamətindəki ciddi əzmkarlığı**

Bu gün bu islami quruluşu duyan və onun bərəkətlərini yaxından görən bizlər İmam Hüseyn (ə) hərəkatının qədrini öz sələflərimizdən daha çox bilir və onun mənasını daha çox dərk edirik və etməliyik də. O həzrət belə bir şey üçün hərəkət etmişdi. O həzrət mübarizə etdi ki, cəmiyyətdə pozğun, insan və dini xarab edən, cəmiyyətin rifahını pozan quruluşlar olmasın və cəmiyyətdə islami, ilahi, insani və xoşbəxtliyə əsaslanan quruluşlar yaradılsın. Əlbəttə, əgər həmin quruluş o həzrətin zamanında və ya məsum olan və vəhy mənbəyi ilə əlaqəsi olan sonrakı imamların (ə) zamanında gerçəkləşsəydi və onlar həmin quruluşun başında dayansaydılar, təbii ki, onların vəziyyəti bizdən fərqli olardı. Amma hər halda məsələnin zahiri və forması birdir və onlar da belə bir quruluş üçün çalışırdılar. Bu çox geniş bir mövzudur və mən indi ona "görəsən, imamlar (ə) islami quruluş yaratmaq üçün ciddi əzmkarlıq göstəriblər, yoxsa onların işi ancaq örnək olmaq olub?" (sualının cavabına) – daxil olmaq istəmirəm.

İmamların (ə) həyatına aid hədislərdən və çoxsaylı dəlillərdən belə məlum olur ki, imamlar (ə), həqiqətən də, ciddi şəkildə islami quruluş yaratmaq istəyiblər. Bu iş bəzilərinin təsəvvür etdiyinin əksinə olaraq imamın elm və idrakı ilə ziddiyyət təşkil etmir. Onlar, həqiqətən, ilahi quruluş yaratmaq istəyirdilər. Əgər onlar elə bir quruluş yaratsaydılar, ilahi təqdir də o olardı. İlahi təqdir və Allahın elmindəki müqəddəratlar fərqli şəraitlərdən asılı olaraq dəyişir. Biz indi bu barədə danışmırıq. Qısası, onların hərəkətinin bu istiqamətdə olmasına şübhə yoxdur. Biz bu gün həmin hərəkatın bərəkətindən və həmin hərəkatın mədəniyyət və ruhiyyəsini qorumaq sayəsində öz cəmiyyətimizdə bu quruluşu yaratmışıq. Əgər bizim cəmiyyətimizdə İmam Hüseyn (ə) eşqi, onun xatirəsi, Aşura müsibəti və hadisələrinin yada salınması ənənəsi rəvac tapmasaydı, hərəkatın bu zaman fasiləsində və bu formada qələbə çalıb-çalmayacağı məlum deyil. Bu, hərəkatın qələbə çalmasında fövqəladə təsirə malik bir amildir. İmam Xomeyni Hüseyn ibn Əlinin (ə) mübarizə etdiyi hədəfin yolunda bu amildən maksimum istifadə etdi...

**Bütün təbliğatçı və rövzəxanlar əzadarlıq və İmam Hüseyn (ə) müsibətlərinin yada salınması ənənəsinin qorunması və yayılmasında məsuliyyət daşıyır**

Biz indi məhərrəmin özü ilə yanaşı, onun məhsuluna da malikik. Biz bu məhərrəm ilə necə davranmalıyıq? Cavab budur ki, biz əmmaməlilər, bütün din alimləri, bütün təbliğatçılar, bütün rövzəxanlar Aşura məsələsini və Hüseyn ibn Əlinin (ə) müsibətlərini ciddi, əsas və şüarçılıqdan uzaq bir məsələ formasında diqqət mərkəzində saxlamalıdır. Doğrudan da, əgər biz bu məsələyə ciddi yanaşmaq istəsək, nə etməliyik?

**Təhriflərdən çəkinməyin gərəkliyi və Aşura məsələlərinin "bəzək-düzək"dən təmizlənməsi**

İlk şərt bizim hadisəni zərərli "bəzək-düzək"lərdən təmizləməyimizdir. Bəzi şeylər var ki, onlar "bəzək-düzək olsa da, nə zərərlidir, nə də yalan. Hər hansı bir hadisəni bədii dil ilə təsvir etmək istəyənlərin heç biri ancaq hadisənin mətnini demir. Siz xüsusi bir şəraitdə birinin dilindən bir söz çıxdığını eşidəndə, həmin söz sahibinin hisslərini də təxmin edə bilirsiniz. Bu, mütləqdir. Əgər hər hansı bir şəxs səhrada və qoşun qarşısında bir söz

[1] Biharul-ənvar, c. 97, s. 323
[2] Hədid surəsi, ayə 25 "...insanların ədalət və insafa əməl etmələri üçün ..."

deyirsə, adətən həmin sözün nə – dəvət, xahiş, təhdid və sairə – olmasından asılı olaraq, onu deyənin ruh və zehnində bir sıra hallar mövcud olur və ağıllı dinləyici onu təxmin, bacarıqlı natiq isə onu bəyan edə bilir. Bunların deyilməsində bir problem yoxdur.

Əgər biz İmam Hüseynin (ə) və o həzrətin səhabələrinin Aşura günü və axşamı olan hallarını – mötəbər kitablarda oxuduğumuz və tapdığımız qədər – bəyan etmək istəsək, təbii ki, onun bir sıra xüsusiyyət və əlamətləri var. Məsələn, siz İmamın (ə) Aşura axşamı səhabələrinə dediyi sözləri belə bəyan edə bilərsiniz ki: "Gecənin qaranlığında...", yaxud "həmin gecənin qəmli və hüznlü qaranlığında..." və s. Bu "bəzək-düzək"lər nə zərərlidir, nə də yalandır. Lakin bəzi "bəzək-düzək"lər yalandır və nəql edilən bəzi şeylər həqiqətə ziddir. Hətta bəzi kitablarda yazılanlar İmam Hüseyn (ə) hərəkatının şəninə, onun məna və məfhumuna layiq deyil. Bunları tanımaq və ayırmaq lazımdır.

**Rövzə oxunmasında bədii bəyan üslublarından istifadənin zəruriliyi**

Buna görə də ilk məsələ bizim hadisəni saflaşdırmağımız və həmin saflaşdırılmış, dəqiq və kökü olan hadisəni müxtəlif bədii üslublarla – şeir, nəsr və özü bir növ məxsus bədii üslub olan rövzəxanlıqla – qarışdırıb bəyan etməyimizdir. Bu işdə bir problem yoxdur və mühümdür. Biz gərək bu işi görək. Bu işi gərək onda püxtələşmiş və səriştəsi olanlar görsünlər. Əgər biz Aşura hadisəsindən, məsələn, " **ليستنقذ عبادک من الجهالة و حيرة الضلالة**"[1] "Sənin bəndələrini nadanlıqdan və azğınlıq sərgərdanlığından xilas etmək üçün" məsələsini bəyan etsək – bu gün onun məna və məfhumu bizə aydındır – amma (istifadə etdiyimiz üslub) həmin məna və məfhumu inkar etsə və ona zidd olsa, bu iş İmam Hüseynin hədəfinə və Aşura hadisəsinə xidmət deyil. Biz gərək hadisəni saflaşdıraq və sonra onun müxtəlif cəhətlərini insanlara bəyan edək.

Mən möhtərəm alimlərə, təbliğatçılara, natiqlərə, rövzəxanlara, hamısı minbər və rövzə əhli olan və İmam Hüseynin (ə) müsibət və mədhlərini dilə gətirən bu yığıncaqda o barədə bir söz demək istəmirəm. Lakin ümumi şəkildə bunu deməliyəm ki, bu hadisə hərəkatın və islam inqilabının dayaq nöqtəsi olaraq abırlı, dinamik və güclü qalmalıdır. Əgər bizim bu hadisəyə yanaşmağımız əlli il qabağın rövzə oxuyanının yanaşması kimi olsa – yəni o, bir yerdə bir şey görürdü və zehni ehtimal əsasında onu üstün bilib nəql edir, möminləri ağladırdı və həm özü, həm də möminləri savaba çatdırırdı – hadisəyə ziyan vura bilərik.[2]

**2.**

## Peyğəmbər ailəsinin əsirliyi – tarixin ən acı xatirəsi

Hamımız bilirsiniz ki, məhərrəm ayının on birində İslam tarixinin ən böyük faciələrindən biri baş verib. Həmin gün digər millətlərdə və İslam tarixində bənzəri baş verməmiş və bundan sonra da həmin miqyasda baş verməyəcək bir əsirlik hadisəsi baş verib. Həmin gün vəhy və nübuvvət ailəsindən olan və İslam tarixinin ən əziz və şərəfli insanları əsir götürülüblər. Küçə və bazarlarda əsir karvanında elə qadınlar gəzdiriliblər ki, həmin gün islam cəmiyyətində olanların üstünlük və şərəfinin bənzəri yox idi. Həmin əziz insanları əsir götürənlər İslamın ətrini belə duymayan, İslamla əlaqəsi olmayan və öz zamanının ən xəbis və alçaq insanları olublar. Məhərrəm ayının on birində həzrət Peyğəmbərin və Əli ibn Əbu Talibin (ə) Əhli-beyti əsir düşüb və bu xatirə bizim üçün bu günə və axıra kimi ən acı xatirələrdən biri olaraq qalıb və bundan sonra da qalacaq.[3]

**3.**

## Şəhidliyin yüksək dəyərinin sirri

**Şəhidlərin həqiqi vücudunun diri olması**

"Şəhid"in mənası mənəvi ideyalar yolunda öldürülən və hər bir insanın ən əsas sərmayəsi olan canını ilahi hədəf və məqsədə sərf edən şəxsdir. Allah-taala da bu böyük fədakarlığa cavab olaraq şəhidin vücudunu, xatirə və düşüncəsini onun millətinin arasında yaşadır və onun ideyaları diri qalır. Bu, Allah yolunda olan ölümün xüsusiyyətidir. Allah yolunda öldürülənlər diridirlər. Onların cismi diri deyil, amma həqiqi vücudları diridir.

Hər bir insanın həqiqəti onun istək, fikir, hədəf və yolundan ibarətdir. Şəxsi və dünyəvi hədəflər yolunda öldürülən şəxsin hədəfləri də onun özü ilə dəfn edilir və itib gedir. İnsanın şəxsən özünə aid olan hədəfi onun özünə məxsusdur və onun özünün getməsi və ölümü ilə həmin hədəf də ölür və aradan gedir. Lakin ilahi, qeybə əsaslanan və Allahın istəyi olan və insanın yolunda fədakarlıq etdiyi hədəf insanın ölümü ilə ölmür. Əlbəttə,

---

[1] ət-Təhzib, c. 6, s. 113

[2] Məhərrəm ayı astanasında bir qrup ruhani ilə görüşdəki çıxışdan. 01.VIII.1989

[3] Əziz şəhid ailələri və müharibə fədailərindən ibarət böyük bir dəstə ilə görüşdəki çıxışdan. 13.VIII.1989

həmin ilahi hədəflər də itib aradan gedə bilər. Lakin onların itib aradan getməsi onların yolunda səy göstərilməyəndə baş verir.

Əgər kimsə ülvi və ilahi hədəflər yolunda çalışsa, zəhmət çəksə və sonra öldürülsə, həmin hədəf yaşayır. Həmin şəxsin vücudu həmin hədəfdir; onun həqiqi şəxsiyyət və kimliyi həmin hədəfə söykənir. Lakin məsələnin əksi elə deyil və hədəf ona söykənmir. O, hədəfə söykəndiyi üçün yaşayır və itib getmir. Buna görə də peyğəmbərlər və haqq carçıları bu gün sağdırlar. Çünki onların bəşəriyyətdə axtardıqları fəzilət, təkamül və hədəflər onların getməsi ilə ölməyib və hədəfləri real aləmdə və tarixin axarında gerçəkləşib. Düzdür, hələ həmin hədəflərin hamısı həyata keçməyib, amma bu gün siz dünyada ədalət və azadlıq nidasının ucalmasının şahidisiniz və dünya ziyalıları bəzi hədəfləri ülvi hədəflər adlandırırlar. Bunlar elə peyğəmbərlərin hədəfləridir, hətta onlar onun kimdən olmasını bilməsələr belə.

**Şəhidlik ənənəsinin dirilməsi**

Şəhidlik və Allah yolunda öldürülmək ənənəsinin islami quruluşla dirilməsi bizim fəxr etməli olduğumuz həqiqətlərdəndir. Keçmişdə Allah yolunda zərbəyə məruz qalanlar az idilər və bəziləri özlərinin yetmiş illik ömürləri boyu Allah yolunda azacıq çətinliyə qatlaşmırdılar. Onlar Allah yolunda bir qaş-qabağa razı deyildilər, hələ qalsın öz canlarını və öz vücud sərmayələrini Allah yolunda vermək olsun. İslam adı ilə yaşayan millətin bu əzəmətli hədəfin gerçəkləşməsi yolunda heç bir çətinliyə qatlaşmaq istəməməsi pis haldır. Aydın məsələdir ki, bu cəmiyyətdə islam gün-gündən əriyəcək, solacaq və öz təsirini itirəcək.

Təəssüflər olsun ki, keçmişdə bizim ölkəmizdə, həmçinin müsəlman ölkələrinin çoxunda nəinki Allah yolunda öldürülmək, hətta dinə sərmayə qoymaq və Allah yolunda çətinliklərə qatlaşmaq ənənəsi ləğv olunmuş, yaxud çox zəifləmişdi. İslam inqilabı və imam Xomeyninin xalqa və islama ən böyük xidmətlərindən biri Allah yolunda fədakarlıq ruhunun – istər İranda olsun, istər digər müsəlman ölkələrində – dirçəldilməsi olub. Bu gün çoxlu pak ruhlu insanlar Allah üçün çalışmağa, zəhmətlərə qatlaşmağa, çətinliyə düşməyə və öz canını qurban verməyə hazırdır. Bunun ən böyük nümunəsi bizim əziz şəhidlərimizdir ki, sizlər onların əziz yadigarları və yerdə qalanlarısınız.

Ölüm hamı üçün var. Əgər biz Allah yolunda ölsək, maddi və zahiri meyarlarla da bir şey itirməmişik. Ölüm bizim hər birimizin labüd alın yazısıdır. Bu, əvvəl-axır bizim əlimizdən çıxmalı olan bir maldır. Lakin bu can malı bizim əlimizdən iki cür çıxır: Onun biri bizim onu itirməyimizdir, ikincisi isə bizim onu satmağımız. Bunların hansı daha yaxşıdır? Allah yolunda ölməyənlər canlarını itirir və əllərində bir şey olmur. Bu malı Allah yolunda verənlər və canlarını Onun yolunda sərf edənlər onu satıb əvəzində bir şey alanlardır: " إِنَّ اللَّهَ اشْتَرَى مِنَ الْمُؤْمِنِينَ أَنْفُسَهُمْ وَ أَمْوَالَهُمْ بِأَنَّ لَهُمُ الْجَنَّةَ".[1]

**Şəhidin öz canını qurban verməsinin mükafatı cənnət və Allahın razılığıdır**

Şəhid öz canını satıb və onun əvəzində cənnət və Allahın razılığını alıb ki, bu da ən böyük qazancdır. Allah yolunda şəhid olmağa bu cəhətdən baxaq. Şəhidlik zirək və ağıllı insanların ölümüdür. Onlar bu canlarını havayı və bir şey əldə etmədən əldən çıxmağa qoymurlar. Bu can bizim əsas sərmayəmizdir. Ölüm və şəhidlik qoca-cavan bilmir. Çox adamlar var ki, heç Allah yolunda da ölmürlər, amma cavan ölürlər. Çox cavanlar var ki, ölürlər və canlarını əldən verirlər. Əgər onlar Allah yolunda hərəkət etməsələr, getdikləri yol ilahi yol olmasa, ölümləri Allah yolunda, Allaha tərəf hicrət və cihad olmasa, çox əziz olan ömür malı əllərindən çıxacaq və onun müqabilində bir şey əldə edə bilməyəcəklər. Əlbəttə, əgər onların yerdə qalanları səbir etsələr, Allah-taala onlara mükafat verəcək. Lakin ölmüş həmin şəxs ondan alınmış canının müqabilində bir şey əldə etməyəcək.

Çoxları da orta yaşlarında, yaxud cavanlıqdan sonra Allah yolunda şəhid olublar. Buna misal olaraq mehrab şəhidlərini, yaxud cəbhə bölgəsində şəhid olanları göstərmək olar. Bunlar da canlarını satan şəxslərdir. Şəhidlik hər bir insan üçün belə bir imtayazdır. Həqiqətən, əgər Allah-taala kiminsə, ölümünü şəhidliklə etmək barəsindəki duasını qəbul etsə, ona böyük bir imtiyaz verib və əldən çıxan və hədərə gedən sərmayənin müqabilində Öz Cənnət və razılığını qoyub.

**Şəhidlik Allah yolunda cihadın ən üstün mükafatıdır**

Nə üçün şəhidlik bu qədər əzəmətli və əhəmiyyətlidir? Səbəb budur ki, öz canını Allah yolunda qurban vermiş şəxs, əslində, ehtiyac olanda, dinin və Allah yolunun onu rövnəqləndirən bir şəxsə ehtiyacı olan vaxt həmin lazımi səyi göstərib. Allah yolunda çalışan və rahatlıq, arvad, uşaq, asayiş və digər maddi imtiyazlardan

---

[1] Tövbə surəsi, ayə 111: "Həqiqətən, Allah möminlərin canlarını və mallarını onlardan cənnətin onların olması bahasına alıb".

vaz keçən şəxs şəhidlikdən ibarət ilahi mükafata layiq görülür. Bu onun cihadının əzəmətini göstərir. Buna görə də dəfələrlə demişik ki, şəhidlik Allah yolunda cihadın ən üstün mükafat və muzdudur.[1]

**4.**

## Həzrət Zeynəb (ə) və imam Səccadın (ə) Aşuranın fəlsəfəsinin bəyan və davam etdirilməsindəki səylərinin əhəmiyyət və rolu

**İnsanların şəhidlərin xatirəsinin yad edilməsi və qorunmasındakı rolu**

Ümumiyyətlə, ərbəinin əhəmiyyəti İmam Hüseynin hərəkatının xatirəsinin həmin gün Peyğəmbər (s) Əhli-beytinin ilahi tədbiri ilə həmişəlik olaraq əbədiləşdirilməsində və bu işin təməlinin qoyulmasındadır. Əgər şəhidlərin onlardan sonra yerdə qalan adamları və əsas şəxslər Hüseyn ibn Əlinin (ə) Aşurada şəhid olması kimi müxtəlif hadisələrdə şəhidliyin xatirə və nəticələrini qoruyub saxlamağa çalışmasalar, sonrakı nəsillər şəhidliyin nəticələrindən çox bəhrələnə bilməyəcəklər.

Düzdür, Allah-taala şəhidləri elə bu dünyada da diri saxlayır və şəhid qeyri-ixtiyari şəkildə tarixdə və insanların yaddaşında qalır. Lakin Allah-taala bütün işlər kimi bu işdə də təbii vasitələr qoyub və o bizim ixtiyar və iradəmiz çərçivəsində olan şeydir. Biz düzgün və yerində olan qərar qəbul etməklə şəhidlərin xatirəsini və şəhidliyin fəlsəfəsini yaşada bilərik.

Əgər Zeynəbi-kübra (ə) və imam Səccad (ə) həmin əsirlik günlərində – istər Kərbəlada Aşura günü əsir vaxtı olsun, istər sonrası gün Şam və Kufə yollarında və Şamın özündə, ondan sonra Kərbəlanın ziyarətində və ondan da sonra Mədinəyə yollananda, daha sonra da bu böyük şəxsiyyətlərin yaşadıqları illər ərində – səy göstərməsəydilər, (hadisənin mahiyyətini) açıqlamasaydılar və (Yezidin əməllərini) ifşa etməsəydilər, bir sözlə, Aşuranın həqiqətini, Hüseyn ibn Əlinin hədəfini və düşmənin zülmünü bəyan etməsəydilər, Aşura hadisəsi bu günə kimi coşqun, diri və alovlu qalmazdı.

**İmam Cəfər Sadiqin (ə) nəzərində Aşura hadisəsinin qorunmasının əhəmiyyətinin səbəbi**

Nə üçün imam Cəfər Sadiq (ə) hədisə əsasən, "kim Aşura hadisəsi barədə bir şeir yazsa və insanları həmin bir beyt şeir ilə ağlatsa, Allah cənnəti ona vacib edər" buyurub?[2] Çünki bütün təbliğat vasitələri Aşura, ümumiyyətlə, Əhli-beyt məsələsini küncə sıxışdırmaq və qaranlıqda saxlamaq istiqamətində çalışırdı və istəyirdi ki, camaatın baş verənləri və məsələnin nədən ibarət olduğunu başa düşməsinə mane olsun. Təbliğat bu cürdür. Zalım və zülmkar güc sahibləri bu gün olduğu kimi, onda da yalançı, qərəzli və şeytanvari təbliğatdan maksimum istifadə edirdilər. Məgər elə bir şəraitdə islam dünyasının bir guşəsində, bir səhrada baş vermiş belə bir əzəmətli Aşura hadisəsinin belə fəal və təravətli qalması mümkün idi? Şübhəsiz, həmin səylər olmasaydı, o itib gedərdi.

Bu xatirəni Hüseyn ibn Əlinin (ə) ondan sonra sağ qalan yaxınlarının səyləri yaşatdı. Bayraqdar olaraq Hüseyn ibn Əli və onun səhabələrinin səyləri maneələrlə qarşılaşdığı və çətin olduğu qədər Zeynəbin (ə), imam Səccadın (ə) və digər böyük şəxsiyyətlərin səyləri də çətin idi. Düzdür, onların olduğu meydan hərbi meydan deyildi, təbliğat və mədəniyyət sahəsi idi. Biz gərək bu nöqtələrə diqqət edək.

**Təbliğat və mədəniyyət meydanında ərbəin dərsi**

Ərbəin bizə bu dərsi verir ki, düşmənin təbliğat tufanının müqabilində həqiqət və şəhidliyin xatirəsini yaşatmaq lazımdır...

Yezidin zalım təbliğat vasitələri Hüseyn ibn Əlini (ə) məhkum edir və belə təsəvvür yaradırdı ki, Hüseyn ibn Əli (ə) ədaləti quruluşa və islam hökumətinə qarşı çıxmış və dünya (malı) üçün qiyam etmiş bir şəxsdir! Bəziləri bu yalan təbliğata inanırdı. Hüseyn ibn Əli (ə) həmin qeyri-adi vəziyyətdə faciəli şəkildə vəhşilər tərəfindən Kərbəla səhrasında şəhid ediləndən sonra onlar bunu bir qələbə və fəth kimi təqdim edirdilər! Lakin imamət məktəbinin düzgün təbliğatı bu uydurmaların hamısını dəyişdirdi. Haqq belədir.[3]

**5.**

---

[1] Seçilmiş şəhid övladları, Şəhid Komitəsinin Mədəniyyət işləri üzrə məsul şəxsləri və bir qrup pakistanlı şiə tələbə ilə görüşdəki çıxışdan. 15.VIII.1989

[2] Biharul-ənvar, c. 44, s. 282

[3] Xalqın müxtəlif təbəqələri, Qızıl Aypara cəmiyyətinin üzvləri və Şəhid Komitəsinin məsul şəxsləri ilə görüşdəki çıxışdan. 19.IX.1989

## İmam Hüseyn (ə) və səhabələrinin fədakarlıqlarının neçə qat dəyəri

Yaşadığımız dövrdə Allah yolunda şəhid olmaq və fədakarlıq etməyin dəyəri islam tarixinin bir çox zamanlarından çoxdur. Şəhidlik həmişə dəyərlidir və Allah yolunda şəhid olmaq həmişə əzəmətli və dəyərli işdir. Lakin bu yaxşı və böyük iş bəzi şəraitlərdə və bəzi zamanlarda daha böyük, daha mühüm və daha dəyərli olur. Məsələn, islamın ilk dövrlərində fədakarlıq göstərməyin, həqiqətən, neçə qat artıq dəyəri var idi. Çünki həmin dövrdə islam bir cavan ağac kimi idi və əgər fədakarlıqlar olmasaydı, bəlkə də islam düşmənləri həmin cavan ağacı kökündən çıxardardılar. İmam Hüseynin (ə) zamanında həmin böyük fədakarlıq və şəhidliyin dəyəri neçə qat artıq idi. Çünki, həqiqətən, həmin günlərdə həzrət Peyğəmbərin (s) zəhmətlərinin məhsulu məhv olmaqda idi. Hüseyn ibn Əlinin (ə) və o həzrətin səhabələrinin fədakarlığı bu işin qarşısını aldı.

**Səylərin dəyərinin müxtəlif zamanlarda fərqli olmasının səbəbi**

Allah yolunda çalışmaq və onun yolunda şəhid olmaq bəzi zamanlarda daha artıq – ikiqat və ya neçə qat dəyərə malik olur. Məsələn, bir stəkan sərin su adi halda da dəyərlidir. Lakin isti yay günündə, özü də bir müddət susuz qalmış – xüsusilə əgər həmin şəxs xəstə də olsa – və suyun az olduğu yerdə olan şəxs üçün bir qab sərin su neçə qat dəyərə malik olur. Buna görə də qiymətlər hər yerdə eyni deyil, şəraitlər fərqlidir.[1]

**6.**

## İmam Hüseyn (ə) kamil insan nümunəsi

**Həqiqi cihad ixlasın və hər şeydən üz döndərib Allaha tərəf hərəkət etməyin nəticəsidir**

İmam Hüseynin (ə) müqəddəs vücudu daha çox cihad və şəhidliklə məşhurlaşsa da, əslində, o həzrət kamil insan və xalis, Allah üçün saflaşmış və saflaşdırılmış bəndə nümunəsidir. Ümumiyyətlə, həqiqi cihad və Allah yolunda şəhidlik həmin ixlaslar, diqqətlər və "انقطاع الی الله" "Hər şeydən üz döndərib Allaha tərəf hərəkət etmək" müqəddiməsi olmadan hasil olmur.

Ülvi məzmunlu "Şəbaniyyə münacatı"nda belə buyurulur: "الهی هب لی کمال الانقطاع الیک" "İlahi, mənə hər şeydən kamil şəkildə üzülüb Sənə üz tutmağı nəsib et!"[2] Hər şeydən üz döndərib Allaha tərəf üz tutmaq, həqiqi məşuqa tərəf hərəkət etmək üçün bütün bağlılıqlardan azad olmaq insanda necə yaranır? Hər hansı bir insanın fədakarlığının zirvəsi olan şəhidlik "hər şeydən üz döndərib Allaha üz tutmağa" doğru hərəkət etmədən, bu halın yaranması istiqamətində çalışıb səy göstərmədən yaranmır. İnsan çalışandan və hümmət, əzmkarlıq və iradə ilə ilk addımı atandan sonra Allah-taala yolu açır və bir-birinin ardınca qəlbin nuranilәşməsi və insanın vücudunun daha da işıqlanması istiqamətində addımlar atılır.

**"Şəbaniyyə münacatı" barədə dərindən düşünməyin zəruriliyi**

Siz səy göstərirsiniz, yolu qət edirsiniz, Allah-taala da yolun davamında sizə kömək edir və işi asanlaşdırır və o həzrətin "Şəbaniyyə münacatı"nda istədiyi kimi sizə "hər şeydən üz döndərib Allaha tərəf üz tutmaq" kamalı bəxş edir. Bu məna, məzmun və sözlərə diqqət etmək, onların barəsində dərindən düşünmək və onlarla ünsiyyətdə olmaq öz böyük vəzifələrinə əməl etmək istəyən şəxslərin hər biri üçün vacib, lazım və zəruridir.[3]

**7.**

## İmam Hüseynin (ə) şəhid olması insanlığın nadanlıq və sərgərdanlıqdan xilas olması üçün göstərilən səydir

**İnsanların sərgərdanlıqdan xilas edilməsi – İmam Hüseynin (ə) ziyarətnaməsində yatan mütərəqqi məna**

İmam Hüseynin (ə) ərbəin günü oxunan ziyarətnamələrinin birində çox mənalı bir cümlə var. Həmin cümlə budur: "بذل مهجته فیک لیستنقذ عبادک من الجهالة" "Öz pak qanını Sənin yolunda bağışladı ki, bəndələrini nadanlıqdan xilas etsin".[4] Hüseyn ibn Əlinin (ə) fədakarlığının fəlsəfəsi bu cümlədə bəyan edilib. Zəvvar Allah-taalaya ərz edir ki, Sənin bu bəndən – Sənin bu Hüseynin – öz qanını insanları nadanlıqdan xilas etmək üçün

---

[1] Ruhanilər, şəhid ailələri və müharibə fədailərindən ibarət böyük bir dəstə ilə görüşdəki çıxışdan. 14.XI.1989

[2] Biharul-ənvar, c. 91, s. 98

[3] İmam Hüseynin (ə) mövludunun ildönümündə bir qrup "İnqilab keşikçisi" ilə görüşdəki çıxışdan. 01.III.1990

[4] ət-Təhzib, c. 6, s. 113

qurban verdi. "و حيرة الضلالة" "Və azğınlıq sərgərdanlığından ..."[1] İnsanları azğınlıqda olan sərgərdanlıq və çaşbaşlıqdan xilas etmək üçün. Görün, bu cümlə nə qədər dolğundur, necə mütərəqqi mənaya malikdir.[2]

**8.**

## İmam Hüseynin (ə) İslam tarixindəki misilsiz məqamı

**İmam Hüseynin (ə) fədakarlığı islamın bütün iftixarlarının kəramət tacıdır**

Düzdür, əgər bizim digər imamlarımız da həmin zaman və həmin şəraitdə olsaydılar, həzrət Hüseynin (ə) gördüyü işi görərdilər. Lakin reallıq budur ki, hər halda bu püşkdən o həzrətin adı çıxıb və Allah-taala bizim bildiyimiz qədər tarixdə bənzəri olmayan bu fədakarlıq üçün onu seçib. Hüseyn ibn Əli (ə) və Peyğəmbər (s) Əhli-beytinin digər böyük şəxsiyyətləri buyurublar ki: "لا يوم كيومک يا ابا عبد الله" "Ya Əba Abdillah, heç bir gün sənin günün kimi deyil".[3] Heç bir gün Aşura günü kimi deyildi və heç bir fədakarlıq o həzrətin fədakarlığına bənzəmirdi. Fədakarlıq o həzrət və onun səhabələrinin başında kəramət tacı oldu və onlar ümumilikdə islamın əvvəldən sona kimi bütün iftixarları üçün "dürrətüt-tac"[4] oldular. Heç kəsi onlarla müqayisə etmək olmaz.[5]

**9.**

## İmam Hüseyn hərəkatı bütün mücahidlərin və azadlıqsevərlərin hərəkətinin dayağıdır

Hüseyn ibn Əlinin (ə) başına gələnlər, həqiqətən, islami əsrlərin düzgün islami təfəkkürlər istiqamətindəki hərəkət mühərriki olub. Hər bir azadlıqsevər, Allah yolunda cihad edən hər bir kəs, təhlükəli meydana daxil olmaq istəyən hər bir şəxs o hadisədən ilhamlanıb və onu özünə ruhi və mənəvi dayaq nöqtəsi edib. Bu məna bizim inqilabımızda daha aydın nəzərə çarpırdı. Əgər biz bu hadisəyə malik olmasaydıq, bu döyüş meydanına necə daxil olacağımız məlum deyil. Aşura hadisəsindən sonra baş verənlərə və İmam Hüseynin (ə) səylərinə bağlanmağın bizim inqilabımızın vəziyyətinə necə təsir etməsinin özü geniş və dərindən düşünməli bir mövzudur. İnsan bu məsələ barədə dərindən düşünəndə həmin hadisənin təsirinin əzəmətindən dəhşətə gəlir və bundan məhrum olanların həmin boşluğu necə doldurmaları barədə fikirləşir.[6]

**10.**

## İmam Hüseynin (ə) yad edilmə məclislərinin genişləndirilməsinin İran və islam inqilabına təsiri

**Minbər amilinin təsiri və İran cəmiyyətinin İmam Hüseynin (ə) ad və xatirəsindən məhrum cəmiyyətlərlə fərqi**

Minbər amilinin bizim cəmiyyətə təsiri hələ də araşdırılmamış qalır. Siz bizim cəmiyyətə nəzər salın, görün İmam Hüseyn (ə) minbəri olmayan yer varmı? Böyük şəhərlər və çoxlu əhalisi olan mərkəzlərdən tutmuş ən ucqar yerlərə, qəsəbələrə, hətta kiçik və çox uzaq kəndlərə kimi, universitetlərdən, alimlərdən, müasir elm tələbələrinin assosiasiyalarından tutmuş dövrün elm və maarifindən uzaq insanlarına kimi ölkənin harasında İmam Hüseyn (ə) minbəri yoxdur və hər neçə vaxtdan bir kimsə onun üstünə çıxıb söhbət etmir? Deməli, bizim cəmiyyətimiz bütünlüklə düşüncəli və etiqadlı şiə toplumu olaraq İmam Hüseynin çətiri altındadır. Əlbəttə, bu, təkcə şiələrə də məxsus deyil. Dünyanın müxtəlif yerlərində qeyri-şiələr, hətta qeyri-müsəlmanlar da müəyyən formada bu süfrədən bəhrələnirlər.

Əsrlər boyu, (xüsusilə) bu son neçə əsrdə, ölkəmizdə dinə bu baxış və dinin bu cür xatırlanması Hüseyn ibn Əlinin (ə) adı ilə bağlı və onunla əlaqəli olub və o, insanlara müəyyən formada dini xatırladıb...[7]

---

[1] ət-Təhzib, c. 6, s. 113

[2] Seçilmiş şəhid övladları, Məşhəd, Tehran və Kürdüstan vilayətinin müharibə əlilləri, Tehran məktəbləri şagirdlərinin bir dəstəsi, Müəllimlər İnstitutunun müəllimləri, idmançılar və ölkənin Bədən Tərbiyəsi Nazirliyinin məsul şəxsləri ilə görüşdəki çıxışdan. 12.IX.1990

[3] Biharul-ənvar, c. 45, s. 218

[4] Şahların tacının bəzədildiyi dürr və mirvari, həmin mirvarinin ən böyüyü. – Tərc.

[5] İmam Hüseynin (ə) mövludunun ildönümü və "İnqilab Keşikçiləri" günündə İslam İnqilabı Keşikçiləri Korpusunun komandirləri və personalı, İslam İnqilabı Komitəsinin işçiləri, ali dini rəhbərin keşikçilər korpusundakı nümayəndəliyinin məsul şəxsləri və möhtərəm şəhid ailələri ilə görüşdəki çıxışdan. 18.II.1991

[6] Məhərrəm ayı astanasında ruhani və təbliğatçılarla görüşdəki çıxışdan. 11.VII.1991

[7] Məhərrəm ayı astanasında ruhani və təbliğatçılarla görüşdəki çıxışdan. 11.VII.1991

## 11.

## Şəhidliyin əbədi və uca dəyəri

**Şəhidlik – ən üstün dəyər**

Əgər on illər də keçsə, bizim əziz şəhidlərimizin şəhidlik və fədakarlıq dəyəri ən üstün dəyər sayılmalıdır. Zaman şəhidin qanından başqa hər şeyi köhnəldir. Baxın, İmam Hüseynin (ə) şəhid olduğu vaxtdan əsrlər keçib, lakin şəhidlərin xatirəsi və qanının təsiri günü-gündən daha da çoxalır.[1]

## 12.

## Həzrət Zeynəbin (ə) öz zamanının imamı ilə yoldaşlıq etməkdəki əzəmətli bəsirət və hərəkəti

Zeynəbi-kübra böyük qadındır. Bu böyük qadının müsəlman xalqların gözündəki əzəmətinin səbəbi nədir? Bunun səbəbinin onun Əli ibn Əbu Talibin (ə) qızı, yaxud Hüseyn ibn Əlinin və Həsən ibn Əlinin (ə) bacısı olması olduğunu demək olmaz. Kiminləsə münasibətin olması belə bir əzəmət yarada bilməz. Bizim imamlarımızın hamısının qızı, anası və bacısı olub, lakin hanı Zeynəbi-kübra kimisi?!

**Həzrət Zeynəbin(ə) dəyər və əzəmətinin səbəbi onun öz boynuna düşən ilahi vəzifəyə əməl etməsidir**

Zeynəbi-kübranın dəyər və əzəməti onun öz boynuna düşən ilahi vəzifə çərçivəsindəki insani və islami mövqe və hərəkətidir. Onun işi, qərarı, hərəkət forması ona belə əzəmət verib. Belə bir iş görən hər bir şəxs, hətta Əmirəl-mömininin qızı olmasa belə, əzəmət qazanar. Bu əzəmətin əsas hissəsi, birincisi, onun şəraiti – həm İmam Hüseyn (ə) Kərbəlaya getməmişdən qabaqkı şəraiti, həm Aşura gününün böhranlı vəziyyətini, həm də İmam Hüseyn (ə) şəhid olandan sonrakı hadisələrin ölümcül şəraitini düzgün dərk etməsindən qaynaqlanır. İkincisi, o, hər şəraitə uyğun olaraq bir seçim edib. Bu seçimlər Zeynəbi formalaşdırıb.

(İmam Hüseyn) Kərbəlaya doğru hərəkət etməmişdən qabaq fəqihlik, şücaət, böyüklük, böyüklərlə qohumluq və sairə iddialarda olan İbn Abbas, ibn Cəfər və İslamın ilk dövrlərinin digər məşhur simaları çaşbaş qalmışdılar və nə etməli olduqlarını bilmirdilər. Lakin Zeynəbi-kübra çaşbaş qalmadı və bildi ki, bu yolu getməli və öz imamını tək qoymamalıdır. Getdi də. O, getdiyi yolun çətinliklərindən xəbərsiz deyildi. O bunu başqalarından yaxşı hiss edirdi. O bir qadın idi, öz vəzifəsi üçün həyat yoldaşı və ailəsindən ayrılan bir qadın! Elə buna görə də özünün azyaşlı uşaqlarını və körpələrini özü ilə apardı. O, vəziyyətin necə olduğunu hiss edirdi.

Çox güclü insanların nə etməli olduqlarını başa düşə bilmədikləri həmin böhranlı saatlarda o, (nə etməli olduğunu) başa düşdü və öz imamını himayə etdi, onu şəhid olmağa hazırladı. Hüseyn ibn Əli şəhid olandan sonra dünyanı zülmət bürüyəndə, qəlb, can və dünyanın üfüqü qaranlığa boyananda bu böyük qadın bir nura çevrildi və parladı. Zeynəb elə bir yerə çatdı ki, ancaq bəşər tarixinin ən ülvi insanları, yəni peyğəmbərlər ora çata bilərlər.

**Həzrət Fatimeyi-Zəhra (ə) və həzrət Zeynəb (ə) müsəlman qadınlar üçün örnək və nümunədirlər**

Onun anası Fatimeyi-Zəhra (ə) məqamı Zeynəbi-kübradan (ə) üstün olan başqa bir qadın idi. Bunlar islamın örnək sayılan və nümunəvi qadınlarıdır. Müasir qadına örnək lazımdır. Əgər qadının örnəyi Zeynəb və Fatimeyi-Zəhra olsa, hətta Allahın insanların boynuna qoyduğu böyük vəzifələrin yerinə yetirilməsində fədakarlıq göstərmək və bütün çətinliklərə müqavimət göstərmək bahasına olsa belə, onun işi düzgün idrak, şəraiti dərk etməkdə sayıqlıq və ən yaxşı işləri seçməkdən ibarət olar. Örnəyi Fatimeyi-ZəHra, yaxud Zeynəbi-kübra (ə) olan müsəlman qadın budur.

**Qadınların tənəzzül amili dəbdəbəyə meyil və ötəri nəfsi istəklərdir**

Əgər qadının fikri dəbdəbə, əyləncə və ötəri nəfsi istəklərdə olsa və o, əsassız hisslərə tabe olsa, həmin yolu gedə bilməz. İnsan gərək hörümçək toru kimi ayağına dolaşmış bu bağlılıqları özündən uzaqlaşdırsın ki, yol gedə bilsin. İranlı qadınlar islam inqilabı və müharibə illərində bu işi gördülər və onların bütün dövrlərdə həmin işi görmələri gözlənilir.

---

[1] Lorestan vilayətində şəhid ailələri, müharibədə itkin düşənlərin ailələri və bir qrup müharibə əlili və əsirlikdən azad olmuş şəxslərlə görüşdəki çıxışdan. 21.VIII.1991

**Həzrət Səkinə (ə) islam tarixində ərəb idrakının məşəllərindən biridir**

Bu yolda İran qadınının örnəyi deyildiyi kimidir. Zeynəb örnəkdir. Zeynəb elm və idrakdan uzaq qadın deyildi. Onun əlində ən üstün elm, ən ülvi və saf idraklar var idi. Sizin adını Kərbəlada eşitdiyiniz, imamın qızı, Zeynəbin qardaşı balası və şagirdi Səkineyi-kübra – tədqiqat və mütaliə əhli olanlar baxsınlar – indiyə kimi bütün İslam tarixində ərəb idrakının məşəllərindən olub. Hətta Zeynəbi, Zeynəbin atasını və Səkinənin atasını qəbul etməyənlər etiraf edirlər ki, Səkinə (ə) idrak və elm məşəlidir.[1]

**13.**

## İmam Hüseynin (ə) izzətlə birgə olan məzlumluğu və misilsiz mücahidliyi

**Tarixin heç bir hadisəsi Aşura hadisəsi ilə müqayisə edilə bilməz**

Bu şəraitə uyğun mühüm hadisə məhərrəmə aid məsələlər və məhərrəmin tarix boyu islam cəmiyyətinin bərəkətindən bəhrələndiyi təsirləridir. İran xalqının böyük inqilabında Aşura, Hüseyn ibn Əlinin (ə) xatirəsi və məhərrəm hadisələri mühüm rol oynayıb. Aşura mövzusu sona çatmayan və əbədi mövzudur. Nə üçün bu hadisə tarixə bu qədər böyük təsir göstərib? Mənim nəzərimcə, Aşura mövzusunun böyük əhəmiyyətə malik olmasının səbəbi bu hadisədə göstərilən fədakarlıq və canfəşanlığın istisnai bir fədakarlıq olmasıdır. İslam tarixinin əvvəlindən indiyə kimi həmişə müharibə, şəhidlik və fədakarlıq mövcud olub və biz də öz dövrümüzdə cihad edən, canlarını qurban verən və çətin şəraitlərə qatlaşan çoxsaylı insanlar görmüşük. Bu qədər şəhid, bu qədər müharibə əlili, bu qədər əsir, bu qədər əsirlikdən azad olmuş mücahidlərimiz, onların ailələri, inqilabdan sonra, yaxud inqilab zamanı fədakarlıq edən digər şəxslər – bunların hamısı bizim gözümüzün qabağındadır. Keçmişdə də bir sıra hadisələr baş verib və siz onları tarixdə oxumusunuz. Lakin həmin hadisələrin heç biri Aşura hadisəsi ilə müqayisə edilə bilməz, hətta Bədr və Ühüd müharibələri, İslamın ilk dövrlərinin şəhidlərinin heç biri. Adam dərindən fikirləşəndə bizim imamlarımızdan (ə) bir neçəsinin İmam Hüseynə (ə) xitab edərək "لا يوم كيومک يا ابا عبد الله". "Ya Əba Abdillah, heç bir gün sənin günün kimi deyil" buyurmasının səbəbini başa düşür. Yəni heç bir hadisə sənin hadisən və günün kimi deyil. Çünki Aşura istisnai bir hadisə idi. Aşura hadisəsinin məğzi bundan ibarətdir ki, dünyanın hər yerini zülmət, fəsad və zülmün bürüdüyü bir zamanda Hüseyn ibn Əli (ə) islamın nicatı üçün mübarizə edib və bu böyük dünyada heç kəs, hətta o həzrətin dostları ona kömək etməyiblər. Yəni cəmiyyəti bu meydana və Yezid ilə mübarizəyə çəkə bilən kəslərin hər biri bir bəhanə ilə meydandan çıxıb və qaçıb. İbn Abbas bir cür, Abdullah ibn Cəfər bir cür, Abdullah ibn Zübeyr bir cür, səhabə və tabeinlərin böyükləri bir başqa cür... Məşhur və ad-sanlı şəxsiyyətlər, təsir qüvvəsinə malik olan və mübarizə meydanını qızışdıra bilən kəslərin hərəsi bir cür meydandan çıxdı. Halbuki danışanda hamı islamı müdafiə etməkdən danışırdı. Amma əməl vaxtı çatanda və Yezid hökumətinin rəhmsiz və qəddar davranmaq niyyətində olduğunu görəndə hərəsi bir yerdən qaçdı və İmam Hüseyni (ə) meydanda tək qoydu. Hətta öz işlərinə don geyindirmək üçün Hüseyn ibn Əlinin (ə) yanına gəldilər və o həzrətə təkid etdilər ki, siz də mübarizə etməyin! Yezid ilə döyüşə getməyin!

**Böyük şəxsiyyətlərin çoxunun Aşura hadisəsində kənara çəkilməsinin əsas səbəbi qorxu olub**

Bu, tarixdə olan maraqlı bir ibrət dərsidir. İnsanların zatı və batini böyüklər qorxanda, düşmən özünün çox kobud üzünü göstərəndə, hamı özünün meydana daxil olacağı təqdirdə qərib bir meydanın əhatəsində qalacağını hiss etdiyi bir məqamda tanınır. Həmin günün İslam dünyasında – onda islam dünyası çox böyük idi və bu gün müstəqil və ayrı olan müsəlman ölkələrin çoxu həmin vaxt bir ölkə idi – əhalisinin sayının çox olmasına baxmayaraq, düşmən qarşısında dayanmaq qətiyyət, cürət və əzminə malik (yeganə şəxs) Hüseyn ibn Əli (ə) idi. Aydın məsələdir ki, İmam Hüseyn (ə) kimi bir şəxs hərəkət və mübarizə edəndə bir dəstə adam onun başına yığışmalı idi və elə yığışdı da. Düzdür, onlar da işin nə qədər çətin və nə qədər ağır olduğunu görəndən sonra bir-bir o həzrətin ətrafından dağılışdılar. İmam Hüseynlə (ə) birlikdə Məkkədən yola düşmüş, yaxud yolda o həzrətə qoşulmuş mindən artıq şəxsdən Aşura axşamı az adam qalmışdı və Aşura günü özünü o həzrətə çatdıranlarla birlikdə onların sayı ümumilikdə yetmiş iki nəfər oldu.

**Kərbəla şəhidlərinin əzəmətinin sirri – düşməndən qorxmamaq və boyuna düşən vəzifəyə əməl etmək idi**

Bu, məzlumluqdur. Bu məzlumluğun mənası kiçiklik və zillət deyil. İmam Hüseyn (ə) islam tarixinin ən böyük mübariz və mücahididir. Çünki o, belə bir meydanda dayandı, qorxmadı və mübarizə apardı. Lakin bu

[1] Həzrət Zeynəbi-kübranın (ə) mövludu və "tibb bacısı günü" münasibəti ilə bir qrup tibb bacısı ilə görüşdəki çıxışdan. 13.XI.1991

böyük insan əzəməti qədər də məzlumdur. O, nə qədər böyükdürsə, bir o qədər də məzlumdur və qəribcəsinə şəhid olub. Döyüş meydanına gedəndə camaatın adını şüarlarla səsləndirdiyi və mədh etdiyi, ətrafındakı meydan çılğın insanlarla dolu olan, yaralananda, yaxud şəhid olanda camaatın onunla necə məhəbbətlə davranacağını bilən fədakar əsgər və enerjili insanla belə bir qürbətdə, belə bir zülmətdə, tənha, köməksiz, insanlardan köməyə heç bir ümidi olmayan, düşmənin geniş təbliğatı müqabilində dayanan, mübarizə aparan, ilahi qəza-qədərə təslim olan və Allah yolunda ölməyə hazır olan insan arasında fərq var. Kərbəla şəhidlərinin əzəməti buradadır. Yəni onlar Allah və din yolunda cihad etməkdən ibarət məsuliyyət hisslərində düşmənin böyüklüyündən qorxmadılar, öz tənhalıqlarından vahiməyə düşmədilər, öz saylarının az olmasını düşmən qarşısından qaçmağa əsas saymadılar. Hər hansı bir şəxsə, rəhbərə və xalqa əzəmət verən budur – düşmənin püç əzəmətindən qorxmamaq![1]

**14.**

## İmam Hüseynin (ə) həm qısamüddətli, həm də uzunmüddətli tarixi qələbəsi

İmam Hüseyn (ə) bilirdi ki, o şəhid olandan sonra düşmən bütün cəmiyyəti və həmin dövrün dünyasını ona qarşı təbliğatla dolduracaq. İmam Hüseyn (ə) öz zamanə və düşmənindən xəbərsiz adam deyildi. O, düşmənin nə xəbislik edəcəyini bilirdi. Lakin bununla yanaşı, bilirdi ki, onun məzlum və qəribcəsinə olan bu hərəkəti sonda düşməni həm qısa, həm də uzunmüddətli məğlubiyyətə uğradacaq. Elə o cür də oldu. Kiminsə İmam Hüseynin (ə) məğlub olduğunu güman etməsi yanlışdır. Ölmək məğlub olmaq deyil. Müharibə cəbhəsində ölən şəxs məğlub olmur. Məğlub öz hədəfinə çatmayan şəxsdir. İmam Hüseynin (ə) düşmənlərinin hədəfi islamın və peyğəmbərliyin nişanələrini yer üzündən silmək idi. Onlar məğlub oldular. Çünki elə olmadı. İmam Hüseynin (ə) hədəfi hər yeri öz ürəkləri istəyən rəngə boyamış və ya boyamaq istəyən İslam düşmənlərinin vahid planında parçalanma yaranması, hər yerdə İslamın, məzlumluğun və haqqın nidasının ucalması və nəhayət, İslam düşmənlərinin məğlub olması idi. Bunlar baş verdi. İmam Hüseyn (ə) həm qısa müddətdə, həm də uzun müddətdə qalib oldu. Qısamüddətli qələbə bu müharibənin, məzlumcasına şəhid olmağın və o həzrətin ailəsinin əsir götürülməsinin Bəni-Üməyyə hökumətini titrətməsi idi. Həmin hadisədən sonra İslam dünyasında – Məkkə və Mədinədə – bir-birinin ardınca bir sıra hadisələr baş verdi və Əbu-Süfyan sülaləsinin məhvi ilə nəticələndi. Üç-dörd il fasilə ilə Əbü-Süfyan sülaləsi tamamilə dağıldı və məhv oldu. Kim güman edə bilərdi ki, İmam Hüseyni (ə) məzlumcasına Kərbəlada şəhid edən düşmən imamın fəryadının əks-sədasına elə məğlub olacaq, özü üç, ya dörd ilə?! İmam Hüseyn (ə) uzun müddət üçün də qalib gəldi. Siz İslam tarixinə baxın, görün dünyada din nə qədər inkişaf etdi, İslam nə qədər kök atdı? İslami xalqlar necə yarandılar və inkişaf etdilər? İslam elmləri inkişaf etdi, İslam fiqhi inkişaf etdi və nəhayət, əsrlər keçəndən sonra bu gün İslam bayrağı dünyanın ən hündür zirvələrində dalğalanır. Yezid özü və onun ailəsi İslamın günü-gündən belə inkişaf etməsinə razı idi?! Onlar İslamın kökünü kəsmək, Quran və İslam Peyğəmbərinin adını (yer üzündən) silmək istəyirdilər. Lakin görürük ki, bunun tam əksi oldu.

**İmam Hüseyn hərəkatı təlimlərinin dünyanın indiki rəhbərlərinin çoxuna təsiri**

Deməli, dünya qarşısında o cür məzlumcasına dayanan, qanı tökülən və ailəsi əsir götürülən mübariz və Allah yolu mücahidi öz düşməninə bütün cəhətlərdən qalib gəldi. Bu, millətlər üçün bir dərsdir. Buna görə də müasir dünyanın rəhbərlərindən – hətta müsəlman olmayanlardan – belə demələri nəql edilir ki: "Biz mübarizə yolunu Hüseyn ibn Əlidən (ə) öyrənmişik". Bizim öz inqilabımız da həmin nümunələrdən biridir. Bizim xalq da Hüseyn ibn Əlidən (ə) öyrənib. Başa düşdü ki, öldürülmək məğlub olmaq deyil; başa düşdü ki, zahirdə güclü düşmənin qarşısından geri çəkilmək bədbəxtlik və üzüqaralığa səbəb olur. Düşmən hər nə qədər böyük olsa, əgər mömin və möminə qrup və dəstə Allaha təvəkkül edib onun qarşısında vuruşsa, sonda məğlubiyyət düşmənə, qələbə isə mömin dəstəyə nəsib olacaq. Bunu bizim millət də başa düşdü.[2]

**15.**

## Kərbəla bizim sınaqdan çıxarılmış və əbədi örnəyimizdir

Siz əziz qardaş və bacılar və bütün böyük İran xalqı bilməlidir ki, Kərbəla bizim əbədi örnəyimizdir. Kərbəla insanın düşmənin böyüklüyü qarşısında tərəddüd etməsi üçün bir misaldır. Bu, sınaqdan keçirilmiş bir örnəkdir. Düzdür, İslamın ilk dövrlərində Hüseyn ibn Əli (ə) yetmiş iki nəfər ilə şəhid olub, lakin bunun mənası

---

[1] Məhərrəm ayının çatması münasibəti ilə xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan. 01.VII.1992

[2] Məhərrəm ayının çatması münasibəti ilə müxtəlif xalq kütlələri ilə görüşdəki çıxışdan. 01.VII.1992

Hüseynin (ə) yolu ilə gedənlərin və mübarizə yolunda olanların hamısının şəhid olmasının labüdlüyü deyil. Xeyr! Allaha şükür olsun ki, İran xalqı Hüseyn (ə) yolunu sınaqdan keçirib və İslam və dünya xalqları arasında baş ucalığı və əzəmətlə yaşayır. Sizin inqilabın qələbəsindən qabaq yerinə yetirib getdiyiniz yol, Hüseynin(ə) yolu, yəni düşməndən qorxmamaq və güclü düşmən ilə mübarizəyə qol qoymaq idi. Bizim xalqımız başa düşürdü ki, onun qarşısında şərq və qərb, bütün imperialist qüvvələr dayanıb. Lakin, o, bundan qorxmadı. Əlbəttə, bizim dəyərli şəhidlərimiz var. Biz əzizlərimizi əldən vermişik. Bizim əzizlərimiz sağlamlıqlarını itiriblər və əlil olublar. Bəzi əzizlərimiz neçə illərini həbsxanalarda keçiriblər. Onların bəzisi indi də İraqın "Bəəs" rejiminin həbsxanalarındadır. Lakin xalq bu fədakarlıqlarla izzət və əzəmətin zirvəsinə çatıb. İslam izzət əldə edib, onun bayrağı dalğalanıb. Bunun səbəbi həmin müqavimətdir.[1]

**16.**

## Şücaət, Aşura və Allaha təvəkkül ruhiyyəsinin gücləndirilməsində əzadarlıq məclislərinin vəzifəsi

**İmam Hüseyn (ə) hərəkatının dərsləri: düşməndən qorxmamaq, düşmənin səbatsızlığına inanmaq, özünəinam, Allaha təvəkkül, şücaət ruhiyyəsinin qorunması**

Əziz xalqımız gərək məhərrəm və səfər ayı günlərində özündə şücaət, Aşura, düşməndən qorxmamaq, Allaha təvəkkül, Allah yolunda fədakarcasına çalışmaq ruhiyyəsini gücləndirsin və İmam Hüseyndən (ə) yardım alsın. Əzadarlıq məclisləri bizim qəlblərimizi Hüseyn ibn Əli (ə) və onun hədəflərinə yaxınlaşdırmaq və onlarla tanış etmək üçündür. Bəzi anlamazlar deməsinlər ki, "İmam Hüseyn (ə) məğlub oldu". Bəzi anlamazlar deməsinlər ki, "İmam Hüseynin (ə) yolunun mənası bütün İran xalqının ölməsidir". Hansı nadan insan belə söz deyə bilər? Millət Hüseyn ibn Əlidən (ə) dərs almalıdır. Yəni düşməndən qorxmamalıdır, özünə arxalanmalı, öz Allahına təvəkkül etməlidir. Bilməlidir ki, əgər düşmənin şövkəti varsa, bu şövkət müvəqqətidir; bilməlidir ki, əgər düşmən cəbhəsi zahirdə geniş və güclü olsa da, onun həqiqi gücü azdır. Məgər görmürsünüz ki, düşmənlər on dörd ilə yaxın idi İslam Respublikasını məhv etmək istəyirdilər, amma bacarmadılar?! Məgər bu onların zəifliyi və bizim gücümüz deyil?! Biz güclüyük. İslamın bərəkətindən bizim gücümüz var. Biz böyük Allaha təvəkkül edir və Ona arxalanırıq. Yəni bizdə ilahi güc var. Dünya belə bir gücün qarşısında dayana bilməz.[2]

**17.**

## Aşuranın dərs və ibrətləri

Bu hadisə yaşayır. Bu böyük hadisə, yəni Aşura hadisəsi iki baxımdan diqqətə və barəsində dərindən düşünməyə layiqdir. Adətən bu iki cəhətdən birinə diqqət edilir. Mən burada diqqəti daha çox ikinci cəhətə yönəltmək istəyirəm.

**Aşura dərsləri: fədakarlıq, düşmən cəbhəsinin zəifliyi və bəsirətin gərəkliyi**

Birinci cəhət Aşuranın dərsləridir. Aşuranın bir sıra ismarıc və dərsləri var. Aşura dini qorumaq üçün fədakarlıq etməyin gərəkliyi dərsi verir. Aşura öyrədir ki, Quran yolunda hər şeydən keçmək lazımdır. O, dərs verir ki, haqq ilə batilin döyüşündə kiçik və böyük, qadın və kişi, qoca və cavan, şərəfli və alçaq, rəhbər və rəiyyət hamısı birlikdə bir sırada yer alır. Aşura bizə öyrədir ki, düşmən cəbhəsi bütün zahiri qüdrətinə baxmayaraq, çox zəifdir. Məsələn, Bəni-Üməyyə cəbhəsi Aşura əsirləri karvanından Kufədə zərbə aldı, Şamda zərbə aldı, Mədinədə zərbə aldı və nəhayət, bu hadisə Əbü Süfyan cəbhəsinin məhvi ilə sona çatdı. O bizə öyrədir ki, dini müdafiə etmək məsələsində insana hər şeydən çox bəsirət lazımdır. Bəsirətli olmayanlar aldanırlar; bəsirəti olmayanlar özləri də bilmədən düşmən cəbhəsində yer alırlar. Məsələn, İbn Ziyadın cəbhəsində olanların bəzisi pozğun və ağzın deyildilər, amma bəsirətsizlərdən idilər.

Bunlar Aşuranın dərsləridir. Əlbəttə, həmin bu dərslər hər hansı bir milləti zillətdən izzətə qovuşdurmaq üçün kifayətdir. Bu dərslər küfr və imperialist cəbhəsini məğlub edə bilər. Bunlar həyat yaradan dərslərdir. Bu, birinci cəhətdir.

**Aşuranın ibrətləri: İslam cəmiyyətinin əlli il ərzindəki tənəzzülü**

Qeyd etdiyimiz cəhətlərin ikincisi Aşuranın ibrətləridir. Aşura dərsdən əlavə ibrət səhnəsidir. İnsan gərək bu səhnəyə baxsın ki, ibrət götürsün. Necə ibrət götürsün? Yəni özünü həmin vəziyyətlə müqayisə etsin və özünün

---

[1] Məhərrəm ayının çatması münasibəti ilə müxtəlif xalq kütlələri ilə görüşdəki çıxışdan. 01.VII.1992
[2] Məhərrəm ayının çatması münasibəti ilə müxtəlif xalq kütlələri ilə görüşdəki çıxışdan. 01.VII.1992

necə və hansı vəziyyətdə olduğunu, onu nəyin təhdid etdiyini, ona nə lazım olduğunu başa düşsün. Buna "ibrət" deyirlər. Siz yoldan keçəndə aşmış və ya qəzaya düşüb xəsarət almış, əzilmiş və sərnişinləri ölmüş avtomobil görəndə dayanıb baxırsınız ki, ibrət götürəsiniz, hansı sürətin, hansı hərəkətin və necə sürücülük etməyin belə bir sonluqla bitməsini biləsiniz. Bu da bir növ dərsdir, amma ibrət almaq vasitəsi ilə olan dərs. Bunu bir az araşdıraq.

Aşura hadisəsində bizi özünə cəlb edən ilk ibrət budur ki, görəsən, həzrət Peyğəmbərin (s) vəfatından əlli il sonra nə baş verdi ki, İslam cəmiyyəti bu həddə çatdı və İmam Hüseyn (ə) kimi bir şəxs İslam cəmiyyətini xilas etmək üçün belə bir fədakarlıq göstərməyə məcbur oldu. Hüseyn ibn Əlinin (ə) bu fədakarlığı bir islamın başlanğıcından min il sonra etməsi təsəvvür edilə bilər, bir də İslama düşmən ölkə və millətlərin içində. Bu bir sözdür. Lakin Hüseyn ibn Əli (ə) İslamın mərkəzində, peyğəmbərlik vəhyinin beşiyi olan Məkkə və Mədinədə elə bir vəziyyətlə qarşılaşdı ki, nə qədər fikirləşdisə, fədakarlıqdan – özü də belə böyük qanlı fədakarlıqdan – başqa bir çıxış yolu görmədi. Məgər vəziyyət necə idi ki, Hüseyn ibn Əli (ə) İslamın ancaq onun fədakarlığı ilə diriləcəyini və əks təqdirdə yox olacağını düşündü? İbrət buradadır. Bir vaxtlar İslam cəmiyyətinin rəhbəri və Peyğəmbəri həmin Məkkə və Mədinədən bayraqları bağlayaraq müsəlmanların əlinə verər və onlar Ərəbistan yarımadasının ən ucqar nöqtələrinə və Şam sərhədlərinə kimi gedər, Roma imperatorluğunu təhdid edərdilər. Onlar müsəlmanların qabağından qaçardılar və İslam ordusu qalib halda geri dönərdi. Bu barədə Təbuk hadisəsinə işarə etmək olar. Bir vaxtlar İslam cəmiyyətinin məscid və küçələrində Quran sədaları ucalardı və Peyğəmbər (s) o avaz və tonla insanlara Allahın ayələrini oxuyar, onlara moizə edər və onları hidayət yolunda surətlə irəli aparardı. Lakin nə oldu ki, həmin cəmiyyət, həmin ölkə və həmin şəhərlərin işi belə bir vəziyyətə çatdı və onlar İslamdan o qədər uzaqlaşdılar ki, Yezid kimi biri onlara hakim oldu? Elə bir vəziyyət yarandı ki, Hüseyn ibn Əli (ə) kimi bir şəxs belə bir fədakarlıqdan başqa çıxış yolunun qalmadığını gördü. Tarixdə bu fədakarlığın bənzəri yoxdur. Nə oldu ki, onlar belə bir mərhələyə çatdılar? Bu həmin ibrətdir. Biz gərək bu gün bu məqama diqqət edək. Biz bu gün İslamı bir cəmiyyətik. Gəlin görək həmin İslami cəmiyyət hansı bəlaya düçar oldu ki, işi gedib Yezidə çıxdı? Nə baş verdi ki, Əmirəl-mömininin (ə) şəhidliyindən iyirmi il sonra onun hakim olduğu şəhərdə onun oğlanlarının başını nizəyə keçirtdilər və həmin şəhərdə gəzdirdilər? Kufə dinə yad bir yer deyildi. Kufə həmin o yer idi ki, Əmirəl-möminin (ə) onun bazarlarında gəzər, çiyninə qamçı atar və insanları yaxşı işlərə dəvət edərək pis işlərdən çəkindirərdi. Həmin məscid və cəmiyyətdən gecə-gündüz Quran sədaları ucalardı. Bu, həmin o şəhər idi ki, elə də çox vaxt keçmədən onun bazarında Əmirəl-mömininin (ə) qızlarını və ailəsini əsir kimi gəzdirdilər. İyirmi il ərzində nə baş verdi ki, iş bu yerə çatdı? Əgər başında Peyğəmbər (s) və Əmirəl-möminin (ə) kimi şəxslər olmuş cəmiyyəti bir neçə on illik ərzində bu vəziyyətə çatdıran bir xəstəlik varsa, o, çox təhlükəli bir xəstəlikdir və ondan biz də qorxmalıyıq. Bizim əziz rəhbərimiz (imam Xomeyni) əgər özünü həzrət Peyğəmbərin (s) şagirdlərindən hesab etsəydi, sevindiyindən "göylərə uçardı". Onun böyük iftixarı həzrət Peyğəmbərin (s) hökmlərini dərk etmək və onlara əməl etmək, onları təbliğ etmək idi. Bizim rəhbərimiz hara, həzrət Peyğəmbər hara? Həmin cəmiyyəti Peyğəmbər (s) qurmuşdu və o, neçə ildən sonra qeyd edilən vəziyyətə düşdü. Cəmiyyətimiz həmin xəstəliyə düçar olmamaq üçün çox diqqətli olmalıdır. İbrət bu cəhətdədir. Biz gərək o xəstəliyi tanıyaq, onu böyük təhlükə hesab edək və ondan çəkinək.

Mənim nəzərimcə, bu gün bizim üçün Aşuranın bu ismarıcı onun digər dərs və ismarıclarından daha əhəmiyyətlidir. Biz gərək bunu başa düşməyə çalışaq və görək həmin cəmiyyətin başına nə bəla gəldi ki, İslam dünyasının sevimli övladı, müsəlmanların xəlifəsinin, Əli ibn Əbu Talibin (ə) oğlu Hüseyn ibn Əlinin (ə) başı atasının xilafət kürsüsündə oturduğu şəhərdə gəzdirildi və heç kəsin "tükü tərpənmədi"; həmin şəhərdən bəziləri Kərbəlaya gəldilər və o həzrəti və onun səhabələrini susuz halda şəhid etdilər və Əmirəl-mömininin (ə) ailəsini əsir götürdülər.

**İslami cəmiyyətin tənəzzül amili: zikr və duadan uzaqlaşmaq, dünyapərəstlik və nəfsi istəklərin arxasınca getmək**

Bu barədə söz çoxdur. Mən bu sualın cavabında bir ayə qeyd edim. Quran bizə cavab verib. Quran həmin dərdi müsəlmanlara tanıtdırıb. Həmin ayə budur, buyurur: " **فَخَلَفَ مِنْ بَعْدِهِمْ خَلْفٌ أَضَاعُوا الصَّلَاةَ وَ اتَّبَعُوا الشَّهَوَاتِ فَسَوْفَ يَلْقَوْنَ غَيّاً**"[1] Bu ümumi azğınlıq və sarpmanın əsas səbəbi iki amildir: Onlardan biri təzahürü namaz olan Allahın zikrindən uzaqlaşmaqdır. Allah və mənəviyyatı yaddan çıxarmaq, mənəviyyatla həyatı bir-birində ayırmaq, Allaha diqqət, zirk, dua, təvəssül, Allahdan istəmək, Allaha təvəkkül və ilahi meyarları həyatdan kənara qoymaq! İkincisi, "**وَ اتَّبَعُوا الشَّهَوَاتِ**" şəhvət və nəfsi istəklərin arxasınca getmək, bir sözlə desək,

---

[1] Məryəm surəsi, ayə 59: "Sonra onların arxasınca namazı zay edən və (nəfsi) istəklərə tabe olan canişinlər gəldilər. Buna görə də onlar tezliklə öz azğınlıqlarını(n cəzasını) görəcəklər".

dünyapərəstlikdir. Sərvət toplamaq, mal yığmaq, dünyəvi istəklərdən həzz almaq fikrinə düşmək, bunları əsas saymaq və amalları yaddan çıxarmaq. Bu, əsas və böyük dərddir. Bu dərdə biz də düçar ola bilərik. Əgər islami cəmiyyətdə həmin amal arxasınca olmaq halı itsə, yaxud zəifləsə, hərə öz şəxsi mənafeyini və başqalarından geri qalmamağı düşünsə, "başqası yığıb gedib, biz də yığaq" desə, xülasə, özümüzü və öz mənafeyimizi cəmiyyətin mənafeyindən üstün tutsaq, aydın məsələdir ki, bu dərd bizim də başımıza gələcək...

Onlar həmin vəziyyətə düşdülər. Bir vaxtlar cəmiyyət İslamın inkişaf etməsini, Allahın razılığını, din və İslam maarifini, Quranı və Quran maarifi ilə tanış olmağı düşünürdü. Hökumət və ölkənin idarəçilik sistemi zahidlik və təqva sistemi idi və onlar dünya malına və şəxsi istəklərə etinasız idilər. Bunun da nəticəsində insanların Allaha tərəf üz tutması istiqamətində həmin əzəmətli hərəkət yaranmışdı. Belə bir vəziyyətdə Əli ibn Əbu Talib (ə) kimi bir şəxsiyyət xəlifə, Hüseyn ibn Əli (ə) kimi bir şəxs tanınmış şəxsiyyət olmuşdu. Meyarlar bunlarda hamıdan çoxdur. Meyar Allah olanda, təqva olanda, dünyaya etinasızlıq olanda, Allah yolunda çalışmaq olanda, bu meyarlara malik şəxslər əməl meydanına gəlir və işlərin idarəçiliyini ələ alırlar və cəmiyyət islami cəmiyyət olur. Lakin ilahi meyarlar dəyişəndə daha dünyapərəst olan və nəfsinə daha çox tabe olan, şəxsi mənafeyini təmin etmək üçün daha zirək olan və düzlük və doğruçuluqdan daha çox uzaq olan şəxs iş başına keçir. Onda nəticə Ömər ibn Səd, Şimr və Übeydullah ibn Ziyad kimi şəxslərin iş başına gəlməsi və Hüseyn ibn Əli (ə) kimi bir şəxsin başının kəsilməsi və Kərbəlada şəhid olması olur. Bu, gün kimi aydın bir məsələdir. Ürəyiyanan insanlar cəmiyyətdə ilahi meyarların dəyişməsinə imkan verməməlidirlər. Əgər cəmiyyətdə təqva meyarı dəyişsə, məlum məsələdir ki, Hüseyn ibn Əli (ə) kimi təqvalı bir şəxsin qanı töküləcək. Əgər hoqqabazlıq, dünya işlərində diribaşlıq, hiyləgərlik, yalançılıq və islami dəyərlərə etinasızlıq meyar olsa, aydın məsəlidir ki, Yezid kimi bir şəxs iş başına keçməli və Übeydullah kimi birisi İraqın birinci şəxsi olmalıdır. İslamın bütün işi bu puç meyarları dəyişmək idi. Bizim inqilabımızın da işi dünyanın puç və səhv maddi meyarları müqabilində dayanmaq və onları dəyişdirməkdir...[1]

**18.**

## İmam Hüseyn (ə) hərəkatının ən mühüm dərsi boyuna düşən ilahi vəzifənin vaxtında müəyyənləşdirilməsidir

Aşura hərəkatı hadisəsində çoxlu nüanslar var. Əgər İslam dünyası və İslam dünyasının mütəfəkkirləri onların barəsində müxtəlif cəhətlərdən araşdırma aparsalar, bu hadisədən və ondan əvvəl və sonra baş verən hadisələrdən islami həyat yollarının və müxtəlif şəraitlərdə müsəlman nəsillərin boynuna düşən vəzifələrin nədən ibarət olması məlum olar.

Həmin dərslərdən biri də Hüseyn ibn Əlinin (ə) İslam tarixinin olduqca həssas bir mərhələsində müxtəlif dərəcəli əhəmiyyətə malik vəzifələr arasından özünün əsas vəzifəsini müəyyənləşdirməsi və onu yerinə yetirməsidir. O, İslam dünyasının həmin vaxt nəyə möhtac olduğunu müəyyənləşdirməkdə xəyalpərəstlik və ya səhvə düçar olmadı. Halbuki bu, yəni xalq kütləsi, onun rəhbərləri və İslam dünyasının məşhur şəxsiyyətlərinin müəyyən zaman kəsimində öz əsas vəzifələrini səhv salmaları, (yəni) nəyin əsas, yerinə yetirilməli, lazım olan təqdirdə başqa işlərə qurban verilməli, nəyin də ikinci dərəcəli olduğunu, hər bir hərəkət və işə onun özü qədər əhəmiyyət verilməsinin və səy göstərilməsinin gərəkliyini bilmələri müxtəlif dövrlərdə müsəlmanların həyatının zəif nöqtələrindən biridir.

İmam Hüseynin (ə) zamanında da bəziləri var idi ki, əgər onlarla bu barədə söhbət edilsəydi və "indi mübarizə zamanıdır" deyilsəydi və onlar bu işin onlar üçün problem və dərdi-sər yaradacağını bilsəydilər, ikinci dərəcəli vəzifələrdən yapışardılar. Gördüyümüz kimi, elə bəziləri bu işi gördülər. İmam Hüseynlə (ə) hərəkət etməyən və getməyənlərin arasında mömin və dindar şəxslər var idi. Onların hamısı dünya əhli deyildi. Həmin dövrdə İslam dünyasının böyük və seçilmiş simaları arasında mömin və öz ilahi vəzifəsinə əməl etmək istəyən şəxslər var idi. Lakin onlar boyunlarına düşən vəzifələrinin nədən ibarət olduğunu başa düşmürdülər, dövrün şəraitini ayırd edə bilmirdilər, əsl düşməni tanımırdılar, əsas və prinsipial işləri ikinci və üçüncü dərəcəli işlərlə səhv salırdılar. Bu, İslam dünyasının böyük bəlalarından biri olub. Bu gün o bizim də başımıza gələ bilər və mühüm bir şeyi əhəmiyyəti az olan bir şeylə səhv sala bilərik. Cəmiyyətin sütunu olan və cəmiyyətin həyatının bağlı olduğu əsas vəzifəni tapmaq lazımdır.

Bir vaxtlar bizim bu ölkədə imperializm, istibdad, küfr və batil qüvvələrə qarşı mübarizə məsələsi gündəmdə idi. Lakin bəziləri bu məsuliyyəti dərk etmir və başqa işlə məşğul olurdular. Əgər kimsə tədrislə məşğul idisə, kitab yazırdısa, kiçik bir təbliğat mərkəzi var idisə, məhdud saylı insanların istiqamətləndirilməsini öhdəsinə

[1] İmam Səccadın (ə) şəhid olmasının ildönümündə İranın Könüllü Müqavimət qüvvələrinin batalyon komandirləri, çavuşları və Aşura dəstələri ilə görüşdəki çıxışdan. 13.VII.1992

götürmüşdüsə, fikirləşirdi ki, həmin mübarizə ilə məşğul olsa, həmin işləri yerinə yetirə bilməyəcək. Buna görə də həmin işlərdən qalmamaq üçün o böyüklükdə və mühüm mübarizəni tərk edirdi. Yəni nəyin lazım, mühüm və daha əhəmiyyətli olduğunu dərk etməkdə səhvə yol verirdi.

Hüseyn ibn Əli (ə) öz kəlamlarında başa saldı ki, belə bir şəraitdə İslam dünyası üçün batil qüdrətin kökü ilə mübarizə aparma və insanları həmin qüdrətin şeytani hökmranlığından xilas etmək ən vacib işlərdəndir. Aydın məsələdir ki, əgər Hüseyn ibn Əli (ə) Mədinədə qalsaydı və insanlar arasında ilahi hökmləri təbliğ və Əhli-beyt təlimlərini bəyan etsəydi, bir dəstə insan yetişdirmiş olacaqdı. Lakin o, iş üçün İraqa tərəf hərəkət edəndə bu işlərin hamısından qalacaqdı: İnsanlara namaz öyrədə bilməyəcəkdi; camaata Peyğəmbər (s) hədislərini nəql edə bilməyəcəkdi; onun dərs və tədris mərkəzinin işi dayanacaqdı; Mədinədə olan yetim, yoxsul və fəqirlərə kömək etməkdən qalacaqdı. Bunların hər biri o həzrətin yerinə yetirdiyi işlər idi. Lakin o bunların hamısını daha mühüm olan işə qurban verdi. Hətta bütün təbliğatçı və natiqlərin də qeyd etdiyi ki, Allah evinin həcc ziyarəti zamanı və insanların həcc ziyarətinə getdiyi bir vaxtda bunu daha ülvi hədəfə qurban verdi.

**İmam Hüseynin (ə) ən mühüm vəzifəsi zalım hakimlə mübarizə və "yaxşılığa dəvət və pislikdən çəkindirmə" vəzifəsinin yerinə yetirilməsi idi**

Həmin vəzifə nədən ibarətdir? Özü buyurduğu kimi, fəsad mənbəyi olan quruluşla mübarizə: " **اريد ان آمر بالمعروف و انهى عن المنكر و اسير بسيرة جدى**" "Mən yaxşılığa dəvət və pislikdən çəkindirmək və cəddimin yolu ilə getmək istəyirəm".[1] Yaxud yoldakı digər bir xütbəsində buyurduğu kimi: " **ايها الناس ان رسول الله صلى الله عليه و آله و سلم قال: من رأى سلطاناً جائراً مستحلاً لحرم الله، ناكثاً لعهد الله ... فلم يغير عليه بفعل و لا قول كان حقاً على الله ان يدخله مدخله**" "Camaat! Həzrət Peyğəmbər (s) buyurub: Əgər kimsə zalım hakimin Allahın haramını halal etdiyini, Allahın əhdini pozduğunu... görsə və öz dil və əməli ilə ona qarşı bir iş görməsə, həmin şəxsi o zalım gedən yerə aparmaq Allah-taalanın haqqıdır".[2] Yəni həmin vəzifə fəsad yaradan, insanları məhvə, maddi və mənəvi fənaya sürükləyən zalım və sitəmkar hökmdara qarşı çıxmaq və onu dəyişdirməkdən ibarət idi. Hüseyn ibn Əlinin (ə) hərəkatının səbəbi bu idi. Əlbəttə, bunu “Yaxşılığa dəvət və pislikdən çəkdirmə”nin nümunəsi də hesab ediblər. Yaxşılığa dəvət və pislikdən çəkindirmə vəzifəsinə əməl etmək barədə bu məsələlərə də diqqət etmək lazımdır. Buna görə də o həzrət daha mühüm vəzifəni yerinə yetirmək üçün hərəkət edir və digər vəzifələri – hətta mühüm olsalar belə – bu daha mühüm vəzifəyə qurban verir. O bu gün vacib işin nədən ibarət olduğunu dərk edir.

**Bugünkü müsəlmanların ən mühüm vəzifəsi düşmənin tanınması və müəyyənləşdirilməsidir**

Hər dövrdə islami cəmiyyətin boyuna bir vəzifə düşür. İslam dünyası və müsəlmanları bir düşmən cəbhəsi təhdid edir. Onu tanımaq lazımdır. Əgər biz düşməni tanımaqda səhvə yol versək, İslam və müsəlmanların ziyan və hücuma məruz qaldığı cəhətin müəyyənləşdirilməsində səhv etsək, dəyəcək ziyanın aradan qaldırılması mümkün olmayacaq, böyük fürsətlər əldən çıxacaq. Bu gün İslam dünyasında bizim boynumuza İslam ümmətinə, İslam dünyasına və öz xalqımıza bu sayıqlığı, diqqəti, düşməni tanımaq və boyuna düşən vəzifəni dərk etmək hissini aşılamaq vəzifəsi düşür. Bu gün İslam hökumətinin qurulması və İslam bayrağının ucalması sayəsində – İslam tarixi boyu onun əvvəlindən indiyə kimi belə bir imkan olmayıb – müsəlmanlar belə bir imkan əldə ediblər. Bizim bu gün düşməni tanımaqda səhvə yol vermək haqqımız yoxdur; bizim hücum edənin hücumunun istiqamətindən xəbərdar olmaq barədə səhv etmək haqqımız yoxdur. Buna görə də inqilabın əvvəlindən indiyə kimi möhtərəm imam Xomeyninin və o cənabın yolunda hərəkət edən məsul şəxslərin bütün səyləri – hər kəs öz imkan, güc və dünya görüşü həddində – müasir dünyada müsəlmanlar və İranda islami cəmiyyət üçün, haqq-ədalət üçün hansı təhdidin daha güclü və hansı düşmənin daha təhlükəli olduğunu müəyyənləşdirmək istiqamətində olub. Həmişə olduğu kimi, bu gün də əsas düşmənlik, böyük hücum və məhvedici təhlükə beynəlxalq güclər, küfr qüvvələri və beynəlxalq imperializm tərəfindəndir. Bu, islam və müsəlmanları təhdid edən ən böyük təhlükədir.[3]

**19.**

## İki əsas və İslamı təhdid edən təhlükə: xarici düşmən və daxili parçalanma

**İmam Hüseynin (ə) bənzəri olmayan şəhidliyinin müqəddər edilməsinin sirri**

---

[1] Biharul-ənvar, c. 44. s. 329
[2] Biharul-ənvar, c. 44, s. 382
[3] Alim və ruhanilərlə görüşdəki çıxışdan. 29.VII.1992

Hüseyn ibn Əlinin (ə) həyatında uca qüllə kimi bütün yamacları işıqlandıran qabarıq bir nöqtə var və o, Aşuradır. İmam Hüseynin (ə) həyatında o qədər hadisə, əlamətdar gün, söz və hədis var ki, əgər Kərbəla hadisəsi olmasaydı belə, o həzrətin həyatı digər imamların hər biri kimi hikmət, maarif və hədis mənbəyi olardı. Lakin Aşura hadisəsi o qədər mühümdür ki, sizin zehninizə o həzrətin həyatının başqa məqamları barədə az şey gəlir. Aşura hadisəsi o qədər mühümdür ki, bu gün – üçüncü gün – üçün nəql edilmiş ziyarətnamə və duada Hüseyn ibn Əli (ə) barəsində belə deyilir: "بكته السماء و من فيها و الارض و من عليها و لما يطأبتيها" – Hələ bu dünyaya ayaq basmamış yer-göy Hüseynə (ə) ağlayıb. Hadisə bu qədər mühümdür. Yəni Aşura hadisəsi və tarixdə misli olmayan şəhidlik həmin gün baş verib. Bu, gözlərin ona dikildiyi bir hadisə idi. Görəsən, bu nə hadisə idi ki, əvvəldən müqəddər edilmişdi? "الموعود بشهادته قبل استهلاله و ولادته"[1] – Hüseyn ibn Əli (ə) hələ üzü görsənməyən vaxtdan (dünyaya gəlməmişdən) şəhid adlandırılar və çağırılardı. Düşünürük ki, burada bizim üçün öyrədici olan bir sirr var.

Əlbəttə, Hüseyn ibn Əlinin (ə) şəhidliyi barəsində çox söz – yaxşı və doğru sözlər – danışılıb. Hər kəs öz idrakı səviyyəsində bu hadisədən bir şey başa düşüb. Bəziləri onu hakimiyyətə gəlmək istəyində məhdudlaşdırıblar, bəziləri onu digər məsələlər çərçivəsinə salıb kiçildiblər, bəziləri də onun daha böyük cəhətlərini dərk ediblər və onlar barəsində danışıblar, yazıblar. Mən onlara toxunmaq istəmirəm. Mənim demək istədiyim budur ki, əziz İslamı təhdid edən təhlükələr yaranmamışdan, yaxud yaranmağa başlayanda qabaqcadan Allah tərəfindən bilinib və onların qarşısını almaq vasitələri nəzərdə tutularaq islamın daxilində və həmin sistemin içində yerləşdirilib. Bu, Allah-taalanın sağlam bədənin daxilində immunluq sistemi yerləşdirilməsi və ya mühəndis və istehsalçısının təzə avtomobilin üstündə təmir alətləri qoyması kimidir.

İslam bir fenomendir və bütün fenomenlər kimi onu bir sıra təhlükələr təhdid edir və onun həmin təhdidlərin qarşısını almaq üçün vasitələrə ehtiyacı var. Allah-taala bu vasitəni İslamın özündə qoyub.

Amma bəs o təhlükə nədir? İslamı iki əsas təhlükə təhdid edir. Onlardan biri xarici düşmən, ikincisi isə daxili parçalanmadır. Xarici düşmən dedikdə məqsəd ölkə sərhədlərindən kənardan hər hansı bir quruluşun onun düşüncəsini, əqidəsinin təməl sistemini, qanunlarını, (bir sözlə) hər şeyini müxtəlif silahlarla hədəf seçən kəsdir. İslam Respublikası barədə siz bunu öz gözlərinizlə gördünüz. Onlar "biz islam respublikası quruluşunu məhv etmək istəyirik" deyirdilər. Onlar kənarda olan düşmənlər idi. Onlar bu quruluşu aradan götürmək qərarına gəlmişdilər. "Kənar" dedikdə məqsəd nədir? Məqsəd ölkənin xarici deyil, quruluşdan kənardır və bu, ölkənin daxilində də ola bilər.

Bəzi düşmənlər özlərini bu quruluşa yad bilirlər və ona düşməndirlər. Bunlar kənardırlar, yaddırlar. Bunlar hər hansı bir quruluşu qılıncla, odlu silahla ən modern maddi silahlarla, təbliğat, pul və ixtiyarlarında olan hər vasitə ilə məhv etmək və aradan götürmək üçün çalışırlar.

**Hər hansı bir quruluşda daxili parçalanma bəlası xarici düşməndən daha təhlükəlidir**

Bu, bir növ düşmən idi. İkinci düşmən və bəla "daxili parçalanma"dır, yəni quruluşun daxilində olan parçalanma. Bu, yadlara aid deyil, özümüzdən olanlara aiddir. Hər hansı bir quruluşda onun özündən olanlar yorğunluq, düz yolu başa düşməkdə səhvə düçar olmaq, nəfsi hislərə məğlub olmaq, maddi görüntülərə aldanmaq və onları böyük saymaq nəticəsində qəfildən daxili parçalanma bəlasına tutula bilər. Şübhəsiz, bunun təhlükəsi birinci təhlükədən daha çoxdur. Bu iki düşmən – xarici və daxili bəla – istənilən quruluş, istənilən təşkilat və istənilən fenomen üçün mövcuddur. İslam hər iki bəla ilə mübarizə aparmaq üçün əlac müəyyənləşdirib və cihad qanunu qoyub. Cihad ancaq xarici düşmənlərə aid deyil. "جَاهِدِ الْكُفَّارَ وَ الْمُنَافِقِينَ".[2] Münafiq özünü quruluşun içinə soxur. Buna görə də bunların hamısına qarşı cihad etmək lazımdır. Cihad etiqadsızlıq və quruluşla düşmənlik üzündən ona hücum etmək istəyən düşmən üçündür. Həmçinin həmin daxili parçalanma üçün çox dəyərli əxlaqi təlimlər mövcuddur. Onlar insana dünyanı həqiqi şəkildə tanıtdırır və başa salır ki, "اعْلَمُوا أَنَّمَا الْحَيَاةُ الدُّنْيَا لَعِبٌ وَ لَهْوٌ وَ زِينَةٌ وَ تَفَاخُرٌ بَيْنَكُمْ وَ تَكَاثُرٌ فِي الْأَمْوَالِ وَ الْأَوْلَادِ"[3]. Yəni bu bər-bəzək zahiri gözəllik və bu dünya ləzzətləri sizin üçün lazım olsa da, siz onlardan istifadə etmək məcburiyyətində olsanız da, sizin həyatınız onlardan asılı olsa da – buna heç bir şübhə də yoxdur və siz gərək onları tədarük görəsiniz – bilməlisiniz ki, onlara mütləq mənada baxmaq, gözübağlı bu ehtiyacların arxasınca hərəkət etmək və hədəfləri yaddan çıxarmaq olduqca təhlükəlidir.

**İmam Hüseyn (ə) hərəkatı nəfslə cihad ilə düşmənlə cihadın eyni zamanda birləşdirilməsi**

---

[1] əl-İqbal, s. 689
[2] Tövbə surəsi, ayə 73: "...kafirlərə və münafiqlərə qarşı cihad et..."
[3] Hədid surəsi, ayə 20: "Bilin ki, bu dünya həyatı yalnız oyun, əyləncə, bəzənmək, bir-birinizə öyünmək və mal-dövlət və övladda bir-birinizi üstələmək(dən ibarət)dir".

Əmirəl-möminin düşmənlə döyüş meydanının aslanıdır və o danışanda adam onun sözlərinin yarıdan çoxunun cihad, müharibə, pəhləvanlıq və qəhrəmanlıq barədə olmasını gözləyir. Lakin biz onun hədislərdəki və Nəhcül-Bəlağədəki kəlamlarına baxanda görürük ki, o həzrətin söz və tövsiyələrinin çoxu zahidlik, təqva, əxlaq, dünyanın inkar və təhqir edilməsi, mənəvi və ülvi insani dəyərlərin əziz tutulması barədədir. İmam Hüseynin (ə) məsələsi də bu iki məsələnin birləşdirilməsidir. Yəni həm düşmənlə cihad, həm də nəfslə cihadın ən yüksək həddə təzahür etdiyi yer Aşura hadisəsi olub. Yəni Allah-taala bilir ki, bu hadisə qarşıya çıxacaq və ülvi bir nümunə təqdim edilməlidir və həmin ülvi nümunə örnək olmalıdır. Bu, bəzi ölkələrdə müəyyən idman sahəsində öndə gedən qəhrəmanların insanları həmin idman növünə həvəsləndirməsinə bənzəyir. Əlbəttə, bu, məsələnin sadələşdirilməsi üçün çəkilən kiçik bir misaldır. Aşura hadisəsi hər iki istiqamətdə mücahidcəsinə edilən əzəmətli hərəkətdir. Həm xarici və kənar düşmənlə mübarizə cəbhəsində – onlar pozğun xilafət sistemi və bu qüdrət sisteminə yapışmış dünyapərəstlərdən ibarət idilər və həzrət Peyğəmbərin (s) insanların nicatı üçün tədarük gördüyü qüdrəti İslam və həzrət Peyğəmbərin (s) yolunun əksinə hərəkət etmək üçün istəyirdilər – həm də daxili cəbhədə. Həmin vaxt cəmiyyət ümumilikdə həmin daxili fəsad istiqamətində hərəkə edirdi.

### İmam Hüseynin (ə) dövründə cəmiyyətin ən öldürücü xəstəliyi: Dünyapərəstlik və əyanlıq

Məncə, ikinci məqam daha mühümdür. Müəyyən zaman keçmişdi, işin ilk çətinlik dövrü arxada qalmışdı. Bir sıra fəthlər baş vermiş, qənimətlər əldə edilmişdi. Ölkə ərazisi böyümüş, onun əhatə dairəsi genişlənmişdi. Müxtəlif yerlərdə İslam düşmənləri əzişdirilmişdi. Ölkə daxilində bol qənimətlər dövriyyəyə girmişdi. Bəziləri varlanmışdı və bir dəstə əyan təbəqəsinə daxil olmuşdu. Yəni İslam əyan sinfinin kökünü kəsəndən sonra yeni bir əyan sinfi yaranmışdı. Bəziləri İslam adı ilə – Peyğəmbərin (s) filan səhabəsinin oğlu, Peyğəmbərin (s) filan qohumunun oğlunun oğlu kimi adlar altında – yaramaz və nalayiq işlər görməyə başlamışdılar. Onların bəzisinin adı tarixdə də qeyd edilib. Bəziləri qızları üçün həzrət Peyğəmbərin (ə), Əmirəl-möminin (ə) və İslamın ilk dövrlərinin müsəlmanlarının irəli sürdükləri "dörd yüz səksən sünnə mehriyyəsi"nin yerinə bir milyon dinar, bir milyon misqal[1] xalis qızıl mehriyyə təyin edirdilər. Bunu kimlər edirdi? Böyük səhabələrin, məsələn, Müsəb ibn Zübeyr və digərlərinin oğulları. Biz "quruluşun daxildən xarab olması" deyəndə bunu nəzərdə tuturuq. Yəni cəmiyyətdə bəziləri peyda olur və tədricən özlərinin yoluxucu, həm də, təəssüflər olsun ki, öldürücü xəstəliklərini – dünyapərəstlik və şəhvətpərəstlik – beləcə, cəmiyyətə də keçirirlər. Belə bir vəziyyətdə məgər kimsə Yezid ibn Müaviyənin hökumətinə qarşı çıxmağa cürət edə bilərdi?! Məgər belə bir şey baş verə bilərdi?! Kim Yezidin həmin zülm və fəsad hökuməti ilə mübarizə etmək fikrində idi?! Belə bir şəraitdə İmam Hüseynin (ə) əzəmətli hərəkatı yarandı və o həm düşmənlə, həm də adi müsəlmanlar arasında yayılmış və onları fəsad və məhvə aparan tənbəllik ruhiyyəsi ilə mübarizə apardı. Bu, mühüm məsələdir. Yəni Hüseyn ibn Əli (ə) insanların vicdanını oyadan bir iş gördü. Buna görə də gördüyünüz kimi, İmam Hüseynin (ə) şəhidliyindən sonra bir-birinin ardınca islami qiyamlar baş verdi. Düzdür, həmin qiyamlar yatırıldı, amma qiyamın düşmən tərəfindən yatırılması mühüm deyil. Düzdür, bu acıdır, amma ondan da acı hər hansı bir cəmiyyətin düşmən müqabilində reaksiya verməyəcək hala düşməsidir. Bu, böyük təhlükədir.

### İmam Hüseyn (ə) hərəkatının ondan sonra baş verən ardıcıl qiyamlara təsiri

Hüseyn ibn Əlinin (ə) gördüyü iş bütün batil hökumətlərin zamanında İslamın ilk dövrlərindən uzaq olmalarına baxmayaraq, zülm və fəsad hökumətləri ilə mübarizə aparmaq iradələri İmam Həsən Müctəbanın (ə) zamanındakı insanlardan güclü olan şəxslərin üzə çıxmalarına səbəb oldu. Onların hamısı məhv edildilər. Mədinə əhalisinin "Hərrə" adlanan qiyamından başlayın və gəlin sonrakı hadisələrə, Təvvabin hadisələrinə, Muxtarın qiyamına, bəni-Üməyyə və bəni-Abbasın zamanına kimi. Müxtəlif xalqlar arasında davamlı olaraq qiyamlar baş verdi. Bu qiyamları kim yaratdı? Hüseyn ibn Əli! Əgər İmam Hüseyn (ə) hərəkətə keçməsəydi, tənbəllik və məsuliyyətdən qaçmaq ruhiyyəsi zülmlə mübarizə və məsuliyyət ruhiyyəsinə çevrilərdimi?! Biz nə üçün məsuliyyət ruhiyyəsinin öldüyünü deyirik? Çünki İmam Hüseyn (ə) İslamın böyük şəxsiyyətlərinin mərkəzi olan Mədinədən Məkkəyə getdi, Abbasın, Zübeyrin, Ömərin və İslamın ilk dövrlərinin xəlifələrinin oğulları hamısı Mədinədə toplaşmışdı və heç kəs o qanlı və tarixi mübarizədə İmam Hüseynə (ə) kömək etmək istəmədi.

### İmam Hüseynin (ə) islam keşikçisi olmasının dərin mənası

Deməli, İmam Hüseynin (ə) hərəkatından qabaq hətta seçilmiş simalar bir addım atmaq istəmirdilər. Lakin İmam Hüseynin (ə) hərəkatından sonra bu ruhiyyə dirildi. Bu bizim Aşura hadisəsində digər dərslərlə yanaşı, bilməli olduğumuz böyük dərsdir. Bu hadisənin əzəməti budur. "**الموعود بشهادته قبل استهلاله و ولادته**". Hüseyn

[1] Təxminən 4, 26 qrama bərabər köhnə çəki vahidi – Tərc.

ibn Əlinin (ə) hələ üzü görsənməyən vaxtdan (dünyaya gəlməmişdən) şəhid adlandırılmasının və o həzrət dünyaya gəlməmişdən "بكته السماء و من فيها و الارض و من عليها" yerin-göyün Hüseynə ağlamasının, bu böyük matəmdə Hüseyn ibn Əliyə (ə) diqqət edilməsinin, onun matəminə hörmətlə yanaşılmasının və bu dua, ya ziyarətnamənin dili ilə desək, ağlanılmasının səbəbi budur. Buna görə də siz bu gün baxanda islamın Hüseyn ibn Əli tərəfindən dirildilməsinin şahidi olur, onu islamın keşikçisi hesab edirsiniz. "Keşikçi" ifadəsi münasib ifadədir. Keşikçilik düşmən mövcud olanda olur. Bu iki düşmən – xarici düşmən və daxili parçalanma bəlası – bu gün də var və siz də keşikçisiniz. Məbada, düşmənin yuxuda olduğunu düşünəsiniz. Məbada düşmənin düşmənçilikdən vaz keçdiyini güman edəsiniz. Belə bir şey mümkün deyil.[1]

**20.**

## Məhərrəm ayı: Əli və Hüseyn təlimlərinin bəyan edilmə fürsəti

**Dinin əsasının Aşura ilə bağlılığı**

Dinin əsası Aşuraya bağlanıb və o, Aşura sayəsində yaşayıb. Əgər Hüseyn ibn Əlinin (ə) böyük fədakarlığı – bu fədakarlıq tarixin vicdanını bütünlüklə özünə cəlb edib və oyadıb – olmasaydı, elə hicrətin birinci əsrində, yaxud ikinci əsrin ortasında islamın kitabı tamamilə bağlanardı. Bu, şübhəsiz, belədir. Əgər kimsə tarixə müraciət etsə və tarixi həqiqətləri nəzərdən keçirsə, dediyimiz sözü təsdiqləyər. Həmin vaxt islami cəmiyyəti vicdanını oyadan və sonrakılar üçün örnək olan şey o vaxta kimi islamda görünməmiş həmin heyrətamiz hadisə idi. Əlbəttə, sonralar onun bənzərləri çox oldu. Lakin həmin nüsxələrin heç biri orijinal ilə eyni deyildi. İslam ümməti çoxlu şəhidlər verdi, kütləvi şəhidlər qurban getdi, lakin onların heç biri Aşura hadisəsinə çatmadı. Aşura hadisəsi fədakarlıq və şəhidlik qülləsinin zirvəsində qaldı və qiyamətə kimi də qalacaq.

**Dünya əhalisinin Aşuradan istifadə etməsi**

"لا يوم كيومک يا ابا عبد الله" "Ey Əba Əbdillah, heç bir gün sənin günün kimi deyil". Biz şiələr bu hadisədən çox bəhrələnmişik. Əlbəttə, ondan qeyri-şiələr də bəhrələniblər. Bu gün Misirdə "Rə`sul-Hüseyn"məscidi – onlar o həzrətin müqəddəs başının orada dəfn edildiyini güman edirlər – Misirin Əhli-beyt aşiqi olan insanlarının toplaşma yeridir. Misir xalqı yaxşı xalqdır. Bizim o ölkənin hakim rejim və dövləti ilə işimiz yoxdur. Xalq Əhli-beyt aşiqidir. Bu hadisədən bütün dünya təsirlənib. Lakin şiələr bu hadisədən həddən-artıq çox bəhrələniblər. Biz dini bu hadisə vasitəsi ilə qorumuşuq, insanlara dini hökmləri bəyan etmişik, insanların hislərini din və iman yoluna istiqamətləndirmişik. Mənim "biz" dedikdə məqsədim ötən neçə əsr ərzində yaşamış ruhani və təbliğatçılar sinfidir...

Möhtərəm təbliğatçılar, vaizlər, dini natiq və məddahlar yaddan çıxarmasınlar ki, bizim zamanımızda Aşura hadisəsinin kamil nümunəsi həmin bəsicilərdir, həmin bəsici uşaq və gənclərdir. Bunu yaddan çıxarmayın. Onların bəzisi şəhid olublar, bəziləri isə sağdır. Sağ qalanların şəhid olmalarının səbəbi onların şəhidlikdən qaçmaları deyil. Onlar şəhidliyə tərəf getdilər, amma şəhidlik onlara tərəf gəlmədi. Unutmaq olmaz ki, Aşura və məhərrəm hadisəsi ilə bizim şəhidlərimiz və onların qalıqları olan bəsicilər – Allaha şükür olsun ki, bu gün bizim cəmiyyətdə qoca və gənc bəsicilərin sayı çoxdur – arasında bağlılıq var. Bu təbliğat ayı bizim və sizin qarşınızdadır. Diqqətli olun və bu aydan din və Allah yolunda maksimum bəhrələnin.

**Məhərrəm ayında düzgün və əsl Quran və islam təlimlərinin bəyan edilməsinin zəruriliyi**

Məhərrəm ayında insanlara əsl və düzgün islam maarifi olan Hüseyn və Əli təlimlərini bəyan edin. Mən dəfələrlə təkrar etmişəm, mütaliəsiz minbərə çıxma, insanın gedib "hələ baxaq görək nə deyəcəyik" deməsi və minbərdə ağzına gələni danışması – bəzən süst, bəzən Allah eləməmiş, səhv şey nəql etməsi, bəzən, Allah eləməmiş, dini zəiflədən söz deməsi – Aşuraya qarşı nankorluqdur. Möhtərəm cənablar, əziz, zəhmətkeş və dəyərli ruhani, alim və xətiblər! Bu gün gənclərimizin öz axıcı zehinləri ilə sualları var. Siz həmin sualları irad tutmaq mənasına yozmamalısınız. Bir gənc sual soruşan kimi sanki küfr danışırmış kimi "cənab, sakit dur!" deməyək. Gəncdir, gəncin zehni axıcı olur. Bu gün mövcud audiovizual əlaqələrə görə dünyanın hər yerində səhv düşüncə və yanlış arqumentasiyalar geniş yayılır. Bizim gənclərimiz üçün sual yaranır. Bunu kim aradan qaldırmalıdır? Onları biz aradan qaldırmalıyıq. Əgər siz gedib həmin zehni boşluqları düzgün şəkildə doldurmasanız, yaxud həmin sual və iradı aradan qaldırmasanız, başqa biri gedib ona səhv cavab verəcək. Ruhani gərək əsil islami düşüncə ilə – onun ən yaxşı, ən tutarlı və ən güclüsü ilə silahlansın. Bizim belə düşüncə və sözlərimiz çoxdur. Bir nəfər, məsələn, şəhid Mütəhhəri universitet toplumunu öz dediklərini qəbul

---

[1] Şəban ayının 3-ü münasibəti ilə İslam İnqilabı Keşikçiləri Korpusu və Nizam-intizam qüvvələri ilə görüşdəki çıxışdan. 25.I.1993

etməyə, təsdiqləməyə və qarşısında təslim olmağa vadar edirdi. Onun tədrislə məşğul olduğu universitetdə açıq-aşkar din əleyhinə təbliğat aparan və dərs deyən şəxslər var idi. Mərhum Mütəhhəri gedib onlarla dava etmədi, əlbəyaxa olmadı. O danışıb fikir formalaşdırdı, həqiqətləri çatdırdı, düzgün təfəkkürdən istifadə edib mühiti ələ aldı.

İnqilabdan qabaq belə idi. İnqilabdan qabaq universitetlə, gənclərin – bəzən də yad fikirlərlə əlaqəsi olan – intellektual mühitləri ilə əlaqəsi olan ruhanilərin onlara güc və qüdrət verəcək ləvazimatı yox idi. Lakin buna baxmayaraq, mühit onların əlində və ixtiyarında idi. Hər hansı bir məsciddə bir ruhani durub camaata söhbət edirdi və bir də görürdün ki, universitetlərin dərs sinifləri tətil oldu, yaxud seyrəkləşdi və tələbələr bir neçə kəlmə təfsir və ya Nəhcül-Bəlağə öyrənmək üçün həmin ruhaninin dərsinə getdilər.

**Rövzəxanlıq və məddahlığın şərtləri**

... Mərhum hacı Nuri rövzəxanın şərtləri barədə kitab yazıb. Onun kitabının adı "Lolo və mərcan dər şərayeti pilleyi əvvəl və dovvomi-minbəri-rozəxanan"dır. Rövzəxanlığın da şərtləri var, məddahlığın da şərtləri var. Sinə vurmaq üçün oxunan növhənin də şərtləri var. Gərək bunları hazırlayan və oxuyan şəxslər diqqətli olsunlar və islam təlimlərinə uyğun danışsınlar ki, bu sinəzənlik, bu rövzəxanlıq və bu növhəxanlıq camaatın islami düşüncə qülləsinin zirvəsinə ucalması yolunda atılmış bir addım olsun. Bizə bu gün bu lazımdır. Onlar gərək çalışıb batil və səhv məsələlərdən, yaramaz, dini zəiflədən və həqiqətən, Hüseyn ibn Əlinin (ə) adına layiq olmayan bəzi işlərdən çəkinsinlər.[1]

**21.**

## İmam Səccadın (ə) islam əxlaqının dirçəldilməsi və yayılmasına diqqət etməsinin səbəb və əhəmiyyəti

Bu günlər dördüncü İmama (ə) məxsus olduğu üçün nəzərdə tutduğum bir məsələni qeyd etmək istəyirəm. Bir hədisə əsasən – bəlkə də, bu hədis və nəzər daha güclüdür – məhərrəm ayının iyirmi beşi dördüncü imamın vəfat günüdür. O həzrət Kərbəla hadisəsindən sonra təxminən otuz dörd il həmin dövrün islami mühitində yaşayıb. Bu yaşayış bütün cəhətlərdən ibrətlərlə dolu olub. Kaş bu həyatın yüksək keyfiyyətindən xəbəri olanlar onu camaata, müsəlmanlara və hətta qeyri-müsəlmanlara izah edəydilər və bizim əziz dördüncü imamımızın əsil və həqiqi islama böyük zərbə olan Aşura hadisəsindən sonra təkbaşına necə dayanması və dinin binasını viran olmasının qarşısını necə alması məlum olsun. Əgər imam Səccadın (ə) səyləri olmasaydı, İmam Hüseynin (ə) şəhidliyi zay olacaq və onun nişanələri qalmayacaqdı. Bu işdə dördüncü imamın böyük payı var. Dördüncü imamın həyatında bir neçə iş var ki, onlardan biri əxlaq sahəsi, yəni islami cəmiyyətin tərbiyə və əxlaqının təmizlənməsidir. Mən siz əziz qardaş və bacılarımla və bütün İran xalqı ilə bir neçə dəqiqə bu məsələ barədə danışmaq istəyirəm.

**Gənclərə Səhifeyi-Səccadiyyənin mütaliə edilməsi tövsiyəsi**

İmam Səccad (ə) islami cəmiyyətdə əxlaq təlimi və əxlaqi dəyişiklik yaratmaqla məşğul olub. Niyə? Çünki o əziz imamın təhlilinə əsasən, islam dünyasının əsas problemlərinin Kərbəla faciəsinin baş verməsi ilə nəticələnən mühüm hissəsi insanların əxlaqının tənəzzülündən və pozulmasından yaranmışdı. Əgər insanlar islam əxlaqına malik olsaydılar, Yezid, ibn Ziyad, Ömər Səd və başqaları həmin faciəni törədə bilməzdilər. Əgər insanlar o həddə alçalmasaydılar, dünyaya o cür aldanmasaydılar, ideallardan o cür uzaqlaşmasaydılar və rəzilliklər onlara elə hakim olmasaydı, hökumətlər – hətta pozğun olsalar belə, hətta dinsiz və zalım olsalar belə – camaatı belə bir böyük faciəyə, yəni Peyğəmbərin (s) balasını və Fatimeyi-Zəhranın (s) oğlunu öldürməyə vadar edə bilməzdilər. Bu, zarafat iş deyil. Hər hansı bir millətin əxlaqı pozulanda o, bütün pozğunluq və fəsadların mənbəyinə çevrilir. İmam Səccad (ə) islami cəmiyyətdə bunu araşdırdı və cəmiyyəti bu çirkinlikdən təmizləmək və əxlaqi gözəlləşdirməklə məşğul oldu. Buna görə də "Məkarimul-əxlaq", dua olsa da, əslində dərsdir; həmçinin Səhifeyi-Səccadiyyə, dua olsa da, dərsdir.

**"Məkarimul-əxlaq" duası – həyat və əxlaq dərsi**

Mən siz gənclərə tövsiyə edirəm, gedin Səhifeyi-Səccadiyyəni oxuyun və onun barəsində dərindən düşünün. Onu diqqət və dərin düşüncə olmadan oxumaq kifayət deyil. Əgər siz onda dərindən düşünsəniz, görəcəksiniz

[1] Məhərrəm ayı ərəfəsində alim, tələbə və ruhanilərlə görüşdəki çıxışdan. 16.VI.1993

ki, Səhifeyi-Səccadiyyənin dualarının hər biri, o cümlədən bu "Məkarimul-əxlaq" duası həyat dərsi kitabı, əxlaq dərsidir[1].

**22.**

## İxlas və qəriblik – İmam Hüseynin (ə) hərəkatının iki xüsusiyyəti və onun İslam İnqilabının qəribliyinə bənzəməsi

### Kərbəla hadisəsinin misilsiz olmasının dəlillərinin araşdırılmasının əhəmiyyəti

Biz gərək Hüseyn ibn Əlinin (ə) başına gələn hadisəyə dərindən yanaşaq və diqqət edək. Dünyada çoxları qiyam ediblər, rəhbərləri də olub, öldürülüblər də. Bunların arasında Peyğəmbər və imam övladları da az olmayıb. Lakin onların arasında İmam Hüseynin (ə) xüsusi yeri var. Kərbəla hadisəsi misli olmayan bir hadisədir. Kərbəla şəhidləri ancaq onlara məxsus mərtəbəyə malikdirlər. Niyə? Bu sualın cavabını hadisənin təbiətində axtarmaq lazımdır. Bizim hamımıza, bəlkə də, siz əziz "keşikçilər korpusu" personalına dərs verən də olur.

Həmin xüsusiyyətlərdən biri Hüseyn ibn Əlinin (ə) hərəkatının ixlasla, saflıqla, heç bir başqa məqsəd güdmədən ancaq Allaha və dinə xatir və müsəlman cəmiyyəti islah etmək məqsədi ilə baş verməsidir. Bu onun birinci xüsusiyyətidir və çox mühümdür. Hüseyn ibn Əli (ə) "انی لم اخرج اشراً و لا بطراً و لا مفسداً و لا ظالماً" "Mən məğrurluqdan, xoş güzəran üçün, fəsad törətmək və zülm etmək məqsədi ilə yola çıxmamışam"[2] cümləsini özünü göstərmək üçün demirdi. O həzrət bunu özü üçün bir şey tələb etmək üçün etmirdi, görüntü yaratmaq məqsədi güdmürdü. Bu hərəkətdə zərrəcə zülm və zərrəcə fəsad yoxdur. " انما خرجت لطب الاصلاح فی امة جدی" "Mən yalnız cəddimin ümmətində islahat aparmaq üçün işə başlamamışam". Bu, çox mühüm nöqtədir. (Ərəbcə mətndə işlədilmiş) "انّما" "innəma" sözünün mənası "yalnız"dır. Yəni o pak niyyəti və o günəşəbənzər zehni başqa heç bir məqsəd və hədəf dumanlandırmır. Qurani-kərim islamın ilk dövrlərində müsəlmanlarla danışanda belə buyurub: "وَ لاَ تَكُونُوا كَالَّذِينَ خَرَجُوا مِنْ دِيَارِهِمْ بَطَراً وَ رِئَاءَ النَّاسِ"[3] İmam Hüseyn (ə) da burada belə buyurur: "انی لم اخرج اشراً و لا بطراً" "Mən məğrurluqdan və xoş güzəran üçün çıxmamışam".

İki yol, iki istiqamət var. Orada Quran buyurur: "Öz evlərindən nemətdən sərxoş halda və özlərini camaata göstərmək üçün çıxan kəslər kimi olmayın". Yəni həmin növ hərəkətdə mövcud olmayan şey ixlasdır. Yəni azğın yolun hərəkətində ancaq "öz" və "mən" var. "رِئَاءَ النَّاسِ" "özlərini camaata göstərmək üçün" özünü bəzəyib, bahalı ata minib, üst-başından ləl-cəvahir asıb, rəcəz oxuyub xaric olur. Hara? Döyüş meydanına. Döyüş meydanı da elə bir yerdir ki, həmin adam da, onun kimi onlarla digər şəxs də həmin torpaqda həlak olacaq. Bir adamın üzə çıxması belədir. Onda ancaq nəfs var.

Bu, bir tərəfdir. Onun müqabilində ən yaxşı nümunə də Hüseyn ibn Əlidir (ə) ki, onda eqoistlik, "öz", "mən", şəxsi, milli və kollektiv mənafe yoxdur. Bu, Hüseyn ibn Əlinin (ə) hərəkatının ilk xüsusiyyətidir. Yerinə yetirdiyimiz işdə ixlasımız hər nə qədər çox olsa, həmin işin dəyəri də bir o qədər çox olar. İxlas qütbündən hər nə qədər uzaqlaşsaq, eqoistlik və xudbinlik tərəfə, özü üçün işləməyə, öz fikrində olmağa, şəxsi və milli mənafe və bu kimi şeylərə bir o qədər çox yaxınlaşarıq ki, bu da digər bir sinifdir. Həmin mütləq ixlasla o mütləq eqoistlik arasında geniş bir meydan var. Oradan bu tərəfə hər nə qədər yaxınlaşsaq, işimizin dəyəri düşəcək, bərəkəti azalacaq, ömrü qısalacaq. Bu, hadisənin xüsusiyyətidir. Bu malın qarışığı hər nə qədər çox olsa, bir o qədər tez xarab olacaq. Əgər o, xalis olsa, heç vaxt xarab olmayacaq. Əgər biz bu barədə maddi şeylərdən misal çəkməli olsaq, (belə deyə bilərik ki) əgər bu xəlitə yüz faiz qızıl olsa, xarab olmaz, paslanmaz. Amma həmin xəlitənin içində mis, dəmir və digər ucuz maddələr hər nə qədər çox olsa, onun xarab olma ehtimalı çoxdur. Bu, ümumi bir qaydadır.

### Mənəvi işlərdə tarazlıqların dəqiq olması

Bu, maddi şeylərə aid idi. Mənəvi işlərdə bu tarazlıqlar çox dəqiqdir. Biz maddi və adi baxışla bunu hiss etmirik, lakin məna və bəsirət əhli başa düşür. Bu işin saf-çürük edəni, bu hadisənin sərraf və zərgəri Allah-taaladır. "فإنّ الناقد بصير" "Sərraf bəsirət sahibidir". Əgər bizim işimizdə iynə ucu qədər ixlassızlıq olsa, həmin işin dəyəri bir o qədər aşağı düşəcək və Allah həmin işin ömrünü azaldacaq.

---

[1] Təlim-tərbiyə Nazirliyinin, Rifah və Sosial Təminat Təşkilatının işçiləri ilə çıxışdan. 13.VII.1993

[2] Biharul-ənvar, c. 44, s. 329

[3] Ənfal surəsi, ayə 47: "Öz evlərindən nemətdən sərxoş halda və özlərini camaata göstərmək üçün çıxan kəslər kimi olmayın".

**İmam Hüseynin (ə) hərəkatının bəsirətli sərrafı Allah-taaladır**

Allah-taala bəsirətli sərrafdır. İmam Hüseynin (ə) işi içində iynə ucu qədər ixlassızlıq olmayan işlərdəndir. Buna görə də siz bu xalis malın indiyə kimi yaşamasının şahidisiniz və o bundan sonra da əbədi olaraq yaşayacaq. Bu dəstə həmin səhrada qəribcəsinə öldürüləndən, bədənləri elə oradaca torpağa tapşırılandan, onlara qarşı o qədər təbliğat aparılandan, o cür darmadağın ediləndən, şəhid ediləndən sonra Mədinə şəhərinə od vurulandan – sonrakı il baş verən Hərrə hadisəsindən – və bu bağ alt-üst ediləndən və gülləri pər-pər ediləndən sonra kim həmin bağdan gül ətri qoxulayacağına inanardı?! Həmin bağdan bu təbiət aləmində bir gül budağının qalması hansı maddi qayda ilə düz gəlir?! Lakin siz görürsünüz ki, zaman keçdikcə həmin bağın ətri dünyanı daha da çox bürüyür. Elə adamlar var ki, Peyğəmbərin (s) onun babası olduğunu, Hüseyn ibn Əlinin (ə) Peyğəmbər yolunun davamçısı olmasını qəbul etmirlər, amma Hüseyni qəbul edirlər! Atası Əlini qəbul etmirlər, amma onu qəbul edirlər. Allahı – Hüseyn ibn Əlinin (ə) Allahını qəbul etmirlər, lakin Hüseyn ibn Əlinin (ə) qarşısında baş əyib təzim edirlər. Bu, həmin ixlasın nəticəsidir.

**İslam İnqilabının yaşama amili – İmam Xomeyninin ixlası**

Bizim böyük inqilabımızın da yaşamasına ixlas cövhəri – təzahürü əziz imam Xomeyni olan həmin "xalis filiz" səbəb olub.

İndi siz zehninizə müraciət edin və həmin çölləri, həmin istiləri, döyüş meydanının o qorxu və vahimələrini, o anbaan təhlükələri, qarla dolu dağların başının soyuqluğunu, o mühasirələri, qüvvə çatışmazlığını – bir az qüvvənin gəlib çatmasına görə əsəbiləşməyinizi – təchizatsızlıqları – bir tüfəng və bir qumbaraya görə o qədər ora-bura qaçmağınızı – bir sözlə, zehninizdə həmin günlərin xatirəsini canlandırın, ondan sonra başa düşərsiniz ki, nə üçün bu inqilaba qarşı bu qədər məkrli planlar hazırlayırlar, amma ona baxmayaraq, bu "ağac" öz yerində möhkəm dayanıb.

Onu bu cövhər qoruyub saxlayıb. İmam Xomeyninin, xalqın, xüsusilə döyüş meydanlarında iştirak edən siz döyüşçülərin ixlası. Siz onların ən yaxşılarından və ən kamil nümunələrindənsiniz. Bu bizim hamımızın daim diqqət etməli olduğumuz bir məsələ, cərəyan və sərlövhədir. Mənim bu məsələyə diqqət etməyə sizdən də çox ehtiyacım var.

Hüseyn ibn Əlinin (ə) hərəkatında çox mühüm olan və bizim bugünkü vəziyyətimizi nəzərə alanda bir baxımdan ixlas qüvvəsinin güclülüyündən qaynaqlanan digər bir nüans budur ki, islamın ilk vaxtlarının qanlı hadisələrinin heç birində Kərbəla hadisəsi qədər qəriblik, kimsəsizlik və tənhalıq mövcud olmayıb. Bu, islam tarixidir, istəyən müraciət edib baxa bilər. Mən buna diqqət etmişəm: Heç bir hadisə Kərbəla hadisəsi kimi deyil, istər islamın ilk dövrlərinin müharibələri olsun, istər həzrət Peyğəmbərin (s) müharibələri, istərsə də Əmirəl-mömininin müharibələri. Həmin nümunələrdə hər halda hökumət var idi, dövlət var idi, camaat iştirak edirdi, həmin cəmiyyətin arasından müharibəyə əsgərlər gedirdi, arxalarınca anaların duası, bacıların arzusu, baxanların alqışı, Peyğəmbər, yaxud Əmirəl-möminin kimi uca məqamlı rəhbərin təşviqi var idi. Onlar gedib Peyğəmbərin (s) qarşısında canlarını qurban verirdilər. Bu, çətin iş deyil. Bizim gənclərin nə qədəri imam Xomeyninin bir ismarıcına görə canını qurban verməyə hazır idi! Bizim nə qədərimiz indi arzulayırıq ki, qeybdə olan İmamımız lütflə bir işarə etsin və biz canımızı qurban verək!

**İmam Cəfər Sadiqin (ə) azğın hökmdarlara qarşı qiyam edən imamzadələri təşviq etməsi**

İnsan rəhbərini öz gözünün qabağında görəndə, arxadan çoxlu təşviq ediləndə, qələbə qazanana və düşməni məğlub edənə kimi vuruşacağı məlum olanda zəfər ümidi ilə vuruşur. Aşura hadisəsində gördüklərimizlə müqayisədə belə bir döyüş elə də çətin deyil. Əlbəttə, digər bəzi hadisələr də var idi ki, onlar da nisbətən qəribcəsinə olan hadisələr olub. Misal üçün, imamzadələrin, yaxud imamların zamanındakı hüseynçilərin başına gələn hadisələri göstərmək olar. Amma onların da hamısı bilirdi ki, arxalarında imam Cəfər Sadiq (ə), imam Musa ibn Cəfər və imam Rza kimi imamları, rəhbər və böyükləri var və imamlar onlara baxır, onların yanındadırlar, onları himayə edir, onların ailə-uşaqlarına baxacaqlar. Hədisə əsasən, imam Cəfər Sadiq (ə) buyurub: "Gedib bu ağzın hökmdarlarla vuruşsunlar və mübarizə etsinlər – "و علىّ نفقة عياله" – ...mən onların ailələrinin dolanışığını təmin etməyi öz öhdəmə götürürəm. Böyük şiə cəmiyyəti idi, onları alqışlayırdılar, tərifləyirdilər. Hər halda döyüş meydanından kənarda ürək qızdırmalı bir yerləri var idi. Lakin Kərbəla hadisəsində hadisənin əsli və islamın hamının qəbul etdiyi məğzi, yəni Hüseyn ibn Əlinin (ə) özü hadisənin içində idi və şəhid olmalı idi. Bunu onun özü də bilirdi, yaxın səhabələri də bilirdilər. Onların bu böyük dünya, bu enli-uzunlu islam ölkəsi səviyyəsində heç yerə heç bir ümidləri yox idi. Onlar əsl qərib idilər. Həmin vaxt islam dünyasının böyük şəxsiyyətlərinin bəzilərini Hüseyn ibn Əlinin (ə) öldürülməsi narahat etmirdi. Çünki onlar İmam Hüseyni (ə) öz dünyaları üçün ziyanlı sayırdılar. Abdullah ibn Cəfər və Abdullah ibn Abbas kimi

bundan narahat olan bəziləri də bu hadisəyə elə ciddi əhəmiyyət vermirdilər. Yəni bu qəmli və möhnətli mübarizə meydanının kənardan heç bir ümidi yox idi. Hər nə var idisə bu Kərbəla meydanında idi, vəssalam! Bütün ümidlər ora toplananlara idi, onlar da könüllərini şəhidliyə vermişdilər. Öldürüləndən sonra da zahiri hesablaşmalara görə heç kəs onlara bir "Fatihə məclisi" də keçirməyəcəkdi. Yezid hər yerə hakim olmuşdu, hətta onların qadınlarını əsir götürür, uşaqlarına rəhm etmirdilər. Bu meydanda fədakarlıq etmək çox çətindir. "لا یوم کیومک یا ابا عبد الله" Ya Əba Əbdillah, heç bir gün sənin günün kimi deyil". Əgər Hüseyn ibn Əlinin (ə) vücudunda o iman, o ixlas və o ilahi nur şölələnib həmin məhdud mömin dəstənin qəlbini isitməsəydi, belə bir hadisənin baş verməsi əsla mümkün deyildi. Görün bu, nə qədər əzəmətli hadisədir!

**Kərbəla şəhidlərinin xüsusi məqamı**

Buna görə də bu hadisənin xüsusiyyətlərindən biri onun qəribcəsinə olmasıdır. Bu səbəbdən mən dəfələrlə demişəm ki, bizim dövrün şəhidləri Bədr, Hüneyn, Ühüd, Siffeyn və Cəməl müharibələrinin şəhidləri ilə müqayisə edilə bilərlər və onların çoxundan üstündürlər, amma Kərbəla şəhidlərindən yox! Nə bu gün, nə dünən, nə islamın əvvəlində, nə də Allahın bildiyi və istədiyi vaxta kimi olacaq şəhidlərdən heç kəs Kərbəla şəhidləri ilə müqayisə edilə bilməz. Kərbəla şəhidləri üstündürlər. Əli Əkbər və Həbib ibn Məzahirin bənzərini tapmaq mümkün deyil.

**İslamın bugünkü izzəti İmam Hüseynin (ə) canfəşanlığının bərəkəti və nəticəsidir**

Mənim əzizlərim, budur Hüseyn ibn Əlinin (ə) hadisəsi! Bu, bütün düşmənliklərə baxmayaraq, dünyada islamı min üç yüz ildən artıq bir müddət ərzində ayaq üstə saxlayan möhkəm sütundur. Siz elə bilirsiniz əgər o şəhidlik, o pak qan, o böyüklükdə hadisə baş verməsəydi, islam yaşayacaqdı? Yəqin bilin ki, islam qalmayacaqdı; yəqin bilin ki, hadisələr tufanında məhv olacaqdı. Bir dəstə süst davamçısı ilə tarixi bir din kimi dünyanın bir küncündə qala bilərdi, amma o, biri islam olmayacaqdı, islamın ancaq ad və xatirəsi qala bilərdi. Amma bu gün siz islamın min dörd yüz ildən sonra dünyada diri qalmasının şahidisiniz. İslam yaradıcı bir dindir. Bu gün dünyada islam artmaqdadır. İslam bu gün dünyada ən nurlu və işıqlı ümid olaraq xalqların diqqətini özünə cəlb edib. Bunların hamısı həmin Kərbəla hadisəsinin və Hüseyn ibn Əlinin (ə) canfəşanlığının bərəkətindəndir. İndi Allah-taala Hüseyn ibn Əlinin (ə) zamanından sonra Quranın hakimiyyətinin ilk təcrübəsinin, yəni İslam Respublikası quruluşunun meydana qədəm qoymasını istəyib. Yəni həmin hadisədən sonra hər nə iş görülübsə, sizin bu gününüz üçün müqəddimə olub. Bütün alimlərin, mütəfəkkirlərin, filosofların, mütəkəllimlərin səyləri, bütün zəhmət və cəhdlər, bütün bu müharibələr islamı qoruyub, zəmin və şərait hazırlanıb ki, bu gün ilahi və Quran dəyərlərinə əsaslanan bir hökumət qurulsun. Siz İran xalqının bəxti gətirib ki, Allah-taala bunu, bu yükü ilk dəfə sizlərin çiyninə qoyub. Əlbəttə, mənim "bəxt" ifadəsində məqsədim "təsadüf" deyil. Allah-taala bu böyük xoşbəxtliyi heç kəsə havayı və əbəs yerə vermir. İran xalqı çox işlər görüb və Allah-taala, nəhayət, bunu ona verib. Əlbəttə, bu fədakarlıqlar, səylər, ixlaslar, zəhmətlər qurtaran da deyil. Elə bilməyin ki, üç-dörd xəyalpərəst avam və yazıq adamın dünyanın o başında oturub "islam respublikası bu gün sabahlıqdır" demələri ilə iş bitəcək. Xeyr! Bu təməl dağılan deyil!

**İmperializmin müsəlmanlarla təzyiq göstərməsinin səbəbi islamın yenidən dirçəlməsidir**

Mən də gedəcəyəm, siz də gedəcəksiniz. Fərdlər heç vaxt həmişəlik qalmırlar. Ən yaxşılar, ölənə kimi yaxşı qalanlardır. Amma bəziləri axıra kimi yaxşı qalmırlar. Hər cür adam var. İnsanlar bəla və ölümün hədəfindədirlər. Lakin əsas təməl yaşayır. Bu islami hərəkatın və islamın yenidən dirçəlməsinin kökü əsrlərdədir. Onun kökü on əsirlik səy və çalışmalardadır. O, islama söykənir. Buna görə də siz bu gün imperializm dünyada islam respublikasının, İran xalqının, bizim hamımızın simasını çirkin göstərmək istiqamətində təbliğat aparmalarının şahidisiniz. Amma islam dünyasının hər yerində insanların islama marağı beş-on il bundan qabaqkından daha çoxdur. Müsəlman ölkələrinə və islam dünyasından kənarda azlıqda olan müsəlmanlara nəzər salın, imperializmin müsəlmanlara qarşı təzyiqlərinə fikir verin. Bu təzyiqlər səbəbsiz deyil. Əgər müsəlmanlar mürdəşirin qabağında uzanan meyit kimi olsaydılar, onlara təzyiq göstərilməzdi...[1]

**23.**

[1] "İnqilab Keşikçiləri Korpusu günü" münasibəti ilə İslam İnqilabı Keçikçiləri Korpusunun və Nizam-İntizam Qüvvələrinin xüsusi təyinatlı qüvvələrinin minlərlə üzvü qarşısındakı çıxışdan. 16.I.1994

## Həzrət Zeynəbin (ə) ən çətin hadisələrə qatlaşması

Mən öz-özlüyümdə fikirləşirdim ki, görəsən, bu hadisələr, məzlumcasına olan bu şəhidlik, bu məzlum dəfn Əlinin müsibətə düçar olmuş evində hamıdan çox kimə ağır olub? Belə nəticəyə gəldim ki, bunlar hamıdan çox Zeynəbi-kübraya (ə) ağır olub. Zeynəbi-kübra (ə) ondan qabaq gecə yarısı anasının dəfnini görmüşdü, indi də atasının gecə yarısı dəfn edilməsinin şahidi olurdu. O, sonra da İmam Həsənin (ə) o vəziyyətdə dəfn edilməsini və o həzrətin cənazəsinə tərəf ox atılmasını gördü. Aşura günü də bunların hamısından çətin olan o ağır və qorxulu mənzərəni gördü. Və onda uca səslə belə fəryad etdi: " يا رسول الله! صلى عليك ملائكة السماء: هذا حسينک مرمل بالدماء و مقطع الاعضاء" "Ya Rəsuləllah! Ey göydə olan mələklərin salam göndərdiyi kəs! Bu sənin, qanına boyanmış və əzaları kəsilmiş Hüseynindir!"[1]

**24.**

## Əzadarlıq və Aşuranın yada salınma məclislərinin bərqərar edilməsinin xüsusiyyət və bərəkətləri

Məhərrəm ayı barəsində iki məsələ var: Onlardan biri Aşura hərəkatı barəsində danışmaqdır. Düzdür, böyük şəxsiyyətlər İmam Hüseynin (ə) hərəkatının fəlsəfəsi barədə çox danışıblar, yazıblar, bu fenomen haqda çox tutarlı sözlər deyiblər. Amma, doğrudan da, bu parlaq həqiqət barədə bir ömür danışmaq olar. Aşura və İmam Hüseynin (ə) hərəkatı barədə hər nə qədər çox fikirləşsək, görürük ki, bu hadisə, barəsində düşünmək və danışmaq üçün müxtəlif cəhətlərdən geniş imkanlara malikdir. Fikirləşdikcə yeni sözlər demək və yeni həqiqətlər tapmaq mümkündür. Bu, məsələnin söz cəhətidir. Düzdür, onun barəsində ilin digər vaxtlarında da danışılır, amma məhərrəm günlərində bu fenomendən daha çox danışmaq lazımdır, elə danışılır da və Allahın istəyi ilə yenə də danışılacaq.

### Şiə cəmiyyətinin mühüm imtiyazlarından biri Aşura xatirəsinə malik olmaqdır

Məhərrəm ayı münasibəti ilə barəsində söz açılmalı olan və barəsində az danışılan digər bir fenomen də var ki, mən bu axşam bir az onun barəsində danışmaq istəyirəm. O, Hüseyn ibn Əlinin (ə) əzadarlığı və Aşuranın yada salınması mərasimlərinin bərqərar edilməsinin bərəkətləridir. Şübhəsiz, şiə cəmiyyətinin digər müsəlman cəmiyyətlərdən üstünlüklərindən biri şiə cəmiyyətinin Aşura xatirəsinə malik olmasıdır. Hüseyn ibn Əlinin (ə) müsibətinin yada salınması məsələsi irəli sürülən gündən Əhli-beytə (ə) etiqad bəsləyən və onları sevənlərin zehnində ilahi feyz və mənəviyyat çeşməsi axmağa başlayıb. Bu qaynar çeşmə bu günə kimi davam edir və axır, bundan sonra da axacaq. Bunun səbəbi də Aşura xatirəsinin yada salınmasıdır.

### İstənilən mənəvi hərəkat üçün tələb edilən iki vacib komponent: Duyğu və hiss, dəlil və məntiq

Aşura hadisəsinin bəyan edilməsi təkcə bir xatirənin bəyan edilməsindən ibarət deyil. O, sözümün əvvəlində də qeyd etdiyim kimi, saysız-hesabsız cəhətləri olan bir hadisənin bəyan edilməsidir. Deməli, bu xatirənin yada salınması, əslində, saysız-hesabsız bərəkətlə nəticələnə bilən bir fenomendir. Buna görə də siz imamların (ə) zamanında İmam Hüseyn (ə) üçün ağlamaq və ağlatmaq məsələsinin xüsusi yerə malik olduğunu görürsünüz. Heç kəs düşüncə, məntiq və dəlil olan yerdə daha ağlamağa ehtiyac olmadığını və bu məsələlərin köhnəldiyini güman etməməlidir. Xeyr! Bu, səhv düşüncədir. Hiss və duyğunun öz yeri var, məntiq və dəlilin öz yeri və insan şəxsiyyətinin formalaşmasında onların hər birinin öz yeri var. Bir çox məsələləri hiss və məhəbbətlə həll etmək lazımdır və onlarda məntiq və dəlilin yeri yoxdur. Əgər siz peyğəmbərlərin hərəkatına nəzər salsanız, görərsiniz ki, Peyğəmbərlər göndəriləndə və ilk mərhələdə onların başına bir dəstə adam yığılanda əsas amil məntiq və dəlil deyildi. Siz həzrət Peyğəmbərin (s) aydın şəkildə yazılmış tarixində harada görmüsünüz ki, o həzrət Qüreyş kafirlərindən, məsələn, istedadı olanları öz yanında otuzdursun və onlara dəlil gətirsin və "bu dəlilə görə Allah var", yaxud "bu dəlilə əsasən, Allah təkdir", yaxud "bu əqli dəlilə əsasən sizin ibadət etdiyiniz bütlər batildirlər" desin?! Dəlil sübutdan hərəkat irəliləyəndən sonra istifadə edilir. Birinci mərhələdə hərəkat hiss və duyğulara əsaslanır. İlk mərhələdə qəfildən belə fəryad qoparırlar: "Bu bütlərə baxın və onların aciz olduğunu görün". İlk mərhələdə deyir ki, bilin, Allah-taala təkdir. "قولوا لا اله الا الله تفلحوا" "La ilahə illəllah deyin, nicat tapın!" Nə üçün "La ilahə illəllah" nicata səbəb olur? Burada hansı əqli və fəlsəfi dəlil var? Əlbəttə, hər bir səmimi hissdə fəlsəfi dəlil mövcud olur. Amma söhbət bundan gedir ki, Peyğəmbər (s) öz dəvətini başlamaq istəyəndə fəlsəfi dəlil gətirmir, səmimi hiss və duyğu ortaya qoyur. Əlbəttə, həmin səmimi hiss

[1] Tehranın cümə namazının xütbələrindəki çıxışdan. 04.III.1994

məntiqsiz və səhv hiss deyil, daxilində dəlil də olan bir hissdir. O, əvvəl diqqəti cəmiyyətdə mövcud olan zülmlərə, sinfi ziddiyyətlərə, insan və cinlərdən olan "انداد الله" – Allaha şərik qoşulanlara, Allah düşmənlərinin camaata göstərdikləri təzyiqlərə yönəldir. Bu, həmin hiss və duyğulardır. Əlbəttə, hərəkat özünün əqli və adi yoluna düşəndən sonra məntiqi dəlil gətirməyin vaxtı çatır. Yəni əqli dözümlülük və intellektual tərəqqiyə malik olanlar yüksək dəlillərə çatırlar. Lakin bəziləri elə ibtidai həddə qalırlar. Əlbəttə, dəlil baxımından yüksək həddə olanların mənəvi baxımdan da yüksək həddə olmaları məlum deyil. Xeyir! Bəzən dəlil baxımından aşağı həddə, emosiya baxımından isə yüksək həddə olanların qeyb aləmi ilə əlaqələri daha çox, həzrət Peyğəmbərə (s) sevgiləri daha artıq və güclü olur və onlar daha yüksək məqamlara yüksəlirlər. Məsələ belədir.

Mənəvi hərəkatlarda hissin öz payı və yeri var. Nə hiss dəlilin yerini tutur, nə də dəlil hissin yerində otura bilər. Aşura hadisəsi öz zat və təbiətində səmimi hislərin təlatüm dəryasıdır. Uca, pak, nurlu və ilahi şəxsiyyətində zərrəcə tərəddüd olmayan şəxs cəmiyyətin zülm, sitəm və düşmənlikdən xilas edilməsi üçün doğruluğunda dünyanın bütün insaflı insanlarının yekdil nəzərdə olduqları heyrətamiz hərəkatına başlayaraq belə deyir: "ايها الناس ان رسول الله صلى الله عليه و آله و سلم قال: من رأى سلطاناً جائراً..." "Camaat! Həzrət Peyğəmbər (s) buyurub: Əgər kimsə zalım hakimin ... görsə ..."[1] Söhbət bundan gedir. İmam Hüseyn (ə) öz hərəkatının fəlsəfəsinin zülmlə mübarizə olduğunu bəyan edib: "يعمل فى عباد الله بالاثم و العدوان" "(Əgər kimsə zalım hakimin) ... Allahın bəndələri ilə günah və ədavətlə davrandığını görsə..." söhbət dünyanın bütün insaflı şəxslərinin qəbul etdiyi müqəddəs hədəflərdən gedir. Belə bir şəxs, belə bir hədəf yolunda ən ağır mübarizəyə qatlaşır.

**Mübarizələrin ən çətini qəribcəsinə aparılan mübarizədir**

Ən çətin mübarizə qəribcəsinə aparılan mübarizədir. Dostların səs-küyü və ümumi xalq kütləsinin alqışı arasında öldürülmək elə də çətin deyil. İslamın ilk dövrlərinin müharibələrinin birində haqq ilə batil ordusu qarşı-qarşıya gələndə və Peyğəmbər (s) və Əmirəl-möminin (ə) kimi şəxsiyyətlər haqq ordusunun başında dayananda Peyğəmbər (s) öz qoşunundan soruşub ki: kim meydana gedib düşmən qoşununun filan məşhur döyüşçüsünü məhv edə bilər? İslam ordusundan bir gənc könüllü olaraq özünün bu işə hazır olduğunu bildirib. Peyğəmbər (s) onun başına əl çəkib, onu meydana yola salıb, müsəlmanlar da onun üçün dua ediblər. O, döyüş meydanına gedib, cihad edib və öldürülüb. Bu, bir növ öldürülmək, bir növ cihaddır. Cihadın bir növü də budur ki, insan döyüş meydanına gedəndə cəmiyyət onu ya inkar edir, ya tanımır, ya ondan uzaqlaşır, ya da onun qarşısında dayanır. Onu qəlblərində alqışlayanların da – belələrinin sayı azdır – həmin alqışı dilə gətirmək cürəti olmur.

İmam Hüseynin (ə) Aşura hadisəsində hətta özləri də Bəni-Haşim xanədanından – bu pak nəsildən olan Abdullah ibn Abbas və Abdullah ibn Cəfər kimi şəxslərin Məkkə və ya Mədinədə ayağa qalxıb fəryad qoparmaq və İmam Hüseynin (ə) adına şüarlar səsləndirmək cürəti olmur. Bu mübarizə qəribcəsinə olan bir mübarizədir və qərib mübarizə mübarizələrin ən çətinidir. Hamı adama düşmən olur, hamı adamdan üz döndərir. İmam Hüseynin (ə) mübarizəsində hətta bəzi dostlar da üz döndərmişdilər. İmam onların birinə belə buyurub: "Gəl mənə kömək et". O da kömək etmək əvəzinə, İmama öz atını göstərərək deyib: "Mənim atımdan istifadə et".

Bundan böyük qəriblik və bundan qəribcəsinə mübarizə ola bilərmi?! Hələ bu qərib mübarizədə o həzrətin gözünün qabağında ən əziz adamları – oğulları, qardaşı oğulları, qardaşları, əmisi oğlanları – qurban gedir, Bəni-Haşimin bu gülləri pər-pər olur, gözünün qabağında yerə sərilir, İmamın hətta altı aylıq oğlu da öldürülür!

O, bütün bu müsibətlərdən əlavə, bunu da bilir ki, canı mübarək bədənindən çıxan kimi müdafiəsiz ailəsi hücuma məruz qalacaq; bilir ki, ac canavarlar az yaşlı və cavan qızlarına hücum edəcək, onları qorxudacaq, mallarını qarət edəcək, onları əsir götürəcək və onlara hörmətsizlik edəcəklər; bilir ki, Əmirəl-möminin (ə) islam dünyasının böyük şəxsiyyətlərindən olan əziz qızı Zeynəbi-kübraya (ə) qarşı hörmətsizlik edəcəklər. O bunları da bilir.

Bunların hamısına onun özünün və ailəsinin susuzluğunu da əlavə edin: Azyaşlı uşaqlar susuz, qız uşaqları susuz, qocalar susuz, hətta süd əmər körpə susuz. Siz bu mübarizənin nə qədər çətin olduğunu təsəvvür edə bilərsinizmi? Göyün mələklərinin, simasına tamaşa etmək üçün bir-birini ötməyə çalışdığı və təbərrük etmək məqsədi ilə tamaşa etmək istədikləri, peyğəmbərlər və övliyaların, məqamını arzuladıqları belə bir ülvi, pak, təmiz və nurlu şəxs – Hüseyn ibn Əli (ə) belə bir mübarizədə, belə bir çətinlik və möhnət içində şəhid olur. Belə

---

[1] Biharul-ənvar, c. 44, s. 382 "Camaat! Həzrət Peyğəmbər (s) buyurub: Əgər kimsə zalım hakimin Allahın haramını halal etdiyini, Allahın əhdini pozduğunu, Peyğəmbər sünnəsinə qarşı çıxdığını, Allahın bəndələri ilə günah və ədavətlə davrandığını görsə və öz dil və əməli ilə ona qarşı bir iş görməsə, həmin şəxsi o zalım gedən yerə aparmaq Allah-taalanın haqqıdır".

bir şəxsiyyətin şəhid olması heyrətləndirici bir hadisədir. Bu hadisədən təsirlənməyən bir insan varmı?! Bu hadisəni bilən və başa düşən, amma ona ürək bağlamayan bir insan varmı?!

Bu, Aşura gününün günorta vaxtından – nəql edilmiş hədisə əsasən, Zeynəbi-Kubra (ə) "Təlli-Zeynəbiyyə"yə çıxıb həzrət Peyğəmbərə (s) xitab edərək " **يا رسول الله! صلى عليک ملائکة السماء: هذا حسينک مرمل بالدماء و مقطع الاعضاء مصلوب العامة و الرداء**" "Ya Rəsuləllah! Ey göydə olan mələklərin salam göndərdiyi kəs! Bu sənin, qanına boyanmış, əzaları kəsilmiş, əmmamə və əbası oğurlanmış Hüseynindir!" buyurduğu vaxtdan başlayan qaynar çeşmədir. O, İmam Hüseynə (ə) rövzə oxumağa başlayıb və hadisəni – düşmənlərin gizli saxlamaq istədikləri hadisəni – uca səslə yaymağa başlayıb. İmamın əziz bacısı istər Kərbəlada, istər Kufədə, istər Şamda və Mədinədə uca səslə Kərbəla hadisəsini bəyan edib. Bu çeşmə həmin gündən qaynamağa başlayıb və bu günə kimi qaynamaqda davam edir. Bu, Aşura hadisəsidir.

**İmam Hüseynin (ə) əzadarlıq və yad edilmə məclisləri şiə cəmiyyətinin ən böyük nemətlərindəndir**

Bəzən insan hansısa bir nemətə malik olmur və malik olmadığı nemətə görə ondan sorğu-sual da edilmir. Lakin bəzən adam hansısa bir nemətə malik olur və ondan malik olduğu nemətə görə sorğu-sual edilir. Şiə cəmiyyəti üçün ən böyük nemətlərdən biri İmam Hüseynin (ə) yad edilməsi, yəni əza məclisləri, məhərrəm və Aşura nemətidir. Təəssüf ki, bizim qeyri-şiə müsəlman qardaşlarımız özlərini bu nemətdən məhrum ediblər. Lakin onlar bu nemətdən bəhrələnə bilərlər və buna imkan da var. Əlbəttə, dünyanın bəzi yerlərində bəzi qeyri-şiə müsəlmanlar da məhərrəm və Aşuranı yada salırlar. Lakin bu onların arasında bizim aramızda olan lazımi səviyyədə geniş yayılmayıb.

İndi bizim aramızda məhərrəm və Aşuranın yada salınması və İmam Hüseynin (ə) xatirəsinin əziz tutulması geniş yayılıb, amma bəs biz bu yadasalma, xatırlama və ildönüm mərasimlərindən necə istifadə etməliyik və bu nemətin şükürü nədir? Bu mənim sual formasında irəli sürmək istədiyim məsələdir və ona siz cavab verin.

**Azğın rejim rəhbərlərinin məhərrəm ayının gəlib çatmasından vahiməyə düşməsi**

Bu əzəmətli nemət islamı iman qaynağının mənbəyinə birləşdirir. O, tarix boyu zalım hakimlərin Aşuradan qorxmalarına səbəb olub. Onlar İmam Hüseynin (ə) nurlu qəbrindən qorxublar. Aşura hadisəsi və onun şəhidlərindən qorxmaq Bəni-Üməyyə xəlifələrinin zamanından başlayıb və bizim zamanımıza kimi gəlib çatıb. Siz onun bir nümunəsini bizim öz inqilabımız zamanı görmüsünüz. Məhərrəm ayı gəlib çatanda mürtəce, kafir, pozğun və ağzın Pəhləvi rejimi öz əl-qolunun bağlandığını və mübariz Aşura davamçılarına qarşı bir iş görə bilməməsinin şahidi olurdu. Əslində, həmin quruluşun məsul şəxsləri məhərrəm ayının gəlib çatmasından doğan acizliklərini dərk edirdilər. O nəhs rejimdən qalan arxiv sənədlərdə bəzi işarə və hətta aşkar məlumatlar qeyd edilib və onlardan belə məlum olur ki, onlar məhərrəm ayı gəlib çatanda özlərini tamamilə itirirlərmiş. İmam Xomeyni – o müdrik, gözüaçıq, dinşünas, dünyaşünas və insanşünas şəxsiyyət çox yaxşı başa düşürdü ki, bu hadisədən İmam Hüseynin (ə) hədəfinin gerçəkləşdirilməsi istiqamətində istifadə etmək lazımdır və o bunu etdi də.

**İmam Hüseynin (ə) hədəflərini gerçəkləşdirmək üçün məhərrəm ayından faydalanmaq**

...Camaat gərək İmam Hüseynin (ə) əzadarlıq məclislərində ixlasla və ondan bəhrələnmək məqsədi ilə iştirak etsin, vaxt keçirmək üçün, yaxud avamcasına axirət savabına görə – heç bu axirət savabının haradan gəldiyini də bilmədən – yox.

Həmin məclislərdə iştirak etməyin axirət savabının olması şübhəsizdir. Amma əzadarlıq məclislərinin axirət savabının olması hansı cəhətdəndir və nə üçündür? Şübhəsiz, o , elə bir cəhətə aiddir ki, həmin cəhət olmasa, həmin savab da olmaz. Bəziləri bu cəhəti başa düşmür. Bu məclislərdə gərək hamı iştirak etsin, əzadarlıq məclislərinin qədrini bilsin, bu məclislərdən faydalansın və bu məclisləri özü ilə Hüseyn ibn Əli (ə), Peyğəmbər Əhli-beyti, islamın ruhu və Quran arasında ruh və qəlbi ilə möhkəm bağlılığın yaranma vasitəsi etsin.

**Əzadarlıq məclislərində ruhanilərin təhlükəsi vəzifəsi**

Ruhanilərin vəzifəsinə gəldikdə, məsələ daha da ağırdır. Çünki əzadarlıq məclisləri bir dəstə adamın bir yerə toplaşması və bir ruhaninin onların arasında əzadarlıq keçirməsi və başqalarının da onun əzadarlıq keçirməsindən bəhrələnməsi üzərində qurulub. Ruhani necə əzadarlıq edəcək? Bu mənim məsələdə məsuliyyət hiss edən bütün şəxslərə ünvanladığım sualdır.

**Əzadarlıq məclisləri üçün lazım olan üç xüsusiyyət**

Mənim nəzərimcə, İmam Hüseynin (ə) əzadarlıq məclisləri üç xüsusiyyətə malik olmalıdır:

İlk xüsusiyyət bu qəbildən olan məclislərin Əhli-beyt (ə) məhəbbəti artırması olmalıdır. Çünki mənəvi əlaqə çox qiymətli bir əlaqədir. Gərək siz ruhanilər elə bir iş görəsiniz ki, qeyd edilən məclislərdə iştirak edənlərin Hüseyn ibn Əliyə (ə), Peyğəmbər Əhli-beytinə (ə) və ilahi bilik qaynaqlarına məhəbbəti gün-gündən artsın. Əgər siz qeyd edilən məclislərdə – Allah eləməmiş – iştirakçı və ya məclisdən kənar şəxsin mənəvi baxımdan Əhli-beytə (ə) yaxınlaşmamasına, əksinə, uzaqlaşmasına və bezməsinə səbəb olacaq bir vəziyyət yaratsanız, onda həmin məclislər özünün ən böyük faydalarından birini itirməkdən əlavə, həm də ziyanlı olacaq. İndi siz həmin məclisin təşkiledicisi və ya natiqi olaraq baxın görün, insanların həmin məclislərdə iştirak etmək nəticəsində Hüseyn ibn Əli (ə) və Peyğəmbər Əhli-beytinə (ə) qarşı məhəbbətlərinin artması üçün nə işlər görə bilərsiniz.

Həmin məclislərdə yaranması lazım olan ikinci xüsusiyyət insanların Aşura hadisəsinin mahiyyəti barədə daha aydın məlumat əldə etməsidir. Belə olmasın ki, biz Hüseyn ibn Əlinin (ə) məclislərində minbərə çıxaq, çıxış edək, amma söhbətin mövzusu düşüncə əhli olan – bu gün bizim cəmiyyətdə belələri çoxdur və bu, inqilabın bərəkətlərindəndir – gənc və qeyri-gənc, kişi və qadın olmasından asılı olmayaraq, hər bir kəsi "biz bu məclisə gəldik və ağladıq, amma nə üçün? Nə baş verib? Nə üçün İmam Hüseynə (ə) ağlamaq lazımdır? Ümumiyyətlə, İmam Hüseyn (ə) Kərbəlaya nə üçün getdi və Aşuranın yaranmasına səbəb oldu?" fikrinə qərq etsin. Buna görə də siz minbər əhli və natiq olaraq bu suallara cavab verən mövzulara toxunmalısınız. Gərək insanlarda Aşura hadisəsinin mahiyyəti barədə bilik yaransın. Əgər sizin oxuduğunuz rövzədə, etdiyiniz çıxışda, yaxud dediyiniz digər məsələlərdə aydınlaşdırıcı məsələlər olmasa, yaxud heç olmasa bu mənaya işarə edilməsə, qeyd etdiyim üç əsasın biri çatışmayacaq. Yəni ola bilər qeyd edilən məclislər lazımi faydanı verməsin, hətta ola da bilər, Allah eləməmiş, bəzi hallarda ziyana da düşək.

Bu məclislərdə olması lazım olan üçüncü xüsusiyyət insanların dini iman və idrakının artmasıdır. Gərək bu məclislərdə dindən dinləyici iman və idrakın daha da artmasına səbəb olan məsələlərə toxunulsun. Yəni natiq və vaizlər gərək öz çıxışlarında düzgün bir moizədən, səhih bir hədisdən, səhih tarixi ibrətamiz hekayədən, Quranın bir ayəsinin təfsirindən, yaxud hansısa böyük islam alimindən bir sitat gətirsinlər və bunu məclis iştirakçılarına çatdırsınlar. Daha minbərə çıxıb ləffazlıq edib danışmayaq və bir şey deyəndə də dediklərimiz qulaq asanların imanını nəinki gücləndirməyən, əksinə, zəifdən süst məsələlər olmasın. Əgər biz elə etsək, qeyd edilən məclislərdən nəzərdə tutulan xeyri əldə etməyəcək, hədəfə çatmayacağıq.

**Bəzi əzadarlıq məclislərində bəzi qeyri-mötəbər məsələlərin deyilməsi təəssüf doğurur**

Təəssüflə qeyd etmək istəyirəm ki, bəzən belə hallara rast gəlinir. Yəni hər hansı bir məclisdə natiq həm dəlil, əqli və nəqli əsas baxımından süst olan, həm də gözüaçıq, məntiq və dəlil əhli olan dinləyiciyə təsir baxımından dağıdıcı təsir bağışlayan məsələlər nəql edir. Məsələn, hansısa bir kitabda yalan olmasına dəlilimiz olmayan bəzi məsələlər yazılıb. O, düz də ola bilər, yalan da. Əgər siz həmin məsələni nəql edirsinizsə – hətta onun həqiqətə zidd olması qəti olmasa belə – və onu eşidən tələbə, şagird, döyüşçü, ya inqilabçı gəncin zehnində – Allaha şükür olsun ki, inqilab zehinləri açıb – dinə qarşı sual, irad və kin yaranırsa, həmin məsələ, onun sənədi hətta səhih olsa da, nəql edilməməlidir. O, azğınlıq və sapıntıya səbəb olduğu üçün siz onu nəql etməməlisiniz. Halbuki bəzi kitablarda qeyd edilən həmin məsələlərin çoxunun heç səhih sənədi də yoxdur. Bir nəfər bir başqasından eşidir ki, mən filan səfərdə filan yerdə olanda, filan hadisə baş verib. Natiq sənədli və ya sənədsiz belə bir şey nəql edir. Onu eşidən də ona inanır və onu bir kitabda yazır. Həmin kitab da mənim və sizin əlinizə keçir. Mən və siz nə üçün böyük kütlə arasında gözüaçıq, sayıq və agah zehinlər üçün izah edilə bilməyən məsələni bəyan etməliyik? Məgər adam harda nə yazılıbsa oxuyub danışmalıdır?!

Bu gün ölkənin bütün gənclərinin – qız və oğlandan tutmuş kişi və qadına kimi, hətta gənc olmayanların – zehni açıqdır. Əgər dünən – inqilabdan qabaq – bu xüsusiyyət ancaq tələbə gənclərdə var idisə, bu gün ancaq onlara məxsus deyil və məsələlərə hamı açıq gözlə və bəsirətlə baxır və başa düşmək istəyir. Bizim müasir cəmiyyətdə baş verən mədəni hadisənin mühüm bir hissəsi onların şübhələrin hədəfinə tuş gəlməsidir. Yəni düşmənlər onlara şübhə yaratmaqla məşğul olurlar. Heç düşmənlər də yox, mənim və sizin fikirlərinizi inkar edənlər şübhə yaradırlar. Məgər "kim bizim fikrimizi qəbul etmirsə lal olsun, danışmasın və heç bir şübhə yaratmasın" demək olar? Məgər bunu demək olar?! Hər halda onlar danışır, söz yayır, tərəddüd yaradır, şübhə salırlar. Əsas odur ki, sizin dedikləriniz şübhəni aradan götürsün və onu daha da artırmasın.

Bəziləri bu mühüm məsuliyyəti nəzərə almadan minbərə çıxır və elə sözlər danışırlar ki, o, dinləyicinin zehnindəki düyünü nəinki açmır, əksinə, onun zehninə əlavə düyünlər də vurur. Əgər belə bir şey baş versə və biz minbərdə on, beş, hətta bir nəfərin din işləri barədə tərəddüdə düşməsinə və durub xütbəmizi tərk etməsinə səbəb olan bir söz desək və mənfi təsir göstərdiyimiz həmin şəxsin kimliyini bilməsək, bunu sonra necə düzəltmək olar? Ümumiyyətlə, bunu düzəltmək mümkündürmü? Allah buna görə bizi bağışlayar? Çətin məsələdir.

Məhərrəm ayı məclislərində bu üç xüsusiyyət olmalıdır: 1) Hüseyn ibn Əliyə və Peyğəmbər Əhli-beytinə (ə) qarşı məhəbbət artırmalıdır, mənəvi əlaqə və bağlılığı daha da artırmalıdır. 2) Aşura hadisəsi barədə dinləyiciyə aydın baxış verməlidir. 3) Dini maarif barədə həm idrak, həm də iman – hətta kəmiyyət baxımından olsa belə – yaratmalıdır. Biz bütün minbərlərin bu xüsusiyyətlərin hamısına malik olması və bütün mövzulara toxunmalı olduğunu demirik. Xeyir! Əgər siz mötəbər bir kitabdan bir səhih hədis nəql edib onun mənasını izah etsəniz kifayətdir. Bəzi minbər əhli bir hədisi o qədər şaxələndirirlər ki, onun əsil mənası itir. Əgər siz dinləyiciyə bir səhih hədisi düzgün izah etsəniz, bizim istədiyimiz şeyin mühüm hissəsinə malik ola bilərsiniz. Əgər siz mötəbər bir təbir ilə bir Quran ayəsi barədə fikirləşib araşdırma aparsanız və onu xülasə edib dinləyiciyə çatdırsanız, məqsəd hasil olar. Əgər siz rövzə demək üçün mərhum Mühəddis Quminin "Nəfəsul-Məhmum" kitabını açıb üzündən oxusanız, bu, dinləyicini ağladacaq və o, həmin coşqun hissi yaradacaq. Bizim guya məclisi gözəlləşdirmək üçün əzadarlıq məclisinin öz həqiqi fəlsəfəsindən uzaqlaşmasına səbəb olan iş görməyimizə nə lüzum var?!

**Qəmə vurmaq və məsum imamların (ə) hərəmində sinə üstündə sürünmək kimi bəzi səhv işlərin yenidən rəvac tapmasından narahatlıq**

Mən İslamın zühuru və parlaması, İslam və Əhli-beyt (ə) düşüncəsinin təzahür dövrü olan indiki zamanda, Allah eləməmiş, öz vəzifəmizə əməl edə bilməməyimizdən həqiqətən qorxuram. Bəzi işlər var ki, onlarla məşğul olmaq insanları Allaha və dinə yaxınlaşdırır. Onlardan biri ənənəvi əzadarlıq məclisləridir ki, insanların dinə daha çox yaxınlaşmalarına səbəb olur. İmam Xomeyni bu yaxınlaşdırmanı nəzərə alaraq "ənənəvi şəkildə əzadarlıq edin" deyirdi. Əzadarlıq məclislərində oturmaq, rövzə oxumaq, ağlamaq, baş və sinə vurmaq, süvarilərdən ibarət əzadar qruplar və əzadarlıq dəstələri yaratmaq insanlarda Peyğəmbər Əhli-beytinə (ə) məhəbbət yaradır və bu, çox yaxşıdır. Bunun müqabilində bəzi işlər də var ki, onlarla məşğul olmaq bəzi insanları dindən uzaqlaşdırır.

Mən çox təəssüflə qeyd etmək istəyirəm ki, son üç-dörd ildə məhərrəm ayında əzadarlıq mərasimləri ilə bağlı bəzi səhv işlərə rast gəlinir və onları cəmiyyətdə bəziləri yayıblar. Onlar elə işləri yayır və rəvac verirlər ki, onu görən hər bir kəsdə sual yaranır. Məsələn, qədimdə cəmiyyətin ümumi kütləsi əzadarlıq günlərində öz bədəninə qıfıl vurardı və bu onların arasında adət halı almışdı. Əlbəttə, bir müddətdən sonra böyük şəxsiyyət və alimlər bu işi qadağan etdilər və bu səhv adət aradan qalxdı. Amma indi yenə həmin adəti yaymaqla məşğuldurlar və mən eşitdiyimə görə ölkənin bəzi yerlərində bəzi adamlar öz bədənlərinə qıfıl vururlar. Nəyə görə bəziləri bu səhv işi yaymaqla məşğuldurlar!?

Qəmə vurmaq da o qəbildəndir. Qəmə vurmaq da səhv işlərdəndir. Mən bilirəm, bəziləri deyəcəklər ki, "kaş filankəs qəmənin adını çəkməyəydi". Həmçinin deyəcəklər ki, "sizin qəmə vurmaqla nə işiniz var? Bir dəstə qəmə vurur, qoyun vursun". Xeyr, bu səhv işin qarşısında susmaq olmaz. Əgər qəmə vurmağı müharibədən sonrakı bu dörd-beş ildə yaydıqları və indi də yaymağa davam etdikləri kimi imam Xomeyninin sağlığında yaysaydılar, şübhəsiz, o bu işə qarşı çıxardı və mane olardı. Bəzilərinin əlinə qəmə alıb başına vurub qan çıxarması səhv işdir. Onların bu işi görməkdə məqsədi nədir? Bu işin harası əzadarlıqdır?! Bəli, əli başa vurmaq bir növ əzadarlıqdır. Siz dəfələrlə görmüsünüz, başlarına müsibət gələn şəxslər öz başlarına və sinələrinə vururlar. Bu, adi əzadarlıq nişanəsidir. Amma siz indiyə kimi harada görmüsünüz ki, kimsə ən əziz adamının müsibətinə görə qılıncla öz başına vursun və öz başından qan çıxarsın?! Bu işin harası əzadarlıqdır?! Qəmə vurmaq qondarma adətdir. O, dinə aidiyyəti olmayan işlərdəndir və onun yerinə yetirilməsinə, şübhəsiz, Allah da razı deyil. Qədim alimlərin əl-qolları bağlı idi və buna görə də "bu, səhv işdir" deyə bilmirdilər. Bu gün islamın hakimiyyəti və onun təzahür etdiyi gündür. Biz üstün islam cəmiyyətinin, yəni imam Zamanın (canımız ona fəda olsun), Hüseyn ibn Əlinin (ə) və Əmirəl-mömininin (ə) müqəddəs adı ilə öyünən Əhli-beyt (ə) aşiqləri toplumunun müsəlman və qeyri-müsəlmanların gözündə bir dəstə xurafatçı və məntiqsiz adam kimi təqdim edilməsinə səbəb olan iş görməməliyik. Mən, həqiqətən, hər nə qədər fikirləşdimsə gördüm ki, bu işin – qəmə vurmağın – səhv və bidət olmasını əziz xalqımıza çatdırmasam olmur. Bu iş edilməməlidir, mən buna razı deyiləm. Əgər kimsə özünü qəmə vuran kimi göstərsə, mən qəlbən ondan narazıyam. Mən bunu ciddi deyirəm. Əvvəllər bir neçə nəfər küncdə-bucaqda bir yerə toplaşaraq cəmiyyətin gözündən uzaq qəmə vururdu və onların işi bugünkü kimi görüntü yaratmaq deyildi. Heç kəsin onların işinin yaxşı və ya pis olması ilə işi yox idi. Çünki o, məhdud çərçivədə yerinə yetirilirdi. Amma biri də var Tehran və Qumda, yaxud Azərbaycan və ya Xorasan vilayətinin bəzi şəhərlərinin küçələrinin birində qəfildən neçə min nəfər adam peyda olur və qəmə, ya qılıcla öz başlarına zərbə vururlar. Bu, şübhəsiz, səhv işdir. İmam Hüseyn (ə) bu işə razı deyil. Mən bu heyrətamiz və səhv bidətləri bizim islami cəmiyyətə və inqilabi toplumumuza hansı düşüncələrin və haradan daxil etdiyini bilmirəm.

Son vaxtlar ziyarət barəsində də çox təəccüblü, qəribə və bizə yad bir adət qoyublar! Belə ki, imamların (ə) pak qəbirlərini ziyarət etmək istəyəndə ziyarətgahın həyətindən daxil olanda yerə uzanırlar və sinəsi üstə

sürünə-sürünə özlərini ziyarətgaha çatdırırlar. Bildiyimiz kimi, həzrət Peyğəmbərin (s) pak qəbrini, həmçinin İmam Hüseyn, imam Cəfər Sadiq, Musa ibn Cəfər, imam Rza və digər imamların pak qəbirlərini Mədinə, İraq və İranda hamı, eləcə də böyük alim və fəqihlər ziyarət ediblər. Heç eşitmisinizmi ki, imamlardan (ə), yaxud alimlərdən hansısa biri bir yeri ziyarət etmək istəyəndə ziyarətgahın qapısından qəbrin yanına kimi sinəsi üstündə sürünə-sürünə getsin?! Əgər bu iş bəyənilən, müstəhəb, məqbul və yaxşı olsaydı, onu bizim böyüklərimiz edərdilər. Lakin onlar bunu etməyiblər. Hətta nəql edirlər ki, böyük alim, güclü, dərin elmi və aydın zəkalı müctəhid – Ayətullah Burucerdi hətta müstəhəb olması ehtimalı olmasına baxmayaraq, ziyarətgahın kandarını öpməyi qadağan edərmiş. Ziyarətgahın kandarını öpməyin müstəhəb olması çox ehtimal ki, hədislərdə var. Bu, dua kitablarında var, zehnimdə qalana budur ki, ziyarətgahın kandarını öpmək barəsində hədis də var. Bu işin müstəhəb olmasına baxmayaraq, Ayətullah Burucerdi deyərmiş ki, düşmənlər bizim (qəbrə) səcdə etdiyimizi düşünməsinlər və şiələrə qarşı lazımsız söz-söhbət düzəltməsinlər deyə bunu etməyin. Lakin bu gün bəziləri Əli ibn Musa ər-Rzanın (ə) pak məqbərəsinə daxil olanda özlərini yerə atır və iki yüz metr yolu özlərini içəri çatdırana kimi sinəsi üstə sürünə-sürünə gedirlər. Bu düz işdir?! Xeyr, bu, səhv işdir. Ümumiyyətlə, bu, din və ziyarətə hörmətsizlikdir. Camaatın arasında bu kimi bidətləri kim yayır? Olmaya bu da düşmənin işidir?! Bunları camaata çatdırın və zehinləri işıqlandırın.

**İslam məntiqə əsaslanan din, şiəlik və islamın ən məntiqi izahıdır**

Din məntiqdir, islam məntiqdir və islamın ən məntiqi hissəsi şiənin islama verdiyi təfsir – güclü təfsirdir. Şiə mütəkəllimlərinin hər biri öz zamanında günəş kimi parlayıb və heç kəs onlara "sizin məntiqiniz zəifdir" deyə bilməyib. Belə mütəkəllimlərin – istər Mömin Taq və Hişam ibn Həkəm kimi imamların (ə) zamanında yaşayanlar olsun, istər Bəni-Nobəxt və Şeyx Müfid kimi imamlardan (ə) sonrakı dövrlərdə yaşayanlar, istərsə də mərhum Əllamə Hilli kimi sonrakı zamanlarda yaşayanlar – sayı çox olub. Biz məntiq və dəlil əhliyik. Siz baxın, görün şiəliyə aid məsələlər barəsində neçə güclü dəlilə əsaslanan kitablar yazılıb. Bizim zamanımızda yaşamış mərhum Şərəfüddinin kitabları, həmçinin Əllamə Əmininin "əl-Qədir" kitabı başdan-ayağa dəlil, dəmir və möhkəm betondur. Şiəlik budur, yoxsa heç bir dəlili olmayan, hətta xurafata daha çox oxşayan şeylər?! Nə üçün şiəliyə belə şeylər daxil edirlər? Bu, çox böyük bir təhlükədir və əqidə sərhədçiləri din və dini maarif aləmində ona diqqət etməlidirlər.

**Rəhbər heç nəyi nəzərə almadan sapıntılarla mübarizə aparmaq məsuliyyəti daşıyır**

Mən öncə də qeyd etdim, bəziləri bu sözü eşidəndə canıyananlıqdan "filankəs bu gün bu sözü deməsəydi, yaxşı olardı" deyəcəklər. Xeyir, mən bu sözləri deməliyəm. Mən başqalarından çox məsuliyyət daşıyıram. Əlbəttə, bunu başqaları da deməlidirlər, siz də deməlisiniz. İmam Xomeyni qabaqda gedən fədai idi, harada hansısa bir nöqtədə sapıntı görsəydi, var-gücü ilə və heç nəyi nəzərə almadan onu bəyan edərdi. Əgər bu bidətlər və səhvlər onun vaxtında olsaydı, yaxud onun vaxtında bu qədər yayılsaydı, şübhəsiz, (bunları o da) deyərdi. Bu məsələlərə ürək bağlamış bəziləri narahat olacaqlar ki, nə üçün filankəs bizim sevdiyimiz işə belə soyuq yanaşır və onun barəsində bu cür danışır. Əlbəttə, onların çoxu mömin, səmimi və heç bir pis niyyəti olmayan insanlardır, amma səhv edirlər. Hansı sahədə və harada olmağımızdan asılı olmayaraq, siz möhtərəm ruhani və alimlərin böyük vəzifəsi qeyd etdiyim məsələlərdir. Hüseynin (ə) əzadarlıq məclisi agahlıq mənbəyi olmalıdır, qeyd etdiyim üç xüsusiyyətin qaynağı olmalıdır[1].

**25.**

## Kərbəla hadisəsinin səbəbi ümmətin faciəli irticası[2] idi

**Həzrət Peyğəmbərin (s) vəfatından sonra yarım əsrin içində islami cəmiyyətin mahiyyətinin dəyişməsinin dəlillərinin araşdırılmasının vacibliyi**

Mən keçən il, Hüseyn ibn Əlinin (ə) yad edilməsi münasibəti ilə olan çıxışımda qeyd etdim ki, İmam Hüseynin başına gələn hadisə bir dərs olmaqdan əlavə, həm də bir ibrətdir. Dərs budur ki, o bizə "o həzrət o cür etdi, biz də gərək elə edək" deyir. İmam Hüseyn bütün bəşəriyyətə böyük bir dərs verib və o öz yerində çox əzəmətlidir. Amma dərsdən başqa digər bir şey də var və o, ibrətdir. İbrət insanın Hüseyn ibn Əlinin (ə) – camaatın gözü qarşısında Peyğəmbərin (s) o qədər hörmət etdiyi və barəsində "سيد شباب اهل الجنة" "Cənnət gənclərinin sərvəri" ifadəsi işlətdiyi həmin uşağın həzrət Peyğəmbərdən yarım əsr sonra həmin faciəli şəkildə

---

[1] Məhərrəm ayı astanasında Kohgiluyə və Boyer-Əhməd vilayətinin ruhaniləri ilə görüşdəki çıxışdan. 07.VI.1994

[2] "İrtica" sözünün lüğəvi mənası "arxaya qayıtmaq" və "geri dönmək"dir və burada məqsəd insanların keçmiş adət-ənənələrinə qayıtması, cahiliyyətə dönməsidir. – Tərc.

öldürülməsinin səbəbinə nəzər salmaqdır. Necə oldu ki, bu ümmət Hüseyn ibn Əlini onu həzrət Peyğəmbərin çiyninə minən görmüş və həmin sözləri Peyğəmbərin dilindən eşitmiş şəxslərin gözü qarşısında elə faciəli şəkildə öldürdü?! Bu, ibrətdir. Məgər Peyğəmbərin qızlarını fəth edilən qeyri-islami torpaqlardan əsir götürülmüş qızlar kimi gətirib küçə-bazarda gəzdirmək, Zeynəbi-kübra (ə) kimi bir şəxsiyyətə hörmətsizlik etmək zarafat idi? Necə oldu ki, iş gəlib bura çatdı? Bu həmin ibrətdir və o, dərsdən üstündür. İbrət tarix və hadisələrin dərinlik və xırdalıqlarına baxmaqdır.

**Həzrət Zeynəbin (ə) həmin dövrün insanlarının xəstəliyinə və "irtica" mikrobuna tutulmasına işarə etməsi**

İndi "irtica", yaxud "arxaya qayıtmaq" və "geri dönmək" barədə bunu qeyd etmək istəyirəm ki, elə həmin hadisədə Zeynəbi-kübra (ə) irtica məsələsinə toxunub. Yəni o, bu xəstəliyə işarə edərək Kufədə belə buyurub: "انما مثلكم كمثل اَلَّتِي نَقَضَتْ غَزْلَهَا مِنْ بَعْدِ قُوَّةٍ أَنْكَاثاً" "Siz öz ipini əyirdikdən və möhkəmləndirdikdən sonra açıb bir-birindən ayıran o qadın kimisiniz".[1] Siz yun və ya pambığı zəhmətlə sapa çevirən və sonra oturub çoxlu zəhmətlə həmin sapları pambıq və ya yuna çevirən şəxs kimisiniz. Bunun mənası "irtica" və geri dönməkdir. Zeynəbi-kubra bu mənaya işarə edib. Yəni bu təhlükə həzrət Musanın ümməti üçün təhlükəli olduğu qədər həzrət Peyğəmbərin ümməti üçün təhlükəlidir. Həzrət Peyğəmbərin isti nəfəsi hiss edilən dövrü ötüb keçəndən sonra bu hadisələrin baş verməsi zarafat deyil. Həzrət Peyğəmbərin – ilahi vəhyə bağlı olan bu insanın zamanında irili-xırdalı nə hadisə baş verirdisə, onun barəsində Quran ayəsi – açıq-aydın və heç bir qaranlığı olmayan ilahi vəhy nazil olurdu. İndi həzrət Peyğəmbərin bu quruculuğundan sonra tarixdə elə bir faciəli, ağrılı və yaddan çıxmayan faciə baş verib. Deməli, bu mikrob arxaya qayıtmaq, "irtica" və geri dönmək mikrobudur[2].

**26.**

## Dünyanın mövcud vəziyyətinin islah edilməsində İmam Hüseynin (ə) şəhidlik günəşindən istifadə etməyin gərəkliyi

**Aşuranın tarixi hadisələrə əsaslı və surətli təsiri**

Məhərrəm, Aşura və bu əzəmətli hadisənin təsirləri barədə dəyərli sözlər deyilib və biz eşidib onlardan faydalanmışıq. Lakin zaman keçdikcə hiss olunur ki, bu nurlu günəşin sönməz siması – onu Hüseyn ibn Əli (ə) və onun səhabələri tərəfindən işıqlandırılan "şəhidlik günəşi" və "məzlumcasına və qəribcəsinə edilmiş cihad günəşi" də adlandırmaq olar – daha çox üzə çıxır və Aşuranın bərəkətləri daha çox məlum olur. Onun əsaslı təsirləri bu hadisənin baş verdiyi ilk gündən tədricən məlum olmağa başlayıb. Həmin günlərdən başlayaraq bəziləri bir sıra vəzifələrinin olduğunu hiss ediblər. "Təvvabin" hadisəsi ortaya çıxıb, Bəni-Haşimin və Bəni-Həsənin (ə) uzun müddətli mübarizələri meydana gəlib, hətta sonra Bəni-Üməyyəyə qarşı yaranmış Bəni-Abbas hərəkatı ikinci hicri əsrinin ortalarında həmin dövrün İslam aləminin hər yerinə, xüsusilə İrana, İranın şərqinə – Xorasana – və digər yerlərə çağırışçılar göndərməklə zalım, lovğa və irqçi Əməvi hökumətinin devrilməsinə şərait yaradıb. Hətta sonda qələbə qazanan Abbasilər hərəkatı Hüseyn ibn Əlinin (ə) adı ilə bağlayıb.

Əgər tarixə nəzər salsanız, görərsiniz ki, Bəni-Abbasın çağırışçıları İslam dünyasının bölgələrinə gedəndə öz təbliğatlarını işə sala bilmək üçün Hüseyn ibn Əlinin (ə) qanından, o həzrətin şəhidliyindən, Peyğəmbər balasının və Fatimeyi-Zəhranın (ə) ciyərinin bir parçasının intiqamının alınmasından istifadə ediblər. Camaat da onların dediklərini qəbul edib. Hətta yadımda olan budur ki, Bəni-Abbasın özünə şüar seçdiyi qara paltar İmam Hüseynin matəm libası kimi seçilmişdir. Sonralar Bəni-Abbasın beş yüz illik hakimiyyəti dövründə həmişə onların rəsmi geyimi qara paltar olub. Qara paltardan ilk dəfə İmam Hüseynə (ə) əzadarlıq münasibəti ilə istifadə edilib. Onlar belə deyirdilər: "هذا حداد آل محمد صلى الله عليه و آله" Yəni bu, Peyğəmbər övladının matəm libasıdır. Onlar hərəkata belə başladılar və həmin dəyişikliyi yaratdılar. Əlbəttə, sonra onlar da düz yoldan çıxdılar və Bəni-Üməyyənin işini onlar da davam etdirdilər....

**Bütün əsr və zamanlarda Aşura irsindən hər bir batilə qarşı istifadə etməyin gərəkliyi**

İndi biz və siz bu tarixi hadisənin əmanətdarı və varisiyik. Bu gün eləələri var ki, Aşura hadisəsini bir dərs, xatirə və izah kimi alim və ruhanilərin, kişi və qadın təbliğatçıların dilindən eşitmək istəyirlər. Biz bu barədə nə edəcəyik? Burada biz gəlib çox mühüm təbliğat məsələsinə çatırıq. Əgər nə vaxtsa bu gənc din tələbələri, elmi-

[1] Lühuf (fars dilinə tərcümə edibmiş çapı), s. 146. Bu cümlə birbaşa "və öz ipini əyirdikdən və möhkəmləndirdikdən sonra açıb bir-birindən ayıran o qadın kimi olmayın" (Nəhl surəsi, ayə 92) ayəsinə işarədir.

[2] "İnqilab Keşikçiləri Korpusu günü" münasibəti ilə İslam İnqilabı Keşikçiləri Korpusunun komandir və üzvləri ilə görüşdəki çıxışdan. 05.I.1995

dini mərkəzlərin möhtərəm alimləri, təbliğatçılar, vaizlər, məddah və rövzəxanlar Aşura hadisəsindən bütün bəşəriyyətin başının üstünü almış zülmətə qarşı mübarizə vasitəsi kimi istifadə edə və bu kəsici ilahi ülgüc ilə zülmətlərin pərdəsini yırta və həqiqət günəşini islamın hakimiyyəti formasında aşkar edib üzə çıxara biliblərsə – bu həqiqət bizim zamanımızda baş verib – nə üçün təbliğatçı, natiq və din alimlərindən bütün əsr və zamanlarda – düşmənin təbliğatı nə qədər güclü və geniş olsa və zülmət nə qədər şiddətli olsa da – istənilən batilə qarşı əllərində haqq qılıncı, Əlinin Zülfüqarı və bayrağı tutmalarını və ondan istifadə etmələrini gözləməməliyik?!

Biz bunu nə üçün qeyri-mümkün hesab etməliyik?! Düzdür, bu gün düşmənin təbliğatı bəşəriyyətin zehnini bütünlüklə işğal edib. Bunda heç bir şəkk-şübhə yoxdur. Düzdür, islamın, xüsusilə şiəliyin simasını korlamaq üçün böyük pullar xərclənilir. Düzdür, xalq və ölkələrin həyatında qeyri-qanuni mənafe olan hər bir kəs özünü islama və islam hökumətinə qarşı fəaliyyət göstərməyə borclu bilir; düzdür, küfr dünyası parçalanma və təfriqəyə düçar olmasına baxmayaraq, bütün imkanlardan istifadə edərək bir məsələdə yekdillik əldə edib və o, əsil islama qarşı çıxmaqdır. O, hətta təhrif edilmiş islamı da əsil islamla müharibəyə gətirib və meydana salıb. Bunların hamısı düzdür, amma məgər haqq tərəfi və əsil islam cəbhəsi Aşura və məhərrəmin ruh, ismarıc və həqiqətinin bərəkətindən bu ədavətli və xəbis təbliğat qarşısında həmin möcüzəni bir daha təkrara edə bilməz?! Niyə də edə bilməsin?! Çətindir, amma mümkündür. Əzmkarlıq və fədakarlıq lazımdır. Yol açıqdır, dalan deyil.

**İmam Hüseynin (ə) şəxsiyyət və əsl təlimləri müasir dünyanın imperializmdən xilaskarıdır**

Bizim və sizin məsuliyyətiniz budur. Bu gün dünya həqiqət teşnəsidir. Bu, bir ruhaninin və ya təəssübkeş islami şəxsin sözü deyil, əksinə, illərlə qərb mədəniyyəti ilə əlaqə, get-gəl və ünsiyyəti olan, hətta ona nikbinliklə baxanların sözüdür. Onlar deyillər ki, bu gün qərb dünyası həssas səviyyələrdə islam teşnəsidir. "Həssas səviyyə" nədir? Filan avam və nadan camaat, yoxsa güclü mənfəət güdən dəstələr, məsələn, hakimlər dövlət adamları, sərmayə və var-dövlət sahibləri? Bunlar qərb mədəniyyəti və qərb cəmiyyətinin hissiyyatsız və gec hiss edən hissələridirlər. Alimlər, mütəfəkkirlər, vicdanlı insanlar, ziyalılar və gənclər qərb cəmiyyətinin həssas hissələridirlər. Bu həssas hissələr bu gün onları həyatın minlərlə həqiqi çətinliyindən xilas edəcək məktəb və həyat dərsinin teşnəsidir. Həyatın çətinliklərinin çoxu həqiqi çətinlik deyil. Həqiqi çətinlik psixoloji təhlükə hissi, tənhalıq, depressiya, səbatsızlıq, inamsızlıq, ruhi sakitliyin olmamasıdır. Bunlar bəşəriyyətin həqiqi problemlədir ki, var-dövlət və məşhurluğun zirvəsində olmasına baxmayaraq, hər hansı bir şəxsi intihara vadar edir. Gənc və pullu, naz-nemət içində və həyat şəraiti yaxşı olan biri intihar edir, niyə? Onun dərdi nədir? Pulsuzluqdan, fiziki ləzzət və cinsi həzz imkanlarının olmamasından ağır dərd varmı? Bu gün dünyanın maddi cəmiyyətlərini və qərb mədəniyyətini bürüyən dərd xatircəmliyinin olmaması, aramsızlıq, mənəvi dayaq nöqtəsinin yoxluğu, insanlar arasında ünsiyyətin olmaması, qəriblik hissi və könlüsınıqlıqdır.

Bu dərdləri daha çox hiss edən cəmiyyətlərin həssas hissələri xilaskar əlin gəlib onları bu vəziyyətdən qurtarmasını gözləyirlər. Agahlıq olan yerlərdə gözlər islama dikilib.Əlbəttə, onların bəzisi məlumatsızlıqdırlar və islamı tanımırlar, amma onlarda islama meyil göstərmək üçün zəmin var. İslamı tanıyanlar isə konkret olaraq islamın üzərində dayanırlar. Bizim iranlı alimlərdən biri – eşitdiyimə görə həmin şəxs rəhmətə gedib – deyirdi ki, "bu gün qərb şeyx Ənsari və Molla Sədra kimi simalar axtarır". Onların həyat, mənəviyyat və dəyərləri bu gün qərbin alim və mütəfəkkirlərini özünə cəlb edir. Bu həqiqət və dəyərlərin zəngin mənbəyi islam maarifi və bu maarifin zirvəsində olan Aşuranın dərk edilməsidir. Bunların qədrini bilmək lazımdır. Biz indi bu maarifi dünyaya təqdim etmək istəyirik. Mən burada keçən il bizim çağırışımıza müsbət cavab verən və Aşura əzadarlığı səhifəsindən təhrif edilmiş bir hərəkəti çıxaran hər kəsə təşəkkürümü bildirməklə yanaşı, bir daha həmin məsələnin üzərində dayanmaq istəyirəm. Əzizlərim, ey Hüseyn ibn Əliyə (ə) imanı olan möminlər! Bu gün Hüseyn ibn Əli dünyanı xilas edə bilər. O şərtlə ki, bəziləri təhriflə onun simasını bulaşdırmasınlar. Təhrif edilmiş və səhv işlərin göz və qəlbləri İmam Hüseynin mübarək və nurlu simasından döndərməsinə imkan verməyin, təhriflə mübarizə aparın.

**Mötəbər vaqiəxanlığa[1] diqqət edilməsinin gərəkliyi və onun içində İmam Hüseynin (ə) hərəkatının hədəflərinin bəyan edilməsi**

Mən müxtəsər şəkildə iki məsələni qeyd etmək istəyirəm: Onların biri budur ki, Aşura və Hüseyn ibn Əlinin (ə) başın gələn hadisələr minbərdə ənənəvi rövzəxanlıq şəklində bəyan edilməlidir, amma bu, ənənəpərəstliyə görə deyil, "vaqiəxanlıq" yolu ilə olmalıdır. Yəni "Aşura gecəsi elə oldu, Aşura günü belə oldu, Aşura günü səhər belə oldu..." formasında. Bildiyiniz kimi, hər hansı bir böyük hadisə zaman keçdikcə unudulur. Lakin

[1] Baş vermiş hadisənin detalları ilə məxsus formada oxunması, rövzəxanlıq. – Tərc.

Aşura hadisəsi həmin bu oxumalar sayəsində xırdalıqlarına kimi qalıb: Filankəs gəlib İmam Hüseynlə (ə) belə vidalaşdı, meydana belə getdi, belə vuruşdu, belə şəhid oldu və bu sözləri dedi...

Vaqiəxanlıq mümkün qədər mötəbər, məsələn, ibn Tavusun "Lühuf", şeyx Müfidin "İrşad" və buna bənzər kitablar səviyyəsində olmalıdır, qondarma şeylərdən "vaqiəxanlıq" və rövzəxanlıq edilməməlidir. Rövzənin, söhbətin, məddahlığın, müsibət məzmunlu şeirlərin, növhə və sinəzənliyin, ibrətamiz söhbətlərin içində İmam Hüseynin (ə) başına gələn hadisə və o həzrətin hədəfi – yəni o həzrətin öz kəlamlarında olan hədəf – " انی لم اخرج اشراً و لا بطراً و لا ظالماً و لا مفسداً انما خرجت لطلب الاصلاح فی امة جدی" "mən məğrurluqdan, xoş güzəran üçün, zülm etmək və fəsad törətmək üçün qiyam etməmişəm. Mən yalnız cəddimin ümmətində islahat aparmaq üçün qiyam etmişəm"[1] – bəyan edilməlidir. Bu, bir sərlövhədir. "Camaat! Həzrət Peyğəmbər (s) buyurub: "Əgər kimsə zalım hakimin Allahın haramını halal etdiyini, Allahın əhdini pozduğunu ... görsə və öz dil və əməli ilə ona qarşı bir iş görməsə, həmin şəxsi o zalım gedən yerə aparmaq Allah-taalanın haqqıdır"[2] və " من كان باذلاً فينا مهجته و موطناً على لقاء الله نفسه فليرحل معنا" "kim canınını bizim yolumuzda qurban vermək istəyirsə və özünü Allaha qovuşmağa hazırlayıbsa, mənimlə səfər etsin"[3] kimi ifadələrin hər biri bir dərs və sərlövhədir.

Bu, "liqaullah" – Allaha qovuşmaq məsələsidir. Bəşəriyyətin yaradılışının və " إِنَّکَ كَادِحٌ إِلَى رَبِّکَ كَدْحاً فَمُلاَقِيهِ"[4] ayəsində deyilən hədəf – bu səy və zəhmətlərin hamısı Allaha qovuşmağa görədir. Əgər kiminsə məqsədi "liqaullah" –dırsa və özünü Allaha qovuşmağa hazırlayıbsa, "فليرحل معنا" "bizimlə hərəkət etsin", Hüseynlə yola düşməlidir. Evdə oturmaq olmaz, dünyaya və dünya malına yapışmaq və Hüseynin yolunu yaddan çıxarmaq olmaz. Gərək yola düşək. Öz batin və nəfsimizdən başlayan bu yola düşmə nəfsin təmizlənməsi ilə başlayır və cəmiyyət və dünyaya keçir.

Bunları demək lazımdır. Bunlar İmam Hüseynin hədəfləridir. Bunlar Hüseyn hərəkatının xülasəsi və məğzidir. Hüseyn hərəkatının xülasəsi budur ki, İmam Hüseyn (ə) bir gün, bütün dünyanın zülm və sitəmin hökmü altında olduğu, məhkum edildiyi və heç kəsin həqiqəti bəyan etmək cürəti olmadığı – mühit, yer, göy və zamanın qara və zülmət içində olduğu – bir halda ayağa qalxdı. Siz fikir verin, ibn Abbas İmam Hüseynlə getmədi, Abdullah ibn İmam Hüseynlə getmədi.

Mənim əzizlərim, bunun mənası nədir? Bu, dünyanın hansı vəziyyətdə olduğunun göstəricisi deyilmi? Həmin vəziyyətdə İmam Hüseyn tək-tənha idi. Əlbəttə, onlarla nəfər o həzrətin yanında və onunla birlikdə qaldı. Amma əgər onlar qalmasaydılar belə, o həzrət müqavimətini davam etdirəcəkdi. Məgər belə deyil?! Fərz edək ki, Aşura axşamı o həzrət "Mən sizin boynunuzdan beyətimi götürdüm, gedin" deyəndə hamı gedib, Əbülfəzl və Əli Əkbər də gedib və o həzrət tək qalıb. Onda Aşura günü nə baş verəcəkdi? O həzrət geri dönəcəkdi, yoxsa qalıb vuruşacaqdı? Bizim zamanımızda da bir nəfər peyda oldu və dedi ki, "əgər mən tək qalsam və bütün dünya qarşımda dayansa, yolumdan dönmərəm". O, imam Xomeyni idi, düz deyirdi və dediyinə əməl də etdi. "صَدَقُوا مَا عَاهَدُوا اللَّهَ عَلَيْهِ"[5] Bir şeyi dildə hamımız deyirik. Siz Hüseynçi və Aşuraçı bir insanın nələr etdiyinin şahidi oldunuz. Əgər biz hamımız Aşuraçı olsaq, dünya islahat istiqamətində hərəkət edər və haqqın mütləq Vəlisinin zühuruna zəmin yaranar. Gərək bu məna insanlara çatdırılsın. İmam Hüseynin hədəfini bəyan etməyi unutmayın. İndi adam, məsələn, əxlaqi bir hədis də oxuya, yaxud ölkə və ya dünyanın siyasətini izah da edə bilər. Bunlar lazımdır. Amma söhbət əsnasında mütləq elə danışmaq lazımdır ki, birbaşa, yaxud dolayısı ilə Aşura hadisəsi bəyan edilsin və qaranlıq qalmasın. Bu, (qeyd etmək istədiyim) birinci məsələ idi.

**İmam Hüseynin əzadarlıq məclislərində həqiqətlərin və islam maarifinin dirçəldilməsi**

İkinci məsələ budur ki, Hüseyn ibn Əli (ə) öz cihadı ilə islamı diriltdiyi kimi, biz də bu fürsətdən istifadə etməliyik. Əslində, islam Hüseyn ibn Əlinin (ə), qanı və hərəkətləri sayəsində dirilib. Bu gün siz də o həzrəti yad etməklə, onun adı və minbəri ilə islam həqiqətlərini bəyan edin, insanlara Quran və hədisləri tanıtdırın. Camaata Nəhcül-Bəlağəni oxuyun. İnsanlara islami həqiqətləri, o cümlədən bu gün haqq hökumətində, yəni Əli, Allahın vəlisi və peyğəmbərcəsinə olan İslam Respublikası quruluşunda təzahür edən bərəkətli həqiqəti bəyan edin. Bu, ən ülvi islam təlimlərindəndir. Bəziləri elə bilməsinlər ki, islamı bu torpaqda təzahür edən islam hökumətini yaddan çıxarmaqla da bəyan etmək olar. Bu bizim siz əzizlərə tövsiyəmizdir.

---

[1] Məqtəli-Müqrəm, s. 139, Biharul-ənvarın onuncu cildi, Məhəmməd ibn Əbu Talibin "Məqtəl" kitabına istinadən.
[2] Biharul-ənvar, c. 44, s. 382
[3] Biharul-ənvar, c. 44, s. 367
[4] İnşiqaq surəsi, ayə 6 "Şübhəsiz, sən öz rəbbinə doğru böyük bir səylə çalışıb çabalayırsan".
[5] Əhzab surəsi, ayə 23 "Allahla bağladıqları əhdə sədaqətlə vəfa etdilər".

**Gənc tələbə və təbliğatçıların ustadların təcrübələrindən istifadə etmək və bütün ölkə və dünyada həqiqətləri yaymaq vəzifəsi**

Allaha şükür olsun ki, siz möhtərəm cənabların, böyüklərin, xüsusilə gənc, enerjili, mömin və savadlı tələbələrin vücudunda bütün bərəkətlər var. O təbəqənin bu hərəkatı genişləndirdiyi və o mübarək hədisdən istifadə edib səhabələrini bal arısına bənzətdiyi ilk gün adamın gözünün önünə bu ayə gəlirdi: " **وَ أَوْحَى رَبُّکَ إِلَى النَّحْلِ أَنِ اتَّخِذِي مِنَ الْجِبَالِ بُيُوتاً وَ مِنَ الشَّجَرِ وَ مِمَّا يَعْرِشُونَ ثُمَّ كُلِي مِنْ كُلِّ الثَّمَرَاتِ فَاسْلُكِي سُبُلَ رَبِّکِ ذُلُلاً**"[1] Onlar həqiqətləri sorur və xalis balı həqiqət teşnələrinə verirlər: "**فِيهِ شِفَاءٌ لِلنَّاسِ**"[2] Bu gün də elədir. Bu gün də gənc tələbə, alim və təbliğatçılar bu sahənin ustad və böyüklərinin təcrübələrindən istifadə edərək öz yüklərini möhkəm bağlasınlar və Allaha ümid etməklə, Allaha xatir, Allah yolunda və Allaha yaxınlaşmaq niyyəti ilə gedib bu həqiqətləri ölkənin hər yerində, bütün nöqtələrində, dünyanın hər yerində münasib dillə bəyan etsinlər[3].

**27.**

## İmam Hüseynin (ə) əsas hədəfi quruluş və islami cəmiyyətin təməlini təzələmək olub

**İmam Hüseynin (ə) Mədinədən hərəkət edəndən Aşuraya kimi dediyi sözlərdə və mübarizəsində yüzdən artıq dərs mövcuddur**

Bu gün düşündüm ki, Aşura günü münasibəti ilə İmam Hüseyn (ə) hərəkatı barədə söhbət edim. Maraqlıdır, İmam Hüseynin (ə) xatirəsi bizim bütün həyatımızı doldurub, Allaha şükür. O həzrətin hərəkatı barədə də çox danışılıb. Lakin buna baxmayaraq, insan bu barədə hər nə qədər düşünürsə, fikir, bəhs, tədqiqat və araşdırma meydanının geniş olmasının şahidi olur. Bu böyük, heyrətamiz və misilsiz hadisə barəsində hələ deyiləsi çox söz var ki, biz onun haqqında düşünməli və müzakirə etməliyik.

Əgər insan bu hadisəyə diqqətlə baxsa, həzrət Hüseyn ibn Əlinin (ə) bir neçə aylıq səfərində – Mədinədən çıxıb Məkkəyə gələnə və daha sonra Kərbəlada şəhid olana kimi – yüzdən artıq mühüm dərsin olduğunu görər. Mən "minlərlə dərs" demədim, amma minlərlə dərsin olduğunu da demək olar. O həzrətin hər bir işarəsi bir dərs ola bilər. Lakin mənim "yüzdən artıq" deməyimin mənası budur ki, əgər biz bu işlərə diqqətlə yanaşsaq, ondan hər hansı bir ümmət, bir tarix və ölkə üçün, özünü tərbiyə etmək, cəmiyyəti idarə etmək və Allaha yaxınlaşmaq üçün yüz mövzu və başlıq çıxarmaq olar.

Buna görə də Hüseyn ibn Əli – canımız ona, onun ad və xatirəsinə fəda olsun – dünyada aləmin müqəddəsləri arasında günəş kimi belə parlayır. Peyğəmbərləri, övliyaları, imamları, şəhidləri və əməlisaleh insanları nəzərdə tutun. Əgər onlar ay və ulduz kimidirlərsə, o həzrət günəş kimi parlayır.

**İmam Hüseynin (ə) hərəkatının fəlsəfəsi və məqamı barəsindəki müxtəlif nəzərlərin araşdırılması**

Qeyd etdiyim yüz dərs bir kənara, İmam Hüseynin (ə) hərəkat və mübarizəsində əsas bir dərs də var ki, mən bu gün sizə onu izah etməyə çalışacağam. Onların hamısı haşiyədir, bu isə əsas mətndir. Nə üçün mübarizəyə qalxdı? Bu, dərsdir.

İmam Hüseynə (ə) deyirdilər ki: "Sizin Mədinə və Məkkədə hörmətiniz var, Yəməndə o qədər şiə var. Elə bir yerə gedin ki, orada nə sizin Yezidlə işiniz olsun, nə də Yezidin sizinlə. Bu qədər tərəfdar, bu qədər şiə var, yaşayın, ibadət edin, təbliğat aparın! Nə üçün mübarizəyə qalxdınız? Səbəb nədir?"

Əsas sual budur, əsas budur. Mən "bu məsələyə heç kəs toxunmayıb" demirəm. Deyiblər, hələ insafla desək, bu haqda çox iş görüblər, səylər göstəriblər, çox sözlər deyiblər. Amma nəzərimizcə, bizim bu gün qeyd etmək istədiyimiz məsələ bu hadisə barəsində yeni qənaət və yeni baxışdır.

Bəziləri belə deyir ki, o həzrət Yezidin pozğun hökumətini devirmək və özü yeni hökumət qurmaq istəyirdi və İmam Hüseyn (ə) mübarizəsinin hədəfi bu idi. Bu sözün yarısı düzdür. Mən onun (tamamilə) səhv olduğunu demirəm. Əgər bu sözdə məqsəd o həzrətin bir nəticə əldə edə bilmədiyini görəndə "alınmadı, daha qayıdaq" mənasında hökumət qurmaq üçün mübarizə etdiyini deməkdirsə, bu, səhvdir.

Bəli, hökumət qurmaq məqsədi ilə hərəkət edən şəxs həmin işin alınmaq ehtimalı olan yerə qədər gedir. O, həmin işin baş tutma ehtimalının və ya əqli ehtimalın olmadığını görəndə, vəzifəsi geri qayıtmaqdır. Hədəf hökumət qurmaq olanda insanın mümkün olan yerə kimi getməsinə icazə var. Getmək mümkün olmayan yerdə

---

[1] Nəhl surəsi, ayə 68-69 "Və rəbbin bal arısına vəhy etdi (instinkt ilham göndərdi) ki: Dağlardan, ağaclardan və qurulan çardaqlardan (özünə) evlər götür! Sonra bütün meyvələrdən ye və Rəbbinin yollarını ram və itaətkarlıqla qət et".

[2] Nəhl surəsi, ayə 69 "... insanlar üçün bir dərmandır...."

[3] Məhərrəm ayı astanasında ruhani və vaizlərlə görüşdəki çıxışdan. 24.V.1995

qayıtmaq lazımdır. Əgər "o həzrətin məqsədi Əlinin haqq hökumətinin qurulması idi" deyən şəxsin məqsədi budursa, (xeyr), bu düz deyil. Çünki imamın ümumi davranışı bunu göstərmir.

Bunun müqabilində bəziləri də deyirlər ki: "Xeyr, hökumət nədir? O həzrət hökumət qura bilməyəcəyini bilirdi. O, ümumiyyətlə, öldürülmək və şəhid olmaq üçün gəlmişdi". Bir vaxtlar bu söz də dillərə çox düşmüşdü. Bəziləri bunu gözəl şairanə ifadələrlə də bəyan edirdilər. Mən bunu hətta böyük alimlərimizdən də eşitmişəm. "O həzrət şəhid olmaq üçün ayağa qalxdı" sözü təzə söz deyil. (Bunu deyənlərin fikrincə, İmam) buyurub ki, qalmaqla bir iş görmək mümkün olmadığı üçün gedək şəhid olmaqla bir iş görək.

Bizim islami mənbələrdə də belə şey yoxdur ki, get özünü ölümün ağzına at! Bizim belə şeyimiz yoxdur. Bizim müqəddəs şəriətdə bildiyimiz və hədis və Quran ayələrində nişanələrini gördüyümüz şəhidliyin mənası insanın vacib və ya daha üstün bir hədəfin arxasınca getməsi və həmin yolda özünü hətta ölümə verməsidir. Bu, islamda olan düzgün şəhidlikdir. Ümumiyyətlə, insanın "mən gedib ölüm", yaxud şairanə ifadə ilə desək, "mənim qanım zalımın ayağını büdrətsin və onu yerə yıxsın" düşüncəsi ilə yola düşməsi həmin böyüklükdə olan hadisəyə aid məsələlər deyil. Bunda da müəyyən qədər həqiqət var, lakin o həzrətin hədəfi bu deyildi.

Deməli, müxtəsər şəkildə o həzrətin nə hökumət qurmaq, nə də şəhid olmaq üçün mübarizə etdiyini demək olar. Burada başqa məsələ var və mən Allahın köməyi ilə birinci xütbədə – bu gün birinci xütbədə mənim söhbətimin əsas hissəsi bu barədə olacaq – bunu bəyan edəcəyəm.

**"Hökumət", yaxud "şəhidlik"in İmam Hüseynin (ə) hədəfi olaraq təqdim edilməsi kimi birtərəfli təhlillərdə səhvə yol verilməsinin səbəbi hədəf ilə nəticənin bir-birinə qarışdırılmasıdır**

Mənə belə gəlir ki, "hədəf hökumət idi", yaxud "hədəf şəhidlik idi" deyənlər hədəf ilə nəticəni bir-birinə qarışdırıblar. Xeyir, hədəf bunlar deyildi. İmam Hüseynin (ə) hədəfi başqa şey idi, lakin həmin başqa hədəfə çatmaq iki nəticədən – "hökumət", ya "şəhidlik" – biri ilə sona çatacaq bir hərəkət tələb edirdi. Əlbəttə, o həzrət bunların ikisinə də hazır idi və həm hökumətin müqəddimə işlərini görürdü, həm də şəhid olmağın müqəddimə işlərini gördü və görürdü. Özünü həm buna, həm də ona hazırlayırdı. Onların hər hansı biri olsaydı, düz idi və heç bir eybi yox idi. Lakin bunların heç biri hədəf deyildi, ikisi də nəticə idi. Hədəf başqa şeydir.

Hədəf nədir? Əvvəl həmin hədəfi müxtəsər şəkildə və bir cümlə ilə qeyd edim, sonra bir az izah verəcəyəm.

**İmam Hüseynin (ə) hədəfi böyük dini bir vacibi yerinə yetirmək idi**

Əgər İmam Hüseynin (ə) hədəfini bəyan etmək istəsək, gərək belə deyək ki, o həzrətin hədəfi dinin vacib hökmlərindən böyük bir vacibin yerinə yetirilməsi idi və həmin vacibi İmam Hüseyndən qabaq heç kəs, hətta həzrət Peyğəmbər yerinə yetirməmişdi. Bu vacibi nə həzrət Peyğəmbər yerinə yetirmişdi, nə Əmirəl-möminin, nə də İmam Həsən Müctəba.

O, islamın ümumi düşüncə, dəyər və əməl sistemində mühüm bir vacibdir. Bu vacib çox mühüm və əsas olmasına baxmayaraq, İmam Hüseynin zamanına kimi bu vacibə əməl edilməmişdi. Ona nə üçün əməl edilməməsinin səbəbini də qeyd edəcəyəm. İmam Hüseyn bütün tarixə dərs olsun deyə bu vacibə əməl etməli idi. Məsələn, həzrət Peyğəmbər hökumət qurdu və həmin hökumətin qurulması bütün islam tarixi üçün bir dərs oldu. Həzrət Peyğəmbər onun ancaq hökmünü gətirmədi (əməldə də göstərdi). Yaxud həzrət Peyğəmbər Allah yolunda cihad etdi və bu, bütün islam tarixi və bütün bəşəriyyət tarixi üçün əbədi bir dərs oldu. Bu vacib də İmam Hüseyn (ə) tərəfindən həyata keçirilməli idi ki, müsəlmanlar və tarix üçün bir dərs olsun.

Yaxşı, bu işi nə üçün İmam Hüseyn görməli idi? Çünki həmin işin həyata keçirilməsinə İmam Hüseynin zamanında zəmin yarandı. Əgər həmin zəmin İmam Hüseynin zamanında yaranmasaydı, məsələn, imam Əliyyən Nəqinin (ə) zamanında yaransaydı, həmin işi imam Əliyyən Nəqi görəcəkdi və bu böyük hadisə və islam tarixinin böyük qurbanı İmam Əliyyən Nəqi (ə) olacaqdı. Yaxud əgər həmin şərait İmam Həsən Müctəbanın, yaxud imam Cəfər Sadiqin (ə) zamanında yaransaydı, onlar əməl edəcəkdilər. Elə bir şərait nə İmam Hüseynin zamanından qabaq qarşıya çıxdı, nə də İmam Hüseyndən sonra qeyb dövrünə kimi digər imamların zamanında.

Deməli, hədəf bir vacibin yerinə yetirilməsindən ibarət idi və mən indi həmin vacibin nədən ibarət olduğunu izah edəcəyəm. Bu vacibin yerinə yetirilməsi təbii olaraq iki nəticədən birini verməli idi. Bunun bir nəticəsi imamın hakimiyyətə gəlməsi olacaqdı ki, İmam Hüseyn buna hazır idi. Əgər o həzrət hakimiyyətə gəlsəydi, işini möhkəm tutacaq və cəmiyyəti həzrət Peyğəmbərin və Əmirəl-mömininin zamanındakı kimi idarə edəcəkdi. Bir də ola bilərdi ki, bu vacibin yerinə yetirilməsi hökumət deyil, şəhidliklə sona çatsın. İmam Hüseyn buna da hazır idi.

Allah-taala İmam Hüseyn və digər imamları elə yaratmışdı ki, onlar bu iş üçün qarşıya çıxan şəhidliyin ağır yükünə tab gətirə bilsinlər və onlar ona tab gətirə bildilər də. Əlbəttə, Kərbəla müsibəti başqa bir əzəmətli hekayədir. Mən indi məsələni bir az izah edim. Əziz namaz qılan qardaş və bacılar! Həzrət Peyğəmbər və

(ümumiyyətlə) hər hansı bir peyğəmbər gələndə özü ilə bir sıra hökmlər gətirir. Peyğəmbərin gətirdiyi həmin hökmlərin bəzisi fərdidir və insanın özünü islah etməsi üçündür. Onların bəzisi də ictimaidir və bəşəriyyət aləmini abadlaşdırmaq, idarə etmək və insan cəmiyyətlərini yaşatmaq üçündür. Onlar hökmlər məcmuəsidir ki, ona islam sistemi deyirlər.

Yaxşı, islam həzrət Peyğəmbərin müqəddəs qəlbinə nazil oldu və o həzrət namazı gətirdi, orucu, zəkatı, sədəqəni, həcci, ailə hökmlərini, şəxsi münasibətləri, Allah yolunda cihadı, hökumət qurmağı, islam iqtisadiyyatını, hökmdarla camaatın münasibətləri, insanların hökumət qarşısındakı vəzifələri barəsindəki hökmləri gətirdi. İslam bəşəriyyətə bu məcmuənin hamısını təqdim etdi və bunların hamısını həzrət Peyğəmbər (s) bəyan edib: "ما من شيئ يقربكم من الجنة و يباعدكم من النار الا و قد نهيتكم عنه و امرتكم به" "Sizi cənnətə yaxınlaşdıran və cəhənnəmdən uzaqlaşdıran nə varsa mən onu sizə əmr etmişəm və ya sizi ondan çəkindirmişəm".[1] Həzrət Peyğəmbər (s) insan və cəmiyyəti xoşbəxtliyə qovuşdura bilən hər şeyi bəyan edib. Hətta təkcə bəyan etməyib, onlara əməl edib və onları həyatda tətbiq edib. Həzrət Peyğəmbər öz sağlığında islam hökuməti qurdu və islami cəmiyyət yaratdı. İslam iqtisadiyyatını tətbiq etdi, islami cihad edildi, islami zəkat alındı, islami ölkə və islami sistem quruldu. Bu sistemin mühəndisi və bu qatarın bu yoldakı rəhbəri həzrət Peyğəmbər və onun yerində oturan şəxsdir.

Yol da aydın və müəyyəndir. Müsəlman cəmiyyət və müsəlman fərd bu yolda və bu istiqamətdə hərəkət etməlidir. Əgər belə bir hərəkət baş versə, insanlar kamala çatar, saleh və mələk kimi olarlar, insanların arasında zülm olmaz, pislik, fəsad, ziddiyyət, yoxsulluq və nadanlıq aradan gedər; bəşəriyyət kamil xoşbəxtliyə çatar, Allahın kamil bəndəsi olar.

İslam bu quruluşu həzrət Peyğəmbər vasitəsi ilə gətirdi və həmin dövrün cəmiyyətində tətbiq etdi. Harada? Adı Mədinə olan bir guşədə! Və sonra da onu Məkkə və daha bir neçə şəhərdə genişləndirdi.

Burada bir sual qalır və o bundan ibarətdir ki: Əgər hansısa bir əl və ya hadisə həzrət Peyğəmbərin bu rels üzərində hərəkətə gətirdiyi bu qatarı relsdən çıxarsa, nə etmək lazımdır? Əgər islam cəmiyyəti yolunu azsa və bu sapma bütün islamın və islam maarifinin sapması qorxusu olan həddə çatsa, nə edilməlidir?

**İslami cəmiyyətdə ehtimal edilən iki cür sapıntı**

İki cür sapma var. Bəzən insanlar pozulurlar – çox vaxt qarşıya belə iş çıxır – amma islami hökmlər aradan getmir. Lakin bəzən insanlar pozulanda hökumətlər də pozulur. Din alim və xətiblər də pozulurlar. Ümumiyyətlə, pozğun adamlardan düzgün din çıxmaz. Onlar Quran və həqiqətləri təhrif edər, yaxşıları pis və pisləri yaxşı, bəyənilməyən işi bəyənilən, bəyənilən işi isə bəyənilməyən edərlər. Onlar islamın, məsələn, bu istiqamətə çəkdiyi xətti yüz səksən dərəcə başqa səmtə dəyişdirərlər. Əgər islami cəmiyyət bu quruluş belə bir hal ilə qarşılaşsa, vəzifə nədir?

Əlbəttə, həzrət Peyğəmbər həmin vaxt vəzifənin nə olduğunu bəyan etmişdi. Quran da buyurur ki: " مَنْ يَرْتَدَّ مِنْكُمْ عَنْ دِينِهِ فَسَوْفَ يَأْتِي اللَّهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَ يُحِبُّونَهُ"[2] Bu barədə çoxlu ayə və çoxsaylı hədislər də var, bu cümlədən İmam Hüseynin dilindən sizin üçün nəql edəcəyim hədis.

**İmam Hüseynin (ə) cihad etmək məsuliyyəti daşımasının səbəbi cəmiyyət və islam hökumətinin çox sapması olub**

İmam Hüseyn (ə) camaata həzrət Peyğəmbərin bu hədisini[3] oxudu. Həzrət Peyğəmbər (s) bunu buyurmuşdu, amma o həzrət özü həmin ilahi hökmə əməl edə bilirdimi? Xeyr! Çünki bu ilahi hökmə cəmiyyət yolunu azan zaman əməl etmək mümkün idi. Əgər cəmiyyət yolunu azsa, bir iş görmək lazımdır. Burada Allahın hökmü var. Cəmiyyətdə azğınlıq təhlükəsi islamın əsas və kökündən sapma həddinə çatanda Allah insanlar üçün bir sıra vəzifələr müəyyənləşdirib. Allah insanı heç bir məsələdə vəzifəsiz qoymur.

Həzrət Peyğəmbər bu vəzifəni bəyan edib – Quran və hədis qeyd edib – amma o həzrətin özü həmin vəzifəyə əməl edə bilmirdi.

Niyə əməl edə bilmir? çünki həmin vəzifəyə cəmiyyət yolunu azanda əməl etmək olar. Cəmiyyət həzrət Peyğəmbərin (s) və Əmirəl-mömininin zamanında yolunu o həddə azmamışdı. İmam Həsənin zamanında Müaviyə hakimiyyətdə olanda azğınlığın nişanələrinin çoxu aşkar olsa da, o, hələ islamın tamamilə dəyişdirilməsi təhlükəsi olan həddə çatmamışdı.

---

[1] Biharul-ənvar, c. 2, s. 170

[2] Maidə surəsi, ayə 54 "Sizdən kim öz dinindən dönsə, Allah tezliklə Özünün sevdiyi və Onu sevən bir dəstəni gətirər".

[3] Məqsəd bu hədisdir: "Camaat, həzrət Peyğəmbər (s) buyurub: Əgər kimsə zalım hakimin Allahın haramını halal etdiyini, Allahın əhdini pozduğunu görsə..."

Bəlkə də, müəyyən zaman kəsimində belə bir vəziyyətin yarandığını demək mümkündür. Lakin onda bu işin yerinə yetirilməsi fürsəti yox idi, şərait münasib deyildi. İslam hökmləri məcmuəsindən olan bu hökmün əhəmiyyəti hökumətdən az deyil. Çünki hökumətin mənası cəmiyyətin idarə edilməsidir. Əgər cəmiyyət tədricən yoldan çıxsa, pozulsa, Allahın hökmü dəyişdirilsə, əgər biz həmin vəziyyətin dəyişdirilməsi və həyatın yeniləşməsi – yaxud inqilabın bugünkü dili ilə desək – həmin inqilab hökmünə malik olmasaq, bu hökumət nəyə yarayır?

Buna görə də sapmış cəmiyyəti əsl yoluna qaytarmağa aid olan həmin hökmün əhəmiyyəti hökumət hökmünün əhəmiyyətindən az deyil. Bəlkə də, onun kafirlərlə cihaddan daha əhəmiyyətli olduğunu da demək olar; bəlkə də, onun əhəmiyyətinin islami bir cəmiyyətdəki adi "yaxşılığa dəvət və pislikdən çəkindirmə"dən çox olduğunu demək olar. Hətta, bəlkə də, bu hökmün böyük ilahi ibadətlərdən və həccdən daha əhəmiyyətli olduğunu demək olar. Nə üçün? Çünki, əslində, bu hökm ölüm ayağında olan və ya ölüb aradan getmiş islamın dirilməsinin təminatçısıdır.

Yaxşı, bu hökmü kim həyata keçirməlidir? Bu vəzifəni kim yerinə yetirməlidir. Həzrət Peyğəmbərin (s) həmin sapma baş verən zaman yaşayan canişinlərindən biri! Əlbəttə, o şərtlə ki, münasib şərait olsun. Çünki Allah-taala insanın boynuna faydası olmayan vəzifə qoymayıb. Əgər şərait münasib olmasa, hər nə etsələr, onun bir fayda və təsiri olmayacaq. Gərək şərait münasib olsun.

Əlbəttə, şəraitin münasib olmasının da başqa mənası var. Onun mənası "təhlükə var, deməli, şərait münasib deyil" demək deyil. Məqsəd bu deyil. "Şərait gərək münasib olsun" ifadəsinin mənası insanın gördüyü işin nəticəsinin olmasının bilməsi, yəni çatdırılması nəzərdə tutulan şeyin camaata çatması, insanların onu başa düşməsi, səhv yolda qalmamasıdır. Bu, elə bir vəzifədir ki, onu kimsə yerinə yetirməli idi.

İmam Hüseynin (ə) zamanında həm həmin sapıntı, həm də həmin fürsət yaranıb. Buna görə də İmam Hüseyn ayağa qalxmalı idi. Çünki sapıntı yaranmışdı. Ona görə ki, Müaviyədən sonra hakimiyyətə islamın hətta zahirinə riayət etməyən, şərab içən və dinə zidd işlər görən bir şəxs gəlmişdi. O, aşkar şəkildə cinsi təcavüz və pozğunluqla məşğul olur, Qurana qarşı danışır, açıq-aşkar Qurana zidd və dini inkar edən sözlər danışırdı. O, aşkarda islamla düşmən idi. Lakin adi müsəlmanların başçısı olduğu üçün islamın adını aradan götürmək istəmirdi. O, islama əməl etmir, onu sevmir və ona ürəyi yanmırdı. Daim iylənmiş su çıxan və ətrafı dolduran çeşmə kimi əməlləri ilə Yezidin də vücudundan iylənmiş su çıxır, ətrafa axır və bütün yamacı bürüyürdü. Pozğun başçı belədir. Çünki başçı qalanın başındadır və oradan axan şey orada qalmır, adi insanlardan fərqli olaraq aşağı tökülür və qalanın hər yerini bürüyür.

Adi insanların hərəsinin öz yeri var. Əlbəttə, yuxarıda olan, cəmiyyətdə daha yüksək mövqe tutan şəxsin fəsad və ziyanı daha çoxdur. Adi insanların törətdiyi fəsad onların özünə və ya ətrafındakı bir neçə nəfərə təsir edə bilər. Amma başda olanlar pozulanda onların pozğunluğu aşağılara tökülür və bütün mühiti bürüyür. Onlar əməlisaleh olanda da yaxşı işləri aşağı təbəqəyə keçir və bütün ətrafı bürüyür.

Müaviyədən sonra belə pozğun bir şəxs müsəlmanların xəlifəsi oldu, Peyğəmbər xəlifəsi! Bundan böyük sapıntı ola bilərmi?! (belə bir vəziyyətdə) şərait də münasibdir. Şəraitin münasib olması nə deməkdir? Yəni təhlükə yoxdur. Axı təhlükə var! Heç ola bilərmi ki, əlində qüdrət olan şəxs ona qarşı çıxan insanlara bir təhlükə yaratmasın? Burada döyüş gedir! Siz onu taxtdan yerə salmaq istəyirsiniz, o da oturub tamaşa edən deyil ki! Aydın məsələdir ki, o da sizə zərbə vuracaq. Deməli, təhlükə mövcuddur.

## İsmarıcının yayılması baxımından İmam Həsənin (ə) şəraiti ilə İmam Hüseynin (ə) şəraitinin fərqi

Bizim şəraitin münasib olduğunu deməkdə məqsədimiz islami cəmiyyətdə şəraitin İmam Hüseynin ismarıcının həmin dövrün insanlarının, eləcədə tarix boyu olacaq digər insanların qulağına çatmasının mümkünlüyüdür. Əgər İmam Hüseyn Müaviyənin zamanında aşkar mübarizə etmək istəsəydi, onun nəzərdə tutduğu iş dəfn ediləcəkdi. Bunun səbəbi hökumətin Müaviyənin zamanındakı vəziyyəti idi. Həmin vaxt elə siyasət aparılırdı ki, insanlar haqq sözün həqiqət olmasını eşidə bilmirdi. Buna görə də İmam Hüseyn (ə) Müaviyənin xilafəti dövründə on il imam oldu, amma bir söz danışmadı, bir iş görmədi, bir addım atmadı. Çünki oranın şəraiti münasib deyildi.

Ondan da qabaq İmam Həsən (ə) imam idi. O həzrət də aşkar mübarizə aparmayıb. Çünki şərait münasib deyildi. Bunun səbəbi İmam Hüseynlə İmam Həsənin bu işin əhli olmaması deyildi. İmam Həsənlə İmam Hüseyn arasında, İmam Hüseynlə İmam Səccad arasında, İmam Hüseynlə İmam Əliyyən Nəqi və İmam Həsən Əsgəri arasında fərq yoxdur. Əlbəttə, o həzrət bu cihadı edəndən sonra onun məqamı onu yerinə yetirməyənlərdən üstün olur. Lakin onlar imamət məqamı baxımından bərabərdirlər. Həmin şərait onların hansı birinin qarşısına çıxsaydı, həmin işi görər və həmin məqama çatardılar.

İmam Hüseyn (ə) də belə bir sapıntı ilə qarşılaşıb. Buna görə də o, həmin vəzifəyə əməl etməli idi. Şəraitdə də münasib idi. Deməli, heç bir bəhanəyə yer də yox idi. Bu səbəbdən avam camaatdan olmayan və özləri

dinşünas, arif, alim və gözüaçıq insanlar olan Abdullah ibn Cəfər, Məhəmməd ibn Hənəfiyyə və Abdullah ibn Abbas o həzrətə "ey Hüseyn, bu iş təhlükəlidir, getmə" deyəndə məqsədləri bu idi ki, insanın boynuna düşən vəzifənin yerinə yetirilməsi yolunda təhlükə olanda, həmin vəzifə onun boynundan götürülür. Amma onlar başa düşmürdülər ki, bu vəzifə qarşıya təhlükə çıxanda boyundan götürülən vəzifələrdən deyil...

**İmam Hüseynin (ə) hərəkatı "yaxşılığa dəvət və pislikdən çəkindirmə" vacibatının böyük nümunəsidir**

Beləliklə, söhbətimizin xülasəsi bu olur ki: İmam Hüseynin islami sistem və cəmiyyətin quruluşunu yenilətmək üçün və ya islami cəmiyyətdə baş verən böyük sapıntılar müqabilində dayanmaq məqsədi ilə o böyük vacib əməli yerinə yetirmək üçün ayağa qalxdı. Bunun yolu mübarizə və "yaxşılığa dəvət və pislikdən çəkindirmə"dir. Hətta o özü "yaxşılığa dəvət və pislikdən çəkindirmə"nin böyük nümunəsidir. Bu iş bəzən hökumət qurulması ilə nəticələnir və İmam Hüseyn buna hazır idi. Bu işin nəticəsi bəzən də şəhidlik olur ki, o həzrət buna da hazır idi.

**İmam Hüseynin (ə) hədəfinin əsas və dəlillərinin o həzrətin öz kəlamlarında araşdırılması**

Biz bunu nəyə əsaslanıb deyirik? Biz bunu İmam Hüseynin öz kəlamlarından əldə etmişik. Mən İmam Hüseynin (ə) sözlərindən bir neçə cümlə seçmişəm. Əlbəttə, onların sayı daha çoxdur və hamısı bu mənanı bəyan edir. Onlardan birincisi Mədinədə olan sözdür. Mədinənin hakimi Vəlid gecə o həzrəti çağıraraq belə deyib: Müaviyə dünyasını dəyişib və siz Yezidə beyət etməlisiniz!" İmam Hüseyn ona deyib: "Qalsın səhərə". "**ننظر و تنظرون اینا احق بالبیعة و الخلافة**" "Biz də baxaq, siz də baxın, görək beyət edilməyə və xəlifəliyə kim daha haqlı və layiqdir".[1] Gedək fikirləşək, görək biz xəlifə olmalıyıq, yoxsa Yezid?! Həmin günün səhəri Mərvan o həzrəti Mədinənin küçələrində görərək belə deyib: "Ey Əba Əbdillah! Sən özünü ölümə verəcəksən! Nə üçün xəlifə ilə beyət etmirsən? Gəl beyət et, özünü ölümə vermə, özünü zəhmətə salma!" O həzrət, Mərvanın cavabında belə buyurur: "**انا لله و انا الیه راجعون و علی الاسلام السلام اذ قد بلیت الامة براع مثل یزید**" "Həqiqətən biz Allahınıq və həqiqətən, ona tərəf qayıdacağıq. İslam ümməti Yezid kimi bir başçının əlinə düşsə, islamın "Fatihəsini oxumaq" lazımdır".[2] Yezid kimi bir hakim iş başına gəlsə və İslam Yezid kimi bir hakimin əlinə düşsə, islamla vidalaşmaq lazımdır. Söhbət şəxsən Yeziddən getmir, Yezid kimi olan hər bir kəsə aiddir. O həzrət demək istəyir ki, indiyə kimi onlarla dözmək olurdu, amma indi ortada islamın və islam quruluşunun əsası var və onlar Yezid kimi bir şəxsin hakimiyyətə gəlməsi ilə məhv olacaq. O bu sözü ilə sapma təhlükəsinin ciddi təhlükə olmasına işarə edir. Məsələ islamın əsası üçün olan təhlükədən ibarətdir.

Həzrət İmam Hüseyn (ə) həm Mədinədən çıxanda, həm də Məkkədən çıxanda Məhəmməd ibn Hənəfiyyə ilə bir sıra söhbətlər edib. Məncə, bu vəsiyyət o həzrətin Məkkədən çıxmaq istədiyi vaxta aiddir. Məhəmməd ibn Hənəfiyyə zilhəccə ayında Məkkəyə gələndə də o həzrətlə bəzi söhbətlər edib. O həzrət qardaşı Məhəmməd ibn Hənəfiyyəyə vəsiyyət olaraq bir şey yazıb verib.

İmam Hüseyn (ə) həmin vəsiyyətnamədə Allahın birliyinə və sairəyə şəhadət verəndən sonra gəlib bu yerə çatır ki: "**انی لم اخرج اشراً و لا بطراً و لا مفسداً و لا ظالماً**" "Mən (Mədinədən) məğrurluqdan, xoş güzəran üçün, fəsad törətmək və zülm etmək məqsədi ilə çıxmamışam". Yəni bəziləri səhvən belə düşünməsinlər və təbliğatçılar belə təbliğat aparmasınlar ki, İmam Hüseyn də orada-burada qiyama qalxanlar kimi mübarizə və döyüş meydanına qüdrəti ələ keçirmək – özünü göstərmək, eyş-işrət, zülm və fəsad – üçün daxil olub. Bizim işimiz bu qəbildən deyil. "**انما خرجت لطلب الاصلاح فی امة جدی**" "Mən yalnız cəddimin ümmətində islahat aparmaq üçün çıxmışam".[3] Bu işin adı islahatdır. Mən islahat aparmaq istəyirəm. Bu, İmam Hüseyndən qabaq həyata keçirilməmiş vacib əməl idi.

Bu islahat aşkar mübarizə vasitəsi ilə gerçəkləşir. O həzrət bu vəsiyyətnamədə bunu qeyd edir və təxminən bu mənanı vurğulayır. Yəni birincisi, mübarizə etmək istəyirik və bizim bu mübarizəmiz necə olur-olsun hakimiyyətə gəlmək, yaxud mütləq şəhid olmaq üçün deyil, islahat üçündür. Xeyr, biz islahat aparmaq istəyirik. Əlbəttə, islahat balaca iş deyil. Şərait elə olur ki, insan bəzən hakimiyyətə gələ bilir və qüdrəti özü ələ alır. Amma bəzən bunu edə bilmir – bu, mümkün olmur – və şəhid olur. Hər halda onların hər ikisi islahat üçün olan hərəkətdir.

---

[1] Biharul-ənvar, c. 44, s. 325
[2] Biharul-ənvar, c. 44, s. 325
[3] Biharul-ənvar, c. 44, s. 329

O daha sonra buyurur: "اريد ان آمر بالمعروف و انهى عن المنكر و اسير بسيرة جدى" "Mən yaxşılığa dəvət etmək və pislikdin çəkindirmək və cəddimin yolu ilə getmək istəyirəm"[1] Bu islahat "yaxşılığa dəvət və pislikdən çəkindirmə"nin bir nümunəsidir. Bu da bir açıqlama.

İmam Hüseyn Məkkədə olanda iki məktub yazıb, birini Bəsrənin, ikincisi isə Kufənin başçılarına. O həzrətin Bəsrənin başçılarına yazdığı məktubda belə deyilir: " و قد بعث رسولى اليكم بهذا الكتاب و انا ادعوكم الى كتاب الله و سنة نبيه فإن السنة قد اميتت و البدعة قد احييت فإن تسمعوا قولى اهديكم الى سبيل الرشاد"[2] Mən bidəti məhv etmək və sünnəni diriltmək istəyirəm.Çünki indi sünnəni öldürüb bidəti dirildiblər. Əgər mənim arxamca gəlsəniz, sizi doğru yola yönəldərəm. Yəni mən islamın, Peyğəmbər sünnəsinin və islamı quruluşun dirilməsindən ibarət olan o böyük işi görmək istəyirəm.

O, sonra kufəlilərə məktubunda belə buyurur: " فلعمرى ما الامام الا الحاكم بالكتاب القائم بالقسط الدائن بدين الحق الحابس نفسه على ذات الله و السلام" "And olsun canıma, imam Allahın kitabı əsasında hökm çıxaran, ədaləti bərqərar edən, haqq dinə tabe olan və Allaha itaət yolunda öz nəfsini ram edən kəsdir".[3] İslami toplumun imam, rəhbər və başçısı pozğun, əxlaqsız, xəyanət və fəsad əhli və Allahdan uzaq bir şəxs ola bilməz. O, Allahın kitabına əməl edən şəxs olmalıdır. Yəni o buna cəmiyyətdə əməl etməlidir; xəlvət otaqda tək namaz qılmamalıdır, əksinə, cəmiyyətdə Allahın kitabına əməl edilməsi ənənəsini diriltməli, ədaləti bərqərar etməli, haqqı cəmiyyətin qanunu etməlidir.

"الدائن بدين الحق" ifadəsinin mənası budur ki, cəmiyyətin qanun-qaydasını haqq üzərində qurmalı və batili kənara atmalıdır. Məncə, "الحابس نفسه على ذات الله" cümləsinin mənası budur ki, o özünü hər halda Allahın düz yolunda qoruyub saxlamalı və şeytanı və maddi cazibələrin əsiri olmamalıdır. İmam (ə) beləcə hədəfini açıqlayır.

İmam Hüseyn (ə) Məkkədən çıxır. O həzrət yolda oturaq saldığı yerlərin hər birində müxtəlif tonlarda söhbətlər edib. O həzrət, Hürr ibn Yezid də yanında olan halda – İmam gedir, Hürr də İmamın yanı ilə hərəkət edirdi – "Beyzə" adlı yerə çatır və orada oturaq salır. İmam (ə), bəlkə də, istirahət etməmişdən qabaq – ya da bir az istirahət edəndən sonra – ayağa qalxır və düşmən qoşununa xitab edərək belə buyurur:

" ايها الناس ان رسول الله صلى الله عليه و آله و سلم قال: من رأى سلطاناً جائراً مستحلاً لحرم الله، ناكثاً لعهد الله، مخالفاً لسنة رسول الله صلى الله عليه و آله و سلم يعمل فى عباد الله بالاثم و العدوان فلم يغير عليه بفعل و لا قول كان حقاً على الله ان يدخله مدخل"[4] Yəni əgər kimsə cəmiyyətə hakim olan şəxsin zülm etdiyini, Allahın haramını halal və halalını haram saydığını, Allahın hökmünü kənara atdığını – ona əməl etmədiyini – və başqalarını əmələ vadar etmədiyini, yəni camaatla günah, düşmənlik və zülmlə davrandığını görsə – poğzun, zalım və sitəmkar hakimin kamil nümunəsi Yezid idi – "فلم يغير عليه بقول و فعل" öz dil və əməli ilə ona qarşı bir iş görməsə, " كان حقاً على الله ان يدخله مدخله" Allah-taala qiyamətdə bu sakit, laqeyd və əməlsiz şəxsin aqibətini həmin zalımın aqibəti kimi edəcək. Yəni o, həmin zalımla eyni cərgə və tərəfdə dayanacaq.

Bu sözü Peyğəmbər buyurub. Biz öncə həzrət Peyğəmbərin bu məsələnin hökmünü bəyan etdiyini qeyd etmişik. Bu onun nümunələrindən biridir. Deməli, həzrət Peyğəmbər islami quruluş sapanda nə etmək lazım olduğunu bəyan etmişdi. İmam Hüseyn də həzrət Peyğəmbərin həmin kəlamına əsaslanır.

Bəs nə etmək lazımdır? (Həmin vaxt yerinə yetirilməsi vacib olan) vəzifə "يغير عليه بفعل و لا قول" "söz və əməl ilə dəyişiklik etmək"dir. Əgər insan elə bir şəraitdə olsa – əlbəttə, vəziyyət münasib olan vaxt – həmin əmələ qarşı addım atmaq vacibdir. Nəticənin nə olmasından – öldürülməkdən, sağ qalmaqdan, zahirdə uğur qazanıb qazanmamaqdan – asılı olmayaraq, hər bir müsəlman bu vəziyyətə qarşı çıxmalı və bir iş görməlidir. Bu, həzrət Peyğəmbərin bizim üçün müəyyənləşdirdiyi vəzifədir.

İmam Hüseyn daha sonra buyurub: "و انى احق بهذا" "Mən buna daha layiqəm". Bu addımı atmaq üçün mən bütün müsəlmanlardan daha öndəyəm. Çünki mən Peyğəmbər övladıyam. Əgər həzrət Peyğəmbər bu dəyişikliyi tək-tək bütün müsəlmanlara vacib edibsə, təbii ki, bu, həzrət Peyğəmbərin oğlu, o həzrətin elm və hikmətinin varisi Hüseyn ibn Əliyə daha vacibdir və onun bir addım atması daha münasibdir. Və buna görə mən həmin addımı atdım. Deməli, imam öz işinin səbəbini bəyan edir.

Dörd nəfər şəxsin İmama qoşulduğu "Əzyəd" adlı yerdə o həzrətin (ə) başqa bir sözü var. O buyurub: " اما والله انى لأرجو ان يكون خيراً ما اراد الله بنا قتلنا او ظفرنا" "And olsun Allaha, mən Allahın bizim üçün istədiyinin – istər öldürülək, istər qalib gələk – xeyir olmasına ümid bəsləyirəm". Bu da öncə dediyimiz kimi, fərqin

---

[1] Biharul-ənvar, c. 44, s. 329
[2] Tarixi-Təbəri, c. 7, s. 240
[3] Biharul-ənvar, c. 44, s. 335
[4] Biharul-ənvar, c. 44, s. 382

olmamasının göstəricisidir, istər qələbə qazansınlar, istər öldürülsünlər, fərqi yoxdur. İlahi vəzifədir və yerinə yetirilməlidir. İmam buyurur: Mən ümid edirəm ki, Allahın bizim üçün nəzərdə tutduğu şey bizim xeyrimizə olsun, istər öldürülək, istər qələbə qazanaq, fərqi yoxdur, biz öz vəzifəmizi yerinə yetiririk.

İmam (ə) Kərbəla torpağına daxil olandan sonra ilk xütbəsində belə buyurub: "قد نزل من الامر ما قد ترون.." "Siz bizim başımıza gələnləri görürsünüz..."[1] Daha sonra buyururdu: " الا ترون الحق لا يعمل به و الباطل لا يتناهى عنه ليرغب المؤمن فى لقاء ربه حقاً"[2] "Məgər görmürsünüz ki, haqqa əməl edilmir və batildən çəkinilmir?! Buna görə də elə bir şəraitdə mömin haqq olaraq öz Rəbbinin görüşünə tələsər". Mövzunu xülasələşdirim, əl-ayağını yığım. Deməli, İmam Hüseyn (ə) vacib bir əməlin yerinə yetirilməsi üçün ayağa qalxdı. Bu vacib tarix boyu tək-tək bütün müsəlmanlara ünvanlanıb. Həmin vacib budur ki, müsəlmanlar islami cəmiyyətin əsaslı bir fəsada düçar olmasını və islam hökmlərinin tamamilə dəyişdirilməsi təhlükəsinin olduğunu görəndə onların hər biri mübarizəyə qalxmalıdır.

Əlbəttə, bu, şərait münasib olan vaxtda – o bu mübarizənin bir təsirinin olacağını bildiyi hala aiddir. Sağ qalmaq, öldürülməmək, əzab-əziyyətə məruz qalmamaq onun şərtlərindən deyil. Bunlar şərt deyil. Buna görə də İmam Hüseyn (ə) mübarizəyə qalxdı və əməli şəkildə bu vacibi yerinə yetirdi ki, hamıya bir dərs olsun.

Tarixdə münasib şəraitdə belə bir işi hər kəs edə bilər. Əlbəttə, İmam Hüseynin (ə) zamanından sonra digər imamların heç birinin vaxtında belə bir şərait olmayıb. Belə bir şəraitin olmamasının özü də bir təhlil tələb edir. Çünki yerinə yetirilməsi vacib olan digər başqa mühüm işlər var idi. İslami cəmiyyətdə imamların yaşadığı və qeyb dövrünün əvvəlinə kimi belə bir şərait əsla yaranmayıb. Əlbəttə, sonralar tarix boyu müsəlman ölkələrində belə şəraitlər çox yaranıb. Bu gün də islam dünyasında, bəlkə də, bəzi yerlərdə şərait var və müsəlmanlar onu yerinə yetirməlidirlər. Əgər onlar bunu yerinə yetirsələr, vəzifələrinə əməl etmiş və islamı yayaraq ona zəmanət vermiş olarlar. Hər halda bəzən bir-iki nəfər məğlub da olur.

**İmam Hüseyn (ə) yolu – bütün əsrlərdə bütün millətlər üçün canlı yol**

Bu dəyişiklik, mübarizə və islahat hərəkatı baş verəndən sonra, şübhəsiz, fəsad və azğınlığın kökü kəsiləcək. Bu yol və işi heç kəs bilmirdi. Çünki Peyğəmbər zamanında elə bir şey olmamışdı. İlk xəlifələrin zamanında da elə şey baş verməmişdi. Əmirəl-möminin də məsum idi və elə bir iş görməmişdi. Buna görə də İmam Hüseyn (ə) əməli baxımdan bütün islam tarixinə böyük dərs verdi və əslində, islamı həm öz dövrü, həm də bütün digər zamanlar üçün sığortaladı.

Harada bu qəbildən olan fəsad baş versə, İmam Hüseyn orada sağdır və öz üsul və əməli ilə sizə nə etməli olduğunuzu, boynunuza düşən vəzifənin nədən ibarət olduğunu deyir. Buna görə də İmam Hüseyn (ə) və Kərbəla hadisəsi yad edilməlidir. Çünki Kərbəla hadisəsinin yad edilməsi insanın gözünün qarşısında bu əməli dərsi canlandırır.

**Mövlananın "Məsnəvi" əsərində nicat yolunu göstərmək barədəki təmsilin araşdırılması**

Mən neçə il qabaq – əlbəttə, islam inqilabından qabaq – yığıncaqların birində iştirakçılar üçün həmin məsələni deyəndə zehnimə bir misal gəldi və onu orada dedim. Həmin misal Mövlananın "Məsnəvi"də qeyd etdiyi tutuquşunun hekayəsidir.

Bir nəfərin evdə tutuquşusu vardı. Əlbəttə, bu bir misaldır və bu cür misallar həqiqətin bəyan edilməsi üçündür. Bir gün ev sahibi Hindistana səfərə getmək istəyir. O, öz ailə-uşağı ilə sağollaşanda həmin tutuquşu ilə də sağollaşır. Deyir ki, mən Hindistana gedirəm və ora sənin vətənindir. Tutuquşu ona deyir ki, Hindistanda filan yerə get, mənim qohum-əqrəbam və dostlarım orada yaşayırlar. Onlara de ki, sizlərdən biri mənim evimdədir. Onlara mənim vəziyyətimi danış və de ki, o mənim evimdə qəfəsdədir. Səndən bundan başqa bir istəyim yoxdur.

Həmin şəxs Hindistana gedir və tutuquşu deyən yerə çatır. Görür ki, bəli, orada ağacda çoxlu tutuquşu oturub. Onları çağırıb deyir ki, ey əziz, danışan və yaxşı tutuquşular! Sizə ismarıc gətirmişəm. Sizlərdən biri bizim evimizdədir, vəziyyəti də çox yaxşıdır. Düzdür, qəfəsdə yaşayır, amma çox yaxşı yaşayır, yeməyi də yaxşıdır, o sizə salam göndərib.

Həmin tacir bu sözləri deyən kimi gördü ki, ağacın budağında oturmuş tutuquşuların hamısı özündən gedib yerə yıxıldı. Tacir onlara yaxınlaşır və görür ki, hamısı ölüb. O bundan çox təəssüfləndi və öz-özünə dedi ki: "Axı mən bu sözü niyə dedim ki, bu qədər heyvan – məsələn, beş, ya on dənə tutuquşu – onu eşidib canını tapşırdı". Amma artıq iş-işdən keçmişdi və daha bir iş görə bilməzdi.

---

[1] Biharul-ənvar, c. 44, s. 381
[2] Biharul-ənvar, c. 44, s. 381

Tacir evinə qayıtdı. O öz evinə çatanda tutuquşunun qəfəsinə yaxınlaşdı və ona dedi ki, sənin ismarıcını çatdırdım. Tutuquşu dedi: "Nə cavab verdilər?" Tacir dedi: "Sənin ismarıcını eşidən kimi hamısı özündən getdi və ağacın başından yerə yıxılıb öldü".

Bu söz tacirin dilindən çıxan kimi gördü ki, qəfəsdəki tutuquşu da özündən getdi və qəfəsin yerinə düşüb öldü. O, çox təəssüfləndi və narahat oldu. O, qəfəsin qapısını açdı. Tutuquşu ölmüşdü və daha onu saxlaya bilməzdi. O, tutuquşunun ayağından tutub evin damına atdı. Tacir tutuquşunu atan kimi tutuquşu havada qanad çalmağa başladı və gedib divarın başında oturdu və tacirə belə dedi: "Sən tacir və əziz dostuma çox minnətdaram. Sən özün mənim azadlığıma şərait yaratdın. Mən ölməmişdim, özümü yalandan ölülüyə vurmuşdum. Bu dərsi mənə həmin tutuquşular öyrətdilər. Onlar başa düşdülər ki, mən burada qəfəsdə əsirəm, həbs olunmuşam. Onlar mənə nicat tapmaq üçün nə etməli olduğumu hansı dillə başa salmalı idilər? Onlar mənə əməli şəkildə nicat tapmaq üçün nə etməli olduğumu – "öl ki, diriləsən!" – göstərdilər. Mən onların ismarıcını səndən aldım və bu, aramızda uzaq məkan fasiləsi olmasına baxmayaraq, oradan mənə çatan dərs idi. Mən həmin dərsdən yararlandım.

Mən həmin vaxt – iyirmi neçə il bundan qabaq – bu sözü eşidən qardaş və bacılara dedim: "Ey mənim əzizlərim, İmam Hüseyn hansı dil ilə desin ki, sizin vəzifəniz nədir? Şərait həmin şəraitdir, yaşayış həmin yaşayışdır, isalam da həmin islamdır. İmam Hüseyn bütün nəsillərə əməli nümunə göstərdi. Əgər İmam Hüseyndən bir kəlmə söz belə nəql edilməsəydi, biz boynumuza düşən vəzifənin nədən ibarət olduğunu başa düşməli idik.

Əsir, kölə, başçılarının fəsadları ilə üz-üzə, din düşmənlərinin hakimiyyəti altında olan və həyat və müqəddəratları onlardan asılı olan millət vəzifəsinin nədən ibarət olduğunu çoxdan başa düşməli idi. Çünki Peyğəmbər oğlu – məsum imam – həmin şəraitdə nə etməyin lazım olduğunu göstərib.

Dil ilə mümkün deyildi. Əgər o bu məsələni yüz dəfə söz ilə desəydi, amma özü getməsəydi, həmin ismarıc tarixdən keçə və gəlib bizə çata bilməzdi. Mümkün deyildi. Ancaq nəsihət vermək və dil ilə demək tarixdən keçə bilmir. Onu min cür yozurlar, izah edirlər. Gərək əməl olsun, özü də belə böyük, çətin bir əməl, İmam Hüseyn göstərən kimi belə əzəmətli və könülləri yandıran fədakarlıq!

**Aşura hadisəsinin bütün bəşəriyyət tarixində bənzərinin olmaması**

Həqiqətən, belə demək mümkündür ki, hədislərdə həzrət Peyğəmbər, Əmirəl-möminin və İmam Həsənin də buyurduğu kimi, Aşura səhnəsindən bizim gözümüzün qarşısında olanlar bəşər tarixində baş vermiş faciələr arasında tək, bənzərsiz və misilsizdir: "Ey Əba Əbdillah! Heç bir gün sənin günün kimi deyil".[1] Heç bir gün sənin günün, sənin Aşuran, Kərbəla və sənin hadisən kimi deyil.

**Seyid ibn Tavusun "Lühuf" kitabından həzrət Əli Əkbərin "Zikri-müsibət"i[2]**

Bu gün də Aşura günüdür və mən bir neçə kəlmə "Zikri-müsibət" demək istəyirəm. Kərbəlanın hər yeri müsibətdir, Aşura hadisəsi bütünlüklə ağladan və ağrılıdır. Siz onun harasını götürsəniz – o həzrət Kərbəlaya daxil olan saatdan, İmam Hüseynin söhbəti, sözü, xütbəsi, şer oxuması, ölüm xəbərini verməsi, bacısı, qardaşları və əzizləri ilə söhbət etməsindən tutmuş Aşura gecəsi və gününə, Aşura gününün zöhr və əsr vaxtına kimi, bir sözlə, bunların hamısı müsibətdir. Mən indi onların bəzisinə işarə edəcəyəm.

Bu günlər rövzə və ağlamaq günləridir və siz də hər yerdə (rövzə) eşidirsiniz. Mən də adımın bu əzəmətli Hüseyn qonaqlığı dəftərinin bir küncünə yazılması üçün bir neçə kəlmə "Zikri-müsibət" demək istəyirəm. Bu millət Allah yolunda çoxlu cavan qurban verdiyi üçün – bəlkə də, bu cəmin arasında cavanlarını əldən vermiş minlərlə adam var – fikirləşdim ki, İmam Hüseynin cavanları barədə bir neçə kəlmə danışım. Biz hamıya mətn üzündən rövzə oxumağı tövsiyə edirik. İndi istəyirəm sizə ibn Tavusun "Lühuf" kitabının mətnini oxuyum, görək mətndən rövzə oxumaq necə olur. Bəziləri deyir ki, adam kitabda yazılanı oxuya bilmir, yazılanları bir az formaya salmaq, orasını-burasını düzəltmək lazımdır. Bəli, bəzən o da olar, amma indi biz bir neçə kəlmə kitabın üzündən oxuyacağıq.

Əli ibn Tavus VI hicri əsrinin böyük şiə alimlərindən olub. Onun ailəsi də hamılıqda elm və din əhli olub. Onların hamısı, ya çoxu yaxşı olublar, xüsusilə bu iki qardaş – Əli ibn Musa ibn Cəfər ibn Tavus və Əhməd ibn Musa ibn Cəfər ibn Tavus. Bu iki qardaş böyük alimlərdən, böyük müəlliflərdən və inanılmış şəxslərdən olublar. Məşhur "Lühuf" kitabı seyid Əli ibn Musa ibn Cəfər ibn Tavusundur. Bu kitab o qədər dəqiq və mühümdür ki, bizim minbər əhli olan alimlər bu kitabın ibarələrini hədis kimi kəlmə-kəlmə oxuyurlar. Mən bu kitabı üzündən oxuyacağam.

---

[1] Biharul-ənvar, c. 45, s. 218

[2] Başına gələn müsibətlərin yada salınması. – Tərc.

O yazır: "فلما لم يبق معه سوى اهل بيته" Yəni İmam Hüseynin bütün səhabələri şəhid olandan sonra, o həzrətin ailəsindən başqa heç kəs qalmayanda "خرج على بن الحسين عليه السلام" Əli Əkbər xeymələrdən çölə çıxdı. " و كان من اصبح الناس خلقاً" Əli Əkbər ən gözəl cavanlardan biri idi. "فاستأذن اباه فى القتال" Atasının yanına gəlib dedi: "Ata, indi icazə ver, mən gedim vuruşum və canımı sənə qurban verim". "فأذن له" İmam heç bir müqavimət göstərmədi və ona icazə verdi.

Bu daha səhabə, qardaş oğlu, bacı oğlu deyil ki, İmam ona "yox, getmə (dayan)" desin. Bu özünün bədən və ciyərinin bir parçasıdır. İndi onun getməsi üçün İmam icazə verməlidir. Bu, İmam Hüseynin Allah yolunda verdiyi sərmayədir. Meydana gedən Hüseynin İsmayılıdır. "فأذن له" İmam ona getmək icazəsi verdi. Amma Əli Əkbər meydana yola düşəndə "ثم نظر اليه نظر يائس منه" İmam Hüseyn ümidsizliklə Əli Əkbərin boy-buxununa baxdı və " و ارخى عليه السلام عينه و بكى ثم قال اللهم اشهد" belə buyurdu: "Allahım, Özün şahid ol". " فقد برز اليهم غلام اشبه الناس خَلقاً و خُلقاً و منطقاً برسولك" Döyüşə və ölümün ağzına elə bir cavan göndərdim ki, Peyğəmbərə hamıdan çox oxşayırdı, həm üzü, həm danışığı, həm əxlaqı – bütün cəhətlərdən!

Bəh-bəh, cavana bax! Əxlaqı da Peyğəmbərə hamıdan çox bənzəyirdi. Üzü də, danışığı da Peyğəmbərə və Peyğəmbərin danışığına hamıdan çox oxşayırdı. İndi siz görün, İmam Hüseyn belə bir cavanı nə qədər çox istəyir! O həzrət bu gənci sevir, amma təkcə öz oğlu olduğuna görə yox. İmam onu oxşarlığına, özü də Peyğəmbərə oxşarlığına görə sevir. Sevən də Peyğəmbərin qucağında böyümüş Hüseyndir. O bu oğlunu çox sevir və belə bir oğulun döyüş meydanına getməsi ona çox çətindir. Nəhayət, o gedir.

Mərhum ibn Tavus nəql edir ki, bu cavan meydana getdi və şücaətlə vuruşdu. Sonra atasının yanına qayıdıb belə dedi: "Atacan, susuzluq məni öldürür, əgər suyun varsa mənə su ver". İmam Hüseyn də ona həmin cavabı verdi. O, döyüş meydanına qayıtdı. İmam Hüseyn cavabında ona belə dedi: "Get vuruş, çox çəkməz cəddinin əli ilə sirab olarsan". "فرجع الى موقف نضال" Əli Əkbər döyüş meydanına tərəf qayıtdı.

Bu kitabın müəllifi ibn Tavusdur. O, inanılmış şəxsdir. Yəni o, camaatı ağlatmaq və məsələn, məclisi qızışdırmaq üçün danışan adam deyil. Xeyr! Onun işlətdiyi ibarələr mötəbər ibarələrdir. O yazır: " و قاتل اعظم القتال" Əli Əkbər çox böyük döyüş apardı, son dərəcə şücaət və cürətlə vuruşdu. Bir az vuruşandan sonra " فرماه منقذ بن مرة العبدى لعنة الله" düşmənin adamlarından biri o həzrəti oxla nişan aldı. "فصرعه" Onu atın üstündən yerə saldı.

"فنادى يا ابتاه عليك السلام" Cavanın səsi ucaldı: "Ata, xudahafiz! "هذا جدى يقرأك السلام" Bu, cəddim Peyğəmbərdir, sənə salam deyir "و يقول عجل القدوم علينا" və buyurur ki: Oğul, Hüseyn, tez gəl, yanımıza daxil ol. Əli Əkbər bu bir kəlməni dilinə gətirdi "ثم شهق شهقةً فمات" sonra bir ah çəkdi, ya fəryad qopardı və canı bədənindən çıxdı.

"فجاء الحسين عليه السلام" İmam Hüseyn oğlunun səsini eşidən kimi döyüş meydanına – gənc balasının düşdüyü yerə getdi. "حتى وقف عليه" Öz cavanının başı üstünə çatdı. "و وضع خده على خده" Üzünü Əli Əkbərin üzünə qoydu "و قال قتل الله قوماً قتلوك ما اجرأهم على الله" O həzrət üzünü Əli Əkbərin üzünə qoydu və bu sözləri dedi: "Allah öldürsün səni öldürən qövmü!"

"قال الراوى: خرجت زينب بنت على عليهما السلام" Ravi deyir: "Bir də gördüm Zeynəb xeymələrdən çıxdı. " فنادا يا حبيباه يابن اخاه" Onun səsi ucaldı: "Ey əzizim, ey qardaşım balası!" "و جائت فأكبّت عليه" Gəldi və özünü Əli Əkbərin cəsədinin üstünə atdı. "فجاء الحسين عليه السلام فأخذها و ردّها الى النساء" İmam Hüseyn (ə) gəldi və bacısının qolundan yapışıb onu Əli Əkbərin cənazəsinin üstündən qaldırdı və qadınların yanına göndərdi.

"ثم جعل اهل بيته صلوات الله و سلامه عليهم يخرج رجل منهم بعد الرجل" Sonra bu hadisənin davamını nəql edir və əgər biz həmin ibarələri nəql etmək istəsək, onları eşidəndə, həqiqətən, insanın ürəyi əriyir.

İbn Tavusun bu ibarələrindən mənim zehnimə bir şey gəldi. O belə yazır: "فأكبّت عليه" "Özünü onun üstünə atdı". İbn Tavusun bu cümləsi, şübhəsiz, səhih hədislərdən götürülüb. O, İmam Hüseynin (ə) özünü Əli Əkbərin cəsədinin üstünə atmasını demir. İmam Hüseyn ancaq üzünü cavan balasının üzünə qoyub. Özünü taqətsizlikdən Əli Əkbərin cəsədinin üstünə atan Zeynəbi-kübra olub.

Mən heç bir mənbədə və Kərbəla hadisəsi barədə yazılmış heç bir kitabda seyidlərin bibisi və Bəni-Haşimin ağıl dəryası olan bu əzəmətli Zeynəbin özünün iki oğlu, özünün iki Əli Əkbəri – onların birinin adı Aun, ikincisinin adı isə Məhəmməd olub – Kərbəlada şəhid olanda hansısa bir reaksiya verməsinə, məsələn, fəryad qoparmasına, ucadan ağlamasına, yaxud özünü onların cəsədinin üstünə atmasına rast gəlməmişəm. Zehnimə gəldi ki, bizim zamanının şəhidlərinin anaları da Zeynəbin yolu ilə gedir, onun kimi davranırlar. Şəxsən mən görməmişəm, ya çox az görmüşəm ki, bir, iki və üç şəhid anası adamla qarşılaşanda özündə zəiflik, ya acizlik büruzə versin.

Bu analar, həqiqətən, qəhrəmandırlar və adam bizim şəhid analarının davranışının əsl örnəyinin Zeynəbi-kübra olduğunu görür. Həzrət Zeynəbin iki oğlu – Aun və Məhəmməd – şəhid oldu, amma o, heç bir reaksiya vermədi. Lakin o öz oğlanlarından başqa iki yerdə özünü şəhidin cəsədinin üstünə atıb. Onlardan biri bu yerdir – Əli Əkbərin başı üstünə gəldi və qeyri-ixtiyari şəkildə özünü Əli Əkbərin cəsədinin üstünə atdı. İkinci yer isə Aşura gününün əsr vaxtıdır. O, həmin vaxt özünü qardaşı Hüseynin cəsədi üzərinə atdı və uca səslə belə dedi: " **يا رسول الله هذا حسينک مرمل بالدماء** " Ey Allahın rəsulu, bu sənin Hüseynindir, sənin əzizindir, sənin bədəninin bir parçasıdır!

Onlar hansı müsibətləri çəkdilər! "**لا حول و لا قوة الا بالله العليّ العظيم**" "Uca və əzəmətli Allahdan başqa heç bir güc və qüdrət yoxdur!"[1]

**28.**

## Yeganə xoşbəxtlik yolu Hüseynçi olmaqdır

Hüseynçi olun və Hüseynçi olaraq qalın. Özünüzü Hüseynçilik meydanında tərbiyə edin, formalaşdırın və bilin ki, dünya və axirətin xoşbəxtlik yolu budur. Allah-taala da sizə kömək edəcək[2].

**29.**

## Kərbəla faciəsinin baş verməsinin səbəbi dünyapərəstlik və fəsadın yayılması, din qeyrətinin azalması olub

**Seyidüş-Şühədanın (ə) vücudunun mənəvi mənası və İmam Hüseynin (ə) adının şiələrin qəlb və ruhlarına Allah tərəfindən olan təsiri**

Əzizlərim! Hüseyn ibn Əlinin (ə) adı qəribə addır. Məsələyə mənəvi baxımdan yanaşanda görürsünüz ki, bu imamın adı agah müsəlmanların qəlblərini maqnit kimi özünə cəlb etmək xüsusiyyətinə malikdir. Əlbəttə, bəzi müsəlmanlarda bu hal yoxdur və əslində, onlar İmam Hüseyni tanımaqdan məhrumdurlar. Digər tərəfdən, bəziləri də var ki, bu ailənin şiələrindən sayılmırlar. Lakin onların arasında bir çoxları da var ki, İmam Hüseynin (ə) adı onların göz yaşını axıdır, hallarını dəyişdirir. Allah-taala İmam Hüseynin adında elə bir təsir qoyub ki, onun adı çəkiləndə biz iranlıların və digər şiə millətlərin qəlb və ruhlarına mənəvi bir hal hakim olur. Bu o müqəddəs zad və vücudun mənəvi mənasıdır.

Bu, bəsirət əhlinin arasında elə əvvəl də belə olub. Hədis və tarixdən də məlum olduğu kimi, həzrət Peyğəmbərin (s), Əmirəl-möminin (ə) evində və bu böyük şəxslərin ailə mühitində də bu əziz vücud bir sıra xüsusiyyətlərə malik olub və ona məhəbbət bəslənilib. Bu gün də elədir.

**İmam Hüseynin (ə) kəlamlarında ülvi islami təlimlərin mövcud olması**

O həzrət və çox dəyərli sahibinə dəlalət edən bu mübarək ad təlimlər baxımından da elədir. O həzrətin kəlamlarında çox əziz və incə maarifləndirici təlimlər mövcuddur. Əgər siz İmam Hüseynin (ə) Ərəfə günü oxuduğu duaya nəzər salsanız, görərsiniz ki, o, həqiqətən, – Əhli-beytin "Zəburu" kimi fəsahətli nəğmə, eşq və maariflənmə şövqü ilə doludur. Adam hətta imam Səccadın bəzi dualarına baxıb müqayisə edəndə görür ki, elə bil oğulun duaları atanın dualarının izah və şərhidir. Yəni sanki o, orijinal mətn, bu isə izahdır. Heyrətamiz və müqəddəs Ərəfə duasında, o həzrətin Aşura barəsindəki sözlərində, Aşuradan başqa vaxt söylədiyi xütbələrdə insanı heyrətləndirən məna və ruh var; o, ülvi və dəqiq təlimlər və ilahi həqiqətlərlə dolu bir dəryadır və Əhli-beytdən (ə) qalan irs içində onun bənzəri azdır.

**İmam Hüseyn (ə) şəxsiyyətinin tarixi əhəmiyyəti**

Bu ad, xüsusiyyət və şəxsiyyət tarixi baxımdan da tarixi bir mərhələ və bir tarix kitabıdır. Əlbəttə, o, sadə tarix və baş verənlərin nəqli deyil, tarixin izah və təfsiri, tarixi həqiqətlər dərsidir.

Mən bir dəfə İmam Hüseynin (ə) başına gələn hadisələrdə olan ibrətlər barədə söhbət etmişəm və orada qeyd etmişəm ki, biz bu hadisədən öyrəndiyimiz dərslərdən əlavə, bəzi ibrətlər də götürürük. "dərslər" bizə nə etməli olduğumuzu, amma "ibrətlər" bizə hansı hadisənin baş verdiyini və hansı hadisənin baş verə biləcəyini deyir.

**Aşuranın ibrətləri**

---

[1] 1416 h.q. ilinin Aşura günü cümə namazının xütbələrində olan çıxışdan. 09.VI.1995

[2] "İmam Hüseyn" adına Universitetin səhər tədbirindəki çıxışından. 08.11.1995

İmam Hüseynin hadisəsinin ibrəti insanın tarix və islami cəmiyyət – özü də başında adi bir insan deyil, həzrət Peyğəmbər kimi bir şəxsiyyətin durduğu cəmiyyət – barədə düşünməsidir. Həmin Peyğəmbər on il insanın təsəvvüründən xaric bir güc ilə və sonsuz ilahi vəhy okeanına birləşərək, malik olduğu tükənməz və misilsiz hikmətlə cəmiyyətə hakim olub. Ondan müəyyən zaman fasiləsindən sonra həmin cəmiyyətə Əli ibn Əbu Talib hakim olub və Mədinə və Kufə növbə ilə bu böyük hökumətin qərargahı olub. Bəs nə baş verdi və bu cəmiyyətə hansı mikrob düşdü ki, həzrət Peyğəmbərin (s) vəfatından yarım əsr və Əmirəl-mömininin (ə) şəhidliyindən iyirmi il sonra həmin cəmiyyətdə və həmin camaatın arasında Hüseyn ibn Əli kimi bir şəxsi elə bir vəziyyətdə şəhid etdilər?!

Nə baş verdi və belə bir hadisənin baş verməsi necə mümkün oldu? Özü də adsız-sansız bir şəxs deyil, həzrət Peyğəmbərin öz qucağında gəzdirdiyi, özü ilə minbərə çıxarıb camaata söhbət etdiyi bir uşaq! Elə bir oğul ki, həzrət Peyğəmbər onun barəsində belə buyurmuşdu: "**حسين منى و انا من حسين**" "Hüseyn məndəndir, mən də Hüseyndənəm".[1] Bu ata ilə oğul bir-birinə belə bağlı idi. Həmin o oğul ki, Əmirəl-mömininin hakimiyyəti dövründə hökumətin müharibə və sülh sütunlarından biri idi və siyasətdə günəş kimi parlayırdı. Bütün bunlardan sonra cəmiyyət elə bir vəziyyətə gəlib çatır ki, bu məşhur insan və Peyğəmbər balasını o əməlinə, təqvasına, seçilmiş şəxsiyyət olmasına və izzətinə, Mədinədəki dərs yığıncaqlarına, o qədər səhabə və aşiqin olmasına, islam dünyasının müxtəlif yerlərindəki çoxsaylı şiələrinə baxmayaraq, elə faciəli şəkildə mühasirə edir, susuz saxlayır və öldürürlər. Özü də onun təkcə özünü deyil, onunla olan bütün kişiləri kütləvi şəkildə, hətta altı aylıq körpəni öldürür, sonra da onun ailə-uşaqlarını müharibə əsiri kimi əsir götürür və bu şəhərdən o şəhərə aparıb dolandırırlar. Nə məsələdir, nə baş vermişdi? Bu, həmin ibrətdir.

**Bugünkü cəmiyyətin islamın ilk dövrü ilə müqayisə edilməsi**

Siz bu iki cəmiyyətin fərqini bilmək üçün bizim cəmiyyətlə həmin cəmiyyəti müqayisə edin. Bizim burada və cəmiyyətin başında İmam Xomeynimiz var idi ki, şübhəsiz, o, dövrümüzün insanlarından daha böyük və üstün idi. Amma buna baxmayaraq, İmam Xomeyni hara, həzrət Peyğəmbər hara? Peyğəmbər tərəfindən həmin cəmiyyətə elə bir əzəmətli qüvvə səpələnmişdi ki, o həzrətin gördüyü işlər vəfatından onlarla il sonra da cəmiyyəti qabağa aparırdı. Siz baş verən fəthlərin həzrət Peyğəmbərin nəfəsi ilə əlaqəsinin olmadığını düşünməyin. İslami cəmiyyəti qabağa aparan o həzrətin gördüyü işlər idi. Buna görə də həzrət Peyğəmbər həmin cəmiyyətin və bizim cəmiyyətin fəthlərində iştirak edirdi və indi də edir ki, iş gəlib bu yerə çatıb.

**Xoşagəlməz işlərlə mübarizəyə dəfələrlə təkid edilməsinin səbəbi Aşura hadisəsinin təkrarlanmasının qarşısını almaqdır**

Mən həmişə gənclərə, tələbələrə və başqalarına deyirəm ki, tarixə ciddi yanaşın, ona diqqətlə baxın və görün nə baş verib: "**تِلْكَ أُمَّةٌ قَدْ خَلَتْ**"[2] Keçmişdəkilərdən ibrət almaq Quranın bizə verdiyi dərs və təlimdir. Hadisənin əsası bir neçə nöqtədən ibarətdir ki, indi mən burada onları təhlil və bəyan etmək istəmirəm. Mən onun bir hissəsini dedim, bir hissəsi də bəhs və araşdırma mövzusudur və gərək tədqiqatçılar oturub həmin kəlamların hər bir sözünün üzərində diqqətlə işləsinlər.

Bu hadisənin baş verməsinə səbəb olan əsas amillərdən biri dünyapərəstlik və fəsad və pozğunluğun yayılaraq din qeyrəti və iman məsuliyyətinin həssaslığının yerini tutmasıdır. Bizim fəsad, pozğunluq, mübarizə, "pislikdən çəkindirmə" və bu kimi məsələlərə təkid etməyimizin əsas səbəblərindən biri onların (uyğun vəzifənin həyata keçirilməməsi – Red.) cəmiyyəti keyləşdirməsidir. İslam hökumətinin ilk qərargahı olan Mədinə bir müddət sonra ən yaxşı musiqiçi, xanəndə və rəqqasların mərkəzinə çevrilmişdi. İş o yerə çatmışdı ki, Şam sarayına ən yaxşı xanəndə çağırmaq istəyəndə musiqiçi və xanəndəni Mədinədən aparırdılar!

Bu hörmətsizlik yüz, yaxud iki yüz il sonra baş verməmişdi, Fatimeyi-Zəhranın (ə) ciyərinin bir parçasının, həzrət Peyğəmbərin gözünün nurunun şəhid edildiyi ərəfədə, hətta ondan da qabaq Müaviyənin zamanında baş vermişdi. Beləcə, Mədinə fəsad və pozğunluq mərkəzinə çevrilmişdi, böyük şəxsiyyətlərin övladları, hətta Bəni-Haşimdən olan bəzi gənclər də fəsad və pozğunluqla məşğul idilər. Pozğun hökumət rəhbərləri də nə etməli olduqlarını və nəyin üzərində dayanmağın və nəyi yaymağın lazım olduğunu yaxşı bilirdilər. Bu bəla təkcə Mədinəyə aid deyildi, başqa yerlər də bu cür fəsadlara düçar olmuşdu[3].

**30.**

---

[1] əl-İrşad, c. 2, s. 127

[2] Bəqərə surəsi, ayə 134: "Onlar bir ümmət idilər ki, keçib getdilər".

[3] "İnqilab Keşikçiləri Korpusu günü" münasibəti ilə İslam İnqilabı Keşikçiləri Korpusunun və Nizam-İntizam qüvvələrinin komandirləri, məsul şəxsləri və personalı, həmçinin İslam İnqilabı əlilləri ilə görüşdəki çıxışdan. 26.XII.1995

## İmam Hüseyn (ə) yolunun bərəkətlərindən bəhrələnmək üçün çalışmağın gərəkliyi

**İmam Hüseynin (ə) bərəkətli yolunun xalq arasında açıq olması**

Allaha şükür edirik ki, bizə bir daha bərəkətli məhərrəm və Aşura çeşməsinin başında olmağı və özümüzü – həm ruh və qəlbimizi, həm də əqli, ruhi və fiziki bacarıqlarımızı – mübarək Aşura mehi və İmam Hüseynin (ə) lütf mənbəyindən bəhrələndirməyi nəsib etdi. İnşallah millətimiz hamısı, o cümlədən böyük alimlər, möhtərəm ruhani və təbliğatçılar, xüsusilə bu yolun əvvəlini təcrübədən keçirməkdə olan şövqlü və imanlı gənclər bu lütflərdən bəhrələnə bilsinlər və daha çox məsuliyyət daşıyanlar özlərini bu ayın bərəkətlərinə daha çox yaxınlaşdırsınlar. Bu, həqir bəndəniz üçün də yaxşı bir fürsətdir. Çünki (mən bu fürsətdən istifadə edib) möhtərəm ruhanilərin, böyük alim və təbliğatçıların, minbər əhli, vaiz və qarşılarında təbliğat meydanı olan – və inşallah, gələcəkdə daha böyük işlər görəcək – gənclərin bir dəstəsini ziyarət edirəm. Bu cəmiyyət mənə çox əziz cəmiyyətdir. Çünki o, Hüseynin sözünü ucaldan və inşallah, bu bərəkət dolu yolu yenidən bərpa edə bilən bir cəmiyyətdir. Əlbəttə, İmam Hüseynin (ə) yolu bizim ölkədə və millətimiz arasında əsrlərdir əsla bağlanmayıb. Bu yola qarşı olanlar və onunla düşmənlik edənlər olsa da, onlar bir iş görə bilməyiblər. Hər halda bu yolun bərəkəti yoxdur. Əgər, həqiqətən, ruhani, təbliğatçı və xətiblər bu yolda məhərrəm ayına layiq şəkildə addımlasalar və bu yolda təşəbbüs göstərsələr, yeniliklər etsələr, intellektual və dəyərli elmi işlərlə yanaşı, ixlasla səy göstərsələr, onun bərəkəti indiyə kimi olandan neçə qat çox olar. Buna görə də biz bu barədə birlikdə, mümkün qədər çox çalışmalıyıq[1].

**31.**

## Bəşər cəmiyyətinin müstəqilliyinin yolu şəhidliyin mənasını dərk etmək və ölümdən qorxmamaqdır

Möhtərəm ruhani və əziz təbliğatçılar gərək bu böyük ayda camaata hadisələrin müxtəlif cəhətlərini bəyan etsinlər və onlara başa salsınlar ki, dünya və axirət din sayəsində əldə edilir. İmam Hüseynlə (ə) əlaqə və şəhidliyin məna və məfhumunu başa düşmək insanın həm maddi, həm də mənəvi həyatına kömək edir. Əgər hansısa bir millət şəhidliyin mənasını başa düşsə və gedib amallar yolunda canını necə qurban verməyin yolunu bilsə, iztirabsız və müstəqil yaşaya bilər. Çünki daha ölüm onun üçün maneə deyil. Əks-təqdirdə düşmən onu ölümlə qorxudacaq və o, bəzi ölkələr, dövlətlər və xalqlar kimi olacaq – düşmənlər qarşısında özünü zəif göstərəcək[2].

**32.**

## Aşura hərəkatı: Dəyanət və bəsirət

**...İmam Hüseynin (ə) hərəkatının ilk mərhələlərindəki problemləri**

İmam Hüseyn (ə) əvvəlcə həmin hərəkətin müqabilində bir-birinin ardınca yaranan bir sıra problemlərlə qarşılaşdı. Həmin problemlərə nümunə olaraq İmam Hüseynin (ə) Məkkədən çıxmaq məcburiyyətində qalmasını, Kərbəlada baş verən qarşıdurmanı və Kərbəla hadisəsində o həzrətin şəxsən sıxıntıya məruz qalmasını göstərmək olar. Böyük işlərlə insanın qarşısını kəsən amillərdən biri dini üzrlərdir. (Məsələn) İnsan hansısa vacib bir işi və boynuna düşən bir vəzifəni yerinə yetirməlidir, amma həmin işin yerinə yetirilməsində ciddi bir nöqsan olur – məsələn, çoxlu adam öldürüləcək – və bu halda o, daha həmin işi yerinə yetirmək məsuliyyəti daşımadığını güman edir. İndi siz baxın, görün İmam Hüseynin (ə) qarşısında zahirə baxan hər bir insanı yolu davam etdirməkdən daşındıra bilən nə qədər belə dini səbəblər var idi? Onların biri digərindən sonra baş verirdi. Əvvəl Kufə əhalisi üz döndərdi və Müslim öldürüldü. Artıq burada İmam Hüseyn, məsələn, belə buyurmalı idi ki: "Daha şəriət baxımından üzrlü sayılırıq və boynumuza heç bir məsuliyyət düşmür. Biz Yezidə beyət etmək istəmirdik. Amma zahirdə görünən budur ki, bu iş mümkün olmayacaq. Camaat da dözümlülük göstərmir. Buna görə də məsuliyyət boynumuzdan götürülür və biz məcburiyyət üzündən beyət edirik".

**İmam Hüseynin (ə) hərəkatının son mərhələsində – Kərbəlada və Aşura günü çoxlu problemlərin üzə çıxması**

[1] Məhərrəm ayı astanasında ruhani və təbliğatçılarla görüşdəki çıxışdan. 15.V.1996
[2] Məhərrəm ayı astanasında ruhani və təbliğatçılarla görüşdəki çıxışdan. 15.V.1996

İkinci mərhələ Kərbəla və Aşura hadisəsidir. İmam Hüseyn (ə) həmin vaxt hər hansı bir məsələ ilə qarşılaşanda böyük məsələləri bu məntiqlə həll edən insanlar kimi belə deyə bilərdi ki: "Arvad-uşaq bu yandırıcı səhranın şəraitinə dözə bilmir, buna görə boynumuza düşən vəzifə üzərimizdən götürülür". Yəni o, təslim ola və həmin vaxta kimi qəbul etmədiyi şeyi qəbul edə bilərdi. Yaxud Aşura günü düşmənin hücumu başlayandan və o həzrətin səhabələrinin çoxu şəhid olandan, yəni problemlər özünü daha çox göstərəndən sonra: "İndi mübarizə aparmağın və irəliləməyin mümkünsüzlüyü məlum oldu" – deyə və geri çəkilə bilərdi. Yaxud İmam Hüseynin (ə) şəhid olacağı və o şəhid olandan sonra Peyğəmbər (s) və Əmirəl-mömininin (ə) ailəsinin səhrada naməhrəmlərin əlində tənha qalacaqları – burada artıq qarşıya namus məsələsi çıxır – məlum olandan sonra qeyrətli bir şəxs kimi belə deyə bilərdi: "Artıq boyundan məsuliyyət götürülüb. (Mən şəhid olsam) Qadınların vəziyyəti necə olacaq? Əgər biz bu yolu davam etdirsək və öldürülsək, Peyğəmbər (s) ailəsinin qadınları, Əmirəl-mömininin (ə) qızları və islam dünyasının ən pak qadınları düşmənlərin – şərəf və namusdan zərrəcə anlayışı olmayan alçaq kişilərin əlinə düşəcək. Buna görə də boynumuzdan vəzifə götürülür".

**İmam Hüseynin (ə) bütün çətinliklər müqabilində misilsiz dəyanət göstərməsi və ilahi vəzifənin yerinə yetirilməsi yolunu davam etdirməsi**

Qardaş və bacılar, diqqət edin! Kərbəla hadisəsində mühüm bir məsələ var ki, bu cəhətdən ona diqqət etmək lazımdır. Əgər İmam Hüseyn (ə) Əli Əsgərin şəhid edilməsi, qadınların əsir düşməsi, uşaqların susuzluğu, bütün cavanların öldürülməsi və Kərbəlada baş verən digər çoxsaylı çox acı və çətin hadisələrə adi şəriət gözü ilə baxsaydı və özünün böyük ilahi vəzifəsini yaddan çıxarsaydı, hər addımda geri çəkilə və "daha boynuma heç bir ilahi məsuliyyət düşmür, Yezidə beyət edəcəyəm; başqa nə çarə var?! Məcburiyyət halalı haram edir!" deyə bilərdi. Lakin İmam Hüseyn (ə) belə etmədi. Bu, o həzrətin dəyanətinin göstəricisidir. Dəyanətin mənası elə budur. Dəyanətin mənası həmişə çətinliklərə qatlaşmaq deyil. Böyük insan üçün çətinliklərə qatlaşmaq bəzi meyarlarla – şəriət, ürf-adət və sadə əqli meyarlarla – yerinə yetirilməsi məsləhətə zidd görünən işləri yerinə yetirməkdən daha asandır. Bunlara dözmək digər çətinliklərdən daha ağırdır.

Bəzən birinə deyirlər ki, "bu yolu getmə, işgəncəyə məruz qalarsan". Onda güclü insan "Qoy işgəncə edilim, nə olar ki?! Mən yolu getməyə davam edirəm" – deyir. Yaxud deyirlər ki: "Getmə, öldürülərsən". Böyük adam cavab verir ki: "Eybi yox, qoy öldürülüm, bunun nə əhəmiyyəti var ki!" Amma bəzən söhbət öldürülməkdən, işgəncədən və məhrumiyyətə məruz qalmaqdan getmir. Deyirlər ki: "Getmə, sənin bu hərəkətinə görə bir dəstə adam öldürülə bilər". Burada artıq söhbət başqalarının canından gedir. "Getmə, sənin qabağa getməyinə görə çoxlu qadın, kişi, uşaq çətinlik çəkə bilər". Artıq bu kimi məqamlarda ölümdən qorxmayan şəxslərin də ayağı titrəyir. Bu yerdə birincisi, ən yüksək həddə bəsirətə malik olan və necə böyük iş gördüyünü dərk edən, ikincisi, güclü ruha malik olan və ruhi baxımdan zəiflik hiss etməyən şəxsin ayağı titrəməz. İmam Hüseyn (ə) Kərbəlada bu iki xüsusiyyətə malik olduğunu göstərdi. Buna görə də Kərbəla hadisəsi tarixin qaranlıqlarına günəş kimi işıq saldı, indi də salır və əbədi olaraq dünyanın sonuna kimi də salacaq...[1]

**33.**

## İmam Hüseynin (ə) İslamdan çıxmaqda günahlandırılması müsəlmanların qəflət və səhlənkarlığının nəticəsi idi

Hədislərin birində deyilir ki, "من خرج على امام عادل فدمه هدر" "İslamda kim ədalətli imama qarşı çıxsa, qanı hədərdir". İnsanların qanına o qədər əhəmiyyət verən islam bu məsələdə belə davranır. İmam Hüseyn (ə) mübarizəyə başlayanda bəziləri Peyğəmbərin, Fatimeyi-Zəhra və Əmirəl-mömininin (ə) oğlunu ədalətli imama qarşı çıxan şəxs kimi təqdim edirdilər. Ədalətli imam kimdir? Yezid ibn Müaviyə!

**Aşura faciəsinin gələcəkdə təkrarlanmasının qarşısını almağın zəruriliyi barədə xəbərdarlıq**

Həmin dəstə İmam Hüseyni (ə) (ədalətli hakimə qarşı) çıxan şəxs kimi təqdim etməkdə uğur qazana bildi. Zalım hökumət ürəyi istəyəni deyir. Bəs camaat nə üçün inanır? Camaat nə üçün susur? Məni narahat edən məsələnin bu cəhətidir. Nə baş verdi ki, iş gəlib bu yerə çatdı? Nə baş verdi ki, islam hökmləri və Quran ayələrinə münasibətdə o qədər diqqətli olan islam ümməti belə aşkar bir məsələdə belə qəflət və səhlənkarlığa yol verdi və birdən-birə belə böyük bir hadisə baş verdi? Belə hadisələr adamı narahat edir. Məgər biz Peyğəmbər və Əmirəl-mömininin zamanındakı cəmiyyətdən möhkəm və dəyanətliyik?! Nə edək ki, elə olmasın? "Nə oldu ki, belə oldu?" sualına heç kəs ətraflı cavab verməyib. Bəzi məsələlərə toxunulub, amma o,

---
[1] İmam Xomeyninin məqbərəsini ziyarətə gəlmiş böyük izdiham qarşısındakı çıxışdan. 03.VI.1996

yetərli və qənaətbəxş cavab deyil. Buna görə də bu gün məsələnin kökü barədə qısa və müxtəsər söhbət etmək istəyirəm. Ondan sonra məsələnin ixtiyarını sizin zehninizə tapşıracağam ki, onun barəsində özünüz düşünəsiniz. Mütaliə və araşdırma əhli olanlar bu məsələni oxuyub araşdırsınlar, iş və əməl əhli olanlar hansı hazırlıq işləri ilə belə hadisələrin baş verməsinin qarşısının alına biləcəyi barədə düşünsünlər.

Əgər bu gün mən və siz bunun qarşısını almasaq, əlli il sonra, on il sonra, yaxud beş il sonra yaşadığımız islami cəmiyyət İmam Hüseynin (ə) zamanındakı yerə çata bilər; bu istisna ilə ki, iti gözlər məsələlərin dərinliyini görsünlər, etibarlı bələdçi yolu göstərsin, düşüncə sahibi olan insanlar işləri idarə etsinlər, möhkəm iradələr bu hərəkətin arxasında dayansınlar. Belə olan halda, əlbəttə ki, (cəmiyyət) heç kəsin nüfuz edə bilmədiyi möhkəm səngər və qala olacaq. Amma əgər boşlasaq, yenə həmin vəziyyət yaranacaq və onda bu qanlar hamısı hədərə gedəcək.

Həmin dövrdə iş o yerə çatmışdı ki, Bədr müharibəsində Əmirəl-möminin, Həmzə və digər İslam sərkərdələrinin əli ilə qətlə yetirilmiş şəxslərin nəvəsi Peyğəmbərin yerində oturmuş və həmin Peyğəmbərin ciyərinin bir parçası olan nəvəsinin başını qabağına qoyub bambuk çubuğu ilə onun dodaq və dişlərinə vurub belə deyirdi: "ليت اشياخى ببدرٍ شهدوا جرع الخزرج من وقع الاسل" Yəni bizim Bədr müharibəsində öldürülmüş adamlarımız durub onları öldürənlərə nə etdiyimizi görsünlər!

Məsələ budur! Buna görə də Quran "ibrət götürün" buyurub. Buna görə də "قُلْ سِيرُوا فِي الْأَرْضِ" "De: Yer (üzün)də gəzib dolanın", buyurur. Tarix "torpağ"ında gəzin və nələrin baş verdiyinə nəzər salın, sonra özünüzü (həmin pis əməllərdən) çəkindirin[1].

**34.**

## Haqq və batil cinahlarında xüsusi zümrənin rolu

O vaxt – təsəvvür edin – həzrət Müslim Kufəyə daxil olur və deyirlər ki: "İmam Hüseynin (ə) əmisi oğlu gəldi; Bəni-Haşim nəslinin üzvü gəldi; gedək; bunlar qiyam etmək istəyirlər" və sairə. Onlar təhrik olurlar, həzrət Müslimin başına yığışırlar və Müslimə beyət edənlərin sayı on səkkiz min nəfərə çatır. Beş-altı saat sonra qəbilə başçıları Kufəyə gəlirlər və camaata deyirlər ki: "Siz nə edirsiniz?! Siz kiminlə vuruşmaq istəyirsiniz?! Kimi müdafiə edirsiniz?! Atanızı yandıracaqlar!" Onlar da Müslimin başından dağılışıb öz evlərinə qayıdırlar. Sonra ibn Ziyadın əsgərləri Müslimi tutmaq üçün Tauənin evini mühasirə edəndə həmin adamlar evlərindən çıxıb Müslimə qarşı vuruşurlar. Onların heç bir əməli fikir, ayırd etmə qabiliyyəti və düzgün təhlilə əsaslanmırdı, mühit necə tələb edirdisə elə də davranırdılar. Bunlar avam kütlədir. Hər bir cəmiyyətdə bir xüsusi zümrə olur, bir də ümumi kütlə. Biz indi ümumi kütləni kənara qoyub xüsusi zümrə barədə danışmaq istəyirik.

Təbii ki, xüsusi zümrə də iki dəstəyə bölünür: Haqq tərəfdə olan xüsusi zümrə və batil tərəfdə olan xüsusi zümrə. Bəziləri düşünsə, mədəniyyət və idrak əhlidir və onlar haqq cinah üçün işləyirlər. Onlar haqqın hansı cinahda olduğunu başa düşüblər. Onlar haqqı tanıyıblar və öz təhlilləri ilə onun üçün işləyir və o yolda hərəkət edirlər. Bunlar bir dəstədirlər. Digər bir dəstə də haqqın müqabilində və ona ziddir. Əgər yenə islamın ilk dövrlərinə qayıtsaq, bəzilərinin Əmirəl-möminin və İmam Hüseynin (ə) səhabəsi və Bəni-Haşimin tərəfdarı olduğunu, başqa bir dəstənin isə Müaviyənin səhabəsi və Bəni-Üməyyənin tərəfdarı olduğunu deyə bilərik. Bəni-Üməyyənin tərəfdarları arasında da düşüncəli, ağıllı və zirək insanlar var idi. Onlar da xüsusi zümrədən idilər.

Deməli, hər hansı bir cəmiyyətin xüsusi zümrəsi iki dəstəyə – haqqın tərəfdarı olanlar və batilin tərəfdarı olanlar – bölünür. Siz batilin tərəfdarı olanlardan nə gözləyirsiniz? Aydın məsələdir ki, onlardan gözlənilən şey onların oturub haqqa və sizə qarşı proqram hazırlamalarıdır. Buna görə də onlarla vuruşmaq lazımdır. Batil tərəfdarı olan xüsusi zümrə ilə vuruşmaq lazımdır. Bunda heç bir şübhə yoxdur[2].

**35.**

## Xüsusi zümrənin dünyapərəstliyi tarixdə Hüseyn ibn Əlinin (ə) qurbangaha getməsinə şərait yaradıb

Əzizlərim! Haqq tərəfdarı olan xüsusi zümrə də iki dəstədirlər. Onların bir dəstəsi dünya, yaşayış, məqam, şəhvət, pul, ləzzət, rahatlıq, ad-san və yaxşı bəhrələr müqabilində dayanırlar. Qeyd etdiklərimizin hamısı yaxşı

[1] "27-ci Məhəmməd (s) Rəsulullah" diviziyasının komandirləri ilə görüşdəki çıxışdan. 09.VI.1996
[2] "27-ci Məhəmməd (s) Rəsulullah" diviziyasının komandirləri ilə görüşdəki çıxışdan. 09.VI.1996

bəhrələrdir. Bunların hamısı həyatın gözəlliyidir. "مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا" "Dünya həyatın bəhrəsi". Bunların hamısı dünya həyatının bəhrələridir. Qurani-kərimin[1] buyurmasının mənası bu bəhrənin pis olması deyil. Xeyr, bəhrədir və Allah onu sizin üçün yaradıb. Lakin əgər həyatın bu bəhrələrinə, Allah eləməmiş, qarşıya çətin bir ilahi vəzifə çıxanda ayrıla bilməyəcəyiniz qədər bağlansanız, bu faciədir. Əgər dünya bəhrələrindən faydalanmaqla yanaşı, çətin imtahanla qarşılaşan zaman onlardan rahatlıqla əl çəkə bilsəniz, bu, hünərdir.

**Haqq tərəfdarı olan iki xüsusi zümrə**

Gördüyünüz kimi, haqq tərəfdarı olan zümrə də iki dəstəyə bölünür. Bu məsələlər diqqət və mütaliə tələb edir. Cəmiyyət, hökumət və inqilab təsadüflə sığortalamaq olmaz. Araşdırma aparmaq, diqqət etmək və düşünmək lazımdır. Əgər hər hansı bir cəmiyyətdə haqq tərəfdarı olan xüsusi zümrənin yaxşıları, yəni lazım olanda dünya bəhrəsindən əl çəkə bilən kəslər çoxluqda olsalar, islami cəmiyyət heç vaxt İmam Hüseynin (ə) zamanındakı cəmiyyətinin aqibətini yaşamaq və o, şübhəsiz, əbədi sığortalanmış olar. Amma əgər bunun əksi olsa və xüsusi zümrənin haqq tərəfdarı olan digər dəstəsi – dünya bəhrəsinə könül verənlər, haqqı tanısalar da, dünya bəhrəsi müqabilində ayaqları titrəyənlər – çoxluq təşkil etsələr, müsibət onda başlayar!

Ümumiyyətlə, dünya nədir? Dünyanın mənası pul, ev, şəhvət, məqam, ad-san, şan-şöhrət, vəzifə və məsuliyyət, candır. Əgər kimlərsə canlarını qorumaq üçün Allah yolunu tərk etsələr və haqqı deməli olduqları yerdə canları təhlükəyə düşdüyü üçün onu deməsələr, yaxud vəzifələri, işləri, pulları, övlad, ailə, qohum və dost sevgisinə görə Allah yolunu tərk etsələr – əgər bunların sayı çox olsa, müsibət onda başlayır. Elə olan halda Hüseyn ibn Əlilər Kərbəla qurbangahına gedəcək və öldürüləcəklər. Onda Yezidlər iş başına gələcək və Bəni-Üməyyə Peyğəmbərin qurduğu ölkədə min ay hökmdarlıq edəcək və imamət səltənətə çevriləcək[2].

**36.**

## Xüsusi zümrənin Aşuradan qabaqkı hadisələri nəzərdən keçirərək lazım olanda qərara gəlməsinin əhəmiyyəti

**İmam Əli (ə) və İmam Hüseynin (ə) qanının sahibi və intiqamçısı Allah-taaladır**

Əmirəl-mömininin (ə) qanı da İmam Hüseynin (ə) qanı qədər dəyərlidir. Siz "Varis" ziyarətnaməsində belə oxuyursunuz: "السلام علیک یا ثار الله و ابن ثاره" Yəni İmam Hüseynin (ə) və həmçinin onun atası Əmirəl-mömininin (ə) qanının sahibi Allah-taaladır. Heç kəs barəsində belə bir ifadə işlədilməyib. Yerə tökülən hər bir qanın sahibi var. Öldürülən şəxsin atası onun qanının sahibidir, övladı qanın sahibidir, qardaşı onun qanının sahibidir. Ərəblər qanın intiqamını almağa və qan haqqına malik olmağa "ثار" "sar" deyir. İmam Hüseynin (ə) "sar" haqqı Allaha məxsusdur. Yəni İmam Hüseynin (ə) özünün və möhtərəm atasının qan haqqı Allahın Özünə məxsusdur. Bu iki nəfərin qanının sahibi Allahın müqəddəs zatıdır.

**İmam Həsənin (ə) şərait və seçimi**

Əmirəl-möminin (ə) İslam cəmiyyətinin həmin günkü vəziyyətinə görə şəhid oldu. Sonra imamət növbəsi İmam Həsənə (ə) çatdı və o həzrət həmin vəziyyətdə altı aydan artıq davam gətirə bilmədi. Onu tək-tənha qoydular. İmam Həsən Müctəba (ə) bilirdi ki, əgər həmin azsaylı səhabə və tərəfdarları ilə Müaviəyə qarşı vuruşsa və şəhid olsa, islam cəmiyyətinin xüsusi zümrəsinə hakim olan əxlaqi tənəzzül onun qanının ardınca gedilməsinə imkan verməyəcək və Müaviəyinin təbliğat, pul və hiyləgərlikləri hamını ələ alacaq və bir-iki il keçəndən sonra camaat İmam Həsənin (ə) Müaviyə qarşısında nahaq yerə ayağa qalxdığını deyəcək. Buna görə də o həzrət bütün çətinliklərə qatlaşdı və özünü şəhidlik meydanına atmadı. Çünki qanının hədərə gedəcəyini bilirdi.

Bəzən şəhid olmaq sağ qalmaqdan daha asan olur. Həqiqətən, belədir! Məna, diqqət və hikmət əhli bunu çox yaxşı dərk edir. Bəzən hansısa bir mühitdə sağ qalmaq, yaşamaq və çalışmaq öldürülmək, şəhid olmaq və Allaha qovuşmaqdan qat-qat çətindir. İmam Həsən (ə) bu çətini seçdi.

**İmam Həsənin (ə) zamanında sağ qalmağın dəyərinin öldürülməkdən üstün olması**

Həmin vaxt vəziyyət belə olub. Xüsusi zümrə təslim olmuşdu və hər hansı bir hərəkət etməyə razı deyildi. Yezid iş başına gələndə onunla vuruşmaq imkanı yarandı. Başqa sözlə desək, Yezidin vəziyyəti xarab olduğu üçün onunla müharibədə öldürülən şəxsin qanı hədərə getməyəcəkdi. İmam Hüseyn (ə) bu səbəbdən ayağa

---

[1] Ali-İmran surəsi, ayə 14: "...Dünya həyatından bəhrələnmək vasitəsidir..."

[2] "27-ci Məhəmməd (s) Rəsulullah" diviziyasının komandirləri ilə görüşdəki çıxışdan. 09.VI.1996

qalxdı. Yezidin vaxtında vəziyyət belə idi ki, mübarizə mümkün olan yeganə seçim kimi görünürdü. Bunun əksinə olaraq, İmam Həsənin (ə) zamanında iki seçim – şəhid olmaq və sağ qalmaq seçimləri var idi və sağ qalmağın savab, təsir və zəhməti öldürülməkdən daha çox idi. Buna görə də İmam Həsən (ə) çətin seçimi etdi. Lakin İmam Hüseynin (ə) zamanında vəziyyət elə deyildi və birdən artıq seçim yox idi, sağ qalmaq mənasız idi, mübarizə etməmək mənasız idi. Buna görə də o həzrət mübarizə etməli idi. İndi əgər həmin mübarizə nəticəsində hakimiyyətə gəlsəydi də, öldürülsəydi də olan olmuşdu. O, yolu göstərməli, yolun başına bayraq sancmalı idi ki, vəziyyət belə olanda belə hərəkət etməyin lazım olduğu məlum olsun.

İmam Hüseyn (ə) mübarizə edəndə islam cəmiyyətində o qədər əzəmətə malik olmasına baxmayaraq, xüsusi zümrənin əksəriyyəti onun yanına gəlmədi və ona kömək etmədi. Görün, bir cəmiyyətdə vəziyyət öz dünyalarını asanlıqla islam dünyasının əsrlər boyu gələcək nəsillərinin taleyindən üstün tutan xüsusi zümrənin vasitəsi ilə nə qədər pisləşir!

**İmam Hüseyn (ə) ilə Abdullah ibn Zübeyrin vəziyyət və rəftarının müqayisə edilməsi**

Mən İmam Hüseynin (ə) mübarizəsi və onun Mədinədən hərəkəti barəsindəki hadisələrə baxırdım. Belə bir məqama rast gəldim ki, o həzrət Mədinədən çıxan gecədən bir gün əvvəlki gecə Abdullah ibn Zübeyr çölə çıxır. Əslində, onların hər ikisinin vəziyyəti eyni olub. Amma İmam Hüseyn (ə) hara, Abdullah ibn Zübeyr hara! İmam Hüseynin (ə) sözü, mübarizə və xütbələri elə kəskin idi ki, Mədinin həmin vaxtkı hakimi Vəlid onunla kobud danışmağa cürət etmirdi. Bir dəfə Mərvan o həzrəti tənqid edən bir söz işlədir və onun tənqidi yersiz olduğu üçün o həzrət ona elə bir sərt cavab verir ki, o, yerində oturmağa məcbur olur. Amma həmin Mərvan kimilər Abdullah ibn Zübeyrin evini mühasirə etmişdilər. Abdullah qardaşı vasitəsilə onlara belə bir ismarıc göndərir ki, əgər icazə versəydiniz, indi xilafət sarayına gəlməzdim. Lakin onlar Abdullahı təhqir edərək dedilər ki, atanı yandırarıq, əgər evdən çıxmasan, səni öldürəcəyik, filan-behman edəcəyik. Onu elə hədələdilər ki, Abdullah yalvararaq dedi: "Onda icazə verin indi qardaşımı göndərim, xilafət sarayına özüm sabah gələrəm". O, o qədər israr etdi və yalvardı ki, bir nəfər vasitəçilik edərək dedi: "Ona bu gecəlik möhlət verin".

Abdullah ibn Zübeyr tanınmış və nüfuzlu şəxsiyyət olmasına baxmayaraq, vəziyyəti İmam Hüseyndən (ə) bu qədər fərqli idi. Heç kəs o həzrətlə kobud danışmağa cürət etmirdi. Mədinədən çıxanda da – istər yolda olsun, istərsə də Məkkədə – kim ona çatır və onunla həmsöhbət olurdusa, o həzrətə "**جعلت فداک**" (sənə qurban olum), ata-anam sənə fəda olsun, "**عمّی و خالی فداک**" (əmim və dayım sənə qurban) deyə xitab edirdi. İmam Hüseynlə ümumi davranış belə idi. O, islami cəmiyyətdə belə üstün və seçilən şəxsiyyətə malik idi. Abdullah ibn Müti Məkkədə İmam Hüseynin (ə) yanına gəlib belə deyir: "**یابن رسول الله إن قتلت لنسترقنّ بعدک**" Əgər sən mübarizə etsən və öldürülsən, hakimiyyətdə olanlar səndən sonra bizi qul edəcəklər. Bu gün sənin hörmətinə, sənin qorxundan, sənin heybətindən öz yolları ilə gedirlər.

İmam Hüseyn (ə) xüsusi zümrənin arasında elə əzəmətli bir məqama malik idi ki, onun qarşısında hətta ibn Abbas təvazökarlıq edərdi, Abdullah ibn Cəfər təvazökarlıq göstərərdi, o həzrətdən xoşu gəlməməsinə baxmayaraq, Abdullah ibn Zübeyr təvazökarlıq edərdi. Böyük şəxsiyyətlər və haqq əhli olan xüsusi zümrənin hamısı onun məqamının əzəməti müqabilində təvazökarlıq edərdi. Ona təvazökarlıq edənlər haqq tərəfdə olan – hökumətin, Bəni-Üməyyənin və batilin tərəfində olmayan – xüsusi zümrədir. Onların arasında hətta Əmirəl-möminini (ə) qəbul edən və onu birinci xəlifə hesab edən çoxlu şiələr var idi. Lakin onların hamısı hakimiyyətin təzyiqi ilə qarşılaşanda və can, sağlamlıq, rahatlıq, məqam və pullarının təhlükəyə düşmə ehtimalının olduğunu görəndə geri çəkilirdilər. Bunlar geri çəkiləndə avam insanlar da həmin tərəfə üz tuturlar.

**İmam Hüseyni (ə) dəvət edən xüsusi zümrə mənsubları arasında ürəyi dünya malına bağlı olanların sayının çoxluğu**

Kufədən İmam Hüseynə (ə) məktub yazıb o həzrəti ora dəvət edənlərin adına baxanda görürük ki, onların hamısı xüsusi zümrə mənsubları, cəmiyyətin seçilmiş və tanınan simaları olublar. Məktubların sayı çoxdur. Kufədən İmam Hüseynə (ə) yüzlərlə səhifə, yaxud neçə böyük xurcun və ya bağlama məktub göndərilmişdi. Bütün məktubları böyük, seçilmiş, adlı-sanlı şəxsiyyətlər – həmin xüsusi zümrə yazmışdı. Amma məktubların məzmun və tonuna baxanda məlum olur ki, haqq tərəfdarı olan bu xüsusi zümrədən hansıları dinlərini dünyalarına, hansıları dünyalarını dinlərinə qurban verməyə hazırdır. Məktubları saf-çürük edəndə dinlərini dünyaya qurban verməyə hazır olanların sayının çox olmasını başa düşmək olar. Bunun da nəticəsi o olur ki, Kufədə Müslim ibn Əqil şəhid edilir və əhalisinin on səkkiz mini Müslimlə beyət etmiş Kufədən İmam Hüseynlə (ə) vuruşmağa Kərbəlaya iyirmi, otuz, ya bir az artıq adam gedir. Yəni xüsusi zümrə öz hərəkəti ilə avamları öz arxalarınca aparır.

Bilmirəm, həmişə ağıllı insanların başına gələn bu böyük həqiqət bizə düzgün aydın olur, yoxsa yox? Kufə hadisəsini, yəqin ki, eşitmisiniz. İmam Hüseynə (ə) məktub yazırlar və o həzrət əvvəlcə Müslim ibn Əqili Kufəyə göndərir. İmam (ə) öz-özlüyündə fikirləşir ki, əvvəl Müslimi ora göndərim, əgər o, vəziyyətin münasib olması xəbərini versə, özüm də Kufəyə gedim. Müslim ibn Əqil Kufəyə daxil olan kimi şiənin böyük şəxsiyyətlərinin evinə gedir və o həzrətin məktubunu oxuyur. Camaat dəstə-dəstə gəlir və öz məhəbbətini izhar edir. Kufənin valisinin adı Nöman ibn Bəşir olub. O, zəif və mülayim bir şəxs olub. O deyib ki, əgər kimsə mənə qarşı silah çəkməsə, mən onunla vuruşan deyiləm. Buna görə də o, Müslimin qarşısını almır. Camaat mühitin sakit və meydanın açıq olduğunu gördüyü üçün Müslimlə beyət edənlərin sayı gün-gündən artır. Batil cinahın xüsusi zümrəsindən – Bəni-Üməyyə tərəfdarlarından – iki-üç nəfər Yezidə məktub yazır ki, əgər Kufəni əlində saxlamaq istəyirsənsə, bura layiqli bir hakim göndər. Çünki Nöman ibn Bəşir Müslim ibn Əqilin qarşısında müqavimət göstərə bilmir. Yezid də Bəsrənin valisi Übeydullah ibn Ziyada göstəriş verir ki, Bəsrədən əlavə – bugünkü dillə desək, oradakı vəzifəsini qorumaqla yanaşı – Kufəni də öz hökmranlığı altına alsın. Übeydullah ibn Ziyad Bəsrədən birbaşa Kufəyə gəlir. Onu Kufəyə gəlməsində də xüsusi zümrənin rolu məlumdur və əgər vaxt olsa, mən onun bir hissəsini sizə nəql edərəm. O, Kufənin darvazasına gecə çatır. Kufənin adi camaatı – təhlil qabiliyyəti olmayan həmin avam camaat – və təchizatla üzü niqablı bir şəxsin şəhərə daxil olduğunu görəndə elə bilirlər ki, İmam Hüseyndir (ə). Onlar həmin şəxsin qabağına qaçırlar və: "Salam olsun sənə, ey Allahın elçisinin oğlu" – sədası ətrafı bürüyür.

**Xüsusi zümrənin təbliğatının rolu və avam camaata təsiri**

Avam şəxsin xüsusiyyəti belədir. Təhlil əhli olmayan şəxs araşdırma aparılmasını da gözləmir. Onlar at və təchizatla bir şəxsin şəhərə daxil olduğunu gördülər və onunla bir kəlmə danışmadan səhv gümana düşdülər. Bir nəfər: "O, İmam Hüseyndir (ə)" deyən kimi hamısı "İmam Hüseyn, İmam Hüseyn" deyə qışqırmağa başladı. Onlar həqiqətin aydınlaşması üçün səbr etmədən həmin şəxsə salam verdilər, "xoş gəldin" dedilər. Übeydullah da onlara etina etməyib özünü əmirlik sarayına çatdırdı və oradan Müslim ibn Əqil ilə mübarizə planını həyata keçirməyə başladı. Onun işinin əsas hissəsi Müslim ibn Əqilin tərəfdarlarına böyük təzyiq göstərib onları təhdid etmək və işgəncə verməkdən ibarət idi. Bu məqsədlə o, xəyanət və hiylə ilə Hani ibn Ürvəni əmirlik sarayına gətirdi və onu döyməyə başladı. Bir dəstə insan onun bu əməlinə etiraz üçün əmirlik sarayını mühasirə edəndə yalan və hiylədən istifadə edərək camaatı oradan dağıtdı.

Bu mərhələdə də haqqı tanıyan və batildən seçən, amma dünyalarını ondan üstün tutan dırnaqarası xüsusi zümrənin rolu aşkar göründü. Digər tərəfdən, həzrət Müslim çoxlu adamla hərəkət etdi. İbn Əsir öz tarix kitabında yazır ki, Müslimin başına otuz min nəfər toplanmışdı. Bu qədər adamdan ancaq dörd min nəfər onun yaşadığı yerin ətrafına toplaşmışdı və əllərində qılınc Müslim ibn Əqilin xeyrinə şüar səsləndirirdi.

Bu hadisələr zilhiccə ayının doqquzuna aiddir. İbn Ziyad xüsusi zümrədən bir dəstəni camaatın arasına saldı ki, onları qorxutsunlar. Həmin xüsusi zümrə də camaatın arasında gəzişir və "siz kiminlə vuruşursunuz? Nə üçün vuruşursunuz? Əgər amanda qalmaq istəyirsinizsə, evinizə dönün; bunlar Üməyyə övladlarıdır, pulları, qılınc və qamçıları var" kimi sözlər deyirdilər. Onlar camaatı elə qorxutdular və Müslimin ətrafından dağıtdılar ki, işa namazının vaxtı Müslim artıq tək qalmışdı və yanında heç kəs yox idi.

Sonra ibn Ziyad Kufə məscidinə getdi və belə bir ümumi elan verdi ki, hamı məscidə gəlməli və işa namazını mənim pişnamazlığımla qılmalıdır.

Tarix yazır ki, Kufə məscidi işa namazı qılmaq üçün ibn Ziyadın arxasında dayanan cəmiyyətlə doldu. Nə üçün belə oldu? Mən baxanda haqq tərəfdarı olan xüsusi zümrəni günahkar görürəm. Onların bəzisi olduqca pis hərəkət etdi. Məsələn, kim? Məsələn, qazi Şüreyh. O, bəni-Üməyyədən deyildi. O, haqqın kimin tərəfində olduğunu başa düşürdü, vəziyyətin nə olduğunu dərk edirdi. Hani ibn Ürvəni başı-gözü yaralı zindana atanda əsgərlər və onun qəbiləsinin adamları Übeydullah ibn Ziyadın sarayının ətrafını mühasirə edib öz əllərinə aldılar.

**Qazi Şüreyhin Haninin şəhid olmasındakı mənfi hərəkəti**

İbn Ziyad qorxdu. Onlar "siz Hanini öldürmüsünüz" deyirdilər. İbn Ziyad qazi Şüreyhə dedi: "Get bax, gör, əgər Hani sağdırsa, adamlarına xəbər ver". Şüreyh gördü ki, Hani sağdır, amma yaralıdır. Haninin gözü Şüreyhə sataşan kimi fəryad qopardı ki: "Ey müsəlman, bu nə vəziyyətdir?! Bəs mənim tayfam hanı?! Onlar nə üçün mənim dalımca gəlmirlər?! Nə üçün gəlib məni buradan xilas etmirlər?! Məgər ölüblər?!" Qazi Şüreyh dedi: "Mən Haninin sözlərini əmirlik sarayının ətrafını ələ keçirmiş şəxslərə demək istəyirdim. Amma, təəssüf ki, Übeydullahın casusu orada idi və bunu deməyə cürət etmədim "cürət etmədim" nə deməkdir? Yəni bizim dediyimiz şey – dünyanın dindən üstün tutulması! Bəlkə də, Şüreyh həmin bir işi görsəydi, tarix dəyişərdi. Əgər Şüreyh camaata desəydi ki, Hani sağdır, amma yaralı halda zindanda düşüb qalıb və Übeydullah onu öldürmək

istəyir, Übeydullah hələ tam güclənmədiyi üçün onlar tökülüb Hanini xilas edərdilər. Hani xilas olandan sonra da güclər artardı, ruhiyyələri yüksələrdi və əmirlik sarayını mühasirə edib Übeydullahı tutar, ya öldürər, ya da geri göndərərdilər. Bundan sonra Kufə İmam Hüseynin (ə) əlinə keçər və daha Kərbəla hadisəsi baş verməzdi. Əgər Kərbəla hadisəsi baş verməsəydi, yəni İmam Hüseyn (ə) hakimiyyətə gəlsəydi, Hüseyn hakimiyyəti hətta altı ay davam etsəydi belə, tarix üçün çox bərəkətli olardı. Hətta onun (hakimiyyətin) çox çəkməsi də mümkün idi.

Bəzən yerində olan bir hərəkət tarixi xilas edir və həmçinin bəzən qorxu, zəiflik, dünyapərəstlik və sağ qalmaq hərisliyindən doğan yersiz bir hərəkət tarixi ağzınlıq uçurumuna yuvarlayır. Ey qazi Şüreyh! Nə üçün Haninin həmin vəziyyətdə olduğunu gördüyün halda haqqa şahidlik etmədin? Dünyanı dindən üstün tutan xüsusi zümrənin eyb və nöqsanı budur.

Kufə şəhərinə qayıdaq: Übeydullah ibn Ziyad Kufə qəbilələrinin başçılarına "Gedin camaatı Müslimin başından dağıdın, yoxsa atanızı yandıracağam!" deyəndə nə üçün ona tabe oldular?! Axı qəbilə başçıları hamısı əməvi deyildilər və Şamdan gəlməmişdilər! Onların bəzisi İmam Hüseynə (ə) məktub yazanlardan idilər. Şəbəs ibn Rəb`i İmam Hüseynə məktub yazanlardan və o həzrəti Kufəyə dəvət edənlərdən biri idi. O, həmin o şəxslərdəndir ki, Übeydullah "gedin camaat Müslimin başından dağıdın" deyəndə qabağa düşdü və kufəliləri təhdid etməyə, şirnikləndirməyə və qorxutmağa başladı.

Niyə belə iş gördülər? Əgər Şəbəs ibn Rəb`i kimiləri belə həssas bir anda ibn Ziyaddan qorxmaq əvəzinə, Allahdan qorxsaydılar, tarix dəyişərdi. Tutaq ki, avam dağılışdı, bəs nə üçün Müslimin başına toplaşmış xüsusi zümrə ondan əl çəkdi? Onların arasında yaxşı və düz-əməlli adamlar var idi ki, bəziləri sonradan Kərbəlada şəhid oldular, amma burada səhv etdilər.

**Təvvabin qiyamının az təsir göstərməsinin səbəbi qərarın gecikməsidir**

Əlbəttə, Kərbəlada şəhid olanlar səhvlərinin kəffarəsini verdilər. Onlar barəsində heç bir söhbət ola bilməz və biz onların adını da çəkmirik. Amma xüsusi zümrənin bəzisi Kərbəlaya getmədi, gedə bilmədi və bu onlara qismət olmadı. Əlbəttə, onlar sonradan təvvabinə qoşulmağa məcbur oldular. Amma nə faydası? İmam Hüseyn (ə) öldürüləndən, Peyğəmbər (s) balası əldən gedəndən, faciə baş verəndən, tarix enişə doğru hərəkət etməyə başlayandan sonra daha bunun nə xeyri var?! Buna görə də tarixdə təvvabinin sayı Kərbəla şəhidlərinin sayından neçə qat çoxdur. Kərbəla şəhidləri bir günün içində şəhid oldular. Təvvabinin də hamısı bir gündə öldürüldü. Amma təvvabinin tarixdə qoyub getdiyi təsir Kərbəla şəhidlərinin qoyduğu təsirin mində biri qədər də deyil. Çünki onlar vaxtında gəlmədilər, işi vaxtında görmədilər, gec qərara gəldilər, gec müəyyən etdilər.

Nə üçün Müslim ibn Əqilin İmam Hüseynin nümayəndəsi olduğunu bilə-bilə onu tək qoydunuz?! O gəlmişdi və siz onunla beyət də etmişdiniz, onu qəbul da edirdiniz. Bizim avam camaatla işimiz yoxdur, mən xüsusi zümrəni deyirəm. Nə üçün günortadan sonra və axşam üstü Müslimi tək qoydunuz ki, o da Tauənin evinə sığınmaq məcburiyyətində qalsın?! Əgər xüsusi zümrə Müslimi tək qoymasaydı və onların sayı, məsələn, yüz nəfərə çatsaydı, həmin yüz nəfər Müslimin başına yığışsaydı, özlərindən birinin evini qərargah etsəydilər, dəyanət göstərib onu müdafiə etsəydilər... Müslim tək olsa da, onu tutmaq saatlarla vaxt aparardı. İbn Ziyadın əsgərləri neçə dəfə hücum etdilər, Müslim təkbaşına onların hamısını geri qovdu. Əgər onun yanında yüz nəfər adam olsaydı, məgər onu tuta bilərdilər?! Yenə camaat onun başına yığılardı. Deməli, xüsusi zümrə bu mərhələdə də Müslimin başına toplaşmamaqla səhlənkarlıq etdi.

Fikir verin, hansı tərəfdən hərəkət ediriksə, xüsusi zümrə ilə qarşılaşırıq. Xüsusi zümrənin vaxtında qərara gəlməsi, xüsusi zümrənin lazım olan vaxt dünyadan vaz keçməsi, xüsusi zümrənin lazım olan anda Allaha xatir addım atması... Tarix və dəyərləri xilas edən və qoruyan bunlardır. Lazım olan vaxt lazımi hərəkəti etmək lazımdır. Əgər duruxsanız və vaxt keçsə, (həmin işin sonradan görülməsinin) faydası yoxdur[1].

**37.**

## İmam Hüseyn (ə) bütün insanlar üçün ən böyük ülgü və örnəklərdəndir

**Ən zirək insanlar və Allah övliyalarının ülgü və örnək seçilməsi**

Özünü böyüklərə oxşatmaq və övliyalara mənsub etmək dünyanın zirək adamlarının işidir. Hamı ülgü istəyir, nümunə və örnək axtarır. Amma ülgü axtarışında hamı düz yol ilə getmir. Dünyada elə adamlar var ki, əgər onlardan "hansı sima sizin zehninizi özünə cəlb edir?" deyə soruşsanız, onların ömürlərini nəfsi istəklərə tabeçiliklə keçirmiş və yeganə hünərləri ancaq qafillərin xoşu gələn işlər görmək olan – ancaq bir neçə anlıq kiçik və qafil insanların başını qatan – həqir, cılız və alçaq insanları göstərdiklərinin şahidi olarsınız. Bunlar

---

[1] "27-ci Məhəmməd (s) Rəsulullah" diviziyasının komandirləri ilə görüşdəki çıxışdan. 09.VI.1996

dünyada olan adi insanların bir qismi üçün örnəkdirlər. Bəziləri də siyasətçilərin, tarixi şəxsiyyətlərin və bu qəbildən olan insanların arxasınca gedir və onlardan nümunə götürürlər. Ən zirək insanlar Allah övliyalarını örnək seçən şəxslərdir. Çünki Allah övliyalarının ən böyük xüsusiyyəti budur ki, onlar öz nəfslərinə hakim olmaq və öz nəfsləri qarşısında xar olmayacaq qədər şücaətli, güclü və qüdrətlidirlər.

Deyirlər ki, qədim filosof və müdriklərin biri Makedoniyalı İsgəndərə belə deyib: "Sən mənim qullarımın qulusan!" İsgəndər onun bu sözünə təəccüb edərək qəzəblənib. Həmin şəxs deyib: "Qəzəblənmə, sən öz şəhvət və qəzəbinin qulusan. Bir şey istəyəndə də səbirsizlik edirsən, bir şeydən qəzəblənəndə də. Bu, şəhvət və qəzəb müqabilində köləlikdir, halbuki şəhvət və qəzəb mənim qullarımdır".

Bu hekayət düz də ola bilər, səhv də. Amma o, Allah övliyaları, peyğəmbərlər və bəşəriyyətin hidayət nişanələri barədə doğrudur. Onun nümunəsi həzrət Yusif, həzrət İbrahim və həzrət Musadır. Allah övliyalarının həyatında da çoxsaylı nümunələr mövcuddur. Ən zirək insanlar bu böyükləri, bu şücaətli və güclü insanları örnək götürən və bu yolla özləri üçün batində və mənəviyyatda qüdrət və əzəmət əldə edənlərdir.

**İmam Hüseyn (ə) ən böyük və bütün varlıq aləmlərində ehtiyac duyulan örnək nişanələrindəndir**

Bu böyük şəxsiyyətlərin arasında da seçilən nişanələr var və şübhəsiz, İmam Hüseyn (ə) həmin nişanələrin ən böyüklərindəndir. Həqiqətən, belə demək lazımdır ki, nəinki biz həqir, dəyərsiz və maddi insanlar, hətta bütün varlıq aləmləri, övliyaların, böyüklərin və Allah dərgahına yaxın mələklərin ruhu onun nurunun şüasına ehtiyaclıdır və varlıq aləminin bizə heç aydın və bəlli olmayan vücudunun qatlarında Hüseyn ibn Əlinin (ə) nuru günəş kimi parlayır. Əgər insan özünü bu günəşin şüasına versə, bu, çox böyük bir iş olar[1].

**38.**

## İbadət, idrak, bəsirət, dəyanət və şücaət – İmam Hüseyn (ə) şəxsiyyətinin vücudunun cəhətləri

**İmam Hüseynin (ə) həyatında Hüseyn əzmkarlığının təzahürləri**

Fikir verin, İmam Hüseyn (ə) həzrət Peyğəmbərin, Əli ibn Əbu Talibin (ə) və Fatimeyi-Zəhranın (ə) oğlu idi və bunların hamısı hər hansı bir insanı ucaldan dəyərlərdir. O bu evdə, həmin şəxslərin qucağında, o tərbiyədə, o mənəvi mühit və mənəvi cənnətdə böyümüşdü. Amma o bunlarla kifayətlənmirdi. Həzrət Peyğəmbər (s) dünyasını dəyişəndə o həzrət səkkiz və ya doqquz yaşlı bir uşaq idi. Əmirəl-möminin şəhid olanda o, otuz yeddi-otuz səkkiz yaşında bir gənc idi. Əmirəl-möminin sınaq, səy və fəaliyyət dövrü olan zamanında da bu istedad mənbəyi daim atasının əli altında yoğrulmuş, güclənmiş və parlamışdı.

Əgər hər hansı bir insanın əzmkarlığı bizim kimi olsa, həmin qədərin bəs etdiyini, yaxşı olduğunu və bu miqdarla Allahın hüzuruna getməyin yetərli olduğunu deyər. Lakin İmam Hüseynin əzmkarlığı burada bitmir. O həzrət, qardaşının mübarək həyatı dövründə – İmama Həsənin (ə) onun imamı olduğu və o həzrətin İmam Həsənin əmrinə tabe olduğu dövrdə – də o böyük işi davam etdirib, yenə əvvəlki kimi irəliləyib və qardaşının yanında boynuna düşən vəzifələri yerinə yetirib, öz zamanının imamına tabe olub. Bunların hamısı məqamın artması və yüksəlişdir. Siz onun həyatının anlarını bir-bir hesablayın. O, sonra qardaşının şəhidliyi ilə qarşılaşıb. Ondan sonra o həzrət on il ömür sürüb. İmam Həsən şəhid olandan İmam Hüseyn şəhid olana kimi təqribən on ildən bir az artıq vaxt keçib. Siz baxın, görün İmam Hüseyn (ə) Aşuradan qabaqkı bu on il ərzində nə iş görüb.

O həzrətin ibadət və raz-niyazı, təvəssülü, Peyğəmbər məqbərəsində "etikaf"ı, mənəvi zahidliyə qapılması məsələnin bir tərəfidir. Məsələnin digər tərəfi o həzrətin elm və dini təlimlərin yayılması istiqamətində çalışması və təhriflə mübarizə aparmasıdır. Həmin dövrdə təhrif islamın ən böyük mənəvi bəlası idi və fəsad və çirkab seli kimi islami cəmiyyətin zehinlərinə tərəf axırdı. Həmin vaxt camaata islamın ən böyük şəxsiyyətinə lənət oxumaları tövsiyə edilən bir dövr idi. Əgər kimsə Əmirəl-mömininin imamət və vilayət cərəyanının tərəfdarı olmaqda ittiham edilsəydi, təqibə məruz qalırdı. "**القتل بالظنة و الأخذ بالتهمة**" "Gümanla öldürülür, töhmətlə tutulurdu".[2]

O həzrət belə bir vaxtda dağ kimi dayandı və polad kimi təhrif pərdələrini yırtdı. İmam Hüseynin (ə) kəlam, söz və alimlərə xitabının bəzisi tarixdə qalıb və onlardan o həzrətin bu sahədə necə böyük işlər görməsi məlum olur.

---

[1] "İnqilab keşikçisi günü" münasibəti ilə İslam İnqilabı Keşikçiləri Korpusunun üzvləri ilə görüşdəki çıxışdan. 14.XII.1996

[2] Əmirəl-mömininin (ə) Müaviyəyə məktubundakı bu ifadəsinə işarədir: "(Ey Müaviyə!) Bil! Allah-taala camaat kimi deyil ki, bir dəstəni kiçicik bədgümanlıqla öldürəsən, bir dəstəsini ittiham edib tutasan". Biharul-ənvar, c. 44, s. 214

Digər bir istiqamət ən yüksək həddə edilən "yaxşılığa dəvət və pislikdən çəkindirmə" sahəsidir. Tarix kitablarında o həzrətin Müaviyəyə məktubu nəql edilib. Bunu nəql edənlər heç şiə də deyildirlər. Mənim zehnimdə qalan qədəri budur ki, bu məktubu əhli-sünnə tarixçiləri nəql ediblər. Məncə, onu şiələr nəql etməyiblər. Yəni mənə rast gəlməyib, ya əgər nəql ediblərsə də, onlardan nəql ediblər. Qeyd edilən həmin məktub və "pislikdən çəkindirmə və yaxşılığa dəvət" Yezid xəlifə olandan sonra diqqət Mədinədən çıxmamışdan qabağa aiddir. Bunun özü də "əmr be məruf və nəhy əz münkər"dir. "ان آمر بالمعروف و انهى عن المنكر" "yaxşılığa dəvət və pislikdən çəkindirmək istəyirəm".[1]

Diqqət edin, bir insan həm şəxsi səylərində – nəfsin saflaşdırılmasında – o böyük işi görür, həm mədəni sahədə təhriflərlə mübarizə, ilahi hökmləri yayılması və böyük şagird və insanların yetişdirilməsi kimi böyük işlər görür, həm də siyasi səhnədə "yaxşılığa dəvət və pislikdən çəkindirmə" prinsipini icra edir. Sonra da onun əzəmətli mücahidliyi gəlir ki, o da siyasi sahəyə aiddir. Bu insan üç sahədə özünü formalaşdırmaq və inkişafla məşğuldur.

Əzizlərim! Bu şəxs örnəkdir. Bunlar Kərbəladan qabaqkı dövrə aiddir. Bir an dayanmaq olmaz. Daim inkişaf etmək lazımdır. Çünki düşmən aramıza nüfuz etmək üçün yumşaq torpaqlı səngər axtarır. Düşmən hücum etmək üçün bizim dayanmağımızı gözləyir. Düşmənin hücumunu dayandırmaq və onun sırasını pozmaq üçün ən yaxşı yol sizin hücum etməyinizdir. Sizin inkişafınız düşmənə hücumdur.

**Düşmənin səyləri müqabilində özünü, ailəni və cəmiyyəti islah etməyin gərəkliyi**

Bəziləri elə bilirlər ki, düşmənlərə hücum etməyin mənası insanın mütləq top-tüfəngdən istifadə etməsi, yaxud siyasi səs-küy salmasıdır. Əlbəttə, bəzən bu da lazımdır. Bəli, insan siyasi səs-küy də salmalıdır. Bəziləri elə bilməsinlər ki, biz mədəni məsələlərdən danışanda məqsədimiz düşmənin üstünə qışqırmaqdır! Xeyr! Əlbəttə, öz yerində o da lazımdır. Amma məqsəd təkcə o deyil. Ən böyük iş insanın özü üzərində, övladlarının, əli altında olanların, öz adamlarının və islam ümmətinin üzərində işləməsidir. Düşmən daim çalışır ki, bu böyük səddi necəsə titrətsin, nazikləşdirsin, nüfuz edilməsi mümkün olan şəklə salsın. Düşmən əl çəkən deyil.

Düşmən zahiri və puç əzəmətə malik qərb imperializmi, tənəzzülə uğramış cahiliyyət və şeytan mədəniyyətidir. Bu düşmən əsrlər ərzində yaranıb və dünyanın bütün iqtisadi, mədəni, insani və siyasi resurslarını ələ keçirib. Amma indi o, yalançı deyil, həqiqi islamdan ibarət bir maneə ilə qarşılaşıb. Yalançı islam da var. Onların adı müsəlmandır, amma özləri düşmənin süfrəsinin başında oturular da, ondan yeyirlər də, hələ barmaqlarını da yalayırlar! Təbii ki, düşmən belə islamdan qorxmur.

Həqiqi maneə həqiqi İslam və Quran islamıdır, "وَ لَنْ يَجْعَلَ اللهُ لِلْكَافِرِينَ عَلَى الْمُؤْمِنِينَ سَبِيلاً"[2] və "إِنِ الْحُكْمُ إِلاَّ لِلَّهِ"[3] islamıdır. Əgər dairəni bir az daraltsanız və onun ortasına – mərkəzinə – yaxınlaşsanız "إِنَّ اللَّهَ اشْتَرَى مِنَ الْمُؤْمِنِينَ أَنْفُسَهُمْ وَ أَمْوَالَهُمْ بِأَنَّ لَهُمُ الْجَنَّةَ"[4] o, bədəni qəlpə ilə dolu olan sizlərin islamıdır. Sizin bədəninizdə başdan-ayağa döyüş əməliyyatı, müharibə və Allah yolunda cihad nişanəsi var. İstər əziz əlillər olsun, istər şəhid ailələri, istərsə də gedib, Allaha şükür, düşmənin acığına, sağ-salamat qayıdanlar. Əsas maneə budur.

Düşmən bu maneəni yaddan çıxarmayıb və daim buna caynaq atır. Biz gərək düşmənin bu caynaq atması, cırmaqlaması və hiyləgərliyi ilə mübarizə aparaq. Hərəkət etmək və səy göstərmək lazımdır, həm özünü islam etmək sahəsində – bu, hər şeydən qabaqdır; sizin mövlanız olan İmam Hüseyn (ə) kimi – həm siyasi səhnədə – o, "yaxşılığa dəvət" etməkdən, siyasi hərəkət və fəaliyyətdən, lazım olan yerdə mövqe bildirməkdən və dünya imperializmi müqabilində siyasi açıqlama verilməkdən ibarətdir – həm də mədəni sahədə – yəni insanları islah etmək, özünü islah etmək, düşüncəni islah etmək, fikir və mədəniyyətin təbliği. Bunlar İmam Hüseyni (ə) örnək hesab edən hər bir kəsin vəzifəsidir. Xoşbəxtlikdən bizim xalqın hamısı İmam Hüseynə (ə) xüsusi ehtiram edir və o həzrəti böyük sayır. Hətta bir çox qeyri-müsəlmanlar da belədirlər.

**Kərbəla hadisəsinin məna və ruh baxımından əhəmiyyəti**

İndi də Kərbəla hadisəsinin digər bir mühüm cəhətindən danışacağıq. Bu da İmam Hüseyni (ə) özlərinə örnək seçmək istəyənlər üçün bir dərsdir. Əzizlərim, fikir verin, Kərbəla hadisəsi yarım gündən çox – ya da bir az artıq – çəkməyib. Bir neçə nəfər də şəhid olub: yetmiş iki nəfər, ya bir neçə nəfər az, ya da çox. Dünyada bu qədər şəhid var. Kərbəla hadisəsinin bu qədər böyüməsinin – elə o cür də olmalıdır və hələ də onlardan böyükdür – insanların vücudunun dərinliklərində belə dərin iz buraxmasının səbəbi bu hadisənin ruhudur.

---

[1] Biharul-ənvar, c. 44, s. 329
[2] Nisa surəsi, ayə 141: "Allah heç zaman kafirlərin (dəlil-sübut gətirməkdə) möminlərə qalib gəlmələrinə bir yol qoymayıb".
[3] Yusif surəsi, ayə 40: "Hökm yalnız Allaha məxsusdur".
[4] Tövbə surəsi, ayə 111: "Həqiqətən, Allah möminləri canlarını və mallarını onlardan Cənnətin onların olması bahasına alıb".

Hadisənin cisminin elə də həcmi yoxdur. Hər halda körpə uşaq hər yerdə öldürülüb. Orada altı aylıq bir uşaq öldürülüb, amma düşmənlər bəzi yerlərdə kütləvi qırğın törədiblər və yüzlərlə uşaq öldürüblər. Burada söhbət məsələnin fiziki cəhətindən getmir. O, məna və ruh baxımından çox əhəmiyyətlidir.

**İmam Hüseynin (ə) bir dünya sapıntı, azğınlıq və zülmətlə qarşılaşması**

Məsələnin həqiqəti budur ki, İmam Hüseyn (ə) bu hadisədə təkcə bir qoşun ilə, sayca özündən yüz qat çox insan kütləsi ilə qarşı-qarşıya gəlməmişdi, bir dünya azğınlıq, zülmət və zülm ilə üz-üzə idi. Həmin dünyada hər şey – pul, qızıl-gümüş, şeir, kitab, mühəddis və axund – var idi. Çox qorxulu idi. O zülmət dünyanın puç əzəməti müqabilində adi adamın – hətta adidən də yüksək adamın – bədəni titrəyirdi. Amma İmam Hüseynin (ə) ayaq və ürəyi bu dünyanın qarşısında titrəmədi, zəiflik və tərəddüd hiss etmədi, təkbaşına meydanın ortasına gəldi. Bu hadisənin əzəməti onun Allaha xatir mübarizə olmasıdır.

**İmam Hüseynin (ə) Kərbəladakı əməlinin həzrət Peyğəmbərin (s) "besət"dəki[1] əməlinə bənzərliyi**

İmam Hüseynin (ə) Kərbəlada gördüyü iş pak cəddi həzrət Məhəmməd ibn Abdullahın (s) besətdəki əməlinə bənzədilə və onunla müqayisə edilə bilər. Məsələ budur. Həzrət Peyğəmbər (s) orada təkbaşına bütün dünya ilə qarşı-qarşıya dayandığı kimi, İmam Hüseyn də Kərbəla hadisəsində təkbaşına bütün dünya ilə üz-üzə dayanmışdı. O həzrət (s) qorxmadı, dayandı və qabağa gəldi. İmam Hüseyn (ə) də qorxmadı, dayandı və qabağa gəldi. Həzrət Peyğəmbərin hərəkəti ilə İmam Hüseynin hərəkəti vahid mərkəzi olan dairə kimidir. Onların hər ikisinin üzü eyni istiqamətədir. Buna görə də burada "**حسين منى و انا من حسين**" "Hüseyn məndəndir, mən də Hüseyndənəm"[2] cümləsi öz mənasını tapır. Bu, İmam Hüseynin işinin əzəmətidir.

İmam Hüseyn (ə) Aşura gecəsi "gedin, burada qalmayın; mənim uşaqlarımın da əlindən tutub aparın, bunlar məni istəyirlər" deyəndə zarafat etmirdi.[3] Təsəvvür edin ki, onlar İmamın bu sözünü qəbul edib gedirlər və İmam Hüseyn tək-tənha, yaxud on nəfərlə qalır. Sizcə, belə olan təqdirdə İmam Hüseynin işinin əzəməti azalacaqdı? Xeyr! O, yenə həmin əzəmətə malik olacaqdı. Əgər İmam Hüseynin yanında yetmiş iki nəfər əvəzinə, yetmiş iki min nəfər olsaydı, o həzrətin işinin əzəməti azalacaqdı?!

**İmam Hüseynin (ə) şücaətinin və fədakarlığının əzəmətinin digər şücaətlərdə fərqi**

Xeyr, işin əzəməti İmam Hüseynin (ə) bir dünya etirazçı və iddiaçının təzyiqi müqabilində tərəddüd etməsidir. Halbuki belə məqamlarda adi insanlar tərəddüd edirlər. Adidən üstün insanlar da tərəddüd edirlər. Biz dəfələrlə demişik, böyük şəxsiyyətlərdən olan Abdullah ibn Abbas və Qüreyşin digər tanınmış şəxsiyyətlərinin oğlanları bu vəziyyətdən narahat idilər. Abdullah ibn Zübeyr, Abdullah ibn Ömər, Əbdürrəhman ibn Əbu Bəkr və böyük səhabələrin övladları və bəzi səhabələr bu qəbildəndirlər. Mədinədə çoxlu səhabə var idi. Onlar qeyrətli adamlar idilər. Onların qeyrətsiz olduğunu düşünə bilməzsiniz. Onlar Mədinənin "Hərrə" hadisəsində – Kərbəla hadisəsindən bir il sonra Mədinəyə hücum edildi və kütləvi qətllər törədildi – Müslim ibn Əqəbənin hücumu müqabilində dayandılar, vuruşdular və mübarizə apardılar. Onların qorxaq olduğunu güman etməyin, xeyr, onlar qılınc çalan və şücaətli insanlar idilər.

Amma döyüş meydanına daxil olmaq şücaəti bir məsələdir, bir dünya ilə qarşılaşmaq şücaəti bir başqa məsələ. İmam Hüseyn (ə) bu ikinciyə malik idi. O, bu ikinci üçün hərəkət etdi. Buna görə də mən dəfələrlə təkid etmişəm ki, imam Xomeyninin hərəkəti İmam Hüseyn hərəkəti idi. Bizim dövrümüzdə imam Xomeyninin işində İmam Hüseynin hərəkətindən bir qatqı var idi. İndi bəziləri deyə bilərlər ki, İmam Hüseyn Kərbəla səhrasında susuz şəhid oldu, amma imam Xomeyni bu izzətlə hökumət qurdu və yaşadı, dünyasını dəyişdi və dəfn edildi. Hadisənin göstəricisi bunlar deyil. Hadisənin göstəricisi hər şeyə malik puç əzəmətlə qarşılaşmaqdır.

Öncə də qeyd etdim ki, İmam Hüseynin düşməninin pul, güc, döyüşçü təbliğatçı və tərəfdarı var idi. Əzizlərim, indi sizin vəziyyətiniz belədir. Kərbəla dünyanın sonuna kimi yayılıb. Kərbəla neçə yüz metrlik meydanın sərhədlərində məhdudlaşmırdı. İndi həmin gündür. Bu gün bütün imperializm və zülm dünyası islam respublikası ilə qarşı-qarşıyadır[4].

**39.**

[1] Həzrət Məhəmmədin (s) peyğəmbər olaraq seçilib göndərilməsi hadisəsi. – Tərc.
[2] əl-İrşad, c. 2, s. 127
[3] Vəq`ətut-təff, s. 198
[4] "İnqilab keşikçisi günü" münasibəti ilə İslam İnqilabı Keşikçiləri Korpusunun üzvləri ilə görüşdəki çıxışdan. 14.XII.1996

## İslami hökumətdəki dini təbliğat ilə digər dövrlərdəki təbliğatın fərqi

İslam tarixində bütün cəhətlərdən nümunə və misilsiz bir hadisə olan məhərrəm hadisəsində bariz cəhətlərdən biri həmin təbliğat məsələsidir. Məhərrəm insanların Hüseyn ibn Əlinin (ə) özünün, səhabələrinin və ailə üzvlərinin pak və nahaq tökülmüş qanının bərəkətindən bu pak qanların ona görə töküldüyü dinin həqiqətləri ilə tanış olmaları üçün bir fürsətdir. Bu da Kərbəla hadisəsinin əbədi bərəkətlərindən biridir və onun qədrini bilmək lazımdır[1].

**40.**

## İmam Səccad və həzrət Zeynəbin (ə) şəhidlərin qanını qorumaq və yaşatmaq istiqamətindəki səylərinin dəyər və əhəmiyyəti

Əgər bu həqiqət bu gün bizim şəhidlər qarşısında məsuliyyət hiss edən şəxslərin vasitəsi ilə yaşadılsa, qorunsa, dəyərləndirilsə və əzəmətli saxlanılsa, bizim gələcək tariximiz həmişə onların etdiyi bu böyük fədakarlıqdan bəhrələnər. Bəşəriyyət tarixi hələ də tarixin şəhidlərinin ağası həzrət İmam Hüseynin (ə) nahaq tökülən qanından bəhrələnir. Çünki həmin qanın varisləri həmin qanı yaşatmaq üçün ən ağıllı və ən təsirli üsullardan istifadə ediblər.

**Aşura şəhidlərinin qanının qorunması və dəyərləndirilməsində bizim bugünkü vəzifəmiz**

Bəzən şəhidin qanının yaşadılmasının zəhmət və əziyyəti şəhidlikdən az olmur. İmam Səccadın (ə) otuz illik əziyyəti və Zeynəbi-kübranın (ə) neçə illik zəhməti bu qəbildəndir. Onlar bu qanı yaşatmaq üçün zəhmət çəkiblər. Onlardan sonra da bütün imamlar (ə) qeyb dövrünə kimi bu zəhmətə qatlaşıblar. Bu gün biz də belə bir məsuliyyət daşıyırıq. Əlbəttə, bu gün şərait o gündən fərqlidir. Bu gün, Allaha şükür, haqq hökuməti, yəni şəhidlərin hökuməti qurulub. Buna görə də biz məsuliyyət daşıyırıq[2].

**41.**

## Aşura hadisəsinin həmişəyaşarlığının böyük sirri

**Aşura – böyük müsibətlər və böyük bir səbir məcmuəsi**

Şərəfli həyatda müsibətlər, əlbəttə ki, çoxdur. İmam Hüseynin Aşura səhnəsinin özü müxtəlif müsibətlər səhnəsidir. Həqiqətən, çox maraqlıdır, Allah-taala İmam Hüseynin bu Aşura meydanını necə böyük müsibətlər məcmuəsi edib ki, böyük insanlar və onların başında həzrət İmam Hüseyn (ə) kəramət, ali cənablıq, səbr və şükr ilə bu böyük müsibətlərə dözə bilib! Bəşər tarixində məsələnin hər iki tərəfi misilsizdir. Həm dünyada bir gün səhərdən günortadan sonraya kimi birlikdə baş verən o ağır və çeşidli müsibətlərin misli yoxdur, həm də tarixdə bu müsibətlərə göstərilən səbrin bənzəri yoxdur.

**Müsibət və əsirlik məşəqqətlərinin əsas daşıyıcıları – İmam Səccad (ə) və həzrət Zeynəb (ə)**

Şəhidliklər, məzlumluqlar, qəriblik hissləri, susuzluq, ailəsinə görə bir nəfərin məruz qaldığı kədərlərin sıxıntısı, gələcəkdən nigaranlıq, bundan əlavə, varlıq aləminin ən əziz adamının, yəni Hüseyn ibn Əlinin (ə), onun ailə üzvləri, övlad və səhabələrini itirilməsi, sonra da əsirlik – özü də şərəfli insanların əlində yox! Çünki şərəfli insanın əlində əsir olmağa dözmək olur. Amma onlar şərəfli insanlar deyildilər, insan deyildilər, yırtıcı idilər. İmam Hüseynin (ə) ailəsi Aşura günü sübhdən günortadan sonraya qədər baş verən o qədər müsibətdən sonra belə bir əsirliyə dözdü. Buna dözən kim idi? İmam Səccad – imamət məqamı və imamət məqamının mütləq davamçısı Zeynəb; sonra da zahirdə vilayət və imamət məqamı kimi yüksək mənəvi məqamlara malik olmayan qadınlar və uşaqlar. Amma onlar buna dözdülər. Aşura hadisəsini həmişəyaşar edən o böyük sirr budur[3].

**42.**

---

[1] Məhərrəm ayı astanasında təbliğata göndərilən ruhani və təbliğatçılarla görüşdəki çıxışdan. 03.V.1997

[2] Tehran vilayətinin şəhid komandirlərinin ailələri ilə görüşdəki çıxışdan. 07.V.1997

[3] İranın üzləşdiyi İran-İraq müharibəsində düşmənə əsir düşmüş və ya itkin düşmüş şəxslərin ailələri ilə görüşdəki çıxışdan. 21.V.1997

## İmam Hüseynin (ə) şəxsiyyətinin və cihadının əzəmətinin dayağı

İmam Hüseynin (ə) parlaq və alicənab şəxsiyyətinin iki cəhəti var: Onun bir cəhəti həmin cihad və şəhidlik cəhətidir ki, tarixdə tufan yaradıb və bu tufan bütün bərəkətləri ilə birlikdə davam edəcək və siz onunla tanışsınız. Onun digər bir cəhəti mənəvi və irfani cəhətdir ki, özünü xüsusilə Ərəfə duasında heyrətamiz şəkildə göstərir. Bizim Ərəfə duası kimi heyrətamiz yanğı və nəzmə malik və Allah-taalanın lütfünə təvəssül edən və Allahın müqəddəs zadı qarşısında özünü fani bilən dualarımız azdır. O, çox heyrətamiz bir duadır.

**İmam Səccadın (ə) Ərəfə duası İmam Hüseynin (ə) Ərəfə duasının şərhidir**

Ərəfə gününə aid başqa bir dua da Səhifeyi-Səccadiyyədə var[1] və o, İmam Hüseynin (ə) oğluna mənsubdur. Mən bir vaxtlar bu iki duanı bir-biri ilə müqayisə edirdim. Əvvəl İmam Hüseynin duasını oxuyurdum, sonra isə Səhifeyi-Səccadiyyədəki duanı. Dəfələrlə zehnimə bu fikir gəlib ki, həzrət Səccadın duası Ərəfə duasının şərhi kimidir. O, əsas mətndir, bu isə şərh, o, orijinaldır, bu isə haşiyə. Ərəfə duası çox heyrətamiz duadır. Siz həmin ruhiyyəni eynilə o həzrətin Minada öz dövrünün böyüklərinə – İslamın böyük şəxsiyyətləri, tabeinlərin yerdə qalanları və bu kimi şəxslərə – etdiyi xitabda müşahidə edirsiniz. Çox ehtimal ki, həmin xitab son ilə, ya da başqa bir ilə aiddir. İndi mənim dəqiq yadımda deyil. Amma o, tarix və hədis kitablarında qeyd edilib.

**Aşura hadisəsinin irfani cəhətinə bir baxış**

Aşura və Kərbəla hadisəsinə qayıdırıq. (Biz bu hadisəyə baxanda) görürük ki, ora döyüş və müharibə meydanı olsa da, ilk andan tarixin nəql etdiyinə əsasən, o həzrətin alnını Kərbəlanın isti torpağı üzərinə qoyub "**الهی رضاً بقضائک و تسلیماً لأمرک**" "İlahi, sənin hökmünə razı, əmrinə təsliməm".[2] dediyi son ana qədər zikr, raz-niyaz, Allahı yad etmək və təvəssüllə doludur. O həzrət "**من كان باذلاً فينا مهجته و موطناً على لقاء الله نفسه فليرحل معنا**" "Kim canını bizim yolumuzda qurban vermək istəyirsə və özünü Allaha qovuşmağa hazırlayıbsa, mənimlə səfər etsin"[3] buyurub. Məkkədən çıxanda dua, təvəssül, Allaha qovuşmaq vədi və Ərəfə duasındakı ruhiyyə ilə başlayır, son ana – qətlgah çuxuruna və "Sənin hökmünə razıyam" deyilənə kimi! Yəni Aşura hadisəsinin özü də irfani bir hadisədir. Müharibədir, öldürmək və öldürülmək, qəhrəmanlıq meydanıdır – Aşura qəhrəmanlıqları fövqəladə parlaq bir səhifədir – amma siz bu qəhrəmanlıq hadisəsinin əsas quruluşuna baxanda görürsünüz ki, onda irfan var, mənəviyyat var, raz-niyaz və Ərəfə duasının ruhu var. Deməli, İmam Hüseyn (ə) şəxsiyyətinin bu cəhətinə də cihad və şəhidlik cəhətinin əzəməti qədər, o ülvilikdə və o yüksəklikdə diqqət edilməlidir.

Demək istədiyim də budur. Şübhəsiz, belə demək olar ki, Aşura hadisəsini həmin mənəviyyat, irfan, təvəssül, Allahda fani olmaq, "məşuq"da "əriyib yox olmaq" və Allahın müqəddəs zatının istəyi müqabilində özünü görməmək belə əzəmətli, möhtəşəm və əbədi edib. Başqa sözlə desək, birinci cəhəti, yəni cihad və şəhidlik cəhətini də ikinci cəhət, yəni irfani və mənəvi ruh yaradıb. Çoxları mömindirlər və gedib cihad edirlər, şəhid də olurlar. Bu bir şəhidlikdir, heç kəm-kəsiri də yoxdur. Amma bir şəhidlik də var ki, iman ruhunun fövqündə dayanır, yanğılı bir qəlbdən, şölələnən və Allah yolunda səbirsizlik edən bir ruhdan doğur və Allah eşqindən, Allahın zat və sifətlərində qərq olmaqdan qaynaqlanır. Bu cür fədakarlığın başqa dadı olur. Bu, başqa bir hal yaradır; varlıq aləminə başqa bir təsir göstərir.

**Şəhidlərin vəsiyyətnaməsini oxumaq və onlarda yazılan irfani ruhu dərk etmək tövsiyəsi**

Biz bunun bəzi damcılarını öz müharibəmizdə də gördük. Siz gördünüz, İmam Xomeyni gənclərin vəsiyyətnamələrinin oxunmasını tövsiyə edirdi və güman edirəm ki, - əlbəttə, mən bu barədə İmam Xomeynidən bir şey eşitməmişəm – bu, quru tövsiyə deyildi. İmam Xomeyni həmin vəsiyyətnamələri oxumuşdu və o alovlu "güllə" onun mübarək qəlbinə təsir etmişdi. Buna görə o, başqalarının da ondan bəhrələnməsini istəyirdi. Mən özüm də, Allaha şükür olsun ki, müharibə illərində və ondan sonra bu günə kimi həmin vəsiyyətnamələrlə müəyyən qədər ünsiyyətdə olmuşam və həmin vəsiyyətnamələrin bəzisinin həmin irfan ruhundan xəbər verməsinin şahidi olmuşam.

**Bəzi döyüşçü gənclərin yol qət etmək sürətinin ariflərdən çox olması**

---

[1] Səhifeyi-Səccadiyyə, 47-ci dua
[2] Vəq`ətut-təff, s. 251
[3] Biharul-ənvar, c. 44, s. 366

Ariflərin zahidlik, ibadət, ustaddan dərs almaq, nə qədər ağlamaq, raz-niyaz etmək və böyük işlər görərək otuz-qırx ilə qət etdiyi yolu bir gənc döyüş bölgəsində on, on beş, iyirmi günə qət edir. Yəni, bu gənc hər hansı səbəbdən – təbii ki, gənclik ruhiyyəsi ilə birgə olan dini maraqla – cəbhəyə gedib və bu hal cəbhədə tədricən fədakarlıq əzmi və özünün bütün varlığından keçmək halına çevrilib və o, şəhid olana kimi öz xatirə və vəsiyyətnaməsini yazıb. Bu hal, beləcə, son günlərə, son anlara və son saatlara kimi anbaan güclənib, bu yaxınlıq artıb və bu hərəkət sürətlənib. Əgər ondan bir şey qalıbsa, o, alovlu bir güllə kimi insanın qəlbinə təsir edir. Adam xatirə yazıb şəhid olan bu gənclərin yazılarında bu xüsusiyyəti çox aydın şəkildə müşahidə edir. Bu həmin Hüseyn ruhundan bir damladır. Deməli, Aşura hadisəsinin sütunu mənəviyyatdır[1].

**43.**

## Ən məşhur duaların mübarizə ilə ən çox məşğul olan üç imamın dilindən çıxması

Maraqlıdır ki, bizim təqribən bütün imamlarımızdan (ə) – mənim yadımda qalan qədər – dualar nəql edilib və bizə çatıb. Amma daha çox və ən məşhur dualar üç imamdan nəql edilib və onların üçü də ömürləri boyu böyük mübarizə ilə məşğul olublar. Onların biri Əmirəl-mömünindir (ə) ki, o həzrətdən Kumeyl duası və digər dualar nəql edilib. Bu dualar bir başqa aləm və qovğadır. Ondan sonra İmam Hüseynə (ə) aid duadır ki, Ərəfə duası onun nümunələrindən biridir. Bu da, həqiqətən, heyrətamiz bir duadır. Ondan sonra da İmam Səccaddır ki, o, Aşura övladı və qasididir və Yezidin zülm sarayı qarşısında mübarizə aparıb. Mübarizə səhnələrində hamıdan çox iştirak edən bu üç imamın duası da hamıdan çoxdur. Onlar dualarda hamıdan çox dərs keçiblər. İndi siz Səhifeyi-Səccadiyyədə həmin əxlaqi xüsusiyyətlərə nəzər salın.

**Səhifyeyi-Səccadiyyə ilə ünsiyyətdə olmaq tövsiyəsi**

Mən bir-bir siz əzizlərin hamısına tövsiyə edirəm ki, bacardığınız qədər Səhifeyi-Səccadiyyə ilə ünsiyyətdə olun. O, çox əzəmətli kitabdır. Onu, həqiqətən düzgün olaraq "Məhəmmətd əhli-beytinin Zəburu" adlandırıblar. O, mənəvi nəğmələrlə doludur, dua və dərsdir; həm əxlaq dərsidir, həm psixologiya, həm də sosiologiya dərsi. Siz orada bu duaya nəzər salın: "**اللهم انى اعوذ بک من هيجان الحرص و سورة الغضب ... و الحاح الشهوة**" "Allahım, sənə sığınıram hərisliyin baş qaldırmasından və qəzəbin güclənməsindən ... və şəhvətpərəstlikdən".[2] Yəni o bu mənəvi və əxlaqi xüsusiyyətləri, bizim ruhumuzda olan fəsad köklərini dua dili ilə bizə tanıtdırır[3].

**44.**

## İslam tarixinin besətdən Aşura hadisəsinə kimi geniş təhlili

**Aşura barəsində üç mühüm bəhs**

Aşuraya aid məsələlərdə üç əsas bəhs var:

Onlardan biri İmam Hüseynin (ə) hərəkatının səbəbləridir. İmam Hüseyn (ə) nə üçün mübarizə etdi? Yəni bu mübarizənin dini, elmi və siyasi təhlil edilməsi. Biz əvvəllər bu barədə geniş danışmışıq. Alimlər və böyük şəxsiyyətlər də bu barədə yaxşı bəhslər ediblər. Biz bu gün həmin bəhslərə daxil olmuruq.

İkinci bəhs Aşuranın dərsləridir. Bu, canlı, əbədi və həmişəyaşar bir mövzudur və hansısa bir zaman çərçivəsində məhdudlaşmır. Aşura dərsi fədakarlıq, dindarlıq, şücaət, bərabərlik dərsidir, Allaha xatir edilən hərəkət, məhəbbət və eşq dərsidir...

Üçüncü bəhs Aşuranın ibrətləri barəsindədir. Bir neçə il bundan qabaq biz bu məsələni irəli sürdük və qeyd etdik ki, Aşuranın dərslərdən əlavə, ibrətləri də var. Aşuranın ibrətləri islamın hakimiyyətdə olduğu vaxtlara aiddir. Ən azı, belə deyə bilərik ki, bu bəhsin əsas hissəsi indiki zamana aiddir, yəni bizim zamanımıza, bizim ölkəyə aiddir və biz ibrət götürməliyik.

Biz məsələni belə irəli sürmüşdük ki: necə oldu ki, özəyini həzrət Peyğəmbər (s) təşkil edən, o həzrəti sevən, ona dərin iman bəsləyən, başdan-ayağa şücaət, dini şövq və sonra bir hissəsinə toxunacağımız hökmlərlə dolu olan İslam cəmiyyəti, o həzrətin qurduğu həmin cəmiyyət, həmin insanlar, hətta bəziləri Peyğəmbərə yaxın dövrü görmüş şəxslər əlli ildən sonra bir yerə yığışıb həmin Peyğəmbərin balasını ən faciəli şəkildə öldürdülər?! Azğınlıq, geriyə qayıtmaq, arxaya dönüş bundan artıq necə ola bilər?!

---

[1] "İnqilab Keşikçiləri günü" münasibəti ilə İslam İnqilabı Keşikçiləri Korpusunun çoxsaylı üzvləri ilə görüşdəki çıxışdan. 04.XII.1997

[2] Səhifeyi-Səccadiyyə, 8-ci dua

[3] "İnqilab Keşikçiləri günü" münasibəti ilə İslam İnqilabı Keşikçiləri Korpusunun çoxsaylı üzvləri ilə görüşdəki çıxışdan. 04.XII.1997

**Həzrət Zeynəbin (ə) Kufə bazarında ümmətin cahiliyyət dövrünə qayıtması barədəki çıxışı**

Zeynəbi-kübranın (ə) Kufə bazarındakı o əzəmətli xütbəsinin əsas mehvəri bu barədə olub: " **يا اهل الكوفة يا اهل الختل و الغدر أتبكون**" "Ey Kufə əhli! Ey hiyləgərlər və xəyanətkarlar! Ağlayırsınız?!"[1] Kufə əhalisi İmam Hüseynin kəsilmiş başını nizə başında və Əlinin qızını əsir edilmiş görəndə, faciəni yaxından hiss edəndə, ağlayıb fəryad qoparmağa başladı. "**أتبكون**" "Ağlayırsınız?!" "**فلا رقات الدمعة و لا هدئت الرنة**" "Heç göz yaşlarınız qurumasın!"[2] Daha sonra buyurdu: " **انما مثلكم كمثل الَّتِي نَقَضَتْ غَزْلَهَا مِنْ بَعْدِ قُوَّةٍ أَنْكَاثاً تَتَّخِذُونَ أَيْمَانَكُمْ دَخَلاً بَيْنَكُمْ**" "Siz öz ipini əyirdikdən və möhkəmləndirdikdən sonra açıb bir-birindən ayıran o qadın kimisiniz ki, andlarınızı aranızda hiylə və fəsad vasitəsi edirsiniz".[3] Bu, həmin qayıtmaqdır, dönüş və keçmişə geri qayıtmaq! Siz yun və ya pambığı cəhrə ilə əyirən və sap düzəldəndən sonra onları didib yenidən pambıq edən qadına oxşayırsınız. Siz, əslində, öz saplarınızı pambıq edirsiniz, bu, geri dönməkdir. Bu, ibrətdir. İstənilən islami cəmiyyət belə bir təhlükə ilə qarşılaşa bilər.

Bizim əziz və böyük rəhbərimiz İmam Xomeyninin ən böyük fəxri ümmətin həmin Peyğəmbərin sözünə əməl edə bilməsi idi. Məgər Peyğəmbər və məsum olmayan insanların şəxsiyyəti o əzəmətli şəxsiyyət ilə müqayisə edilə bilər?! O, elə bir cəmiyyət qurdu, amma nəticəsi elə oldu. Bütün islami cəmiyyətlərin aqibəti elə olmalıdır? Əgər ibrət götürsələr, xeyr! Lakin əgər ibrət götürməsələr, bəli! Aşuranın ibrətləri bunlardır.

Allaha şükür olsun ki, Allahın lütfü ilə indiki dövrün insanları olaraq bizlərə yenidən həmin yolu getmək, dünyada islamın adını diriltmək, islam və Quranın bayrağını ucaltmaq nəsib oldu. Bu iftixar dünyada sizə nəsib olub. Bu xalq indiyə kimi inqilabından təxminən iyirmi il ötməsinə baxmayaraq, bu yolda möhkəm dayanıb və irəli getməkdə davam edir. Amma əgər diqqətli olmasanız, sayıq olmasaq, əgər özümüzü bu yolda lazım olan kimi qorumasaq, həmin taleyi yaşaya bilərik. Bu, Aşuranın ibrətidir.

Mən indi neçə il bundan əvvəl irəli sürdüyüm və Allaha şükür ki, elm əhlinin də barəsində bəhs etdiyi, araşdırma apardığı, nitq söylədiyi, məqalə yazdığı mövzu barəsində bir az geniş danışmaq istəyirəm. Əlbəttə, cümə namazı bu barədə geniş söhbət etmək yeri deyil. Çünki bu çox uzun bir söhbətdir. İnşallah, əgər ömür vəfa etsə və Allah qismət etsə, cümə namazından başqa bir yerdə bu barədə geniş söhbət edəcək, onun bütün xüsusiyyətlərinə toxunacağam. Bu gün bu məsələyə ötəri nəzər salmaq və əgər Allah qismət etsə, əslində, bir kitabın materialını bir xütbəyə yerləşdirib sizə təqdim etmək istəyirəm.

Bu hadisəni doğuran səbəblərin axtarılıb tapılması üçün əvvəlcə onun nə qədər böyük olduğunu başa düşmək lazımdır. Kimsə "Aşura hadisəsi bir ölüm hadisəsi idi və orada bir neçə nəfər öldürüldü" deməsin. Aşura ziyarətnaməsində oxuduğumuz kimi – "**لقد عظمت الرزية و جلت و عظمت المصيبة**"[4] – Bu, çox böyük bir müsibətdir. "Rəziyyə" sözünün mənası "çox böyük müsibət"dir. Bu hadisə çox böyük hadisədir. O, çox sarsıdıcı və bənzərsiz faciədir.

**İmam Hüseynin (ə) həyatının üç dövrünü təhlil etməklə Aşura hadisəsinin əzəmətinin dərk edilməsi**

Bu hadisənin nə qədər əzəmətli olduğunu dərk etmək üçün mən müxtəsər şəkildə İmam Hüseynin (ə) həyatından üç qısa dövrə işarə edəcəyəm. Siz baxın, görün kimsə bu üç dövrdə tanıdığı şəxsin işinin Aşura günü cəddinin ümmətinin bir dəstəsi tərəfindən mühasirə edilməsi, həm özünün, həm də bütün səhabə, dost və ailə üzvlərinin belə faciəli şəkildə öldürülməsi və qadınlarının əsir edilməsi həddinə çatmasını təxmin edə bilərdimi?!

Bu üç dövrün biri həzrət Peyğəmbərin (s) həyatda olduğu dövrdür. İkinci dövr o həzrətin cavanlıq dövrü, yəni Əmirəl-mömininin hökumətinə kimi olan iyirmi beş illik dövrdür. Üçüncü dövr isə Əmirəl-mömininin şəhidliyindən Kərbəla hadisəsinə kimi olan iyirmi illik fasilə dövrüdür.

**İmam Hüseyn (ə) həzrət Peyğəmbərin (s) həyatı dövründə**

Həzrət Peyğəmbərin (s) həyatı dövründə İmam Hüseyn (ə) o həzrətin gözünün işığı, sevimlisi olub. Həzrət Peyğəmbərin Fatimə adlı qızı var idi və həmin dövrün bütün müsəlmanları o həzrətin onun barəsində belə buyurduğunu bilirdi ki: "**ان الله ليغضب لغضب فاطمة**" "Allah Fatimənin qəzəblənməsi ilə qəzəblənir".[5] Fatiməni

---

[1] Lühuf, Seyid ibn Tavus, s. 88 və 67; Məalis-Sibteyn, c. 2, s. 60
[2] Lühuf, Seyid ibn Tavus, s. 88 və 67; Məalis-Sibteyn, c. 2, s. 60
[3] Lühuf, Seyid ibn Tavus, s. 88 və 67; Məalis-Sibteyn, c. 2, s. 60
[4] İqbal, Seyid ibn Tavus, s, 333
[5] Əmali, Şeyx Müfid, s. 94

qəzəbləndirən Allahı qəzəbləndirib. "و يرضى لرضاها" "Və onun razılığı ilə razı olur".[1] Onu razı salan Allahı razı salıb. Görün bu qızın məqamı nə qədər yüksəkdir ki, həzrət Peyğəmbər camaatın qarşısında və aşkar şəkildə onun barəsində belə danışır. Bu, adi məsələ deyil.

Həzrət Peyğəmbər bu qızı islami cəmiyyətdə iftixarları baxımından ən yüksək həddə olan bir şəxsə, yəni Əli ibn Əbu Talibə ərə verib. O, gənc, şücaətli, şərəfli, hamıdan mömin, hamıdan öncül, hamıdan şücaətlidir, bütün meydanlarda iştirak edir. İslam onun qılıncı ilə hərəkət edir, hamının aciz qaldığı yerdə bu gənc qabağa çıxır, düyünləri açır və "dalan"ları keçirdi. Bu kürəkən ən sevimli və əziz şəxslərdən idi, lakin onun sevilməsinin səbəbi qohumluq deyildi. Bunun səbəbi onun şəxsiyyətinin əzəməti idi. Həzrət Fatimənin həyat yoldaşı da Peyğəmbərin gözünün işığı idi. Onların övladı dünyaya gəlir. Həmin uşaq Hüseyn ibn Əlidir.

Əlbəttə, bunların hamısı İmam Həsən (ə) barəsində də elədir, lakin indi mənim söhbətim həzrət Peyğəmbərin əzizlərinin ən əzizi – islam dünyasının başçısı, islami cəmiyyətin hakimi və hamının sevimlisinin öz qucağına götürüb məscidə apardığı şəxs – İmam Hüseyn (ə) barəsindədir. Hamı bilir ki, bu uşaq hamının sevimlisi olan Peyğəmbərin sevimlisidir. Həzrət Peyğəmbər minbərdə xütbə oxuyanda bu uşağın ayağı ilişir və o, yerə yıxılır. Peyğəmbər minbərdən düşür, onu qucağına götürür və sakitləşdirir. Baxın, məsələ budur.

Həzrət Peyğəmbər, altı, ya da yeddi yaşında olan İmam Həsən və İmam Hüseyn barəsində belə buyurub: "سيدى شباب اهل الجنة" "Onlar cənnət gənclərinin sərvəridir".[2] Onlar hələ gənc deyil, uşaqdırlar, amma Peyğəmbər buyurur ki, onlar cənnət gənclərinin sərvəridir. Yəni o, altı, yeddi yaşında da bir gənc həddindədir, başa düşür, dərk edir, əməl edir, addım atır, ədəb-ərkan göstərir, bütün vücudunda şərəf qaynayır. Əgər həmin gün kimsə bu uşağın bu Peyğəmbər ümməti tərəfindən heç bir cinayət və günahı olmadan öldürüləcəyini desəydi, heç kəs inanmazdı. Bunu Peyğəmbər deyib ağlayanda da hamı "bu nə deməkdir? Elə şey ola bilər?!" deyə təəccüb etdi.

**İmam Hüseyn (ə) həzrət Peyğəmbərin (s) vəfatından Əmirəl-mömінin Əlinin (ə) hökumətinə kimi olan dövrdə**

İkinci dövr həzrət Peyğəmbərin vəfatından Əmirəl-möminінin hakimiyyətinə kimi olan dövrdür. Hüseyn gənc, vüqarlı, alim və şücaətlidir; müharibələrdə iştirak edir, böyük işlərə müdaxilə edir, hamı onu əzəmətli bir şəxs kimi tanıyır. Bəxşiş edənlərin adı gələndə hamının gözü ona dikilir; Mədinə və Məkkə müsəlmanları arasında, islamın ayaq açdığı hər yerdə bütün fəzilətlərdə onun adı günəş kimi saçır. Hamı ona ehtiram edir. Dövrün xəlifələri ona və qardaşına ehtiram edirlər və onun qarşısında təzim edir, hörmət göstərirlər, adını ehtiramla çəkirlər. O, dövrün nümunəvi gənci və hamının yanında hörməti olan bir gəncdir. Əgər həmin vaxt kimsə bu gəncin həmin insanlar tərəfindən öldürüləcəyini desəydi, heç kəs inanmazdı.

**İmam Hüseyn (ə) həzrət Əli (ə) şəhid olandan sonrakı dövrdə**

Üçüncü dövr Əmirəl-mömininin (ə) şəhidliyindən sonrakı, yəni Əhli-beytin qərib olduğu dövrdür. İmam Həsənlə İmam Hüseyn (ə) yenə də Mədinədə yaşayırdılar. İmam Hüseyn bu müddətdən iyirmi il sonra bütün müsəlmanların mənəvi rəhbəri, bütün müsəlmanların böyük hökm sahibi, bütün müsəlmanların ehtiram obyekti, hamının elm əldə etmək mənbəyi, Əhli-beytə məhəbbət izhar etmək istəyən bütün şəxslərin təvəssül yeri olaraq Mədinədə yaşayıb. Sevimli, böyük, şərəfli, nəcib, əsilzadə və alim bir şəxsiyyətdir! O, Müaviyəyə məktub yazıb. O, elə bir məktub idi ki, kim istənilən hakimə elə bir məktub yazsaydı, cəzası ölümdən başqa bir şey olmazdı. Müaviyə həmin məktubu böyük ehtiramla qəbul edir, oxuyur orada yazılanlara dözür, bir söz demir. Əgər həmin vaxt da kimsə yaxın gələcəkdə hər baxanın gözündə islam və Quranı canlandıran bu möhtərəm, şərəfli, əziz və nəcabətli şəxsin həmin Quran və islam ümməti tərəfindən öldürülmək ehtimalının olduğunu – özü də elə faciəli şəkildə – desəydi, bunu heç kəs təsəvvürünə belə gətirə bilməzdi. Lakin həmin inanılmaz hadisə, həmin təəccüblü və heyrətamiz hərəkət baş verdi. Bunu kimlər etdi? O həzrətin qulluğuna gələn, salam verib səmimiyyət izhar edənlər! Bunun mənası nədir? Bunun mənası odur ki, islami cəmiyyət bu əlli ildə mənəviyyat və islamın həqiqətindən uzaqlaşmışdı. Onun zahiri islami idi, amma batini puç olmuşdu. Təhlükə buradadır. Namazlar qılınır, camaat namazı bərqərardır, camaatın da adı müsəlman və hətta bir qismi əhli-beyt tərəfdarı idi.

Əlbəttə, mən sizə bunu da deyim ki, Əhli-beyti İslam dünyasının hər yerində qəbul edirdilər, bu gün də hamı qəbul edir, ona heç kəsin şübhəsi yoxdur. Əhli-beyt sevgisi islam dünyasında ümumi olub, indi də elədir. İndi də İslam dünyasının harasına getsəniz, Əhli-beyti sevirlər. Qahirədə İmam Hüseynə (ə) nisbət verilən məscid,

---

[1] Əmali, Şeyx Müfid, s. 94

[2] Biharul-ənvar, c. 37, s. 78

həmçinin həzrət Zeynəbə (ə) nisbət verilən məscid. Zəvvar və izdihamlı cəmiyyətlə dolu olur. Camaat gedib orada qəbri ziyarət edir, öpür və təvəssül edir.

Mənə bir-iki il bundan qabaq Əhli-beytin mənası barədə yazılmış bir kitab gətirmişdilər – qədimi deyil, təzə idi, çünki qədimi kitablarda belə şeylər çoxdur. Hicazın müasir tədqiqatçılarından biri araşdırma aparıb və həmin kitabda sübut edib ki, əhli-beytin mənası Əli, Fatimə, Həsən və Hüseyndir. Bu sözlər biz şiələrin canıdır, amma bunu o qeyri-şiə müsəlman qardaşımız yazıb və çap edib. Belə bir kitab var və onun bir nüsxəsi məndə də var. Yəqin ki, o kitabdan minlərlə nüsxə çap edilib və yayılıb.

Buna görə də Əhli-beyt möhtərəmdir və o vaxt da onlara böyük ehtiram göstərilirdi. Amma buna baxmayaraq, cəmiyyət çürüyüb puç olanda həmin iş (Kərbəla hadisəsi) baş verir. Bəs ibrət haradadır? İbrət oradadır ki, biz cəmiyyətin həmin vəziyyətə düşməməsi üçün nə etməliyik? Biz gərək cəmiyyətin o həddə çatmasına nəyin səbəb olduğunu biləK. Bu mənim xülasəsini demək istədiyim həmin geniş və müfəssəl mövzudur.

**Həzrət Peyğəmbərin (s) qurduğu sistemin dörd əsas mehvəri**

Əvvəl müqəddimə olaraq bunu qeyd edim ki, həzrət Peyğəmbərin yaratdığı sistemin bir neçə əsas xətti var idi. Mən həmin əsas xətlərdən dördünü daha mühüm hesab edirəm: onlardan biri şəffaf və aydın idrakdır; dinin, şəriət hökmlərinin, cəmiyyətin, boyuna düşən vəzifələrin, Allahın, Peyğəmbərin, təbiətin dərk edilməsidir. Bu idrak elmlə və elm əldə edilməsi ilə nəticələndi və islami cəmiyyəti hicrətin dördüncü əsrində elmi sivilizasiyanın zirvəsinə çatdırdı. Həzrət Peyğəmbər heç bir qaranlıq məqamın qalmasına imkan vermirdi. Bu barədə Quranda heyrətamiz ayələr var və indi mənim onları bəyan etmək fürsətim yoxdur. Harada bir sual yaranırdısa, onu aradan qaldırmaq üçün ayə nazil olurdu.

İkinci əsas xətt mütləq və güzəştsiz ədalət idi: hökm çıxarmaqda ədalət, xüsusi deyil, ümumi mallardan – hamıya aid olan və hamının arasında ədalətlə bölünməli olan vəsaitdən – istifadədə ədalət, ilahi cəza hökmlərinin icrasında, vəzifələrdə, məsuliyyət tapşırılması və qəbul edilməsində ədalət. Əlbəttə, səhv salmaq olmaz. Ədalət bərabərlik deyil. Bəzən bərabərlik zülmdür. Ədalətin mənası hər bir şeyi öz yerinə qoymaq və hər bir kəsə öz haqqını verməkdir. O, mütləq və güzəştsiz ədalət idi. Həzrət Peyğəmbərin zamanında islami cəmiyyətdə heç kəs ədalət çərçivəsindən xaric deyildi.

Üçüncüsü, Allah qarşısında kamil və şəriksiz bəndəlik idi. Yəni fərdi iş və şəxsi əməldən, Allaha yaxınlaşmaq niyyəti ilə yerinə yetirilməli olan namazdan tutmuş cəmiyyətin quruluşu, hökumət sistemi, insanların həyat tərzi və insanlar arasındakı ictimai münasibətlərə kimi, hər şey Allaha bəndəliyə əsaslanırdı ki, bu da geniş və müfəssəl bir mövzudur.

Dördüncüsü, coşqun eşq və məhəbbət idi. Bu da islami cəmiyyətin əsas xüsusiyyətlərindəndir: Allah eşqi, Allahın insanlara olan məhəbbəti. "يُحِبُّهُمْ وَ يُحِبُّونَهُ",[1] "إِنَّ اللَّهَ يُحِبُّ التَّوَّابِينَ وَ يُحِبُّ الْمُتَطَهِّرِينَ",[2] "قُلْ إِنْ كُنْتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ"[3] Məhəbbət, eşq, həyat yoldaşını sevmək, övladı sevmək, övladı öpməyin müstəhəb olması, övlada məhəbbət göstərməyin müstəhəb olması, həyat yoldaşına məhəbbət göstərməyin müstəhəb olması, müsəlman qardaşlara məhəbbət göstərməyin və onu sevməyin müstəhəb olması, Peyğəmbərə məhəbbət, Əhli-beytə məhəbbət "إِلاَّ الْمَوَدَّةَ فِي الْقُرْبَى"[4]

Həzrət Peyğəmbər (s) bu xətləri çəkdi və cəmiyyəti bu xətlər üzərində qurdu. O həzrət hökuməti on il bu əsasda idarə etdi. Əlbəttə, aydın məsələdir ki, insanların tərbiyə edilməsi birdəfəlik hasil olan deyil, tədrici işdir. Həzrət Peyğəmbər həmin on il boyu bu sütunların möhkəmlənməsinə və kök atmasına çalışırdı. Lakin bu on il həmin xüsusiyyətlərin tam əksi kimi formalaşmış insanları dəyişdirmək üçün zaman olaraq çox azdır. Cahiliyyət cəmiyyəti hər cəhətdən bu dörd xüsusiyyətin əks qütbündə dayanırdı. İnsanlarda idrak yox idi; onlar sərgərdanlıq və nadanlıq içində yaşayırdılar, bəndəlik də etmirdilər; batil və azğınlıq idi, ədalət də mövcud deyildi; hamısı zülm idi, ayrıseçkilik idi. Əmirəl-möminin "Nəhcül-Bəlağə"də cahiliyyət dövrünün zülm və ayrı-seçkiliyinin təsvir edilməsində, həqiqətən, incəsənət əsəri olan heyrətamiz və dolğun ifadələr işlədib: " فى فتن داستهم باخفافها و طئتهم باظلافها" "Fitnələr xam heyvan kimi onları pəncələri ilə tapdamış və dırnaqları altında əzişdirmişdi".[5] Məhəbbət də yox idi, öz qızlarını (diri-diri) torpağa basdırırdılar, hansısa qəbilədən birini günahı olmadan öldürürdülər – "Siz bizim qəbilədən birini öldürmüsünüz, biz də gərək sizin qəbilədən birini

---

[1] Midə surəsi, ayə 54: "...onları sevir, onlar (da) onu sevirlər..."

[2] Bəqərə surəsi, ayə: 222 "Allah tövbə edənləri və pakları sevir".

[3] Ali-İmran surəsi, ayə: 31"De: Əgər Allahı sevirsinizsə, onda mənə tabe olun ki, Allah da sizi sevsin..."

[4] Şura surəsi, ayə 23: "...qohumlarım barəsində məhəbbətdən başqa..."

[5] Nəhcül-Bəlağə, xütbə 2

öldürək" – istər həmin şəxs qatil olsun, istər olmasın, günahsız olsun, xəbərsiz olsun (fərqi yox idi). Mütləq cəfa, mütləq rəhimsizlik, mütləq məhəbbət və sevgisizlik (hökm sürürdü).

Həmin mühitdə formalaşmış adamları on ilə tərbiyə etmək, insan etmək, müsəlman etmək olar, amma bunu onların canlarının dərinliklərinə – xüsusilə onların da başqalarına həmin cür təsir edəcəyi formada – hopdurmaq olmaz.

İnsanlar bir-birinin ardınca müsəlman olurdular. Onlar həzrət Peyğəmbəri görməmişdilər, həmin on ili görməmişdilər. Şiənin etiqad bəslədiyi "vəsi"lik məsələsi burada formalaşır. Vəsilik, canişinlik və ilahi təyinat məsələsinin qaynağı bu cəhətdir; o bu tərbiyənin davamı üçündür. Yoxsa ki, bu vəsiliyin dünyada adət olan vəsilik qismindən – ölənin öz oğlunu öz yerinə vəsi – canişin təyin etməsi kimi – olmaması məlum məsələdir. Məsələn həzrət Peyğəmbərdən sonra o həzrətin proqramlarının davam etdirilməsinin vacibliyi məsələsidir.

Mən indi kəlam elminə aid bəhslərə daxil olmaq istəmirəm. Mən tarixdən danışmaq və bir az tarixi təhlil etmək istəyirəm. Daha çox təhlili isə siz özünüz edin. Bu bəhs hamıya aiddir və ancaq şiələrə məxsus deyil. Bu bəhs şiə, sünni və bütün islami firqələrə aiddir. Bu mövzuya gərək hamı diqqət etsin. Çünki bu mövzu hamı üçün mühümdür.

**Fatihə surəsinin mübarək ayəsinin araşdırılması ilə fərdi və ictimai dəyişikliklərin təhlil edilməsi**

İndi keçək həzrət Peyğəmbərin vəfatından sonrakı hadisələrə. Nə baş verdi ki, bu əlli ildə islami cəmiyyət həmin haldan bu hala düşdü? Məsələnin əsası budur və tarixə də buradan baxmaq lazımdır. Əlbəttə, həzrət Peyğəmbərin inşa etdiyi bina tezliklə xarab olan bina deyildi. Buna görə də siz həzrət Peyğəmbərin vəfatından sonrakı ilk vaxtlara nəzər salanda görürsünüz ki, vəsilik məsələsindən başqa hər şey yerindədir: yaxşı ədalət var idi, yaxşı zikr var idi, yaxşı bəndəlik var idi. Əgər kimsə həmin ilk illərdə islami cəmiyyətin ümumi tərkibinə baxsa, görər ki, zahirdə heç nə keçmişə qayıtmayıb. Əlbəttə, bəzən bəzi hadisələr baş verirdi, amma zahiri görünüş həzrət Peyğəmbərin əsas və təməlini qoyduğu şeyi göstərirdi. Lakin bu vəziyyət davam etmir və islami cəmiyyət zaman keçdikcə tədricən zəifləməyə və boşalmağa doğru gedirdi.

Baxın, mübarək Həmd surəsində bir nüans var və mən dəfələrlə müxtəlif yığıncaqlarda onu qeyd etmişəm. İnsan aləmlərin rəbbinə "اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ" "bizi doğru yola "siratəl-müstəqim"ə hidayət et"[1] deyəndən sonra həmin "siratəl-müstəqim"i izah edir: "صِرَاطَ الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ" "Nemət verdiyin kəslərin yoluna".[2] Allah çoxlarına nemət verib, İsrail övladlarına da nemət verib: "يَا بَنِي إِسْرَائِيلَ اذْكُرُوا نِعْمَتِيَ الَّتِي أَنْعَمْتُ عَلَيْكُمْ"[3] Allahın neməti təkcə peyğəmbərlərə, əməli salehlərə və şəhidlərə məxsus deyil. " فَأُولَئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللَّهُ عَلَيْهِمْ مِنَ النَّبِيِّينَ وَ الصِّدِّيقِينَ وَ الشُّهَدَاءِ وَ الصَّالِحِينَ"[4] Onlara da nemət verilib. Amma İsrail övladlarına da nemət verilib.

Nemət verilmiş şəxslər iki cürdürlər:

Onun bir dəstəsi o kəslərdir ki, ilahi neməti əldə edəndən sonra Allahı onlara qəzəb etməyə və özlərini yollarını azmağa qoymurlar. Bunlar sizin "ilahi, bizi onların yoluna hidayət et" dediyiniz kəslərdir. " غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ" "qəzəbə düçar olmamışların". Elmi və ədəbi dillə desək, bu, "الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ" "nemət verdiyin kəslər"in sifətidir. "الَّذِينَ" "...kəslər"in sifəti "غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَ لاَ الضَّالِّينَ" "qəzəbə düçar olmamış və azmamışların"dır. Nemət verilib qəzəbə düçar olmamış və "وَ لاَ الضَّالِّينَ" "və azmamışlar".

Başqa bir dəstə də var ki, Allah onlara nemət verib, amma onlar Allahın nemətini dəyişdirib xarab ediblər və buna görə də qəzəbə düçar olublar; yaxud onların arxasınca düşüblər və yollarını azıblar. Əlbəttə, bizim hədislərdə deyilir ki, "الْمَغْضُوبِ عَلَيْهِمْ" "qəzəb olunmuşlar"da məqsəd yəhudilərdir. Bu, ayənin nümunəsinin bəyan edilməsidir. Çünki yəhudilər həzrət İsanın zamanına kimi bilərəkdən və qəsdən həzrət Musa və onun canişinləri ilə mübarizə aparıblar. "Azmışlar"dan da məqsəd xaçpərəstlərdir. Çünki xaçpərəstlər yollarını azıblar. Xristianlar elə əvvəldən yollarını azdılar – yaxud ən azı çoxu belə idi – amma müsəlmanlar nemət tapdılar. Bu nemət "الْمَغْضُوبِ عَلَيْهِمْ" "qəzəb olunmuşlar" və "الضَّالِّينَ" "azmışlar" tərəfə gedirdi. Buna görə də İmam Cəfər Sadiqin (ə) nəql edilmiş bir hədisdə deyilir ki, İmam Hüseyn (ə) şəhid olanda – " فلما ان قتل الحسين صلوات الله عليه اشتدّ غضب الله تعالى على اهل الارض" "Hüseyn (ə) öldürüləndən sonra Allahın insanlara qəzəbi

---

[1] Fatihə surəsi, ayə 6

[2] Fatihə surəsi, ayə 7: "Nemət verdiyin kəslərin – (Sənin) qəzəb(in)ə düçar olmamış və azmamışların yoluna!"

[3] Bəqərə surəsi, ayə 40: "Ey İsrail övladları, sizə verdiyim nemətləri yadınıza salın".

[4] Nisa surəsi, ayə 69: "Allahın nemət verdiyi kəslərlə – peyğəmbərlər, doğruçular, şəhidlər, əməllərə şahid olanlar və saleh insanlarla – birlikdədirlər".

artdı".[1] Axı o, məsum idi. Buna görə də ilahi nemət verilmiş cəmiyyət qəzəbə doğru gedir. Bu gedişi görmək lazımdır. Bu, çox mühüm, çox çətin, çox diqqət tələb edən məsələdir.

**Aşura hadisəsində xüsusi zümrədən bəzilərinin vəziyyət və davranışı**

Biz indi bir neçə misal çəkək. Xüsusi və ümumi kütlənin hər biri bir vəziyyətə düşdü. İndi, ola bilər, yolunu azan xüsusi zümrə "الْمَغْضُوبِ عَلَيْهِمْ" "qəzəb olunmuş" olsun, ümumi kütlə isə "الضَّالِّينَ" "azmış". Əlbəttə, tarix kitabları misalla doludur. Mən məsələnin bundan sonrasını ibn Əsirin tarix kitabından nəql edəcəyəm. Heç nəyi şiə mənbələrindən nəql etməyəcəyəm. Hətta hədisləri əhli-sünnənin nəzərincə, şübhəli sayılan əhli-sünnə tarixçilərindən – məsələn, ibn Qüteybədən – də nəql etməyəcəyəm. İbn Qüteybə Dinəvəri özünün "əl-İmamət vəs-siyasət" kitabında heyrətamiz şeylər nəql edib və mən onların hamısını kənara qoyuram.

Adam ibn Əsirin "Kamilut-təvarix" kitabına baxanda hiss edir ki, onun kitabında Əməvi və Osman ailəsinin təəssübkeşliyi var. Əlbəttə, mən ehtimal edirəm ki, o, bir cəhətdən bəzi şeyləri nəzərə alıb. O, Misir, Kufə, Bəsrə, Mədinə və digər şəhərlərin əhalisinin cənab Osmanı qətlə yetirdiyi "yaumud-dar"[2] hadisələrində müxtəlif hədisləri nəql edəndən sonra yazır ki, bu hadisənin bir sıra səbəbləri var və mən onları qeyd etmirəm: "لعللٍ" "ləllə", yəni onun bir sıra səbəbləri var və mən onları demək istəmirəm. Həmçinin o, cənab Əbuzərin məsələsini nəql edəndə və Müaviyənin cənab Əbuzəri yəhərsiz dəvəyə mindirib həmin vəziyyətdə Mədinəyə kimi göndərdiyini və onun sonra da Rəbəzəyə sürgün edildiyini deyəndə yazır ki, bəzi şeylər baş verib və mən onları yaza bilmirəm.[3] İndi o, ya bugünkü dillə desək, özü-özünə senzura tətbiq edib, ya da təəssübkeşlik edib. Hər halda o, nə şiədir, nə də şiə tərəfkeşliyi edəndir. Əksinə, o, çox ehtimal ki, Əməvi və Osman ailəsinin tərəfkeşliyini çəkən bir adam olub. Mənim bundan sonra nəql edəcəyim şeylər ibn Əsirdəndir.

Xüsusi zümrədən bir neçə misal: Bu əlli ildə xüsusi zümrə necə oldu ki, iş bu yerə çatdı? Mən diqqət edəndə həmin dörd şeyin hamısının öz yerindən tərpəndiyinin şahidi oluram: Həm bəndəliyin, həm idrakın, həm ədalətin, həm də məhəbbətin. Bu bir neçə misalı nəql edirəm. Onların hamısı dəqiq tarixdir.

**1. Səid ibn As**

Səid ibn As Bəni-Üməyyədən, xəlif Osmanın qohumlarından olub. Vəlid ibn Üqbə ibn Əbu Müitdən – sizin imam Əli (ə) serialında gördüyünüz və yanında cadugər öldürülən şəxsdən – sonra iş başına Səid ibn As gəldi ki, işləri islah etsin. Bir nəfər onun məclisində dedi: "طلحة ما اجود" "Təlhə ibn Übeydullah nə qədər səxavətlidir?" Yəqin, (Təlhə ibn Übeydullah) kiməsə pul veribmiş, ya kiməsə məhəbbət göstəribmiş ki, o da bunu bilibmiş. "فقال من له مثل النشاستج لحقيق ان يكون جواداً سعيداً"[4] Kufənin yaxınlığında "Nəşasətc" adında çox böyük bir tarla olub. Bəlkə də, bizim "nişasta" sözü də bu sözdən götürülüb. Kufənin yaxınlığında abad və məhsuldar torpaqlar olub və Kufənin bu böyük tarlası Peyğəmbərin Mədinədəki səhabəsi Təlhənin mülki olub. Səid ibn As deyib: "Belə bir mülki olan şəxs elə gərək səxavətli olsun. "مثله والله لو ان لى"[5] Əgər mənim də Nəşasətc kimi bir mülkim olsaydı, "لأعاشكم الله به عيشاً رغداً"[6] sizin həyatınızda ciddi firavanlıq yaradardım. Bu bir şey deyil ki, onun səxavətli olduğunu deyirsiniz!" İndi siz bunu həzrət Peyğəmbərin zamanındakı və o həzrətin vəfatından sonrakı ilk vaxtlardakı zahidliklə müqayisə edin və görün, həmin neçə ildə böyüklər, əmirlər və səhabələr necə yaşayıblar və dünyaya hansı gözlə baxıblar. İndi on, on beş il keçəndən sonra vəziyyət gəlib bura çatıb.

**2. Əbu Musa Əşəri**

Digər bir nümunə Bəsrənin hakimi Əbu Musa Əşəridir, "hakimlik məsələsi"ndəki[7] məşhur Əbu Musa. Camaat cihada getmək istəyirdi. O, minbərə çıxıb onları cihada həvəsləndirdi, cihad və fədakarlığın fəziləti barədə danışdı. Camaatın çoxunun minib cihada getməyə atı yox idi. Hərə öz atını minib getməli idi. Əbu Musa piyadaların da cihada getməsi üçün bir az da piyada cihada getməyin fəziləti barədə danışdı ki, piyada cihada getməyin filan qədər fəziləti var, filandır, behmandır... O, bu barədə o qədər alovlu danışdı ki, hətta atı olanların bir dəstəsi "biz də piyada gedirik, at nədir?" dedilər. "فحملوا الى فرسهم"[8] Atlarına hücum edib onları qovdular

---

[1] Kafi, c. 1, s. 368
[2] İbn Əsir, c. 3, s. 167-170
[3] İbn Əsir, c. 3, s. 113-116
[4] İbn Əsir, c. 3, s. 137-140
[5] İbn Əsir, c. 3, s. 137-140
[6] İbn Əsir, c. 3, s. 137-140
[7] Siffeyn müharibəsində imam Əli (ə) ilə Müaviyə arasında hökm çıxarmaq üçün təyin edilən hakimlik nəzərdə tutulur. – Tərc.
[8] İbn Əsir, c. 3, s. 99-100

və dedilər ki, gedin, siz atlar bizi çoxlu savabdan məhrum edirsiniz, biz piyada gedib vuruşmaq və həmin savabı əldə etmək istəyirik. Amma bəziləri bir az səbirli idilər və buna görə də dedilər ki, "tələsməyək" bir az gözləyək görək piyada cihad barədə bu qədər danışan hakim özü yola necə çıxacaq? O, əməldə də sözü kimidir, ya yox? Ona baxaq, sonra piyada və miniklə getmək barədə qərara gələrik". İbn Əsirin ibarələri eynilə belədir, o yazır: "Əbu Musa sarayından çıxanda "اخرج ثقله من قصره على اربعين بغلاً"[1] özü ilə saraydan qırx qatıra yüklənmiş qiymətli əşya çıxartdı və cihad meydanına yollandı". O vaxtlar bank yox idi, hökumətlərə də etibar yox idi. Bir də gördün müharibənin qızğın yerində xəlifədən xəbər gəldi ki, siz Bəsrə hökumətindən kənarlaşdırılırsınız. Belə olan halda daha o gəlib saraydan bu qədər qiymətli əşyanı götürə bilməzdi, onu saraya buraxmazdılar. Buna görə də o, hara getsə, onları özü ilə götürməyə məcbur idi. Onun qırx qatır yükü qiymətli malı var idi və o, həmin malları özü ilə saraydan çıxartdı və cihad meydanına tərəf apardı. "فلما خرج تتعله بعنانه"[2] Piyadalar gəlib Əbu Musanın atının cilovundan tutub dedilər: "و قالوا احملنا على بعض هذا الفصول"[3] Bizi də bu artıqların üstünə mindir. Bunlar nədir özün ilə döyüş meydanına aparırsan? Biz piyada gedirik, bizi də mindir. " رغبتنا و ارغب فى المشى كما"[4] Bizə "piyada gedin" dediyin kimi, özün də düş bir az piyada get. "فضرب القوم بسوطه"[5] O, qamçını çıxardıb onların baş və üzünə vurdu və dedi ki, gedin, boş-boş danışmayın. "فتركوا دابّة فمضى"[6] Həmin adamlar onun ətrafından dağılışdılar. Amma onlar bununla barışmadılar. Mədinəyə cənab Osmanın yanına gəldilər və şikayət etdilər. O da Əbu Musanı vəzifəsindən kənarlaşdırdı. Əbu Musa həzrət Peyğəmbərin (s) səhabələrindən, seçilmiş böyük şəxsiyyətlərdən biri idi. Bu onun vəziyyəti idi!

**3. Səd ibn Əbu Vəqqas**

Üçüncü misal: Səd ibn Əbu Vəqqas Kufənin hakimi idi. O, Beytül-maldan borc götürdü. Həmin vaxt Beytül-mal hakimin əlində olmurdu. Bir nəfəri hökumətə və camaatın işlərini idarə etmək üçün təyin edirdilər, bir nəfəri də maliyyə rəisi təyin edirdilər ki, o, birbaşa xəlifənin özünə cavab verirdi. Kufədə hakim Səd ibn Əbu Vəqqas idi, Beytül-malın rəisi isə Peyğəmbərin çox böyük və yüksək məqamlı səhabələrindən sayılan Abdullah ibn Məsud. Səd ibn Əbu Vəqqas Beytül-maldan bir az borc götürür – onun neçə min dinar olduğunu bilmirəm – amma sonra borcunu qaytarmır. Abdullah ibn Məsud onun yanına gəlir və "Beytül-malın pulunu qaytar" deyib həmin pulu tələb edir. Səd ibn Əbu Vəqqas pulunun olmadığını deyir. Onların arasında söz-söhbət yaranır və səs-küy salmağa başlayırlar. Əmirəl-mömininin (ə) səhabələrindən olmuş və çox alicənab şəxs olan Haşim ibn Ütbə ibn Əbu Vəqqas qabağa çıxıb deyir ki, "pis iş görürsünüz, hər ikiniz Peyğəmbər səhabəsisiniz, camaat sizə baxır, dava etməyin, gedin məsələni bir təhər həll edin". Abdullah ibn Məsud bir şey edə bilmədiyini görüb çölə çıxır. Hər halda o, etibarlı bir şəxs olub. Gedib bir dəstə adama deyir ki, gedin bu malları onun evindən götürüb çölə çıxarın. Buradan məlum olur ki, Səd ibn Əbu Vəqqasın evində mal olub. Bu xəbər Sədə çatır. O da bir başqa dəstəni göndərir və deyir ki, gedin qoymayın. Səd ibn Əbu Vəqqas Beytül-mala olan borcunu qaytarmadığı üçün böyük bir qalmaqal yaranır. Həmin bu Səd ibn Əbu Vəqqas şuranın üzvlərindən olub. O, altı nəfərlik şuranın üzvlərindən olub, amma neçə ildən sonra bu vəziyyətə düşüb. İbn Əsir yazır: " فكان اول ما نزع به بين اهل الكوفة" "Bu, barəsində kufəlilər arasında ixtilaf yaranan ilk hadisə idi".[7] Bunun səbəbkarı xüsusi zümrəyə mənsub şəxslərdən birini dünyapərəstlikdə bu qədər irəliləməsi və özündən iradəsizlik nümayiş etdirməsidir.

**Mərvan ibn Həkəmin qənimətlərin xümsünü satın alması hadisəsi**

Başqa bir hadisə: Müsəlmanlar gedib Afrikanı – Tunis və Mərakeş bölgələrini – fəth etdilər və qənimətləri camaat və hərbiçilər arasında bölüşdürdülər. Qənimətlərin xümsü Mədinəyə göndərilməli idi. İbn Əsir öz tarix kitabında həmin xümsün miqdarının böyük olduğunu yazır. Əlbəttə, o, bunu burada yazmır, başqa bir yerdə həmin fəthdən danışanda yazır ki, xümsün miqdarı çox olub. Xüms Mədinəyə çatanda Mərvan ibn Həkəm gəlib deyir ki, onun hamısını beş yüz min dirhəmə alıram. Həmin xümsü ona satırlar.[8] Beş yüz min dirhəm az pul deyildi, amma həmin malların qiyməti bundan qat-qat çox idi. Sonradan xəlifəyə tutulan iradlardan biri də həmin hadisə olub. Əlbəttə, xəlifə bu barədə bəhanə gətirərək deyirdi ki, o mənim qohumumdur və mən bu

---

[1] İbn Əsir, c. 3, s. 99-100
[2] İbn Əsir, c. 3, s. 99-100
[3] İbn Əsir, c. 3, s. 99-100
[4] İbn Əsir, c. 3, s. 99-100
[5] İbn Əsir, c. 3, s. 99-100
[6] İbn Əsir, c. 3, s. 99-100
[7] İbn Əsir, c. 3, s. 82-83
[8] İbn Əsir, c. 3, s. 88-91

işimlə qohumluq haqlarına riayət edirəm və onun vəziyyəti yaxşı olmadığına görə ona kömək etmək istəyirəm! Beləcə, xüsusi zümrə mənsubları maddiyyata qərq olmuşdular.

**Vəlid ibn Üqbənin xilafəti şahlığa çevirməsi hadisəsi**

Başqa bir macəra: "استعمل الوليد بن عقبة بن ابى معيط على الكوفة"[1] Xəlifə, Vəlid ibn Üqbəni – sizin yenə tanıdığınız və Kufənin hakimi olan Vəlidi – Səd ibn Əbu Vəqqasdan sonra Kufə hökumətinə təyin etdi. O da Bəni-Üməyyədən və xəlifənin qohumlarından idi. O, Kufəyə daxil olanda hamı təəccüb etdi ki: Bu nə deməkdir? Axı bu adam hökumət tapşırılası adam deyil! Çünki Vəlid həm axmaqlığı ilə məşhur idi, həm də pozğunluğu ilə. Bu Vəlid həmin o şəxsdir ki, onun barəsində mübarək "إِنْ جَاءَكُمْ فَاسِقٌ بِنَبَإٍ فَتَبَيَّنُوا"[2] ayəsi nazil olub. Quran onu fasiq adlandırıb. O, bir xəbər gətirir və bir dəstə adamın canı təhlükəyə düşür və sonra ayə nazil olur ki, əgər bir fasiq sizə xəbər gətirsə, gedin onu araşdırın, onun sözünə qulaq asmayın. Həmin fasiq həmin Vəlid idi. Bu, Peyğəmbər zamanına aid hadisədir. Siz meyarlara, dəyərlərə və insanların yerinin dəyişməsinə fikir verin. Peyğəmbər zamanında Quranda fasiq adlandırılan şəxs – özü də həmin Quranı camaat hər gün oxuyurdu – hakim olmuşdu. Səd ibn Əbu Vəqqas ilə Abdullah ibn Məsud – onların hər ikisi – təəccüb içində idi. Abdullah ibn Məsudun gözü ona sataşanda deyib ki, mən bilmirəm biz Mədinədən gələndən sonra sən saleh adam olmusan, ya yox?! Onun ifadəsi eynilə belədir: "ما ادرى أصلحتَ بعدنا ام فسد الناس"[3] Mən bilmirəm bizdən sonra sən islah olmusan, yoxsa camaat pozulub. Sən düzəlməmisən, camaat pozulub ki, sənin kimisini bir şəhərə başçı göndərib. Səd ibn Əbu Vəqqas da təəccüb edir, amma başqa cəhətdən. O belə deyir: "اكست بعدنا ام حمقنا بعدک".[4] Sən axmaq adam idin; indi ağıllanmısan, yoxsa biz o qədər axmaq olmuşuq ki, bizdən üstün olmusan?! Vəlid onun cavabında deyir: "لا تجزعنّ ابا اسحق".[5] Səd ibn Əbu Vəqqas, narahat olma "كل ذلک لم يكن"[6] nə biz zirəkləşmişik, nə də sən axmaqlaşmısan. "و انما هو الملک" Məsələ şahlıq məsələsidir – ilahi hökumətin, xilafət və vilayətin şahlığa çevrilməsi çox təəccüblü bir hekayətdir – "يتغدّاه قوم و يتغشاه آخرون" bir gün bunun əlində olur, sabah onun əlində olur, əldən-ələ gəzir. Hər halda Səd ibn Əbu Vəqqas Peyğəmbər səhabəsi idi. Bu söz – məsələnin şahlıq məsələsi olmasını eşitmək ona çox ağır idi. "فقال سعد اراكم جعلتموها ملكاً" Səd dedi: "Görürəm siz xilafəti şahlığa çevirmisiniz".

Bir dəfə cənab Ömər cənab Salmana deyib ki: "أملک انا ام خليفة" "Səncə, mən şaham, yoxsa xəlifə?" Salman böyük və çox mötəbər şəxsiyyətlərdən, yüksək məqamlı səhabə idi, onun nəzəri və hökmü çox mühüm idi. Buna görə də Ömər öz xilafəti dövründə ona belə bir söz deyib. "قال سلمان له" Salman onun cavabında belə deyib: "ان انت جبيت من ارض المسلمين درهماً او اقل او اكثر" Əgər sən camaatın malından bir dirhəm və ya bir dirhəmdən az, ya da bir dirhəmdən çox götürsən "و وضعته فى غير حقه" (və onu özün üçün götürməyi demirəm), haqqı olmayan yerə qoysan "لا خليفة فأنت ملک", onda sən şah olacaqsan və daha xəlifə deyilsən. Salman meyarı bəyan edir. İbn Əsirin nəql etdiyi hədisdə deyilir ki, "فبكا عمر" Ömər ağladı. Bu, çox maraqlı moizədir. Məsələ xilafət məsələsidir. Vilayətin mənası məhəbbətlə, insanlara bağlılıqla, xalq kütləsinə məhəbbətlə birgə olan hakimlikdir, təkcə hökmranlıq deyil. Amma şahlığın mənası bu deyil və onun camaatla işi yoxdur. Şahlığın mənası özü istədiyi işi görən hakim və hökmdardır.

Bunlar xüsusi zümrəyə aid olan şeylər idi. Bu bir neçə ildə xüsusi zümrənin işi bu yerə çatmışdı. Əlbəttə, bu, raşidi xəlifələrinin[7] zamanına aid idi. Hələ onlar diqqətli idilər, məsuliyyətli idilər, məsələlərə əhəmiyyət verirdilər, neçə il Peyğəmbəri görmüşdülər, həzrət Peyğəmbərin səsi hələ də Mədinədə əks-səda verirdi və həmin cəmiyyətdə Əli ibn Əbu Talib kimi bir şəxs yaşayırdı. Hökumət Şama köçəndən sonra vəziyyət bundan qat-qat pis oldu. Bu, xüsusi zümrədən kiçik nümunələr idi. Əlbəttə, əgər kimsə elə bu ibn Əsirin tarixində, yaxud bizim bütün müsəlman qardaşlarımızın yanında mötəbər sayılan digər tarix kitablarında araşdırma aparsa, bu qəbildən yüzlərlə deyil, minlərlə nümunə tapar.

**Tənəzzülə uğramış cəmiyyətdə Kəbul-Əhbarların din alimi məqamına yüksəlməsi**

---

[1] İbn Əsir, c. 3, s. 82-83
[2] Hucurat surəsi, ayə 6 "Əgər bir fasiq sizə xəbər gətirsə, onu yaxşı araşdırın..."
[3] İbn Əsir, c. 3, s. 82-83
[4] İbn Əsir, c. 3, s. 82-83
[5] İbn Əsir, c. 3, s. 82-83
[6] İbn Əsir, c. 3, s. 82-83
[7] İlk dörd xəlifə dövrü – Red.

Ədalət olmayanda, Allaha bəndəlik olmayanda, təbii ki, cəmiyyət puçlaşır, sonra zehinlər də xarab olur. Yəni sərvət toplamaq, dünya malına meyil və alçaq dünya malına ürək bağlamaq bu həddə çatsa, camaata din dərsini də Peyğəmbəri görməmiş və islamı yeni qəbul etmiş yəhudi – Kəbul-Əhbar verər. O, peyğəmbər zamanında müsəlman olmayıb, Əbu Bəkrin zamanında da islamı qəbul etməyib. Ömərin zamanında müsəlman olub və Osmanın dövründə dünyasını dəyişib. Bəziləri "Kəbul-Əhbar"ı "Kəbul-Əxbar" kimi tələffüz edirlər, amma bu, səhvdir və düzü "Kəbul-Əhbar"dır. "احبار" "Əhbar" sözü "حبر" "hibr"in cəmidir. "Hibr"in mənası "yəhudi alimi"dir. Kəb yəhudi alimlərinin qütbü idi, gəlib müsəlman oldu və sonra islami məsələlər barədə danışmağa başladı. Bir gün o, cənab Osmanın məclisində oturmuşdu. Əbuzər həmin məclisə daxil oldu. O, nəsə dedi və Əbuzər əsəbiləşdi və dedi ki, "Sən indi bizə İslamdan və İslamın hökmlərindən danışırsan?! Bu hökmləri Peyğəmbərdən biz özümüz eşitmişik".[1]

Meyarlar əldən çıxanda, dəyərlər zəifləyəndə, zahiri görüntülər xarab olanda və bir ömrü əzəmətlə keçirmiş, uzun illəri dünyanın bər-bəzəyinə etinasızlıqla arxada qoymuş və o əzəmətli bayrağı ucaltmış insanlara dünyapərəstlik və sərvət sevgisi hakim olanda mədəniyyət və maarif aləmində də belə bir şəxs ilahi və islami təlimlərin əsas icraçısına çevrilir, təzəlikcə müsəlman olmuş şəxs islamın dediyini deyil, özü başa düşdüyünü deyir, bəziləri də onun sözünü köhnə müsəlmanların sözündən üstün tutmaq istəyirlər.

**Avamların bəsirətsizliyi və qəfləti, xüsusi zümrənin isə dünyapərəstliyi ucbatından baş verən bir sapıntı nümunəsi**

Bu, xüsusi zümrəyə aiddir. Xüsusi zümrəyə tabe olan ümumi kütlə də xüsusi zümrənin ardınca hərəkət edir, onlar gedən səmtə gedirlər. Tanınmış və məşhur şəxslərin ən böyük günahı onların sapıntısının çoxlu insanın sapmasına səbəb olmasıdır. İnsanlar sədlərin dağıldığını, işlərin dildə deyiləndən başqa cür getdiyini və Peyğəmbərdən nəql edilənlərə zidd davranıldığını görəndə onlar da həmin səmtə doğru hərəkət edirlər.

Avam kütlədən də bir hadisəyə nəzər salaq: Bəsrənin hakimi Mədinədəki xəlifəyə məktub yazır ki, fəth edilən şəhərlərdən aldığımız vergini öz şəhərimizin əhalisi arasında bölüşdürürük, amma Bəsrədə vergi azdır, əhalinin sayı artıb, digər iki şəhərin vergisinin də Bəsrəyə verilməsinə icazə verirsiniz? Kufə əhalisi eşidir ki, Bəsrənin hakimi iki şəhərin vergisini də öz şəhərinin əhalisi üçün alıb. Onlar öz hakimlərinin yanına gəlirlər. Onların hakimi kim idi? Əmmar ibn Yasir – dəyərlərə bağlı, dağ kimi möhkəm dayanan bir şəxs. Əlbəttə, onun kimi möhkəm dayanıb yerindən tərpənməyənlər var idi, amma onların sayı çox deyildi. Onlar Əmmar Yasirin yanına gəlib deyirlər ki, sən də bizim üçün elə bir istək irəli sür və bizim üçün də iki şəhərin vergisini sən al. Əmmar belə bir iş görməyəcəyini deyir. Onlar Əmmara hücum edirlər, onu söyürlər, (xəlifəyə şikayət) məktubu yazırlar və nəhayət, xəlifə onu vəzifəsindən kənarlaşdırır.[2]

Buna bənzər hadisə Əbuzər və başqalarının da başına gəlib. Bəlkə də elə Abdullah ibn Məsudun özü də həmin şəxslərdən biri olub. Həmin nöqtələrə riayət edilməyəndə cəmiyyət dəyərlər baxımından puçlaşır. İbrət buradadır.

**Dünyapərəstliklə quruculuğun fərqi**

Əzizlərim! Adam bu ictimai dəyişiklikləri gec başa düşür, diqqətli olmaq lazımdır. Təqvanın mənası budur. Təqvanın mənası hakimiyyət dairələri özləri olan şəxslərin özləri barədə diqqətli olmalarıdır. Hakimiyyət dairələri özlərindən geniş olan şəxslər də həm özləri, həm də başqaları barədə diqqətli olmalıdırlar. Başda olanlar da həmi özləri barədə, həm də bütün cəmiyyət barəsində diqqətli olmalıdırlar ki, dünyapərəstlik, dünya bər-bəzəyinə vurğunluq və eqoistlik tərəfə getməsinlər. Bunun mənası cəmiyyəti abadlaşdırmamaq deyil. Cəmiyyəti abadlaşdırsınlar, çoxlu sərvət yaratsınlar, amma özləri üçün istəməsinlər. Bu (özü üçün istəmək) pisdir. Kim islami cəmiyyəti varlandıra və böyük işlər görə bilsə, böyük savab iş görür. Allaha şükür, bu neçə ildə ölkəni abadlaşdıran, bu ölkədə quruculuq bayrağı ucaldan və böyük işlər görən şəxslər yaxşı işlər görüblər. Bunlar dünyapərəstlik deyil. Dünyapərəstlik hər hansı bir şəxsin özü üçün istəməsi, özü üçün hərəkət etməsi, istər beytül-maldan, istərsə də beytül-mal olmayan maldan ancaq özü üçün toplamaq fikrində olmasıdır. Bu pisdir. Gərək diqqətli olaq. Belə olmaması üçün hamımız diqqətli olmalıyıq. Əgər diqqət edilməsə, cəmiyyət, beləcə, tədricən dəyərlərini itirəcək və ondan zahiri bir qabıq qalacaq nöqtəyə çatacaq, qəfildən qarşıya böyük bir imtahan çıxacaq – İmam Hüseyn hadisəsi imtahanı – və onda bu cəmiyyət həmin imtahandan keçə bilməyəcək.

---

[1] İbn Əsir, c. 3, s. 115

[2] Tarixi ibn Əsir, c. 3, s. 30-31

Dedilər ki, sənə Reyin hakimiyyətini vermək istəyirik.[1] Həmin vaxt Rey çox böyük və gəliri olan bir şəhər idi. Hakimiyyət də bugünkü valilik kimi deyildi. Bu gün bizim valilər bir idarə məmurudurlar, çoxlu zəhmət çəkir və quru maaş alırlar. Onda belə deyildi. Biri gəlib bir şəhərin hakimi olanda həmin şəhərin bütün gəlir mənbələri onun ixtiyarında olurdu. O, həmin gəlirlərin bir hissəsini mərkəzə göndərməli idi, qalanı isə öz ixtiyarında olurdu, istədiyini edə bilirdi. Buna görə də valilik onlar üçün çox mühüm idi. Sonra dedilər ki, əgər Hüseyn ibn Əli ilə vuruşmağa getməsən, Rey hakimiyyətindən əlini üz. Burada dəyərlərə bağlı şəxs bir an da olsun fikirləşmir və "Cəhənnəm olsun Rey! Rey nədir! Mənə bütün dünyanı da versəniz, Hüseyn ibn Əliyə üzümü də turşutmaram, mən Zəhranın əzizinə qaşqabaq da tökmərəm! Mənə Rey hökuməti verəcəksəniz deyə, mən gedim Hüseyn ibn Əlini və onun balalarını öldürüm?!" deyir. Dəyərlərə bağlı şəxs belədir. Amma adamın içi boş olanda, cəmiyyət dəyərlər bir cəmiyyətdən boşalanda, cəmiyyətin həmin əsas hərəkət xətləri zəifləyəndə, əl-ayaq əsir. Uzaq başı bir gecə fikirləşir. O, çox hiddətlənib fikirləşmək üçün bir gecədən səhərə kimi vaxt alır.Əgər bir il də fikirləşsəydi, son qərar yenə də həminki olacaqdı. Onun bu fikirləşməyinin bir dəyəri yox idi. Bir gecə fikirləşdi və nəhayət, "bəli, mən Rey hakimiyyətini istəyirəm" cavabını verdi. Əlbəttə, Allah-taala ona onu da vermədi. Əzizlərim, bundan sonra Kərbəla faciəsi baş verir.

**Aşura sikkəsinin iki üzü: cihad və aşiqanə qəhrəmanlıq**

Burada bir kəlmə də Aşura hadisəsinin təhlili barədə danışım və ancaq bir işarə edim. Özü dəyərlərin təzahürü olan Hüseyn ibn Əli (ə) kimi bir şəxs bu tənəzzülün qarşısını almaq üçün ayağa qalxır. Çünki bu tənəzzül hər şeyin tamamilə silinib yox olması istiqamətinə gedirdi. Elə bir istiqamətə ki, əgər nə vaxtsa kimlərsə yaxşı yaşamaq və müsəlman həyatı sürmək istəsəydi, əlində bir şey olmayacaqdı. İmam Hüseyn hərəkət edir və təkbaşına bu sürətli tənəzzül enişinin qarşısında dayanır. Əlbəttə, o bu yolda öz canını, əzizlərini, Əli Əsgərinin, Əli Əkbərinin, Abbasının canını qurban verir, amma istədiyi nəticəni əldə edir.

"**و انا من حسين**" "Və mən Hüseyndənəm" cümləsinin mənası Peyğəmbərin dininin Hüseyn ibn Əli tərəfindən dirildilməsidir. Hadisənin o biri üzü bu idi. Sikkənin bu üzü isə əzəmətli, çılğın və aşiqanə Aşura hadisəsidir. Həqiqətən, Kərbəla hadisələrini eşq məntiqi və aşiqanə gözdən başqa bir şeylə başa düşmək mümkün deyil. Hüseyn ibn Əlinin təxminən bir gecə və yarı gün, yaxud bir sutka – Tasua günü günortadan sonradan Aşura günü günortadan sonraya kimi – ərzində etdiklərini və hansı əzəməti yaratdığını başa düşmək üçün aşiqanə gözlə baxmaq lazımdır. Buna görə də o, dünyada qalıb və əbədi olaraq da qalacaq. Aşura hadisəsini unutdurmaq üçün çox çalışdılar, amma bacarmadılar.

**Seyid ibn Tavusun "Lühuf" kitabına əsasən, həzrət Qasim ibn Həsənin (ə) "zikri-müsibət"i**

Mən bu gün ibn Tavusun "Lühuf" kitabından bir neçə kəlmə "zikri-müsibət" demək və siz əzizlərə həmin əzəmətli səhnələrdən bir neçəsini oxumaq istəyirəm. Bu kitab çox mötəbər kitabdır. Seyid ibn Tavus – Əli ibn Tavus – fəqih, arif, böyük şəxsiyyət, doğruçu, inanılmış və hamının ehtiram göstərdiyi şəxsiyyət, böyük alimlərin ustadı olub. O, ədib, şair və çox məşhur şəxsiyyət olub. Kərbəla hadisəsi müsibətləri barədə çox mötəbər və yığcam ilk rövzə kitabını o yazıb. Əlbəttə, bu barədə ondan qabaq çox rövzə kitabları yazılıb. Onun ustadının – İbn Nəmanın[2] – rövzə kitabı var, şeyx Tusinin rövzə kitabı var, başqalarının rövzə kitabı var. Ondan qabaq çox rövzə kitabları yazılıb. Lakin Lühuf yazılandan sonra onların, demək olar ki, hamısı kölgədə qaldı. Bu, çox gözəl rövzə kitabıdır. Çünki ibarələr çox yaxşı, dəqiq və qısa seçilib. Mən indi onlardan bir neçə cümlə oxuyacağam.

Bu hadisələrdən biri Qasim ibn Həsənin meydana getmə hadisəsidir. O, çox heyrətamiz bir səhnədir. Qasim ibn Həsən (ə) İmam Hüseynin (ə) azyaşlı səhabələrindən biridir. O, "**لم يبلغ الحلم**" "hələ həddi-büluğa çatmamış"[3] yeniyetmə idi. Aşura axşamı İmam Hüseyn (ə) buyurdu ki, bu hadisə baş verəcək və hamı öldürüləcək. İmam buyurdu ki, siz gedin. Lakin o həzrətin səhabələri qəbul etmədilər. On üç, on dörd yaşı olan bu yeniyetmə dedi: Əmican, mən də meydanda şəhid olacağam? İmam Hüseyn – bizim dillə desək – bu yeniyetməni sınamaq istədi. Buyurdu ki: "Əzizim, səncə, öldürülmək necə dadır?" Qasim dedi: "**احلى من العسل**" "Baldan şirin". Fikir verin, bu, Peyğəmbər əhli-beytində olan həmin dəyərlərə bağlılıq damarıdır. Əhli-beyt tərbiyəsi almış şəxslər belədirlər. Bu yeniyetmə uşaqlıqdan İmam Hüseynin qucağında böyüyüb. Yəni təxminən üç-dörd yaşı olanda atası dünyadan köçüb və onu İmam Hüseyn böyüdüb. O, İmam Hüseyndən tərbiyə alıb. İndi Aşura günü həmin yeniyetmə əmisinin yanına gəlir. Bu rövzə kitabında belə yazılır: " **قال الراوى و خرج**

---

[1] Ömər ibn Səd Əbu Vəqqasa işarədir.

[2] Şeyx Nəcməddin Cəfər ibn Nəma

[3] Zendeqaniyi həzrət Əbu Əbdullahil-Hüseyn Seyyidüş-şühəda (ə), Əbülqasim Səhab, s. 484

"غلام" Ravi deyir: Bir gənc çıxdı...[1] Orada ravilər var idi və onlar hadisələri yazıb qeyd edirdilər. Bir neçə nəfər var ki, hadisələr onların dilindən nəql edilir. Onların birinin dilindən nəql edib deyir: Biz tamaşa edirdik, birdən gördük ki, İmam Hüseynin çadırları tərəfdən bir yeniyetmə oğlan çıxdı: "كأنّ وجهه شقة قمر" Üzü ay parçası kimi parlayırdı.[2] "فجعل يقاتل" Gəldi və vuruşmağa başladı.

Bunu da bilin ki, Kərbəla hadisəsinin xırdalıqları da – kim hansı zərbəni vurdu, kim əvvəl vurdu, kim filan şeyi oğurladı – qeyd edilib. Bunların hamısı qeyd edilib. Məsələn, o həzrətin qətfəsini oğurlayan və qarət edən şəxsin haqqında sonralar "سرق القطيفة" "Qətfəni oğurladı" ifadəsini işlədirdilər. Beləcə, hadisələrin xırdalıqları qeyd edilib və hər şey məlumdur. Yəni Peyğəmbər Əhli-beyti və onların sevənlər bu hadisənin tarixdə itməsinə imkan verməyiblər.

"فضربه ابن فضيل العضدى على رأسه فطلقه" İbn Füzeyl əl-Əzudi onun başından vurdu və bu gəncin başını yardı. "فوقع لوجهه الغلام" Oğlan üzü üstə yerə yıxıldı. "و صاح يا عماه" Onun "Əmican!" fəryadı ucaldı. " فجل الحسين عليه السلام كما يجل الصقر" Bu xüsusiyyətlərə və ifadələrin gözəlliyinə diqqət edin. "صقر" "Səqər" sözünün mənası "ov qartalı"dır. Deyir ki, İmam Hüseyn (ə) ov qartalı kimi özünü bu yeniyetmənin başı üzərinə çatdırdı. "ثم شد شدة ليث اغضب" Ərəbcə mətndəki "شدّ" "şəddə" sözünün mənası "hücum etmək"dir. Deyir ki, o, qəzəbli aslan kimi hücum etdi. "فضرب ابن فضيل بالسيف" Əvvəl o qatili bir qılınc zərbəsi ilə vurub yerə saldı, bir dəstə adam gəlib həmin qatili xilas etmək istədi. Lakin o həzrət onların hamısına hücum etdi. Qasim ibn Hüseynin bədəninin ətrafında güclü döyüş getdi. Gəldilər vuruşdular, amma o həzrət onların hamısını geri oturtdu. Bütün ətrafı toz-torpaq bürüdü. Ravi deyir: "و انجلت الغبر" Bir az sonra toz-torpaq yatdı. Təsvir edilən bu mənzərə adamın ürəyini çox yandırır. "فرأيت الحسين عليه السلام" Mən baxdım, orada Hüseyn ibn Əlini (ə) gördüm. "قائماً على رأس غلام" İmam Hüseyn bu yeniyetmənin başı üzərində dayanmışdı və həsrətlə ona baxırdı. "و هو يبحث برجليه" O yeniyetmə də ayağı ilə yeri yarırdı, yəni can verən halda idi və ayağını tərpədirdi. " و الحسين عليه السلام يقول بعداً لقوم قتلوك" Səni öldürənlər Allahın mərhəmətindən uzaq olsunlar! Bu, çox heyrətamiz bir mənzərədir və İmam Hüseynin bu yeniyetməyə olan məhəbbətini göstərir. O, həm də bu gəncin fədakarlığının, bu yeniyetmənin ruhunun əzəmətinin və bu yeniyetmə ilə bu cür rəftar edən insanların cəfasının göstəricisidir.

**Əli Əkbərin (ə) "zikri-müsibət"i**

Başqa bir mənzərə Əli Əkbərin (ə) meydana getmə mənzərəsidir. Bu, çox macəralı və heyrətamiz mənzərələrdəndir. Həqiqətən, çox heyrətamizdir, bütün cəhətlərdən heyrətamizdir. İmam Hüseynin özü baxımından heyrətamizdir, bu gənc – Əli Əkbər – tərəfdən heyrətamizdir, qadınlar baxımından, xüsusilə Zeynəbi-kübra baxımından heyrətamizdir. Ravi deyir ki, bu gənc atasının yanına gəldi. Əvvəla, Əli Əkbərin yaşının on səkkizdən iyirmi beşə kimi olduğunu yazıblar. Yəni onun, ən azı, on səkkiz, ən çoxu iyirmi beş yaşı olub. Deyir: "خرج على بن الحسين" Əli ibn Hüseyn vuruşmaq üçün İmam Hüseynin xeyməsindən çıxdı. Ravi burada yenə belə deyir: "و كان اشبه الناس خلقاً" Bu gənc dünyanın ən gözəl gənclərindən idi, gözəl, qorxmaz, şücaətli. Gedib atasından vuruşmaq üçün icazə istədi. İmam Hüseyn heç nəyi nəzərə almadan ona icazə verdi. O həzrət, əvvəlcə Qasim ibn Həsənə icazə vermirdi. Amma o, bir az yalvardı və İmam Hüseyn bundan sonra icazə verdi. Amma Əli ibn Hüseyn gələndə öz övladı olduğu üçün icazə istəyən kimi o həzrət onun meydana getməsinə icazə verdi. Meydana gedən və bir daha geri qayıtmayacaq bu gəncə məyus baxışlarla baxdı və gözünü boşladı və göz yaşı tökülməyə başladı.

İslam dünyasının duyğulu xüsusiyyətlərindən biri budur, emosional hadisə və vaxtlarda göz yaşı tökmək. Siz hadisələr zamanı o həzrətin ağlaması ilə çox rastlaşırsınız. Bu, dözümsüzlük göz yaşı deyil, məhəbbət və duyğuların güclülüyüdür. Çünki islam insanda bu duyğunu gücləndirir. O həzrət ağlamağa başladı. Sonra hamımızın eşitdiyi bu cümləni buyurdu: Ey Allah, özün şahid ol! Onlarla vuruşmağa elə bir gənc gedib ki, insanların yaradılış, əxlaq və danışıq baxımından sənin Peyğəmbərinə ən çox oxşayanıdır.

**İmam Hüseynin (ə) Əli Əkbərə xüsusi məhəbbətinin sirri onun həzrət Peyğəmbərə (s) bənzərliyi idi**

Burada bir məqam var və mən onu sizə deyim. Baxın, İmam Hüseyn uşaqlıqda həzrət Peyğəmbərin sevimlisi idi. Onun özü də həzrət Peyğəmbəri hədsiz dərəcədə çox istəyirdi. O həzrət yeddi yaşında olanda Peyğəmbər dünyasını dəyişib. Peyğəmbərin siması İmam Hüseynin zehnində silinməz bir xatirə kimi qalıb. Onun qəlbində

[1] Lühuf, ibn Tavus, Seyid Əhməd Zəncaninin "Ahi suzan bər məzari-şəhidan" adı altında fars dilinə tərcüməsi, s. 115
[2] Lühuf, ibn Tavus, Seyid Əhməd Zəncaninin "Ahi suzan bər məzari-şəhidan" adı altında fars dilinə tərcüməsi, s. 115

Peyğəmbər sevgisi var idi. Sonra Allah-taala İmam Hüseynə Əli Əkbəri verib. Bu gənc bir az böyüyəndən, yaxud həddi-büluğa çatandan sonra İmam Hüseyn görür ki, onun çöhrəsi eyni ilə həzrət Peyğəmbərin çöhrəsidir. O həzrətin bu qədər çox sevdiyi və aşiqi olduğu çöhrə. İndi bu gənc həzrət Peyğəmbərə oxşayır; o danışır və səsi, həzrət Peyğəmbərin səsinə oxşayır; danışıq tərzi həzrət Peyğəmbərin danışıq tərzi kimidir; əxlaqı həzrət Peyğəmbərin əxlaqına oxşayır. Həmin alicənablıq, həmin kərəm və həmin şərəf.

O həzrət daha sonra belə buyurur: "كنا اذا اشتقنا الى نبيّک نظرنا اليه" Ürəyimiz nə vaxt Peyğəmbəri istəsəydi, bu gəncə baxardıq. Amma bu gənc də meydana getdi. "فصاح و قال يابن سعد قطع الله رحمک کما قطعت رحمی" Ucadan fəryad qopararaq dedi: Ey ibn Səd, Allah sənin qohumluq əlaqələrini kəssin, necə ki, sən bizim qohumluq əlaqələrimizi kəsdin (və Peyğəmbərə bağlılığımızı nəzərə almadın)! Ravi sonra nəql edir ki, Əli Əkbər meydana getdi, çox şücaətlə vuruşdu, düşmənin çoxlu adamını öldürdü, sonra qayıtdı və susuz olduğunu dedi. Sonra meydana tərəf getdi. O, susuzluğunu bildirəndə İmam Hüseyn ona belə buyurdu: "Əzizim, bir az da vuruş. Çox çəkməz cəddim Peyğəmbərin əli ilə sirab olarsan". İmam Hüseyn Əli Əkbərə bu sözləri deyəndən sonra, son anda Əli Əkbərin səsi ucaldı: "يا ابتا عليک السلام" Ata, salamat qal! "هذا جدی رسول الله يقرئک السلام" Bu, cəddim Peyğəmbərdir, sənə salam göndərir. "و يقول عجل القدوم علينا" Deyir ki, bizim yanımıza gəlməkdə tələs!

**Tarixin İmam Hüseyn (ə), həzrət Zeynəb və Aşura əhli tərəfindən xilas edilməsi**

Bunlar o əzəmətli hadisənin heyrətamiz mənzərələridir. Bu gün həzrət Zeynəbi-kübranın günüdür. O həzrətin də heyrətamiz hekayətləri var. Həzrət Zeynəb İmam Hüseyn şəhid olandan sonra bu əmanət yükünü boynuna götürür və bu yolda tam şücaət və qüdrətlə, Əmirəl-mömininin qızına layiq şəkildə hərəkət edib. Onlar islamı əbədi yaşada və camaatın dinini qoruya bildilər. İmam Hüseynin (ə) macərası, bir millətin, bir ümmətin xilas edilməsi məsələsi deyildi, tarixin xilas edilməsi idi. İmam Hüseyn, onun bacısı Zeynəb, səhabə və dostları bu hərəkət ilə tarixi xilas etdilər[1].

**45.**

## Şəhidlik və şəhidin məqamının yüksək dəyəri

Şəhidlik fenomeninə neçə cəhətdən baxmaq olar. Bu fenomenə hansı tərəfdən baxsaq, o, çox əzəmətli və parlaq görünür. Biz ona bir dəfə şəhidliyin Allah dərgahındakı dəyəri baxımından baxırıq və bizim dilimiz şəhidliyin yüksək dəyərini bəyan etməkdə aciz qalır. Hədislərin birində deyilir ki, istənilən xeyir və dəyərə baxanda, ondan üstün bir dəyərin olduğunu görürük və nəhayət, növbə şəhidliyin dəyərinə çatır. Şəhidliyin dəyərindən üstün bir şey yoxdur.[2]

Əgər biz bu barədə dini əsaslar və din fəlsəfəsi baxımından danışsaq, məsələnin dəqiqliklə elə olmasının şahidi olacağıq. İnsanın öz əli ilə, öz istəyi ilə, könüllü şəkildə öz can və varlığını böyük, ülvi və ilahi ideya uğrunda qurban verməsindən üstün bir şey yoxdur. Şəhidliyin mənası budur. Buna görə də şəhidlik Allah dərgahında xüsusi ifadə edilir. Quranda Allah yolunda öldürülmək ölüm sayılmır: "فَإِنْ مَاتَ أَوْ قُتِلَ"[3] Quran Allah yolunda öldürülməyi adi ölümlərlə bir hesab etmir. İlahi meyarda, dini və Quran baxışında şəhidliyin mənası başqadır və o, üstün bir məna ifadə edir. Buna görə də əgər bu ilahi bəxşiş kiməsə bəxş edilirsə və kimsə Allah yolunda şəhid olursa, bu, Allahın həmin şəxsi dəyərləndirməsidir.

Allah-taala şəhid barəsində ən böyük lütfü edib. Diqqət edin, heç kəs bu dünyada həmişəlik qalmır, hamı getməlidir. İnsanlar müxtəlif ölümlərlə dünyalarını dəyişirlər. Ölüm cavana, qocaya da baxmır. İnsanlar cavanlıqda da ölürlər, qocalanda da, uşaqlıqda da. Ölüm hamı üçündür. Allah-taala hamının labüd alın yazısı olan bu ölümü və hamının keçməsi mütləq olan bu darvazanı şəhid barəsində bu qədər yüksək dəyərə malik şəkildə qoyub. Halbuki adi ölümlərdə bu dəyər yoxdur. Bundan böyük nə lütf ola bilər?! Şəhidə bundan artıq nə yaxşılıq edilə bilər?! Biz hamımız öləcəyik. Görün Allah-taalanın bu ölümü, bu gedişi, bu qəti alın yazısını bu qədər fəzilətli etməsi nə qədər dəyərlidir! Buna görə də şəhid qeyb aləmi və bərzəxdə Allaha şükür edir. O, ona belə bir lütf göstərildiyi üçün şükür edir. Şəhid olma anı hər bir şəhidin ən şirin anlarındandır. Görün o nə qədər dəyərli və ucadır![4]

---

[1] Tehranın cümə namazının xütbələrindəki çıxışdan. 08.V.1998

[2] Həzrət Peyğəmbər (s) buyurub: "Bütün yaxşılıqlardan üstün bir yaxşılıq var, o vaxta kimi ki, şəxs Allah yolunda öldürülsün, ondan (Allah yolunda öldürülməkdən) üstün bir yaxşılıq yoxdur". Biharul-ənvar, c. 100, s. 10

[3] Ali-İmran surəsi, ayə 144: "... əgər o ölsə və ya öldürülsə..."

[4] Silahlı Qüvvələrdən və Quruculuq Cihadı Təşkilatından olan şəhidlərin ailələri ilə görüşdəki çıxışdan. 27.IX.1998

## 46.

## İmam Hüseynin (ə) üç bariz sifəti: ixlas, Allaha arxalanmaq və şəraiti düzgün dəyərləndirmək

İslam ümmətinin İslam, Quran və Əhli-beytin bərəkətindən malik olduğu onlarla və yüzlərlə xüsusiyyətdən biri də onun öz gözü önündə böyük və parlaq örnəklərə malik olmasıdır. Millətlər üçün örnək çox mühümdür. Siz fikir verin, müxtəlif millətlər hansısa bir şəxsiyyətdə azacıq əzəmət olsa, onu mütləqləşdirir, böyüdür, onun adını əbədiləşdirirlər. Çünki onlar nəsillərinin ümumi hərəkətini həmin səmtə istiqamətləndirmək istəyirlər. Bəzən heç həqiqi şəxsiyyətləri də olmur, amma dastan, şeir, müxtəlif milli əfsanələrdə onları qeyd edirlər. Bütün bunlar millətlərin öz içindən böyük bir nümunə görmək istəyindən qaynaqlanır. İslamda belə nümunələr çox və misilsizdir. Onun ən böyüklərindən biri də müsəlmanların rəhbəri, həzrət Peyğəmbərin nəvəsi və bəşəriyyət tarixinin böyük şəhidi həzrət İmam Hüseyndir (ə).

İmam Hüseynin (ə) vücudunun müxtəlif bariz cəhətləri var. Bu cəhətlərin də hər biri geniş bəhs, izah və açıqlama tələb edir. Amma əgər həmin çoxsaylı bariz sifətlərdən iki-üç dənəsinin adını çəkmək istəsək, onlardan birinin "ixlas" olduğunu deyə bilərik. Onun mənası ilahi vəzifəyə əməl etmək və şəxsi və kollektiv mənafe və maddi maraqları işə qatmamaqdır. Digər bir bariz sifət Allaha arxalanmaqdır. İşlərin zahiri gedişatı bu şölənin Kərbəla səhrasında sönəcəyini göstərirdi. Bunu şair Fərəzdəq görürdü, amma İmam Hüseyn görmürdü?! Kufədən gəlib vəziyyəti görən nəsihətçilər görürdülər, amma İmam Hüseyn (ə) görmür və başa düşmürdü?! Məsələnin zahiri belə idi. Lakin İmam Hüseynin Allaha arxalanması onun haqq və düz sözünün qalib gələcəyini hökm edirdi. Əsas məsələ də insanın niyyət və hədəfinin gerçəkləşməsidir. Əgər hədəf gerçəkləşsə, ixlası olan şəxs üçün özü mühüm deyil.

İrfan və hikmət əhli olan şəxslərdən biri məktublarının birində belə yazmışdı: Qeyri-mümkün olsa da, fərz edək ki, islamın əziz Peyğəmbərinin (s) yerinə yetirdiyi və yerinə yetirmək istədiyi bütün işlər yerinə yetirilib, amma bir başqasının adı ilə. Görəsən, belə olan halda həzrət Peyğəmbər narazı qalardı? Onda o, "başqasının adı ilə olacaqsa, mən etmirəm" deyərdi? Belə olardı? Ya yox, hədəf həmin işlərin yerinə yetirilməsidir və onların kimin adı ilə olması mühüm deyil? Deməli, hədəf mühümdür. İxlası olan adam üçün "şəxs", "mən" və "öz"ün əhəmiyyəti yoxdur. Onun ixlası var, Allaha da arxalanır. Bilir ki, Allah-taala mütləq bu hədəfi qalib edəcək, çünki "وَ إِنَّ جُنْدَنَا لَهُمُ الْغَالِبُونَ"[1] buyurub. Bu qalib qoşunların çoxu cihad meydanında şəhid olub torpağa düşür, aradan gedir. Amma buna baxmayaraq, Allah-taala "وَ إِنَّ جُنْدَنَا لَهُمُ الْغَالِبُونَ" buyurur və qələbənin onlara məxsus olduğunu deyir.

Üçüncü xüsusiyyət şəraiti düzgün dəyərləndirməkdir. İmam Hüseyn (ə) şəraiti düzgün dəyərləndirməkdə səhvə yol vermədi. Kərbəla hadisəsindən on il qabaqdan imamət və məsuliyyət onun əlində idi. O həzrət Mədinədə başqa işlərlə məşğul idi və Kərbəla işləri ilə məşğul deyildi. Amma o mühüm işi görmək fürsəti yaranan kimi o həzrət fürsəti düzgün dərk etdi və ondan yararlandı, şəraiti düzgün dəyərləndirdi və onu əldən vermədi. Bu üç xüsusiyyət çox mühümdür. Bütün dövrlərdə belədir. Bizim islam inqilabi zamanı da belə idi. Allah-taalanın İmam Xomeynini bu qədər yüksək məqama ucaltmasının – "وَ رَفَعْنَاهُ مَكَاناً عَلِيّاً"[2] – və materialist və imperialist dünyasının hər yerində onu məhv etmək, unutdurmaq, alçaltmaq istəyən bütün amillərin istəyinin əksinə olaraq, onu qorumasının, böyütməsinin və əbədiləşdirməsinin də səbəbi onun bu üç xüsusiyyətə malik olması idi. Birincisi, o, ixlasa malik idi və özü üçün heç nə istəmirdi. İkincisi, öz Allahına arxalanırdı və iş və hədəfinin gerçəkləşəcəyini bilirdi – Allahın bəndələrinə də etimad edirdi – üçüncüsü, zaman və münasib fürsəti əldən vermədi. Lazımi vaxtda lazımi addımı atdı, lazımi sözü dedi, lazımi işarə və hərəkəti etdi[3].

## 47.

## Həzrət Əli (ə) və İmam Hüseynin (ə) qanının sahibi Allah-taaladır

Bütün islami mənbələrdə iki nəfər barəsində "ثار الله" "sarullah" ifadəsi işlədilmişdir. Fars dilində ərəb dilində işlədilən "ثار" "sar" termininin düzgün və kamil qarşılığı yoxdur. Hansısa bir ailədən biri nahaq yerə qətlə yetiriləndə qətlə yetirilən şəxsin ailəsi həmin qanın sahibi olur. Ərəb dilində buna "sar" deyillər və həmin

---

[1] Saffat surəsi, ayə 173: "Və əlbəttə, Bizim qoşunumuz həmişə qalibdir".
[2] Məryəm surəsi, ayə 57: "Biz onu yüksək məqama ucaltdıq".
[3] İmam Hüseynin (ə) mövludunun ildönümündə İnqilab Keşikçiləri və Könüllü Qüvvələrdən ibarət böyük bir dəstə ilə görüşdəki çıxışdan. 23.XI.1998

ailənin intiqam almaq haqqı var. "Sar" barəsində işlədilən "Allahın qanı" ifadəsi çox naqis və natamam ifadədir və məqsədi düzgün çatdırmır. "Sar" sözünün mənası "intiqam haqqı"dır. Əgər kimsə bir ailənin "sar"ıdırsa, bunun mənası bu ailənin onun intiqamını almaq haqqına malik olmasıdır. İslam tarixində iki nəfərin adı çəkilib və onların qanının sahibinin və intiqam haqqının Allah olduğu qeyd edilir. Bu iki nəfərdən biri İmam Hüseyndir, ikincisi isə onun atası Əmirəl-möminin. "يا ثار الله و ابن ثاره" onun atası Əmirəl-mömininin də intiqam haqqı Allaha məxsusdur[1].

**48.**

## İmam Hüseyn (ə) hərəkatının ən mühüm hədəfləri ümməti islah etmək və dinin hökmlərinə əməl edilməsinin rəvac tapması olub

Mən İmam Hüseynin (ə) kəlamları arasında bu cümləni məclisimizə münasib görürəm. Əlbəttə, o həzrətin kəlamlarının hər birində ibrətamiz nüanslar və mən siz əzizlərə məsləhət görürəm ki, camaata dolğun və maarifləndirici kəlamlar demək məqsədi ilə o həzrətin kəlamlarından maksimum həddə istifadə edəsiniz. Nəql edilənlərə əsasən, o həzrət belə buyurub: " اللهم انک تعلم ان الذی کان منا لم یکن منافسة فی سلطان و لا التماس شیئ من فضول الحطام"[2] İlahi, sən bilirsən ki, bizim bu hərəkətimiz, etdiyimiz bu mübarizə, bu addımı atmaq barədə gəldiyimiz qərar hökmranlıq üçün deyil. Hegemonluq insan üçün hədəf ola bilməz. Biz qüdrəti ələ keçirmək istəmirdik. Dünya malı üçün – ağzımızı həyatın yağ-balına çatdırmaq və qarnımızı aclıq matəmindən qurtarmaq, var-dövlət toplamaq və sərvət əldə etmək üçün də deyildi. Bunlar üçün deyildi. Bəs nəyə görə idi? O həzrət bizim hərəkət istiqamət və yolumuzu müəyyənləşdirən bir neçə cümlə buyurub. Bunlar islamın təbliğinin bütün dövrləri üçün istiqamətdir. "و لکن لنری المعالم من دینک" İnsanlar üçün dinin bayraqlarını ucaltmaq və nişanələri onlara göstərmək üçün!

Nişanələr çox mühümdür. Şeytan dindar cəmiyyətlərdə həmişə təhrifdən istifadə edir və yolu səhv göstərir. Əgər "dini kənara qoy" deyə bilsə, bunu edir ki, nəfsi istəklər və zərərli təbliğat vasitəsi ilə insanların dini imanını əlindən alsın. Əgər o mümkün olmasa, dinin nişanələrini səhv qoyur. Elə bil ki, siz bir yolda hərəkət edirsiniz və əlamət üçün qoyulmuş daşın – istiqamətləndirici nişanənin – filan tərəfi göstərdiyini görürsünüz, halbuki hansısa xain gəlib onu dəyişdirib və o, yolu başqa istiqamətdə göstərir.

İmam Hüseyn (ə) özü üçün ilk hədəf olaraq bunu seçib: "لنری المعالم من دینک و نظهر الاصلاح فی بلادک" İslami ölkədə fəsadın kökünü kəsək və islahat aparaq. İslahatın mənası nədir? Onun mənası fəsadın məhv edilməsidir. Fəsad nədir? Fəsadın müxtəlif növləri var: Oğurluq fəsaddır, xəyanət fəsaddır, asılılıq fəsaddır, zorakılıq fəsaddır, əxlaqi sapıntılar fəsaddır, maliyyə əyrilikləri fəsaddır, silahdaşlar arasındakı düşmənliklər fəsaddır, din düşmənlərinə meyl göstərmək fəsaddır, dinə zidd şeylərə meyl göstərmək fəsaddır. Hər şey dinin sayəsində yaranır. O həzrət sonrakı cümlələrdə buyurur: "و یأمن المظلومون من عبادک" "Sənin məzlum bəndələrin dinclik tapsınlar". Məqsəd zalımlar, zülm məddahları və zülm əlaltıları deyil, cəmiyyətin məzlumlarıdır. "Məzlumlar" əlsiz-ayaqsız, əlləri bir yerə çatmayan kəslərdir. Məqsəd budur ki, cəmiyyətin zəif insanları hansı səthdə və harada olmalarından asılı olmayaraq, bu gün dünyada olmayan şeyi – toxunulmazlıq əldə etsinlər: abır-həya toxunulmazlığı, maliyyə toxunulmazlığı, hüquqi toxunulmazlıq. İmam Hüseyn (ə) həmin vaxtın batil hökumətlərində olan şeylərin tam əksinə istəyirdi. Siz bu gün də dünyaya baxanda vəziyyətin həmin cür olmasının şahidi olursunuz; dinin bayraqlarını tərsinə asırlar, Allahın məzlum bəndələrini daha da məzlum edirlər, zalımların caynağı məzlum qanına daha çox batır.

### Balkan müsəlmanlarının böyük zülmə məruz qalması dünyanın bugünki zalımlarının fəsadının bir nümunəsidir

Görün dünyada nələr baş verir! Görün Kosovo müsəlmanları ilə necə rəftar edirlər! Beş yüz min – bəlkə də, ondan da çox insan, uşaq, böyük, qadın, kişi, xəstə çöllərdə, sərhədlərdə, özü də mehriban dost sərhədində yox, düşmənin arasında olan çöllük və sərhədlərdə, ayaqlarının altına mina qoyan və arxalarınca güllə atan düşmənin təzyiqi altında ... Hədəf bunları darmadağın etməkdir.

Mən bu gün sizə deyirəm – məsələni çox geniş açmaq istəmirəm – ümumi istək müsəlmanları Balkan bölgəsində darmadağın etmək və oradan didərgin salmaqdır, islami bir dövlət və toplumu – islamiliyinin necəliyi fərq etmədən, hətta ilahi maarif onun qulağına yüz il dəyməyən şəkildə islami olsa belə – başdan etmək və qarşısını almaqdır. Çünki bunun özü də onlar üçün təhlükəlidir. Bilirlər ki, hətta əgər Balkan

---

[1] Tehranın cümə namazının xütbələri. 08.I.1999

[2] Nəhcül-Bəlağə, xütbə 131

müsəlmanlarının bugünkü nəsli islamla tanış olmasa da, sabahkı nəsil tanış olacaq. Onların islami kimliyinin dirçəlməsi təhlükədir və bəziləri bu nöqtəyə öz açıqlamalarında işarə ediblər. Həmin dövlətlər bir-biri ilə müharibə edirlər, amma bu qarşıdurmada diqqət edilməyən və əhəmiyyət verilməyən şey – dildə bəzi şeylər desələr də – məzlum müsəlmanların vəziyyətidir. "يأمن المظلومون من عبادک" "Sənin məzlum bəndələrin dinclik tapsınlar". Hər bir qiyamın, hər bir inqilabın, hər bir islami gücün, ümumiyyətlə, Allahın dininin hakimiyyətinin hədəfi məzlumların vəziyyətinin yaxşılaşdırılması və dinin vacib göstərişlərinə, ilahi hökm və qanunlara əməl etməkdir.

İmam Hüseyn (ə) sonda buyurur: "و يعمل بفرائضک و احکامک و سننک" "Sənin vacib buyurduqlarına, hökmlərinə və qanunlarına əməl edilsin". O həzrətin hədəfi bunlardır. Bir də görürsən, biri hardansa çıxır və islam təlimləri və İmam Hüseynin (ə) kəlamları və hətta ərəb dili ilə azacıq tanışlığı olmadan İmam Hüseyn hərəkatının hədəfləri barədə yazılar yazır və "İmam Hüseyn filan məqsədlə mübarizə aparır" deyir. Haradan deyirsən bunu?! İmam Hüseynin (ə) sözü budur: "Sənin vacib buyurduqlarına, hökmlərinə və qanunlarına əməl edilsin". Yəni İmam Hüseyn (ə) öz canını və zəmanəsinin ən pak insanlarının canını qurban verir ki, insanlar Allah hökmlərinə əməl etsinlər. Niyə? Çünki xoşbəxtlik dinin hökmlərinə əməl etməkdədir; çünki ədalət dinin hökmlərinə əməl etməkdədir; çünki azadlıq və insanın azadlığı dinin hökmlərinə əməl etməkdədir. Azadlığı haradan əldə etmək istəyirlər?! İnsanların bütün istəkləri dini hökmlər çətirinin altında təmin olur[1].

**49.**

## Aşura hadisəsi iştirakçılarının həqiqi əbədiliyinin səbəbi mənəvi amillər və Allah yolunda çalışmalarıdır

Adətən diqqəti bir məqam cəlb edir və o, bu gün hər biri bəşəriyyət tarixini müəyyən formada işıqlandıran bu şəxsiyyətlərin – Hüseyn ibn Əli (ə), İmam Səccad (ə), həzrət Əbülfəzl, – öz zamanlarında batil maddi baxışlarla tamamilə məhv edilmiş şəxslər olmalarıdır. Hüseyn ibn Əli (ə) ailəsinin bütün gəncləri və böyük şəxsiyyətləri ilə – qardaşları, övladları, yaxınları, gənclər və qeyrətli səhabələri ilə – tam qərib şəraitdə şəhid oldu və tam qəribcəsinə dəfn edildi. Onların nə dəfn mərasimində iştirak edən oldu, nə də kimsə onlara əza saxladı. Bəziləri batil gümanlarla belə düşünürdülər ki, əgər bunlar qalsalar, intiqam almaq fikrinə düşə bilərlər. Elə bilirdilər ki, Hüseyn ibn Əlinin (ə) və onun yoldaşlarının şəhid edilməsi ilə iş sona çatacaq. İmam Səccad (ə) həmin hadisədən sonra otuz dörd il Mədinədə zahirdə tənhalıqda yaşayıb. Zahirdə onun nə qoşunu var idi, nə başının toplantısı, nə də səs-küyü. Həmin günün şəhidlərindən biri də Əbülfəzl Abbasdır (ə). Adətən maddi məntiqlə hökmranlıq edən maddi qüdrətlər batil təsəvvürlə bunların kökünün kəsildiyini və məhv olub getdiklərini düşünürlər. Lakin gördüyünüz kimi, əslində, məsələ elə deyil. Bunların kökü kəsilib qurtarmadı. Qaldılar və əzəmət, cəlal, cazibə və təsirləri gün-gündən daha da artdı. Onlar qəlbləri fəth etdilər və öz vücud dairələrini daha da genişləndirdilər. Bu gün yüz milyonlarla müsəlman – şiə və qeyri-şiə – onların adından təbərrük kimi istifadə edir, sözlərindən istifadə edir, xatirələrini əziz tutur. Bunlar tarixi qələbədir, həqiqi və həmişəyaşar qələbə!

### Maddi və mənəvi qüdrət amilləri

İnsanın zehnində belə bir sual yaranır ki, görəsən, bu nə məsələdir? Bu həmişəyaşarlığın səbəbi nədir? Məncə, bu, bəşər həyatının ən əsas, eyni zamanda ən aydın və geniş yayılmış həqiqətlərindəndir. Lakin bütün aydın həqiqətlər kimi qafil insanların diqqətini özünə cəlb etmir. Varlıq aləminin bütün həqiqətləri mühüm hadisələrdir. Günəş, ay, gecə ilə gündüzün bir-birinin ardınca gəlməsi, fəsillərin bir-birini əvəz etməsi, dünyaya gəlmək, getmək, ölmək, yaşamaq – bu hadisələrin hər biri insan üçün düşündürücü və ibrət dərsidir. Lakin qafil insanlar bunlara diqqət etmirlər. Onlara düşüncəli insanlar diqqət edir, onlardan istifadə edir və bəhrələnirlər. Qeyd etdiyimiz həqiqət də tarix boyu olmuş aydın həqiqətlərdəndir. Belə ki, qüdrət amilləri iki cürdür: Maddi qüdrət amilləri, yəni pul, güc və qüdrət sahiblərinin tarix boyu gördükləri işlər. Əgər onların hansısa bir nəticəsi olubsa da, o, həyatın bir neçə sabahının nəticəsidir. Siz fikir verin, dünyanın qüdrət sahibləri nə qədər yaşayıblar? Onlar o qədər müharibələrdən, siyasi fəaliyyətlərdən və o qədər çalışandan sonra onun nə qədər bəhrəsini görə biliblər? Çox qısa və bir neçə il ki, əslində, heç nə deyil! Amma bir dəstə amillər də mənəvi qüdrət amilləridir, yəni iman, paklıq, təqvalılıq, düzlük, haqlılıq, çalışqanlıqla birgə olan dini və ilahi dəyərlər. Bu qüdrət əbədidir. Bu yolla əldə edilən qüdrət "tut, götür, bəhrələn və ləzzət al" qismindən deyil. Əbədi tarixi qüdrətdir, bəşəriyyətin müqəddəratını müəyyənləşdirən qüdrətdir və həmişə qalır. Məsələn, peyğəmbərlər bu

[1] Məhərrəm ayı astanasında bir dəstə alim, ruhani və təbliğatçı ilə görüşdəki çıxışdan. 12.IV.1999

günə kimi yaşayırlar, bəşəriyyət tarixinin böyük ədalət bayraqdarları hələ də sağdırlar. Onların diri olmasının mənası nədir? Yəni onların təsbit və bərqərar etmək üçün çalışdıqları yol bəşəriyyətin həyatında qalıb və bəşəriyyət üçün əbədi bir məna və dərsə çevrilib. Bu gün bəşəriyyətin malik olduğu bütün xeyirlər, gözəlliklər və yaxşılıqlar həmin dərslərdən doğub və peyğəmbərlərin həmin təlimlərinin, islahatçı və xeyirxah insanların həmin səylərinin davamıdır. Bunlar həmişəlik olaraq qalır.

**Hegemon qüvvələrin dini hakimiyyəti aradan götürmək səyləri**

İmam Hüseyn (ə) mənəvi qüdrət amilinə malik idi. Düzdür, o, şəhid oldu. Amma onun səyləri bir neçə gün xoş gün keçirmək üçün olmadığına görə biz onun şəhid olaraq üçün məğlub olduğunu deyə bilmərik. Onun səyləri tövhid yolunu, Allahın hakimiyyətini, din yolunu, insanın nicat və islah olması yolunu bəşəriyyətin arasında əbədi yaşatmaq və təsbit etmək üçün idi. Çünki bir sıra amillər bu yolu tamamilə məhv etmək istəyirlər. Siz onun nümunələrini bu gün də görürsünüz. Bir vaxtlar biz bunları deyəndə, onlar zehni düşüncə hesab edilirdi. Amma bu gün həmin zehni həqiqətlərin hamısı gerçəkləşib. Siz bu gün dünya güclərinin dünyadan din hakimiyyətini silmək üçün çalışmalarının və pul xərcləmələrinin şahidisiniz. Dünyanın bir yerində bir hadisə baş verib, bir millət qiyam edib, dünyanın qüdrət sahiblərinin istəyinin əksinə olaraq, din və dini dəyərlər hökuməti qurub. Bu, dünyada başqa millətlər üçün bir dərs olub. Bu gün bu yolun silinməsinə çalışırlar. Məsələ təkcə bu quruluşun məğlubiyyətə uğradılmasından ibarət deyil. Məsələnin kökü bu düşüncəni və bəşəriyyət üçün qalan dərsləri bəşəriyyətin zehnindən silmək və heç kəsi – nə bu gün, nə gələcəkdə – ondan dərs almağa qoymamaqdır[1].

**50.**

## İmam Hüseynin (ə) hədəfləri: insanın nadanlıq və xarlığına qarşı cihad

İmam Hüseynin (ə) "Ərbəin" ziyarətnaməsində bir cümlə var. Həmin cümlə bu ziyarətnamə və dualarda olan cümlələrin çoxu kimi çox dolğun mənalıdır və diqqət və düşüncə tələb edir. Bu gün Tasua və əza günü münasibəti ilə birinci xütbədə bir az İmam Hüseyn hərəkatı barəsində olan həmin cümlə barəsində danışacağam. Həmin cümlə budur: "**و بذل مهجته فیک**"[2] Bu, "Ərbəin" ziyarətnaməsindəndir, həmin duanın ilk cümlələrindəndir. Həmin cümlələrin sahibi Allah-taalaya xitab edərək belə deyir: Yəni Hüseyn ibn Əli öz can və qanını sənin yolunda verdi "**لیستنقذ عبادک من الجهالة**"[3] ki, sənin bəndələrini nadanlıqdan xilas etdin "**و حیرة الضلالة**"[4] və onları zəlalət və azğınlıq sərgərdanlığından nicat versin. Bu, məsələnin bir tərəfidir; yəni bir tərəf Hüseyn ibn Əlidir (ə) . Məsələnin digər tərəfi duanın sonrakı bəndində bəyan edilir: "**و قد توازر علیه من غرّته الدنیا و باع حظّه بالارذل الادنی**"[5] Bunun müqabilində həyatın aldatdığı, onları özünə məşğul etdiyi, maddi dünyanın, dünyanın bər-bəzəyinin, şəhvət və nəfsi istəklərin özündən çıxartdığı şəxslər dururdu. "**و باع حظّه بالارذل الادنی**" Onlar Allah-taalanın öz əzəmətli yaradılışında hər bir insan üçün müəyyənləşdirdiyi payı – həmin pay dünya və axirət səadəti və xoşbəxtliyindən ibarətdir – alçaq, dəyərsiz və cüzi bir qiymətə satmışdılar. Bu, Hüseyn hərəkatının xülasəsidir.

Adam bu bəyana diqqət edəndə görür ki, İmam Hüseyn hərəkatı, əslində, iki cəhətdən nəzərə alına bilər və onların hər ikisi də düzdür. Amma ümumilikdə bu iki baxış bu hərəkatın əzəmətli cəhətlərini göstərir. Həmin cəhətlərdən biri Hüseyn ibn Əlinin zahiri hərəkətidir. O, pozğun, azğın, zalım və qaniçən bir hökumətə – yəni Yezidin hökumətinə – qarşı hərəkətdən ibarət idi. Amma bu məsələnin batini daha böyük hərəkətdir ki, ikinci cəhət adamı ona çatdırır. O, insanın nadanlıq və xarlığına qarşı hərəkətdən ibarətdir. İmam Hüseyn Yezidlə mübarizə aparsa da, əslində, onun geniş tarixi mübarizəsi məhdud ömrü olan dəyərsiz Yezidlə deyil, insanın nadanlıq, alçaqlıq, azğınlıq, xarlıq və zilləti ilə idi. İmam Hüseyn bunlarla mübarizə aparır.

**Hadisələrə müxtəsər baxış və cəmiyyətdə həzrət Peyğəmbərin (s) besətindən İmam Hüseynin (ə) zamanına kimi olan dəyişikliklər**

---

[1] "İnqilab Keşikçiləri Korpusu günü" münasibəti ilə İslam İnqilabı Keşikçiləri Korpusunun komandirləri və personalı ilə görüşdəki çıxışdan. 13.XI.1999

[2] Misbahul-mütəhəccid, s. 788

[3] Misbahul-mütəhəccid, s. 788

[4] Misbahul-mütəhəccid, s. 788

[5] Misbahul-mütəhəccid, s. 788

İslam vasitəsi ilə ideal bir hökumət yarandı. Əgər biz İmam Hüseynin başına gələnləri bir neçə sətirdə xülasə etmək istəsək, belə olar: "Bəşəriyyət zülm, nadanlıq və ayrı-seçkiliyə uğramışdı. Həmin dövrdə dünyanın imperatorluqdan ibarət böyük hökumətləri – həmin dövrün istər İranı olsun, istərsə də Roma imperiyasında – zadəgan, xalqın iradəsinə əsaslanmayan, məntiqsiz qılınc, cəhalət və fəsad hökuməti idi. Kiçik hökumətlər də – Ərəbistan yarımadasında olduğu kimi – onlardan da pis vəziyyətdə idi və ümumilikdə dünyanı nadanlıq bürümüşdü. Belə bir vəziyyətdə Peyğəmbər vasitəsilə və Allahın köməyi ilə insanların böyük və çətin mübarizəsi nəticəsində islam nuru Ərəbistan yarımadasının bir bölgəsini işıqlandıra bildi və sonra tədricən yayıldı və onun şüası hər yeri bürüdü. Həzrət Peyğəmbər (s) dünyadan köçəndə bu hökumət tarix boyu bütün bəşəriyyət üçün örnək ola biləcək sabit hökumət idi. Əgər həmin hökumət o istiqamətdə davam etsəydi, şübhəsiz, tarix dəyişərdi. Yəni ondan əsirlərlə sonra – indiki vəziyyətdə imam Zaman zühur edəndə – yaranmalı olan şey həmin vaxt yaranardı. İmam Zamanın dövründə dünya ədalət, paklıq, doğruluq, mərifət və məhəbbət dünyası olacaq və bəşəriyyətin həyatı da ondan sonra başlayacaq. İnsanın bu dünyadakı həqiqi həyatı imam Zamanın zühurundan sonrakı dövrdə olacaq və bəşəriyyətin onda hansı əzəmətlərə nail olacağını Allah bilir. Buna görə də əgər Peyğəmbərin qurduğu hökumət davam etsəydi və o, elə ilk dövrlərdə yaransaydı və bəşəriyyətin tarixi dəyişsəydi, insanın işinin sonu başqa cür olar və çox qabağa düşərdi. Lakin müəyyən səbəblərdən bu iş olmadı.

Həzrət Peyğəmbərin hökumətinin xüsusiyyəti onun zülmə yox, ədalətə əsaslanması idi. O, şirk və insanın fikir dağınıqlığı əvəzinə, tövhidə və insanın fikrinin Allahın müqəddəs zatına bəndəliyə cəmlənməsinə, nadanlıq yerinə, elm və biliyə, insanların bir-birinə kin bəsləməsi əvəzinə, məhəbbət, xoş münasibət, birlik, mülayimlik və mehribanlığa əsaslanırdı. Yəni o, həm zahiri həm də batini gözəl bir hökumət idi. Belə bir hökumətdə formalaşan insan təqvalı, ismətli, alim, bəsirətli, fəal, şən əhval ruhiyyəli, enerjili və kamala doğru hərəkət edən şəxs olacaqdı. Amma əlli il keçəndən sonra məsələlər dəyişdi. İslamın adı qaldı, ad islami idi, amma batin daha islami deyildi. Hakimiyyətə ədalət əvəzinə, yenə zülm gəldi, qardaşlıq və bərabərlik əvəzinə, ayrıseçkilik, təfriqə, sinfi parçalanma yarandı, bilik yerinə, nadanlıq hakim oldu. Bu əlli ildə aşağı gəldikcə insan bu başlıqlardan daha çox tapmaq istəsə, yüzlərlə misal və nümunə tapa bilər. Gərək tədqiqatçılar bu barədə gənc və axtarışda olan zehin sahiblərinə məlumat versinlər.

İmamət səltənətə çevrildi. İmamətin mahiyyəti ilə səltənətin mahiyyəti bir-birinə zidd, bir-birindən fərqlidir. Bu iki şey bir-biri ilə ziddiyyət təşkil edir. İmamətin mənası mənəvi rəhbərlik və insanlarla ruhi və etiqadi bağlılıqdır. Lakin səltənətin mənası heç bir mənəvi, ruhi və iman bağlılığı olmadan zor, güc və hiylə ilə hökmranlıq etməkdir. Bu iki şey bir-birinin tam əksidir. İmamət ümmətin arasında, ümmət üçün və xeyir istiqamətində hərəkət etməkdir. Səltənətin mənası insanların maraqları əleyhinə və xüsusi sinif üçün, sərvət toplamaq, hakim sinfin nəfsi istəkləri üçün hökmranlıq etməkdir. Biz İmam Hüseynin mübarizəsi zamanı bunlardan birinci deyil, ikincisinin mövcud olmasının şahidiyik. Yəni iş başına gələn Yezidin nə camaatla əlaqəsi var idi, nə elmi var idi, nə təqva, paklıq və ismətə malik idi, nə Allah yolunda cihad etmişdi, nə islam mənəviyyatına zərrəcə etiqadı var idi, nə rəftarı mömin rəftarı idi, nə də danışığı müdrik bir şəxsin danışığı idi. Onun heç nədə Peyğəmbərə oxşarlığı yox idi. Belə bir şəraitdə Peyğəmbərin yerində oturmalı olan imam – Hüseyn ibn Əli kimi bir şəxs üçün fürsət yarandı və o ayağa qalxdı.

Əgər biz hadisənin zahiri təhlilinə baxsaq, bu mübarizənin pozğun və insanlara düşmən Yezid hakimiyyətinə qarşı edilən qiyam olduğunu görərik. Amma batində o, islami dəyərlər, agahlıq, iman və izzət üçün edilən mübarizə idi. Onun məqsədi insanların fəsad, xarlıq, alçaqlıq və nadanlıqdan xilas olmasıdır. Buna görə də o həzrət əvvəl Mədinədən çıxanda qardaşı Məhəmməd ibn Hənəfiyyəyə – əslində tarixə – yazdığı məktubda belə buyurur: "**انی لم اخرج اشراً و لا بطراً و لا مفسداً و لا ظالماً**"[1] Mən təkəbbür, məğrurluq və öyünmək üçün, qüdrət meylinə görə və qüdrət teşnəsi olduğum üçün ayağa qalxmamışam. "**انما خرجت لطلب الاصلاح فی امة جدی**"[2] Mən Peyğəmbər ümmətinin vəziyyətinin dəyişdiyini görürəm; hərəkət səhvdir və ümmət tənəzzül istiqamətində hərəkət edir, islamın istədiyinə və Peyğəmbərin gətirdiyinə zidd istiqamətdədir. Mən bunlarla mübarizə etmək üçün bu işə başlamışam.

**İmam Hüseynin (ə) mübarizəsinin iki üzü**

İmam Hüseynin (ə) mübarizəsinin iki üzü və o, iki nəticə verə bilər. Amma hər iki nəticə yaxşıdır. Nəticələrdən biri İmam Hüseynin (ə) Yezidin hökumətinə qalib gəlməsi və hakimiyyəti zorla insanların başını əzən, insanların həyatını məhv edən kəslərin əlindən alması və düzgün səmtə istiqamətləndirməsi ola bilərdi. Əgər bu iş baş versəydi, əlbəttə, yenə də tarix dəyişəcəkdi. Onun digər üzü bu idi ki, İmam Hüseyn hər hansı

[1] Biharul-ənvar, c. 44, s. 329
[2] Biharul-ənvar, c. 44, s. 329

səbəbdən siyasi və hərbi qələbə qazana bilmir. Belə olan halda İmam Hüseyn daha dil ilə deyil, qanı və məzlumluğu – tarixin əbədi olaraq unutmayacağı "dil" – ilə öz sözünü tarixdə davamlı və kəsilməyən bir cərəyan kimi işə salmış olur. İmam Hüseyn bu işi gördü.

Əlbəttə, əgər imandan dəm vuranlar İmam Hüseynə göstərdiklərindən başqa cür hərəkət etsəydilər, birinci hal yaranardı və İmam Hüseyn dünya və axirəti həmin vaxt islah edə bilərdi. Amma səhlənkarlıq etdilər! Əlbəttə, onların nə üçün və necə səhlənkarlıq etməsi çox uzun və acı mövzulardandır. Mən neçə il bundan əvvəl "xüsusi zümrə və ümumi kütlələr" adı altında bu barədə – yəni kimlərin səhlənkarlıq etməsi, günah və təqsirin kimin boynuna düşməsi, onların necə və hansı məqamda səhlənkarlıq etmələri haqda – bir az söhbət etmişəm. Mən indi həmin sözləri bir daha təkrar etmək istəmirəm. Hər halda səhlənkarlıq edildi və başqalarının səhlənkarlığı ucbatından birinci məqsəd hasil olmadı, amma ikinci məqsəd hasil oldu. Bu elə bir şeydir ki, heç bir qüdrət onu İmam Hüseyndən ala bilməz. Şəhidlik meydanına getmək qüdrəti, öz canını və əzizlərinin qurban vermək və o böyük fədakarlıq elə əzəmətlidir ki, düşmən hər nə qədər böyük olsa da bunların müqabilində kiçilir və məhv olur. Bu parlaq günəş islam dünyasında günü-gündən daha çox işıq saçır və bəşəriyyəti əhatə edir.

İslamın və sizin Hüseyn ibn Əliniz bu gün dünyada beş-on əsr bundan əvvəlkindən daha çox tanınır. Bu gün elə bir vəziyyət yaranıb ki, mütəfəkkirlər, ziyalılar və qərəzsiz insanlar islam tarixinə nəzər salanda və İmam Hüseynin başına gələn hadisələri görəndə təzim edirlər. İslamdan başı çıxmayıb azadlıq, ədalət, izzət, ucalıq və insanı dəyərlər məfhumlarını başa düşənlər məsələyə belə baxırlar və İmam Hüseyn azadlıq axtarışı, ədalətsevərlik, pisliklər, çirkinliklər, insanın nadanlıq və xarlığı ilə mübarizədə onların imamıdır[1].

**51.**

## İmamətin bəşəriyyətə töhfəsi: izzət, idrak və bəndəlik

İmamətin mənası: imamət insanlar üçün ilahi izzət yaradan, onlara elm və mərifət verən, onların arasında mülayimlik və mehribanlığı yayan və düşmən qarşısında islam və müsəlmanların əzəmətini qoruyan sistemdir. Lakin səltənət və zalım hökumətlər bunun tam əksidir. Bu gün dünyanın əksər ölkələrində rəhbərlər "padşah" adlandırılmırlar. Amma əslində, onlar padşahdırlar. Onların adı soltan deyil və oralarda demokratiyanın zahiri görüntüləri cərəyan edir, amma batində həmin səltənətdir. Yəni xalqla təkəbbür və etinasızlıqla, özündən yuxarıda olan qüdrətlə isə xarlıqla davranılır. Siz hətta böyük və qüdrətli ölkələrin siyasi rəhbərlərinin şirkət sahiblərinin, gizli beynəlxalq şəbəkələrin, mafiya mərkəzlərinin əlində əsir olmasının şahidi olursunuz. Buna görə də həmin rəhbərlər onlar istəyən kimi danışmaq, inciməmələri üçün onların istədiyi mövqeyi tutmaq məcburiyyətindədirlər. Bu, səltənətdir. "Baş"da zillət və xarlıq olanda özül və "bədən"də də zillət və xarlıq olacaq. İmam Hüseyn buna qarşı çıxıb.

**İmam Hüseynin (ə) qiyamının bütün mərhələlərində izzət və mənəviyyatın təzahür etməsi**

İmam Hüseyn Mədinədən hərəkət edəndə sabahkı gün kimi bir gündə Kərbəlada şəhid olacağı günə kimi onun rəftarında həmin mənəviyyat, izzət, baş ucalığı, eyni zamanda bəndəlik, Allah qarşısında mütləq təslimçilik hiss olunur. Bütün mərhələlərdə də belə olub. O, "biz sənin şiələrinik və səmimi tərəfdarlarınıq Kufə və İraqda səni gözləyirik" məzmunlu yüzlərlə, bəlkə də minlərlə məktub gələndə qürrələnmədi. Xütbə oxuyub "**خط الموت على ولد آدم مخط القلادة فى جيد الفتاة**" "Boyunbağı gənc qadın üçün zinət olduğu kimi, ölüm də Adəm övladı üçün zinətdir"[2] buyuranda, ölüm barədə danışdı. O, "filan-behman edəcəyəm" demədi, düşmənlərini təhdid etmədi, dostlarını Kufədəki vəzifələrin onların arasında bölüşdürəcəyi ilə şirnikləşdirmədi. Agahlıq, bəndəlik və təvazökarlıqla birgə olan müsəlman davranışı özünü bütün əllər ona tərəf uzananda və ona məhəbbət izhar edəndə göstərir. Kərbəlada yüzdən az yoldaşı ilə otuz mindən artıq quldur və baş kəsən tərəfindən mühasirə ediləndə, canı təhdid ediləndə, əzizləri təhdid ediləndə, yanındakı qadınlar əsirliklə hədələnəndə bu ilahi şəxsiyyətdə, bu Allah bəndəsində və islamın bu əziz övladında zərrəcə iztirab müşahidə edilmədi.

**Qəm, kədər və bəla dalğalarının İmam Hüseynin (ə) üzərinə gəlməsinə baxmayaraq, o həzrətin möhkəm dayanması**

---

[1] Tehranın cümə namazının xütbələrindəki çıxışdan. 14.IV.2000

[2] Biharul-ənvar, c. 44, s. 366

Aşura hadisələrini nəql edən və kitablarda dildən-dilə gəzən ravi deyir: "فوالله ما رأيت مكثوراً"[1] Bu ifadədə işlənmiş "مكثور" "məqsur" sözünün mənası qəm-kədər dalğasına düşmüş, övladı ölmüş dostları məhv olmuş, sərvəti əlindən çıxmış, bütün bəlaların hədəfində olan şəxsdir. Ravi deyir ki, mən heç kəsi dörd bəla dalğasında Hüseyn ibn Əli kimi möhkəm qəlbli və sarsılmaz görmədim. "اربط جاشا" Adam müxtəlif döyüş meydanlarında, ictimai meydanlarda və siyasət aləmində müxtəlif şəxslərlə rastlaşır, müxtəlif qəmlərə düşmüş adamlar görür. Ravi deyir ki, mən heç vaxt heç kəsin belə bir vaxtda bütün bu müsibətlərə baxmayaraq, Hüseyn ibn Əli kimi gülərüz, qətiyyətli, əzmkar, iradəli və Allaha təvəkkül etdiyini görməmişəm. Bu həmin ilahi izzətdir. Bu cərəyanı tarixdə İmam Hüseyn qoydu və bəşəriyyət başa düşdü ki, belə bir hökumət və cəmiyyət – alçaqlıq, nadanlıq, insanın köləliyi və ayrı-seçkiliyin mövcud olmadığı bir cəmiyyət – qurmaq üçün mübarizə aparmaq lazımdır. Hamı gərək belə bir cəmiyyət qurmaq üçün cihad etsin. (əgər hamı çalışsa, belə bir cəmiyyət) yaranar və bu mümkündür...

**"İrşad" və "Lühuf" kitablarına əsasən, həzrət Əbülfəzlin (ə) "zikri-müsibət"i**

Mən bu gün bir neçə kəlmə "zikri-müsibət" demək istəyirəm. Əlbəttə, siz xütbələrdən qabaq da burada olmusunuz və rövzə deyilib, eşitmisiniz. Bu günlər bütün məclislərdə rövzə deyilir. Bu gün Tasua günüdür və adətən bu gün xətib və növhəxanlar həzrət Əbülfəzlin şəhid olması barədə rövzə oxuyurlar. Əldə olan dəlillərdən belə məlum olur ki, həzrət Əbülfəzl, altı aylıq körpə və on bir yaşlı uşağı çıxmaq şərti ilə, döyüşən kişilər arasında İmam Hüseyndən (ə) qabaq şəhid olan son şəxsdir. O, böyük bir əməl yolunda, yəni İmam Hüseynin xeymələrində olan susuzlara su gətirmək yolunda şəhid olub. İmamlardan (ə) Əbülfəzl barəsində nəql edilmiş ziyarətnamə və kəlamlarda iki məqama təkid edilib: onlardan biri bəsirət, digəri isə vəfalılıqdır. Əbülfəzl Abbasın bəsirəti nədədir? İmam Hüseynin bütün səhabələri bəsirət sahibi olublar, amma o öz bəsirətini daha çox büruzə verib. Bugünkü Tasua günü kimi bir gün, günortadan sonra onun özünü bu bəladan xilas etməsi üçün bir fürsət yarandı. Yəni gəlib ona təslim olmaq və aman istəmək təklifi verdilər və dedilər ki, biz sənə aman veririk. Amma o, elə mərd hərəkət etdi ki, düşməni peşman etdi. O dedi: "Mən Hüseyndən ayrılım?! Vay olsun sizə! Siz də rədd olun, sizin aman məktubunuz da!"[2] Həzrət Əbülfəzlin bəsirətinin digər bir nümunəsi onun öz yanında olan üç qardaşını vuruşmaq üçün özündən qabaq meydana göndərməsi idi. Onlar da gedib vuruşdular və şəhid oldular. Bildiyiniz kimi, onlar bir anadan dörd qardaş olublar: Əbülfəzl Abbas – böyük qardaş – Cəfər, Abdullah və Osman. İnsanın öz qardaşlarını öz gözü qarşısında Hüseyn ibn Əliyə qurban verməsi, "anamın könlü xoş olsun deyə qardaşlardan biri onun yanına getsin" deyib qəlbi dağlanmış anasını fikirləşməməsi, özünün Mədinədə olan körpə balalarını düşünməməsi həmin bəsirətdir. Həzrət Əbülfəzl Abbasın vəfalılığı da özünü hər yerdən çox Fərat çayına daxil olub orada su içməməsi hadisəsində göstərir. Əlbəttə, bütün dillərdə dolaşan məşhur hədisdə deyilir ki, İmam Hüseyn (ə) həzrət Əbülfəzli su gətirmək üçün göndərib. Amma mənim mötəbər mənbələrdə – şeyx Müfidin "İrşad" və ibn Tavusun "Lühuf" kitablarında – gördüyüm hədis həmin məşhur hədisdən bir az fərqlənir və bəlkə, hadisənin əhəmiyyətini də artırır. Bu mötəbər kitablarda belə nəql edilir ki, o son an və saatlarda susuzluq uşaq və körpələri, kiçik qızlar və qadınları çox sıxdı və İmam Hüseyn (ə) özü həzrət Əbülfəzl ilə birlikdə su dalınca getdi. Əbülfəzl tək getmədi, İmam Hüseyn özü də Əbülfəzl ilə bir yerdə hərəkət etdi və onlar Fərat çayının həmin ərazidən axan qoluna tərəf getdilər ki, bəlkə, su gətirə bildilər. Bu iki şücaətli və güclü qardaş kürək-kürəyə verib meydanda vuruşdular. Onların biri altmışa yaxın yaşı olan, amma güc və şücaət baxımından misilsiz olan İmam Hüseyndir, digəri isə otuz neçə yaşı olan və hamının tanıdığı xüsusiyyətlərə malik gənc qardaş Əbülfəzl Abbas. Bu iki qardaş gah çiyin-çiyinə, gah kürək-kürəyə verib düşmən dəryasının içində qoşunun sıralarını yarırdılar ki, bəlkə, özlərini Fərata çatdıra və su gətirə bildilər. Bu ağır döyüş əsnasında birdən İmam Hüseyn düşmənin onunla qardaşı arasında fasilə yaratdığını hiss edir. Həmin qatma-qarışıqlıqda həzrət Əbülfəzl suya yaxınlaşır və özünü Fərata çatdırır. Nəql edilənlərə əsasən, o, su tuluğunu doldurur ki, xeymələrə aparsın. Burada hər bir insan özünə bir ovuc su içmək haqqı verər. Lakin Əbülfəzl burada öz vəfalılığını göstərir. Əbülfəzl Abbas ovucuna su götürür və gözü suya sataşanda "فذكر عطش الحسين" "Hüseynin susuzluğunu xatırlayır". Yadına İmam Hüseynin susuz dodaqları, bəlkə də, qızların və körpələrin "əl-ətəş" fəryadları, bəlkə də, Əli Əsgərin susuz ağlamaq səsləri düşür və su içməyə ürəyi gəlmir. Ovcundakı suyu çaya boşaldıb oradan çıxır. Çölə çıxandan sonra həmin hadisələr baş verir və İmam Hüseyn (ə) birdən qoşunun ortasından uca səslə "يا اخا ادرك اخاك" "Ey qardaş, qardaşının dadına çat!" deyən qardaşının səsini eşidir[3].

---

[1] Biharul-ənvar, c. 45, s. 50
[2] İrşad, c. 2, s. 89
[3] Tehranın cümə namazının xütbələrindəki çıxışdan. 14.IV.2000

## 52.

## Peyğəmbərlərin ən mühüm işi batil hakimiyyətlərlə mübarizə olub

**Hökmranlıq günah və təqvasızlığın ən çox təzahür etdiyi meydandır**

Bəşəriyyət ən çox xəta, günahkarlıq və təqvasızlığı hökmranlıq meydanında göstərib. İnsanlara hakim olan və başçılıq edən şəxslər tərəfindən baş verən günahlar adi şəxslərin çox böyük günahları ilə müqayisə edilə bilməz. Bəşəriyyət bu sahədə ağıl, əxlaq və hikmətdən az yararlanıb. İnsan həyatının bu sahəsinə məntiq digər sahələrdən az hakim olub. Bu ağılsızlıq, məntiqsizlik, fəsad və günaha aludəliyin ziyanı ümumi xalq kütləsinə – bəzən bir cəmiyyətin üzvlərinə, bəzən isə müxtəlif cəmiyyətlərin üzvlərinə – dəyib. Bu hökumətlər əvvəl fərdi istibdad formasında olublar. Sonra bəşər cəmiyyətində baş verən dəyişiklik və kollektiv və mütəşəkkil istibdad formasına düşüb. Buna görə də böyük ilahi peyğəmbərlərin ən mühüm vəzifəsi batil hakimiyyətlər və Allahın nemətlərini zay edən kəslərlə mübarizə olub: "وَ إِذَا تَوَلَّى سَعَى فِي الْأَرْضِ لِيُفْسِدَ فِيهَا وَ يُهْلِکَ الْحَرْثَ وَ النَّسْلَ"[1] Quran ayəsi bu pozğun hökumətlər barəsində belə sarsıdıcı ifadə işlədir və onların fəsadı dünyanın hər yerinə yaymaq istədiklərini deyir. " أَ لَمْ تَرَ إِلَى الَّذِينَ بَدَّلُوا نِعْمَةَ اللهِ كُفْراً وَ أَحَلُّوا قَوْمَهُمْ دَارَ الْبَوَارِ جَهَنَّمَ يَصْلَوْنَهَا وَ بِئْسَ الْقَرَارُ"[2] Onlar ilahi, insani və təbii nemətləri nankorluğa çeviriblər və həmin nemətlərdən bəhrələnməli olan şəxsləri öz nankorluqları nəticəsində yaratdıqları yanar cəhənnəmdə yandırıb kabab ediblər. Peyğəmbərlər bunların qarşısında dayanıblar. Əgər peyğəmbərlər dünyanın batil hakimiyyətləri ilə tarixin azğınları ilə çarpışmasaydılar, müharibə və keşməkeşə ehtiyac olmazdı. Quran buyurur: "وَ كَأَيِّنْ مِنْ نَبِيٍّ قَاتَلَ مَعَهُ رِبِّيُّونَ كَثِيرٌ"[3] Nə çox peyğəmbərlər möminlərlə birlikdə vuruşublar. Bu müharibə kimə qarşı olub? Peyğəmbərlərin vuruşduğu qarşı tərəf həmin pozğun hökumətlər, tarixin bəşəriyyəti bədbəxt və məhv edən dağıdıcı və azğın qüvvələri olublar.

**İlahi peyğəmbərlərin azadlıq hərəkatı**

Peyğəmbərlər insanların xilaskarıdırlar. Buna görə də ədalətin bərqərar edilməsi Quranda peyğəmbərliyin böyük hədəflərindən biri kimi təqdim edilmişdir: " لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ وَ أَنْزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَ الْمِيزَانَ لِيَقُومَ النَّاسُ بِالْقِسْطِ"[4] Ümumiyyətlə, ilahi kitabların nazil edilməsi və peyğəmbərin göndərilməsi cəmiyyətlərdə ədalət və insafın hakim olması, yəni zülm, zorakılıq və fəsad nişanələrinin aradan getməsi üçündür. İmam Hüseynin (ə) hərəkatı da belə bir hərəkat idi. O həzrət buyurub: "انما خرجت لطب الاصلاح فی امة جدی" Mən cəddimin ümmətində islahat aparmaq üçün yola çıxmışam.[5] Həmçinin buyurub: əgər kimsə fəsad və zülm ocağını görsə və ona laqeyd qalsa, Allah yanında onunla eyni taleyi yaşayacaq. Buyurur: Mən itaətsizlik və fironluq etmək üçün hərəkət etməmişəm. İraq əhalisi İmam Hüseyni (ə) dəvət etmişdi ki, ora getsin və orada hökmranlıq etsin. İmam da həmin dəvətə müsbət cavab verdi. Yəni İmam Hüseyn (ə) hakimiyyətə gəlmək fikrindən uzaq deyildi. İmam Hüseyn (ə) batil qüvvələri məhv etmək – istər hakimiyyətə gəlməklə olsun, istər şəhid olmaq və qanını qurban verməklə – istəyirdi.

İmam Hüseyn (ə) bu hərəkəti etməyəcəyi təqdirdə onun vəziyyəti təsdiqləməsinin, onun bu sükutunun islamın başına nə gətirəcəyini bilirdi. Əgər hər hansı bir qüdrət sahibi cəmiyyətlərin və ya bir cəmiyyətin bütün imkanlarını ələ alıb azğınlıq edərək irəliləyəndə haqq əhli və iddiaçıları onun qarşısında dayanmasalar və onun hərəkətinin qarşısını almasalar, bu əməlləri ilə onun hərəkətlərini təsdiqləmiş olurlar. Yəni zülm haqq əhli tərəfindən özləri istəmədən belə təsdiqlənir. Həmin vaxt böyük şəxsiyyətlər, Bəni-Haşimin əsilzadələri, islamın ilk dövrlərinin öndə gedən simalarının övladları belə bir günaha düçar oldular. İmam Hüseyn buna dözmürdü. Buna görə də mübarizəyə qalxdı.

**İmam Səccadın (ə) bir nəfərin sözünə qətiyyətli cavabı**

---

[1] Bəqərə surəsi, ayə 205: "Üz döndərən (və ya iş başına keçən) zaman isə yer üzündə fəsad törətmək, əkin sahələrini və nəsli məhv etmək üçün çalışar".

[2] İbrahim surəsi, ayə 28-29: "Məgər Allahın nemətlərini (nemətlərin şükrünü) nankorluğa dəyişənlərin və öz qövmlərini həlakət diyarına salanların halına baxmadın?! Daxil olacaqları, toxunaraq hərarətini duyacaqları və yanacaqları Cəhənnəmə! Ora pis bir məskəndir".

[3] Ali-İmran surəsi, ayə 146: "Nə çox peyğəmbərlər ki, onlarla birlikdə çoxlu kütlələr vuruşmuşlar".

[4] Hədid surəsi, ayə 25: "Şübhəsiz, biz öz peyğəmbərlərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə insanların ədalət və insafa əməl etmələri üçün kitab və ölçü vasitələri nazil etdik".

[5] Biharul-ənvar, c. 44, s. 329

Nəql edirlər ki, imam Səccad (ə) Aşura hadisəsindən sonra Mədinəyə qayıdanda – bəlkə də, bu karvanın Mədinədən çıxıb yenidən ora qayıtması arasında təxminən on, on bir ay fasilə olmuşdu – bir nəfər o həzrətin yanına gəlib deyir: "Ey Peyğəmbər balası, gördün, getdiniz nə oldu?!" Düz də deyirdi. Bu karvan gedəndə onun başında Əhli-beytin parlaq günəşi, Peyğəmbər balası, Peyğəmbərin qəlbinin sevimlisi Hüseyn ibn Əli (ə) dururdu, Əmirəl-mömininin qızı izzət və baş ucalığı ilə getmişdi, Əmirəl-mömininin övladları – Abbas və başqaları, İmam Hüseynin, İmam Həsənin övladları, Bəni-Haşimin məşhur, seçilmiş və adlı-sanlı gəncləri var idi onların arasında. İndi həmin karvan qayıdıb və onların arasında ancaq bir kişi – İmam Səccad (ə) – var. Qadınlar əsirlik əzabı və məşəqqət çəkiblər, dağ görüblər. İmam Hüseyn yox idi, Əli Əkbər yox idi, hətta karvanda südəmər körpə yox idi. İmam Səccad həmin şəxsin cavabında belə buyurdu: "Fikirləş, gör əgər getməsəydik, nə olacaqdı?" Bəli, əgər getməsəydilər, cisimlər sağ qalacaqdı, amma həqiqət məhv olacaqdı, ruh əriyəcəkdi, vicdanlar tapdanacaqdı, ağıl və məntiq tarix boyu məhkum ediləcəkdi, islamın hətta adı da qalmayacaqdı[1].

**53.**

## İzzət və iftixar qazanmağın yolu İmam Hüseynin (ə) mənəviyyatına üz tutmaqdır

Hüseyn ibn Əli (ə) həm dünyanın maddi quruluşunda əsir olan bizim gözümüzdə, həm də qeyb aləminin nicat tapmışları üçün gerçək izzət nümunəsi və həqiqi iftixarın kamil simvoludur.

Ümid edirik ki, əziz xalqımız Hüseyn ibn Əlinin (ə) mənəviyyatına üz tutmaqla və o həzrəti daha yaxşı tanımaqla izzət, iftixar və baş ucalığı əldə edəcək. Allaha şükür olsun ki, xalqımız o həzrətin bərəkətindən, islam və Quranın bərəkətindən mənəvi izzət və iftixara malik olub və bu gün də malikdir[2].

**54.**

## İmam Hüseynin (ə) əzəmətli hərəkatının hər üç cəhətində hiss edilən izzət və iftixar

Bu il "Hüseyn izzəti və iftixarı" ilidir. Bu, necə izzətdir? Bu iftixar nə ilə fəxr etməkdir? Hüseyn ibn Əlinin hərəkatı ilə tanışlığı olan kəs bu izzətin necə izzət olduğunu bilir. İmam Hüseynin tarixdə bu cür yaşayan bu əzəmətli hərəkatına üç cəhətdən və üç baxışdan yanaşmaq olar. Hər üç cəhətdə insanın diqqətini hər şeydən çox özünə cəlb edən şey izzət, baş ucalığı və iftixar hissidir.

**İmam Hüseyn (ə) hərəkatının üç cəhəti**

**1. Güclü batil müqabilində haqqın mübarizəsi**

Həmin cəhətlərdən biri güclü batil müqabilində haqqın mübarizəsidir ki, İmam Hüseyn (ə) və onun inqilabı və islahat məqsədli hərəkatı bunu edib. Digər bir cəhət Hüseyn ibn Əlinin hərəkatında mənəviyyat və əxlaqın təzahür etməsidir. Bu hərəkatda bir mübarizə sahəsi də var ki, o, məsələnin ictimai və siyasi cəhətindən, inqilabı hərəkətdən, haqq ilə batilin aşkar mübarizəsindən ayrıdır və o, insanların nəfs və batinlərindən ibarətdir. İnsanın vücudunda zəiflik, tamah, xarlıq, şəhvət və nəfsi istəklərin onu böyük addımlar atmaqdan saxladığı yer döyüş meydanıdır və özü də çox ağır bir döyüş. Ora mömin və fədakar kişi və qadınların Hüseyn ibn Əlinin, arxasınca düşdükləri, məsuliyyət hissi müqabilində dünya və onda olanların, ləzzət və dünyanın gözəlliklərinin onların közündən düşdüyü yerdir. Onlar batinlərində təcəssüm edən və parlayan mənəviyyatın şeytanın qoşununa – hədislərdə "ağlın qoşunu" və "nadanlığın qoşunu" deyilən həmin qoşunlar – qalib gəldiyi və tarixdə nümunəvi, ülvi və böyük insanlar kimi əbədiləşən kəslərdir. Onun üçüncü cəhəti insanlar arasında daha çox yayılıb və o, Aşuranın faciə, müsibət və qüssə, qəm və kədərlərindən ibarətdir. Lakin bu üçüncü səhnədə də izzət və iftixar var. Diqqət, fikir və düşüncə əhli olan şəxslər gərək hər üç cəhətə diqqət etsinlər.

İmam Hüseynin (ə) inqilabi hərəkət yaratdığı o birinci cəhət izzət və iftixar təzahürü idi. Hüseyn ibn Əlinin (ə) qarşı tərəfi kim idi? Zalım, pozğun və pis əməl sahibi olan "**يعمل فى عباد الله بالاثم و العدوان**" "Allah bəndələri ilə günah və düşmənliklə davranan" hökumət. Onun əsas göstəricisi hökmranlığı altında olan cəmiyyətdə Allah bəndələri və insanlarla zülm, düşmənlik, məğrurluq, təkəbbür, lovğalıq və eqoistliklə davranması idi. Bu, həmin hökumətin əsas xüsusiyyəti idi. Onlar üçün əsla əhəmiyyət daşımayan şey mənəviyyat və insanların hüquqlarına riayət etmək idi. Onlar islam hökumətini islamdan qabaq və müxtəlif dövrlərdə dünyada mövcud olan batil hökumətə çevirmişdilər. Halbuki islami quruluşun ən bariz xüsusiyyəti

[1] İran İslam Respublikasının məsul şəxsləri və dövlət məmurları ilə görüşdəki çıxışdan. 18.III.2002
[2] Yeni günəş ilinin başlanması münasibəti ilə olan novruz təbriki çıxışından. 21.III.2002

hökumətdir. İslamın qurmaq istədiyi ideal cəmiyyətin ən mühüm hissəsi hökumətin forması və hakimin rəftarıdır.

Həmin dövrün böyüklərinin dili ilə desək, imaməti səltənətə çevirmişdilər. İmamətin mənası din və dünya karvanına rəhbərlikdir. Hamının eyni səmtə və eyni uca hədəfə doğru hərəkət etdiyi karvanda bir nəfər başqalarının istiqamətləndirir və kimsə itəndə onun əlindən tutub geri qaytarır, kimsə yorulanda onu yolu davam etdirməyə təşviq edir, kiminsə ayağı yaralananda, onun ayağını sarıyır, hamıya mənəvi və maddi kömək edir. İslam terminologiyasında bunun adı imamdır – hidayət imamıdır və səltənət bunun əksidir. İrsi padşahlıq mənasında olan səltənət səltənətin sadəcə bir növüdür. Buna görə də dünyada bəzi soltanların adı soltan deyil, amma batinləri insanlara hakim olmaq və zor tətbiq etməkdir. Kim tarixin hər hansı bir dövründə – adının nə olmasından asılı olmayaraq – öz millətinə və başqa millətlərə qarşı zor işlədirsə, bu, səltənətdir. Əgər hansı bir dövlətin prezidenti – imperialist dövlətlər bütün zamanlarda mövcud olub və bu gün onun nümunəsi ABŞ-dır – heç bir əxlaqi, elmi və hüquqi haqqı olmadan öz mənafeyini və onu himayə edən şirkətlərin maraqlarını milyonlarla insanın mənafeyindən üstün tutursa və dünya xalqları üçün vəzifə müəyyənləşdirirsə, bu, adının soltan olub-olmamasından asılı olmayaraq səltənətdir.

İmam Hüseynin (ə) zamanında islam imamətini belə bir şeyə çevirmişdilər: "Allah bəndələri ilə günah və düşmənliklə davranılırdı". İmam Hüseyn (ə) belə bir vəziyyətlə mübarizə aparırdı. Onun mübarizəsi – istər Yezidin vaxtında olsun, istər ondan qabaq – (həqiqətləri) bəyan etmək, (zehinlərə) aydınlıq gətirmək, hidayət etmək və haqq ilə batilin sərhədlərini müəyyənləşdirmək idi. Lakin Yezidin zamanında başqa şey də çıxdı və əlavə olundu. Belə ki, o zalım, azğın və sapqın rəhbər bu hidayət imamının onun hakimiyyətini təsdiqləməsini umurdu. Beyətin mənası budur. Yezid istəyirdi ki, İmam Hüseyni (ə) məcbur etsin və o həzrət camaatı doğru yolu istiqamətləndirmək və camaatı o zalım hökumətin azğınlığını izah etmək əvəzinə, bu zalımın hökumətini təsdiqləsin. İmam Hüseynin (ə) açıq mübarizəsi buradan başladı. Əgər Yezidin hökuməti belə bir yersiz və axmaq istək irəli sürməsəydi, ola bilərdi ki, İmam Hüseyn Müaviyənin zamanındakı və özündən sonrakı imamlar kimi hidayət bayrağı ucaltsın, camaata doğru yolu göstərməklə məşğul olsun və həqiqətləri desin. Amma Yezid nadanlıq, təkəbbür üzündən və bütün fəzilət və insani mənəviyyatdan uzaq olduğu üçün bir addım da qabağa getdi və İmam Hüseynin (ə) islam imamətinin batil səltənətə çevrilməsi barədəki "qara məktubu" imzalamasını, yəni beyət etməsini istədi. İmam Hüseyn buyurdu: "**مثلی لا یبایع مثله**" "Mənim kimisi onun kimisinə beyət etməz". Hüseyn belə bir şeyi imzalamaz. İmam Hüseyn (ə) əbədi olaraq haqq bayrağı kimi qalmalıdır. Haqq bayrağı batilin cərgəsində dura və onun rənginə boyana bilməz. Buna görə də İmam Hüseyn (ə) buyurub: "**هيهات من الذلة**" "Zillət bizdən uzaqdır". İmam Hüseynin hərəkəti izzət hərəkəti idi, yəni haqqın, dinin, imamətin və Peyğəmbərin təqdim etdiyi yolun izzəti idi. İmam Hüseyn (ə) izzət təzahürü idi və sözünün üstündə dayandığı üçün həm də iftixar və öyünmə mənbəyidir. Bu, Hüseyn izzəti və iftixarıdır. Bəzən biri bir söz deyir, sözü deyib məqsədini açıqlayır, amma həmin sözün üstündə dayanmır və geri çəkilir. Bu, daha iftixar mənbəyi ola bilməz. İftixar, sözünün üstündə duran, qaldırdığı bayrağın tufanlar tərəfindən məhv edilməsinə və endirilməsinə imkan verməyən insan, xalq və topluma aiddir. İmam Hüseyn (ə) bu bayrağı möhkəm saxladı və əzizlərinin şəhid olması və ailəsinin əsir götürülməsinə kimi onun üstündə dayandı. İnqilabi hərəkət baxımından izzət və iftixar budur.

### 2. Əxlaqi rəzillik müqabilində mənəviyyat və fəzilətlərin təzahürü

Məsələ mənəviyyatın təzahürü baxımından da elədir. Mən bunu dəfələrlə demişəm. Çoxları İmam Hüseynə (ə) müraciət edir və o həzrəti həmin müqavimətinə görə məzəmmət edirdilər. Onlar pis və ya balaca adamlar deyildilər. Onların bəzisi islamın böyük şəxsiyyətləri idilər, amma məsələni pis başa düşmüşdülər və insan zəifliyi onlara qalib gəlmişdi. Buna görə də Hüseyn ibn Əlini də həmin zəifliklərə məğlub etmək istəyirdilər. Lakin İmam Hüseyn (ə) səbir etdi və məğlub olmadı və İmam Hüseynlə bir yerdə olanların hamısı ayrı-ayrılıqda bu mənəvi və batini mübarizədə qalib gəldilər. Öz cavan balasını fəxrlə və könül xoşluğu ilə meydana göndərən ana, həyatın zahiri ləzzətlərindən vaz keçib özünü cihad və mübarizə meydanına təslim edən gənc, Həbib ibn Məzahir və Müslim ibn Ausəcə kimi ahıllıq dövrünün rahatlığından, evlərinin isti və yumşaq yatağından keçib özlərini çətinliklərə salan qocalar, düşmənlərin arasında xüsusi məqamı olan və həmin məqamdan vaz keçib Hüseyn ibn Əliyə qoşulan o şücaətli qoşun başçısı – Hürr ibn Yezid Riyahi – (bir sözlə) onların hamısı batini və mənəvi mübarizədə qalib gəldilər.

### İslam döyüşçülərinin müqəddəs müdafiə meydanında mənəviyyatın rəzilətə qalib gəlməsi

Əxlaqi fəzilətlərlə rəzilətlər arasındakı mənəvi mübarizədə qalib gələn və aqil qoşunu ilə nadanlıq qoşunu arasındakı qarşıdurmada ağıl qoşununu nadanlıq qoşununa qalib edə bilən kəslərin sayı az idi. Lakin onların

həmin şərəf meydanında müqavimət göstərməyə əzmkarlıqla davam etmələri tarix boyu minlərlə insanın ondan dərs almasına və həmin yolu getməsinə səbəb olub. Əgər onlar öz vücudlarında fəziləti rəzilətə qalib etməsəydilər, tarixdə fəzilət ağacı quruyardı. Lakin onlar o ağacı suladılar. Siz öz zəmanənizdə öz batinlərində fəziləti rəzilətə qalib edən, nəfsi istəkləri düzgün dini və əqli hiss, baxış və təfəkkürə məğlub edən çoxlarını gördünüz... Sizin müqavimətiniz – istər müqəddəs müdafiədə, istərsə də ölkənin digər böyük sınaqlarında – bizim zəmanəmizdə bu fəzilətləri qeyd edib. Bizim zəmanəmiz əlaqələrin yaxın olduğu zamandır. Əlaqələrin yaxın olması heç də həmişə şeytanın və şeytanlığın xeyrinə deyil. Mənəviyyat və dəyərlərin də xeyrinədir. Dünya əhalisi sizdən çox şey öyrənib. Fələstində öz cavan oğlunun üzündən öpüb onu döyüş meydanına göndərən ana onun bir nümunəsidir. Fələstində qadın, kişi, qoca, cavan həmişə olub. Amma bir sıra zəifliklər səbəbində və mənəvi mübarizə meydanında ağıl qoşunu nadanlıq qoşununa qalib gələ bilmədiyi üçün Fələstin zillətə düçar oldu, bu vəziyyətə düşdü və düşmənlər ona hakim oldular. Lakin bu gün Fələstinin vəziyyəti başqa cürdür. Bu gün Fələstin ayağa qalxıb, Fələstin xalqı – həm qadın, həm də kişilər – öz daxilindəki mənəvi mübarizədə mənəviyyatı qalib edə bilib. Bu xalq qalib gələcək.

**3. Aşura səhnəsində izzət və baş ucalığı**

Aşuranın faciə yaradan səhnələrindən ibarət üçüncü səhnəsində də izzət nişanələri müşahidə edilir, orada da baş ucalığı və iftixar mövcuddur. Orada müsibət və şəhidlik olsa da, Bəni-Haşim gənclərinin, İmam Hüseynin (ə) yanındakı uşaq, körpə və yaşlı səhabələrin hər birinin şəhid olması böyük müsibət və sinəyə çəkilən dağ olsa da, onların hər biri həm də bir izzət və iftixar çöhrəsi daşıyıcısıdır.

Burada toplaşanların çoxu gənclərdir. Bu "Dokuhə" hərbi hissəsinə də on və yüz minlərlə gənc gəlib-gedir. Kərbəlada fədakar gənc nümunəsi kimdir? Əli Əkbər – İmam Hüseynin (ə) oğlu, Bəni-Hişim gənclərinin arasında seçilən və nümunəvi gənc, zahiri və batini gözəlliklərə bir yerdə malik olan gənc, Hüseyn ibn Əlinin (ə) imamət və vilayətini şücaət, fədakarlıq və düşmənlə mübarizə hazırlığı ilə birlikdə dərk edən və öz güc, təravət və cavanlığını öz uca hədəf və amallarına sərf edən gənc! Bu, çox dəyərlidir. Bu qeyri-adi və görkəmli gənc meydana düşmənlə vuruşmağa gedir və atasının, ondan nigaran olan qadınların gözü qarşısında cəsədi qana bulaşmış halda xeymələrə gəlir. Bu müsibət kiçik şey deyil. Lakin onun meydana tərəf hərəkət etməsi və mübarizəyə hazır olması hər hansı bir müsəlman üçün izzət, alicənablıq, iftixar və öyünmə amilidir. Buna görə də Allah-taala buyurur: "وَ لِلّٰهِ الْعِزَّةُ وَ لِرَسُولِهِ وَ لِلْمُؤْمِنِينَ"[1] Hüseyn ibn Əli (ə) də öz növbəsində bu gənci döyüş meydanına göndərməklə mənəvi izzət nümayiş etdirdi. Yəni o, islamın islam imaməti ilə batil səltənət sərhədlərini müəyyənləşdirən izzət və hakimiyyət bayrağını hətta əziz cavan balasının canı bahasına olsa belə, möhkəm saxlayır.

**Həzrət Əli Əkbərin (ə) məsuliyyətlilik xüsusiyyəti**

Eşitmisiniz – bu günlərdə dəfələrlə təkrar edilib – ki, İmam Hüseynin (ə) səhabələrinin hər biri döyüş meydanına getmək və mübarizə aparmaq üçün icazə alırdılar və imam dərhal icazə vermirdi. O həzrət bəzilərinə mane olur, bəzilərinə, ümumiyyətlə, Kərbəladan çıxıb getməsini tövsiyə edirdi. O, Bəni-Haşim cavanları və öz səhabələri ilə belə davranırdı. Lakin sevimli gənc balası və əziz övladı Əli Əkbər meydana getmək üçün icazə istəyəndə bir an belə duruxmadan ona icazə verdi. Oğulun mərifət və atanın məqamının əzəmətini buradan başa düşmək mümkündür.

Nə qədər ki, səhabələr sağ idilər, onlar "canımızı sizə fəda edərik" deyir və Bəni-Haşimdən – Əmirəl-möminin, İmam Həsən və İmam Hüseynin övladlarından – kiminsə döyüş meydanına getməsinə icazə vermirdilər. Onlar deyirdilər ki, qoyun, əvvəl biz gedək ölək, əgər biz öləndən sonra istəsəniz, onda gedərsiniz. Canı qurban vermək və şəhid olmaq növbəsi Bəni-Haşimə çatanda meydana getmək üçün ilk icazəni həmin məsuliyyətli gənc istəyib. O, Əli Əkbər, imamın oğlu və imamı hamıdan yaxın şəxs idi və demək, fədakarlıq etməyə da hamıdan layiq idi. Bu da islam imamətinin başqa bir təzahürüdür. Bura dünya, maddi maraq, iqtisadi xeyir və nəfsi istəklərin bölüşdürüldüyü yer deyil, burada mübarizə və çətinlik var. İlk könüllü Əli ibn Hüseyn – Əli Əkbərdir. Bu hərəkət bu gəncin mərifətini göstərir və İmam Hüseyn də bu iş müqabilində ruhi əzəmətini nümayiş etdirir və o, icazə istəyən kimi ona meydana getmək icazəsi verir.

**İnsanın icraçılıq səlahiyyəti hər nə qədər çox olsa, onun eqoistliyi də bir o qədər çox təhlükəli olur**

Bunlar bizim üçün dərs – tarixin əbədi dərsləri və bəşəriyyətin bu gün və sabah ehtiyac duyduğu şeylərdir. İnsana eqoistlik hakim olanda onun icraçılıq səlahiyyəti hər nə qədər çox olsa, bir o qədər təhlükəlidir. Nə qədər ki, insana nəfsi istəklər hakimdir və o, hər şeyi özü üçün istəyir, gücü çox olduqca o daha təhlükəli, daha

[1] Munafiqun surəsi, ayə 8: "İzzət Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur".

yırtıcı və daha vəhşi olur. Siz bunun nümunələrini dünyada görürsünüz. İslamın hünəri ondadır ki, o, ən azı, bəzi mərhələlərdə imtahan vermiş və imtahandan müvəffəqiyyətlə keçmiş şəxslərə qüdrət nərdivanı ilə yuxarı qalxmaq icazəsi verir. İslamın məsuliyyətlər üçün qoyduğu şərt bu nəfsi istəklərin çoxundan çıxmaqdır. Biz məsul şəxslər özümüz barədə hamıdan çox diqqətli olmalıyıq, öz əl, dil, fikir, göz və əməlimizi hamıdan çox nəzarətdə saxlamalıyıq. Təqva hamıdan çox bizə lazımdır. Hər hansı bir insana təqvasızlıq hakim olanda, onun qüdrəti hər nə qədər çox olsa, bəşəriyyət üçün təhlükəsi də bir o qədər çox olur. Atom bombasının düyməsinin insanların canı və xalqların hüquqlarını mühüm hesab etməyən, nəfsi istəklərdən çəkinməyi bir imtiyaz və dəyər saymayan birinin əlində olması bəşəriyyət üçün təhlükəlidir. Bu gün dünyada atom enerjisi və kütləvi qırğın silahlarına malik olanlar öz nəfs və hislərinə hakim olmalıdırlar. Lakin, təəssüf ki, bu belə deyil. İslam bunları təbliğ edir və hegemon güclərin islamla düşmənliyinin də səbəbi budur[1].

**55.**

## Hüseyn ibn Əlinin (ə) yolu islam ümmətinin islami hədəflərə doğru hərəkət bayrağıdır

**Həzrət Zeynəb (ə) və İmam Səccadın (ə) İmam Hüseynin (ə) hədəflərini qorumaq və təbliğ etmək istiqamətindəki səyləri**

Şəhidlik və fədakarlıq məsələləri köhnələn deyil. Bu, cəmiyyəti hərəkətə gətirən mühərrikdir. Bəziləri bunu unudurlar. Siz bəzilərinin öz söz, qələm və hərəkətləri ilə fədakarlıq və şəhidlik məsələlərinə mənfi və nalayiq tərzdə yanaşmalarının şahidi olursunuz. Bunun səbəbi onların qəflətidir. Onlar şəhidlərin və fədakarlıq etmiş şəxslərin ehtiramının qorunmasının hər hansı bir cəmiyyət, millət və ölkə üçün nə qədər mühüm olduğunu dərk etmirlər. Siz fikir verin, Hüseyn ibn Əlinin (ə) pak qanı Kərbəlada qəribcəsinə töküldü. Lakin İmam Səccad (ə) və Zeynəbi-kübranın (ə) öhdəsinə düşən ən böyük məsuliyyət bu xəbəri ilk andan əlləri üzərində saxlamaq və onu müxtəlif şəkillərdə bütün islam dünyasına çatdırmaq idi. Həqiqi dinin və Hüseyn ibn Əlinin (ə) dininin dirçəldilməsi üçün və yolunda İmam Hüseynin şəhid olduğu hədəfə görə bu işin görülməsi vacib və zəruri idi. Əlbəttə, İmam Hüseynin ilahi mükafatı öz yerində idi və onlar bunun üzərindən sükut ilə də keçə bilərdilər. Amma nə üçün İmam Səccad (ə) ömrünün sonuna kimi – İmam Səccad (ə) həmin hadisədən sonra otuz il yaşayıb – hər bəhanə ilə Hüseynin adını, qanını, şəhid olmasını dilə gətirir, onu camaatın yadına salırdı? Bu səylər nə məqsəd daşıyırdı? Bəziləri elə bilirlər ki, bu, Bəni-Üməyyədən intiqam almaq məqsədi daşıyıb. Halbuki Bəni-Üməyyə sonralar aradan getmişdi. İmam Rza (ə) ki, Bəni-Abbasın iş başına gəlməsindən sonra olub. Bəs nə üçün Rəyyan ibn Şəbibə İmam Hüseynin müsibətnaməsini öz aralarında oxumaq göstərişi verir? Onda ki, Bəni-Üməyyə yox idi, kökləri kəsilmişdi. Bunun səbəbi Hüseyn ibn Əlinin (ə) yol və qanının islam ümmətinin islami hədəflərə doğru əzəmətli hərəkətinin bayrağı olmasıdır. Bu bayraq dik saxlanılmalıdır. O, bu günə kimi dik saxlanılıb və bu günə kimi insanları hidayət edib[2].

**56.**

## Maarifləndirmə və gənclərin intellektual bazalarının möhkəmləndirilməsi

Biz bir neçə il bundan qabaq burada başa qəmə vurmaq – azğınlıq olması aydın olan bu məsələ – barədə bəzi məsələləri qeyd etdik, böyük şəxsiyyətlər də danışdılar, nəciblik nümayiş etdirib qəbul etdilər, camaatın da çoxu deyilənləri qəbul etdi. Bir də gördük künc-bucaqdan səy-küy qalxdı ki, siz İmam Hüseyn (ə) ilə düşmənsiniz! Məgər İmam Hüseynin (ə) "مصباح الهدی و سفینة النجاة" "nicat gəmisi və hidayət çırağı" olmasının mənası şəriət baxımından problemli olması şübhəsiz olan və ikinci dərəcəli hökm baxımından da haram olması qəti və aşkar olan bir əməli yerinə yetirməyimizdir?! Biz gərək bu maarifləndirmə işlərini aparaq ki, bizim gənc nəsil islama daha çox meyil göstərsin. Siz gənclərin islama meyil göstərməsinin şahidisiniz. Bu, emosional bir meyildir. Bu meyil çox dəyərlidir. Amma o, dalğa kimidir, gəlib qayıda bilər. Əgər biz bu dalğanın davamlı olmasını istəyiriksə, gənclərin intellektual bazalarını möhkəmləndirməliyik. Bizim əlimizdə bu qədər mənbə – cənab Meşkininin qeyd etdiyi Əbu Həmzə duası, İmam Hüseynin Ərəfə günü oxuduğu dua – var. Bizim gənclər bunları oxuyurlar, amma mənasını başa düşmürlər. "الهی هب لی قلباً یدنیه منک شوق" "İlahi, mənə elə bir qəlb ver ki, sənə aşiq olsun!" Bu münacatlardan, bu kimi əsaslardan, belə dərin mənalı sözlərdən "Şaban" münacatı kimi dualarda və Səhifeyi-Səccadiyyədə çoxdur. Amma biz gərək onları gənclərə bəyan

[1] "Dokuhə" hərbi hissəsində on minlərlə "nur yolçuları" və müxtəlif təbəqələrdən ibarət xalq kütləsi qarşısındakı çıxışdan. 29.III.2002

[2] Həmədan vilayətinin şəhid ailələri və müharibə əlilləri və əsirlikdən azad olmuş döyüşçüləri ilə görüşdəki çıxışdan. 06.VII.2004

edək, açıqlayaq, izah verək ki, onlar başa düşsünlər, həmin duaları malik olduqları sevgi, duyğu və şövqlə oxusunlar[1].

57.

## Məntiq, şücaət və duyğu – İmam Hüseyn (ə) hərəkatının üç əsas ünsürü

Aşura barəsində demək istədiyim – əlbəttə, bu, qalın bir kitabdan bir sətirdir – budur ki, Aşura ancaq sırf tarixi hadisə deyil. Aşura bir mədəniyyət, davamlı bir cərəyan, islam ümməti üçün daimi bir örnəkdir. Həzrət İmam Hüseyn (ə) öz zamanında tam aydın əqli və məntiqi izahı olan bu hərəkəti ilə islam ümməti üçün bir örnək göstərdi və qoydu. Bu örnək təkcə şəhid olmaq deyil, çox mürəkkəb və dərin bir şeydir. İmam Hüseynin (ə) hərəkətində üç ünsür var: məntiq və ağıl ünsürü, şücaət və izzət ünsürü, duyğu ünsürü.

Bu hərəkətdə məntiq və ağıl ünsürü özünü bu hərəkət başlamamışdan – Mədinədə olanda şəhid olduğu günə kimi o həzrətin kəlamlarında göstərir. Bu nurani kəlamların hər biri cümləsi möhkəm bir məntiqin göstəricisidir. Bu məntiqin xülasəsi budur ki, şərait münasib olanda müsəlmanın vəzifəsi "addım atmaq"dır, indi istər həmin addımın atılması ən yüksək həddə təhlükəli olsun, istər olmasın. Ən yüksək həddə təhlükə insanın özünün və əzizlərinin canını, yaxın namusunu – həyat yoldaşı, bacı, övlad və qızlarını – ixlas tabağına qoyub meydana aparması və onları əsir götürülmə təhlükəsi qarşısında qoymasıdır. Bunlar o qədər təkrar edilib ki, bizim üçün adiləşib, halbuki bu sözlərin hər biri sarsıdıcıdır. Buna görə də əgər təhlükə hətta bu həddə olsa belə, insan addım atmalıdır və dünya onun qarşını almamalıdır. Nələrinsə nəzərə alınması və ehtiyatkarlıq insana mane olmamalıdır, ləzzətlər, rahatlıq və fiziki əmin-amanlıq insanın qarşısını kəsməməlidir. İnsan hərəkət etməlidir. Əgər hərəkət etməsə, onun iman və islamının sütunları yerində deyil. "من رأى سلطاناً..." "Kim zalım hakimin Allahın haramını halal etdiyini görsə və öz dil və əməli ilə ona qarşı bir iş görməsə, qiyamətdə bu şəxsi həmin zalımın aqibətinə düçar etmək Allahın haqqıdır". Məntiq budur. Əgər dinin əsası təhlükədə olanda siz bu qorxulu hadisə qarşısında öz söz və əməliniz ilə bir iş görməsəniz, bu məsuliyyətsiz və laqeyd şəxsi də qarşı tərəfin – həmin təkəbbürlü və zalımın – vəziyyətinə salmaq Allahın haqqıdır.

### İmam Hüseynin (ə) tarix boyu bütün bəşəriyyətə verdiyi əbədi dərs

Hüseyn ibn Əli (ə) müxtəlif bəyanatlarında – Məkkə və Mədinədə, yolun müxtəlif hissələrində və Məhəmməd ibn Hənəfiyyəyə olan vəsiyyətnaməsində – bu vəzifəyə toxunaraq onun nədən ibarət olmasını bəyan edib. Hüseyn ibn Əli (ə) bu işin sonunun necə olacağını bilirdi. Belə güman etməyin ki, o həzrət qüdrəti – əlbəttə, həmin qüdrətin hədəfi müqəddəs idi – ələ keçirmək üçün gözünü yumdu və həmin qüdrətə görə hərəkət etdi. Xeyr, bizim "ziyalıcasına" olan bir baxışla bu qənaətə gəlməyimizə lüzum yoxdur. Xeyr, bu yolun sonu dəqiq hesablamalar və imamət elmi ilə İmam Hüseynə (ə) tam aydın idi. Amma məsələ o qədər mühümdür ki, Hüseyn ibn Əli (ə) kimi canı çox dəyərli olan bir şəxs bu məsələ ilə qarşılaşanda, canına ixlas tabağına qoyub meydana aparmalıdır. Bu, qiyamətə kimi müsəlmanlar üçün dərsdir və bu dərsə əməl də edilib. Bu, nümunə üçün yazı taxtasına yazılan, sonra silinən dərs deyil. Xeyr, bu ilahi boya ilə islam tarixinin alnına yazılıb, bu günə kimi nidası ucalıb və müsbət cavab da alıb.

### İmam Hüseynin (ə) əbədi ismarıcından bəhrələnmə

...İkinci ünsür şücaətdir. Yəni yerinə yetirilməli olan bu mübarizə islam izzəti ilə yerinə yetirilməlidir. Çünki "izzət Allaha, onun rəsuluna və möminlərə məxsusdur"![2] Müsəlman bu hərəkət və bu mübarizə yolunda da özünün və islamın izzətini qorumalıdır. Zülmə məruz qalmanın ən yüksək həddində belə onun üzünə baxanda şücaətli və qeyrətli olduğunu görürsən. Əgər siz bizim öz müasir tariximizin müxtəlif siyasi-hərbi mübarizələrinə nəzər salsanız, görərsiniz ki, hətta əllərinə tüfəng alıb üz-üzə döyüşə gedənlər bəzən özlərini alçaldıblar. Lakin Aşura məntiqində belə şey yoxdur. Hüseyn ibn Əli (ə) bir gecə möhlət alanda da izzətlə möhlət alıb. O, "هل من ناصر" "Bir kömək edən varmı?" deyib kömək istəyəndə də izzət və iqtidar mövqeyindən çıxış edir. Mədinədən Kufəyə kimi yolda müxtəlif insanlarla rastlaşıb söhbət edəndə və onların bəzisindən yardım alanda da zəiflik və acizlik mövqeyindən çıxış etməyib. Bu da başqa bir bariz ünsürdür. Aşura davamçılarının proqrama saldıqları bütün mübarizələrdə bu ünsür gözə dəyməlidir. Bütün mübarizə addımları – istər siyasi olsun, istər təbliğat məqsədli, istərsə də canı qurban vermək yeri – izzətlə olmalıdır. Aşura günü Feyziyyə mədrəsəsində imam Xomeyninin üzünə baxın: nə silahlı əsgəri, nə fişəngi olan bir ruhani elə izzətlə

---

[1] İranın ali dini liderini seçən Ekspertlər Şurasının ("Xobreqan məclisi") üzvləri ilə görüşdəki çıxışdan. 08.IX.2005

[2] Munafiqun surəsi, ayə 8.

danışır ki, onun izzətinin ağırlığı düşmənin dizlərini bükür. Bu, izzət mövqeyindən çıxış etməkdir. İmam Xomeyni bütün hallarda elə idi. Tənha, kimsəsiz, adamsız və döyüş təchizatı olmadan, amma izzətli. İmam Xomeyninin siması belə idi. Biz gərək Allaha şükür edək ki, dəfələrlə və illərlə dediklərimizi, oxuduqlarımızı və eşitdiklərimizi gözümüzün qabağında gerçəkləşdirdiyi bir zamanda yaşadıq və bunları öz gözlərimizlə gördük. Bu bizim əzəmətli imamımız idi.

Üçüncü ünsür duyğudur. Yəni bu hadisənin həm özündə, həm də davamında duyğu mühüm rol oynayıb və Aşura və şiə cərəyanları ilə digər cərəyanlar arasında sərhəd yaranmasına səbəb olub. Aşura hadisəsi sırf quru və dəlilə əsaslanan hadisə deyil, onda eşq, məhəbbət, acıma və ağlamaqla birgə olan duyğu var. Duyğu böyük gücdür. Buna görə də bizə ağlamağı, ağlatmağı və hadisəni izah etməyi əmr ediblər. Zeynəbi-kübra (ə) Kufə və Şamda məntiqli çıxış edir, amma mərsiyə oxuyur. İmam Səccad (ə) Şamda minbərdə izzət və qətiyyətlə əməvi hökumətinin başına vurur, lakin mərsiyə oxuyur. Bu mərsiyə oxumaq bu günə kimi davam edir və əbədiyyətə kimi də davam etməlidir ki, duyğular ona tərəf yönəlsin. Bir çox həqiqətləri duyğulu, eşq və məhəbbət olan mühitdə başa düşmək mümkündür və bu mühitlərdən kənarda başa düşmək mümkün deyil. Hüseyn ibn Əlinin (ə) Aşura hərəkatını bu əsas üç ünsür təşkil edir və onun barəsində bir kitablıq söz danışmaq olar. Bu, İmam Hüseynin Aşura məsələlərinin bir hissəsidir. Amma bu bir hissədə də bizim üçün çoxlu dərs var.

Biz təbliğatçılar təbliğatımızı Hüseyn ibn Əlinin adı altında aparırıq. O həzrətin xatirəsi din təbliğatçılarına müxtəlif səviyyələrdə dini təbliğat apara bilmək kimi böyük bir fürsət verib. Bizim təbliğatımızda bu üç ünsürün hər birinin yeri olmalıdır. Həm duyğulu məsələlərə üz tutub Hüseyn ibn Əlinin (ə) hadisəsində gizlənən məntiq və ağıl cəhətini unutmaq hadisəni kiçiltməkdir, həm də şücaət izzət cəhətini unutmaq bu əzəmətli hadisəyə nöqsan yetirmək və çox qiymətli bir cəvahiri sındırmaqdır. Hamımız – rövzəxanlar, vaizlər və məddahlar – bu məsələdə diqqətli olmalıyıq[1].

**58.**

## Aşura dərslərindən biri

Aşura hadisəsi də dərsdir, addım atmaq, təhlükələrdən qorxmamaq və böyük meydanlara daxil olmaq dərsi. Həmin xüsusiyyətlərə malik və o çətinlikləri olan hadisənin öhdəsindən Hüseyn ibn Əli (ə) gələ bilərdi. Onun öhdəsindən başqası gələ bilməzdi və gələ bilməz. Lakin o uca və yüksək zirvənin ətəyində mənim və sizin görə biləcəyimiz çox işlər var[2].

**59.**

## İmam Hüseynin (ə) Allaha təvəkkül etmək və arxalanmaq dərsi

Böyük islam ümməti, hiyləgər qərb kimi, sizə edilən zülmün qarşısında laqeyd və sakit qala və sizin düşməninizə dostluq əli uzada bilməz. Kim belə etsə, sizinlə düşmənlik edib və şübhəsiz, müsəlman xalqlar bu böyük günahdan uzaqdırlar. İslam ümməti sizə mümkün olan formada kömək etmək və sizə bu mübarək yolun davam etdirilməsində yardım etmək məsuliyyəti daşıyır. Allahın vədlərinə arxalanın. Nahaq axıdılan qanlar və gündəlik çətinliklərin sizə gətirdiyi əzab və məşəqqətli ağrıları Allahın dəftərinə yazın və dünya şəhidlərinin sərvəri Hüseyn ibn Əli (ə) südəmər körpəsi qucağında zəhərli ox ilə şəhid ediləndə dediyi kimi, siz də " **انما يهون الخطب علىّ انّه بعين الله**" "Allahın gözü qarşısında baş verdiyi üçün böyük işlər mənə asan gəlir" deyin. Bilin ki, Allah-taala səbirli mömin və mücahidlərin qələbə qazanacağına zəmanət verib. " **وَ تَمَّتْ كَلِمَةُ رَبِّکَ صِدْقاً وَ عَدْلاً لاَ مُبَدِّلَ لِكَلِمَاتِهِ وَ هُوَ السَّمِيعُ الْعَلِيمُ**"[3] [4]

**60.**

## İmam Hüseyn hərəkatının hədəfi nadanlıq və qəflət buludlarını yox etmək olub

Allahın dininin mənası bəşəriyyətin dünya və axirət xoşbəxtliyi proqramıdır. Bu proqram bəşər cəmiyyətinin mənəvi inkişaf və yüksəlişinə zəmanət verdiyi kimi, intellektual istedadların dirçəldilməsi və onların şəxsiyyət

[1] Məhərrəm ayı astanasında ruhani və təbliğatçılarla görüşdəki çıxışdan. 25.I.2006

[2] Hərbi Hava Qüvvələrinin personalı ilə görüşdəki çıxışdan. 07.II.2006

[3] Ənam surəsi, ayə 155: "Rəbbinin sözü düzgünlük və ədalət baxımından kamil oldu. Onun sözlərini əsla dəyişdirən olmayacaqdır. Odur eşidən və bilən".

[4] III beynəlxalq "Qüds və Fələstin xalqının hüquqlarının müdafiəsi konfransı"ndakı çıxışdan. 14.IV.2006

və bacarıqlarının inkişaf etdirilməsinə zəmanət verir. Allahın dini mənəviyyata əhəmiyyət verdiyi kimi, insanın dünya həyatına da əhəmiyyət verir və insanın xoşbəxtliyi üçün proqrama malikdir. Əmirəl-möminin (ə) Nəhcül-Bəlağədə əziz islam Peyğəmbərinin göndərilməsinin hədəfini belə bəyan edir: "ليثيروا لهم دفائن العقول" "İnsanların içində ağıl xəzinələrini çıxarmaq və gerçəkləşdirmək üçün". Həzrət İmam Hüseynin (ə) "Ərbəin" ziyarətnaməsində də belə oxuyuruq: "ليستنقذ عبادك من الجهالة و حيرة الضلالة" "Onun bəndələrini nadanlıqdan və azğınlıq sərgərdanlığından xilas etmək üçün". İmam Hüseynin (ə) mübarizəsinin hədəfi insanların həyat üfüqündən nadanlıq və qəflət buludlarını yox etmək, onları agah etmək və həqiqi hidayətə çatdırmaqdır. Əslində, Allah-taalaya kömək etməyin də mənası bizim ilahi ənənələri dirçəltmək istiqamətində addımlamağımız, təbiət və cəmiyyətdə iz buraxmağımız, fitrətlərin oyanmasına təsir göstərməyimiz, insanın bədbəxtlik amilləri toplusundan nicat tapması üçün çalışmağımızdır. Bu bizim Allahın dininə köməyimizdir[1].

**61.**

## İmam Hüseyn (ə) hərəkatının davamı: zülm, hegemonluq və zamanın yezidlərinə qarşı mübarizə

Məhərrəm ayı həmin tarixi mərhələlərdən biridir. Şiələr Aşuranı bütün vücudları ilə qoruyub saxlayıblar. Siz fikir verin, uzun illər və uzun əsrlər boyu İmam Hüseynin xatirəsi, İmam Hüseynin adı, İmam Hüseynin türbəti və İmam Hüseynin əzadarlığı heç vaxt Əhli-beyt davamçıları və Əhli-beytə imanı olan şəxslərin arasından silinməyib. (düşmənlər) buna çox çalışsalar da, (Əhli-beyt aşiqləri) bundan əl çəkməyiblər. Siz Mütəvəkkilin məsələsini və onun Kərbəla yolunu bağlaması hadisəsini eşitmisiniz. Bunlar çarvadar işi və çarvadar səviyyəli mübarizələrdir. Tarix boyu çox elmi, emosional və praktiki mübarizələr aparılıb, lakin şiələr bunu qoruyublar və qorumalıdır da.

**İmam Hüseynin (ə) ad və xatirəsinin yaşadılması İslam ümmətinin bütün maneələri aşma yoludur**

Deyirlər ki, nə üçün camaatın arasında matəm, ağlamaq və göz yaşını yayırsınız? Bu matəm və göz yaşına görə deyil, dəyərlərə görədir. Bu əzadarlıqlarda, bu başa və ya sinəyə vurmalarda və bu göz yaşı axıtmalarda olan şey bəşəriyyətin xəzinəsində mövcud ola bilən ən əziz şeylərdir. O, həmin ilahi mənəvi dəyərlərdir. Hüseyn ibn Əli bu dəyərlərin təcəssümü olduğu üçün onları qoruyub saxlamaq istəyirlər. Bunlar onların xatirəsidir, onların yaşadılmasıdır.

Əgər islam ümməti Hüseynin adını və xatirəsini yaşatsa və onu özü üçün örnək etsə, bütün maneə və çətinlikləri keçib arxada qoyacaq. Ona görə də biz islam inqilabında, islam respublikası hökumətində başdan-ayağa hamımız – xalq, məsul şəxslər, böyüklər, şəxsən imam Xomeyni özü – İmam Hüseyn, Aşura və bu xalq əzadarlığı məsələsi üzərində dayanırıq və bu, belə də olmalıdır. Bu əzadarlıqlar həm simvolik, həm də həqiqi xarakter daşıyır, qəlbləri bir-birinə yaxınlaşdırır, təlimlərə aydınlıq gətirir.

**Qələbədə məhərrəmin rol və təsiri**

Əlbəttə, bütün natiqlər, vaizlər, məddahlar, oxuyanlar bunun əziz bir həqiqət olmasına diqqət etməlidirlər. Onunla oynanılmamalıdır. Aşura hadisəsinin həqiqətləri oyuncağa çevrilməməlidir. Ona hələ bir şey artırmamalı, bir xurafat əlavə etməməli, əzadarlıq adı ilə ağıla zidd işlər görülməməlidir. Bunlar İmam Hüseynin tərəfini saxlamaq deyil. Bir dəfə biz başa qəmə vurmaq yürüşü barədə bəzi sözlər dedik, künc-bucaqdan bəzilərinin səsi ucaldı ki, "ağa, bu İmam Hüseyn əzadarlığıdır, İmam Hüseyn əzadarlığına qarşı çıxmaq olmaz". Bu, əzadarlığa qarşı çıxmaq deyil, əzadarlığın zay edilməsinə qarşı çıxmaqdır. İmam Hüseyn əzadarlığını zay etmək olmaz, İmam Hüseyn minbəri və İmam Hüseyn məclisi dini həqiqətlərin, yəni İmam Hüseyn həqiqətlərinin bəyan edilməsi yeridir. Şeir də, hərəkət də, növhə və mədhiyyə də bu istiqamətdə olmalıdır. Siz gördünüz, 1978-ci ilin məhərrəm ayında sinəzən dəstələr əvvəl Yəzd, Şiraz və sairə şəhərlərdə yarandılar, sonra ölkənin hər yerinə yayıldılar. Onlar sinə vurur və növhədə günün həqiqətlərini bəyan edirdilər, bunları Aşura hadisəsi ilə əlaqələndirirdilər. Bu, düz iş idi...

**Müasir dünyanın hegemon qüvvələri zəmanənin Şimr və Yezidləridir**

Məclisimiz İmam Hüseyn məclisidir. Yəni zülm və hegemonluğa qarşı olan, zəmanəni Şimr, Yezid və ibn Ziyadları əleyhinə olan məclisdir. Bu, İmam Hüseyn hadisəsinin davam etməsidir.

---

[1] İmam Xomeyninin vəfatının on yeddinci ildönümü münasibəti ilə keçirilən mərasimdəki çıxışdan. 04.VI.2006

Bu gün dünya zülm və sitəmlə doludur. Siz görün nə işlər görürlər, Fələstində nə edirlər, İraqda nə edirlər, digər ölkələrdə nələr edirlər, dünyanın müxtəlif xalqları ilə necə davranırlar, yoxsullara nə edirlər, ölkələrin milli sərvətləri ilə nə edirlər! Hüseyn ibn Əlinin (ə) hərəkatının böyük əhatə dairəsi bu geniş meydanın hamısına şamil olur. İmam Hüseyndə təkcə şiələr deyil, təkcə müsəlmanlara deyil, dünyanın bütün azadlıqsevərlərinə veriləcək dərs var.

Hindistan azadlıq hərəkatının rəhbəri altmış-yetmiş il bundan qabaq Hüseyn ibn Əlinin adını çəkib və deyib ki, mən ondan öyrənmişəm. Halbuki o, ümumiyyətlə, müsəlman olmayıb, hindu olub. Müsəlmanlar arasında da belədir. İmam Hüseynin məsələsi belədir. Siz bütün bəşəriyyətin bəhrələnə və istifadə edə biləcəyi belə bir qiymətli cəvahirə sahibsiniz.

İmam Hüseyn əzadarlığının hərəkət istiqaməti belə olmalıdır: izah, açıqlama və maarifləndirmənin genişləndirilməsi, insanların imanının möhkəmləndirilməsi, dindarlıq ruhunun gücləndirilməsi, şücaət və din qeyrəti ruhunun artırılması, laqeydlik, "sərxoşluq" və süstlük halının aradan qaldırılması. İmam Hüseynin hərəkatının və o həzrətin (ə) bizim dövrdə əzadarlıq mərasimlərinin keçirilməsinin mənası bunlardır. Buna görə də o yaşayır, həmişə də yaşayacaq.

Onun emosional cəhəti də bütün insanların hiss və duyğularına təsir göstərir. Onun batini və mənəvi cəhəti düşüncə və bəsirət sahiblərini agah edir, maarifləndirir. Mən bu illər ərzində Əmirəl-mömininin (ə) bu cümləsini dəfələrlə təkrar etmişəm. O həzrət buyurub: "ألا لا يحمل هذا العلم الا اهل البصر و الصبر" "Bu bayrağı – insanlıq, islam və tövhid bayrağına" – bu iki xüsusiyyətə malik olanlar əllərinə götürə və dik saxlaya bilərlər: "البصر و الصبر" Bəsirət və səbir əhli. İmam Hüseyn (ə) bəsirət və səbir təcəssümüdür...[1]

**62.**

## İmam Hüseyn (ə) hərəkatı islam məktəbinin sütunlarının möhkəmlənməsi amilidir

Zamanın keçməsi hadisələri anbaan insandan uzaqlaşdırır. Bəzi hadisələr zəif dalğa kimi unudulur. Su hovuzuna bir daş atırsan, zəif bir dalğa yaranır. Amma zaman keçdikcə o, anbaan zəifləyir və bir dəqiqə keçməmiş görürsən ki, daha həmin dalğadan əsər-əlamət yoxdur. Amma bəzi hadisələr bunun əksinədir və zamanın keçməsi onları zəiflətmir, soldurmur, əksinə, daha da böyüdür. Onun bir nümunəsi Aşura hadisəsidir.

Aşura günü nə baş verdiyini heç kəs başa düşmədi. Həmin hadisənin əzəməti, Peyğəmbərin ciyər parçasının, onun səhabə və yaxınlarının cihadının əzəməti, həmçinin Peyğəmbər balaları və nəvələrinin öldürülməsi faciəsinin əzəməti heç kəsə aydın deyildi. Düşmən qoşununda olanlar o qədər "sərxoş" və qafil idilər, özlərini o qədər itirmişdilər ki, nə baş verdiyini başa düşmürdülər. Dünya, məğrurluq, şəhvət, qəzəb və heyvanlıq sərxoşları insanlıq aləmində nə baş verdiyini başa düşmürdülər. Bəli, nə baş verdiyini Zeynəb çox yaxşı başa düşürdü, Səkinə yaxşı başa düşürdü, o məzlum qadın və qızlar yaxşı başa düşürdülər. Bu, Aşura gününə aiddir. Amma Aşura günündən sonra – on ikinci gün Kufədə, neçə həftə sonra Şamda, neçə həftə sonra Mədinədə və bir az sonra bütün islam dünyasında – bu hadisə işıq surəti ilə öz əzəmət və əhəmiyyətini göstərdi. Bu hadisədən iki il keçməmiş onu törədən firon xislətli azğın yerə yıxılıb öldü və neçə il keçməmiş həmin ailə məhv oldu və iş başına Bəni-Üməyyədən olan başqa bir ailə gəldi. Bir neçə on illik keçməmiş həmin ailə də məhv oldu. İslam dünyası Əhli-beyt məktəbinə gün-gündən daha çox yaxınlaşdı, daha çox bağlandı və rəğbət bəslədi. Bu hadisə tarixdə islam etiqadının və islam məktəbinin sütunlarını möhkəmləndirə bildi. Əgər Kərbəla hadisəsi olmasaydı, bu gün bizim islamın əsaslarından elə də xəbərimiz olmazdı və bəlkə də, islamın ancaq adını eşidərdik. Bu müqəddəs qan və bu böyük hadisə nəinki kiçilmədi, solmadı, zəifləmədi, əksinə, günü-gündən gücləndi, böyüdü və daha çox təsir göstərdi. Bu, bariz bir nümunədir[2].

**63.**

## İmam Hüseynin (ə) nadanlıq və qəflətlə mübarizə aparmaq üçün göstərişi

Dərs bu gündə həminkidir. Millətin insani və dərin duyma hissi gərək hadisələri baş verməmişdən qabaq hiss etsin, nə baş verdiyini başa düşsün və ona reaksiya versin. İslam tarixinə baxanda görürük ki, bu dərs və bu düzün siyasi duyğunun olmaması millətləri həmişə qəflət yuxusunda saxlayıb və düşmənlərə millətlərin başına istədikləri işi gətirmək və onların reaksiyasından amanda qalmaq imkanı yaradıb.

---

[1] "19 dey (9 yanvar)" hərəkatının ildönümü münasibəti ilə minlərlə Qum şəhəri əhalisi ilə görüşdəki çıxışdan. 09.I.2008

[2] Fars vilayətinin müharibə əlilləri, fədailəri və şəhid ailələri ilə görüşdəki çıxışdan. 02.V.2008

**İslam cəmiyyətində "besət"dən sonra əlli il ərzində baş verən böyük dəyişikliklər**

Siz Kərbəla hadisəsinə bu baxışla baxın. Hicrətdən altmış il – yəni həzrət Peyğəmbərin vəfatından əlli il – sonranın müsəlmanları həmin dövrdə baş verən hadisələri düzgün təhlil edə bilmirdilər və düzgün təhlil edə bilmədikləri üçün onlara reaksiya da vermirdilər. Buna görə də ürəkləri istəyəni edən və islam ümmətinin yolunu istədikləri kimi əyən kəslərin qarşısında meydan açıq idi. Heç kəs onların qarşısını almırdı və onlar istədiklərini edirdilər. İş o yerə çatdı ki, günahkar, pozğun, pis ad çıxarmış və rüsvayçı bir fərd –islam hakimiyyəti və Peyğəmbər xəlifəsi olmaq üçün lazım olan şərtlərdən heç birinə malik olmayan və əməlləri aşkar şəkildə həzrət Peyğəmbərin yoluna tam zidd olan bir gənc – islam ümmətinin rəhbəri və həzrət Peyğəmbərin canişini oldu. Görün, bu hadisə bu gün sizə nə qədər təəccüblü gəlir? Amma bu hadisə həmin vaxt o dövrdə yaşayan insanlara təəccüblü gəlmədi və xüsusi zümrə təhlükə hiss etmədi. Əgər kimlərsə təhlükə hiss etdilərsə də, şəxsi mənafeləri, xoş güzəranları və rahatlıqları onlara reaksiya vermək icazəsi vermədi. Həzrət Peyğəmbər islami insanları tövhidə, paklığa, ədalətə, sağlam əxlaqa, bəşər cəmiyyətinin ümumi xeyrinə tərəf sövq etmək üçün gətirmişdi. Lakin bu gün Peyğəmbərin yerinə başdan-ayağa pozğunluqdan, əxlaqsızlıqdan ibarət olan, Allahın varlığına və birliyinə etiqad bəsləməyən bir şəxs oturmuşdu. Həzrət Peyğəmbərin vəfatından əlli il sonra belə bir şəxs iş başına gəlir. Bu sizə bu gün çox təəccüblü görünür, amma o vaxt camaatın çoxuna təəccüblü görünmədi. Çox təəccüblüdür! Yezid xəlifə olduğu və kobud və rəhimsiz məmurları islam dünyasının müxtəlif yerlərinə təyin etdilər ki, camaatdan beyət alsınlar. Camaat da dəstə-dəstə gedib beyət etdi. Həmçinin alimlər, zahidlər, seçilmiş şəxslər, siyasətçilər beyət etdilər.

**İslam cəmiyyətinin qəflət və sapıntısı ilə mübarizədə İmam Hüseynin (ə) vəzifəsi**

İslam dünyasına təhlükəni dərk etməmək və duymamaq həddə bir qəflətin hakim olduğu vaxtda nə etmək lazımdır? İslamın təcəssümü, əziz islam Peyğəmbərinin əsil nüsxəsi olan Hüseyn ibn Əli – " **حسين منى و انا من حسين**" "Hüseyn məndəndir, mən də Hüseyndənəm" – kimi bir şəxs belə şəraitdə nə etməlidir? O, islam dünyasını – özü də təkcə həmin gün yox, həm də ondan sonrakı əsrlər boyu – oyadacaq, xəbərdar edəcək və silkələyəcək bir iş görməlidir. Bu titrəyiş İmam Hüseynin açıq mübarizəsi ilə başladı. İmam Hüseynin Kufədə hakimiyyətə dəvət edilməsi və ona görə Kufəyə doğru hərəkət etməsi işin zahiri və bəhanələri idi. Əgər İmam Hüseyn dəvət edilməsəydi də, bu hərəkət baş verəcəkdi. İmam Hüseyn müsəlmanın belə bir şəraitdə nə etməli olduğunu göstərmək üçün bu işi görməli idi. O, sonrakı əsrlərin bütün müsəlmanlarına nüsxə göstərdi, nüsxə yazdı. Lakin Hüseyn ibn Əlinin nüsxəsi dildə və quru söz – "göstəriş ver, özün çəkil kənara" – həddində deyildi, əməli nüsxə idi. O özü hərəkət etdi və yolun nə olduğunu göstərdi. O, həzrət Peyğəmbərdən nəql edir ki, kim islamın kənara qoyulduğunu, zalımların insanlara hakim olduğunu, Allahın dininin dəyişdirildiyini, insanlarla günah və əxlaqsızlıqla davranıldığını görsə və bu vəziyyətin qarşısında dayanmasa, " **كان حقاً على الله ان يدخله مدخله**" Allah-taala həmin sakit və laqeyd şəxslə də "Allahın haramını halal edən şəxs" kimi davranacaq. Bu, nüsxədir. İmam Hüseynin mübarizəsi budur. İmam Hüseynin nəzərincə, əgər bu mübarizə yolunda o həzrətin dünyanın ən üstün canı olan pak, mübarək və dəyərli canı da qurban getsə, çox baha deyil. Əgər insanların İmam Hüseyn səhabəsi olan ən yaxşılarının canı qurban getsə, bu, İmam Hüseyn üçün çox baha sayılmır. Allah Əhli-beytinin, Peyğəmbər ailəsinin, Zeynəb kimi bir şəxsiyyətin yadların əlində əsir olması – Hüseyn ibn Əli bu səhrada öldürüləndən sonra onların o qadın və uşaqları əsir götürəcəklərini bilirdi – (bir sözlə) İmam Hüseynin nəzərincə bu məqsəd üçün bu əsirlik və belə bir ağır qiymətin ödənilməsi çox deyildi. Biz gərək bir şeyin qiymətini ödəyəndə həmin ödənişdən islamın, müsəlmanların, islam ümməti və cəmiyyətinin nə əldə edəcəyini nəzərə alaq[1].

**64.**

## Ərbəinin İmam Hüseyn (ə) hərəkatının yaşamasındakı böyük rolu

Ərbəin Kərbəla hadisəsində bir başlanğıc idi. Kərbəla hadisəsi və o böyük faciə baş verəndən, bu məhdud mühitdə İmam Hüseynin (ə) və o həzrətin səhabə, yoldaş və ailəsinin o misilsiz fədakarlığından sonra missiyasını əsirlik hadisələri yaymalı idi. Həzrət Zeynəb (ə) və İmam Səccadın (ə) xütbələri, ifşalıqları və həqiqətləri bəyan etmələri düşüncə, hadisə, hədəf və hərəkət istiqamətini güclü kütləvi informasiya vasitəsi kimi geniş miqyasda yaymalı idi və elə yaydı da. Azadlıq olmayan mühitin xüsusiyyəti budur ki, insanlar başa düşdüyü həqiqətləri öz əməllərində göstərmək fürsəti tapmır və onu əməldə göstərməyə cürət etmirlər. Çünki birincisi, zalım və müstəbid rejim camaatı həqiqətləri başa düşməyə qoymur və əgər insanların həqiqəti başa

[1] "19 dey (9 yanvar)" qiyamının ildönümü münasibəti ilə Qum şəhəri əhalisi ilə görüşdəki çıxışdan. 08.I.2009

düşməsi onların nəzarətindən çıxsa və onlar həqiqəti başa düşsələr, onları başa düşdüklərinə əməl etməyə qoymurlar. Kufədə, Şamda, yolda çoxları Zeynəbi-kübranın (ə) və ya İmam Səccadın (ə) dilindən, yaxud əsirlərin vəziyyətini görəndən sonra çox şeyləri başa düşdülər. Amma o zalım, təkəbbürlü, müstəbid və zorakı rejimin qarşısında kim cürət edib başa düşdüyünü büruzə verə bilərdi?! Bu rejim möminlərin boğazında bir şiş kimi qalmışdı. Bu şişə ilk neştər Ərbəində dəydi. İlk partlayış ərbəin günü Kərbəlada baş verdi.

**Aşura mesajlarının qorunması və yayılmasında əsirlər karvanının heyrətamiz təsiri**

Mərhum seyid ibn Tavus və digər böyük şəxsiyyətlər yazıblar ki, əsirlər karvanı, yəni xanım Zeynəb (ə) və digərləri Kərbəlaya daxil olanda orada Cabir ibn Abdullah Ənsari və Ətiyyə Aufi tək deyildi, "رجال من بنى هاشم" Bəni-Haşimdən bir dəstə, həmçinin dostlardan bəziləri İmam Hüseynin qəbrinin başına toplaşmışdılar. Onlar Zeynəbi-kübranın pişvazına gəldilər. Bəlkə də, Zeynəbi-kübranın Şamdan qayıdanda Kərbəlaya getməyə təkid etməsi bir siyasət idi və o, orada bu kiçik, lakin mənalı toplantının yaranmasını istəyirdi. Bəziləri onların Ərbəinə kimi Kərbəlaya gəlib çatmalarının qeyri-mümkün olmasını deyiblər. Mərhum şəhid Ayətullah Qazinin müfəssəl bir yazısı var və o, orada bu işin baş verməsinin mümkünlüyünü sübut edib. Hər halda böyük şəxsiyyətlər və qədim alimlərin sözü budur ki, Zeynəbi-kübra və Əhli-beyt karvanı Kərbəlaya daxil olanda Ətiyyə Aufi, Cabir ibn Abdullah və Bəni-Haşimdən bəzi şəxslər orada idilər. Bu, şəhidliklə gerçəkləşməli olan hədəfin – yəni bu fikrin yayılması və insanların cürətləndirilməsinin – gerçəkləşməsinin nişanə və nümunələrindəndir. Buradan da "təvvabin hərəkatı" yarandı. Düzdür, təvvabin qiyamı yatırıldı, amma az fasilədən sonra Muxtarın və Kufənin digər igidlərinin qiyamı baş verdi və onun da nəticəsində zalım və xəbis Bəni-Üməyyə nəslinin kitabı bağlandı. Əlbəttə, ondan sonra mərvanilər sülaləsi hakimiyyətə gəldi, amma mübarizə davam etdi, yol açıldı. Bu, ərbəinin xüsusiyyətidir. Yəni ərbəində ifşaçılıq da var, əməl də var, həmin ifşaçılığın hədəflərinin gerçəkləşməsi də var[1].

**65.**

## İmam Hüseynin (ə) hərəkatın əvvəllərindəki kəlamlarına diqqət edilməsinin zəruriliyi

İmam Hüseyn (ə) təkcə Aşura gününün döyüşü ilə tanınmamalıdır. O, İmam Hüseynin cihadının bir hissəsidir. İmam Hüseyni açıqlamaları, "yaxşılığa dəvət və pislikdən çəkindirmə"ni, Mina və Ərəfatdan müxtəlif məsələlər barədə verdiyi izahları, alimlərə, seçilmiş şəxsiyyətlərə müraciəti ilə – o həzrətin heyrətamiz açıqlamaları var və onlar kitablarda qeyd edilib – həmçinin Kərbəla yolunda, Kərbəla səhrasında və Kərbəla meydanındakı açıqlamaları ilə tanımaq lazımdır. O həzrət Kərbəla səhrasında da açıqlama verir, gedib söhbətlər edirdi. İndi döyüş meydanıdır, qan tökmək istəyirdilər. Amma o həzrət hər fürsətdən istifadə edir, gedib onlarla söhbət etmək, hətta onları ayıltmaq istəyirdi. Əlbəttə, bəziləri yuxuda idilər və ayıldılar. Amma bəziləri özlərini yuxululuğa vurmuşdular və axıra kimi ayılmadılar. Özünü yuxululuğa vuranları ayıltmaq çox çətin, hətta bəzən qeyri-mümkündür[2].

**66.**

## İmam Hüseynin (ə) maarifləndirmə məqsədi ilə əməli mübarizəsi

Dünən mübarək mübahilə günü idi. Bir neçə gündən sonra məhərrəm ayı başlayacaq...

Dinin təbliğat və həqiqətlərin qəlb və zehinlərə çatdırılması ilə məşğul olan bizlər üçün bu münasibətlərin hamısı mühüm və ibrətamiz günlərdir.

Mübahilə günü əziz islam Peyğəmbərinin özünün ən əziz şəxslərini meydana gətirdiyi gündür. Mübahilə barəsindəki mühüm nöqtə onda "أَنْفُسَنَا وَ أَنْفُسَكُمْ" "Biz özümüzü, siz də özünüzü" və "نِسَاءَنَا وَ نِسَاءَكُمْ" "Biz qadınlarımızı, siz də qadınlarınızı"[3] ifadələrinin olmasıdır. Həzrət Peyğəmbər ən əziz insanları seçir və onları hamının gözü qarşısında haqq ilə batilin bir-birindən ayrılmalı olduğu mübahisə meydanına gətirir. Həzrət Peyğəmbər bundan qabaq heç vaxt dinin təbliği və həqiqətin bəyan edilməsi yolunda öz əzizlərinin, öz balalarının, qızının, qardaş və canişini olan Əmirəl-mömininin əlindən tutub meydana gətirməyib. Mübahilə gününün istisnai bir gün olması belə olub. Yəni bu, həqiqətin bəyan edilməsinin və çatdırılmasının nə qədər

---

1 Şərqi Azərbaycan vilayəti əhalisindən ibarət bir dəstə ilə görüşdəki çıxışdan. 16.II.2009
2 İnqilab rəhbərinin dəftərxana üzvləri və mühafizə korpusu ilə görüşdəki çıxışdan. 27.VII.2009
3 Ali-İmran surəsi, ayə 61: "... biz öz qadınlarımızı, siz öz qadınlarınızı, biz özümüzü, siz də özünüzü çağıraq..."

mühüm olduğunu göstərir. Peyğəmbər onları bu iddia ilə meydana gətirir ki, gəlin, mübahilə (bir-birinizə nifrin) edək, bizdən kim haqlıdırsa, qalsın, kim nahaqdırsa, Allahın qəzəbi ilə məhv olsun.

Bu hadisə əməli şəkildə məhərrəmdə baş verib. Yəni İmam Hüseyn (ə) də həqiqətin bəyan edilməsi, tarixə aydınlıq gəlməsi üçün özünün ən əziz adamlarını götürüb meydana gəlib. İmam Hüseyn (ə) hadisənin sonunun necə olacağını bilirdi, amma buna baxmayaraq, Zeynəbi gətirib, öz xanımlarını gətirib, övladlarını gətirib, öz əziz qardaşlarını gətirib. Burada da məsələ dinin təbliğ edilməsi – həqiqi mənada təbliğ, ismarıcın çatdırılması və mühitin işıqlandırılması – məsələsidir. Təbliğat məsələsinin dairəsini, onun nə qədər mühüm olduğunu belə başa düşmək olar. İmam həmin xütbəsində buyurub: Zalım hakim mühiti belə xarab edib bulaşdırırsa, ya əməl, ya da söz ilə qabağa çıxıb maarifləndirmə işi ilə məşğul olmaq lazımdır və İmam Hüseyn (ə) bu işi görür, özü də bu ağır "xərc" bahasına. Öz ailəsini, xanımlarını, əzizlərini, Əmirəl-mömininin (ə) övladlarını, Zeynəbi-kübranı – bunların hamısını götürüb meydana gəlir[1].

**67.**

## Qurani-kərimdə Allah övliyaları barədə işlənmiş üç mühüm ifadə: "Vilayət", "itaət" və "məhəbbət"

Mən qarşıdan gələn məhərrəm ayında təbliğat barəsində bunu da deyim: Ola bilər, bəziləri desinlər ki, "siz İmam Hüseynin hərəkatını izah etmək istəyirsinizsə, lap yaxşı, gedin izah edin, daha bu rövzə oxumaq, ağlamaq, ahu-zar etmək nəyə lazımdır? Gedin, o həzrətin filan-behman işləri gördüyünü, hədəfinin filan şey olduğunu deyin". Bu, çox səhv fikir, səhv yanaşmadır. Bunlar Allah övliyalarına, din övliyalarına qarşı hisslərin izhar edilməsidir. Bu hissi bağlılıq nəzəri və əməli bağlılıq üçün çox dəyərli bir dayaqdır. Bu yolda bu dayaqsız hərəkət etmək çox çətindir. Bu hissi bağlılıq çox mühümdür. İmam Xomeyni "ənənəvi əzadarlıq" ifadəsini elə-belə adət kimi işlətmirdi. O, çox dərin və ölçülüb-biçilmiş bir söz idi. Baxın, Quranda Allah övliyaları barədə üç ifadə mövcuddur:

Onlardan biri "Vilayət" ifadəsidir. "**إِنَّمَا وَلِيُّكُمُ اللَّهُ وَ رَسُولُهُ وَ الَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَ يُؤْتُونَ الزَّكَاةَ وَ هُمْ رَاكِعُونَ**"[2] "Vilayət" məsələsidir. Aydın məsələdir ki, bağlılıq, əlaqə və idrak kimi şeylər vilayətin əhatə dairəsinə daxil olan məsələlərdir.

Digər bir məsələ itaət məsələsidir: "**أَطِيعُوا اللَّهَ وَ أَطِيعُوا الرَّسُولَ وَ أُولِي الْأَمْرِ مِنْكُمْ**"[3] Peyğəmbərə və əmr sahiblərinə itaət əməldədir, əməl meydanında itaət etmək, tabe olmaq lazımdır.

Amma burada üçüncü bir məsələ də var və o, "məhəbbət" məsələsidir. "**لاَ أَسْأَلُكُمْ عَلَيْهِ أَجْراً إِلاَّ الْمَوَدَّةَ فِي الْقُرْبَى**"[4] Daha bu məhəbbət nədir? Bunların "vilayət"inə malik olun, onlara itaət də edin, bəs məhəbbət nə üçündür? Bu məhəbbət dayaqdır. Əgər bu məhəbbət olmasa, islam ümmətinin başına ilk dövrlərdə bəzilərinin başına gələn həmin bəla gələcək. Belə ki, onlar bu məhəbbəti kənara qoydular, sonra tədricən itaət və "vilayət"i də tərk etdilər. Məhəbbət məsələsi çox mühümdür. Bu məhəbbət bu hissi əlaqə ilə hasil olur. Onların müsibətlərini demək bir növ hissi əlaqə yaradır. Həmçinin onların gözəl sifət və fəzilətlərini demək bir başqa cür hissi bağlılıq yaradır.

### Aşura hadisələrinin izah edilməsi ilə yanaşı, əzadarlıq məclislərinin qorunması

Buna görə də edilən bu əzadarlıqlar, bu ağlamaq və ahu-zarlar, Aşura hadisələrinin izah edilməsi – bunların hamısı lazımi şeylərdir. Bəziləri "ziyalılıq" mövqeyindən çıxış edib – ağalar, daha bunlar lazım deyil" deməsinlər. Xeyir, bunlar – camaatın gördüyü bu işlər lazımdır, özü də axıra kimi lazımdır. Əlbəttə, onun bəzi pis formaları var ki, biz əvvəllər ona toxunmuşuq. Ona misal olaraq başa qəmə vurmağı göstərmək olar. Biz onun qadağan olduğunu demişik. Bu iş görülməməlidir. Bu əməl düşmənlərin Əhli-beyt dostlarına tənə vurmalarına səbəb olur. Amma camaatın etdiyi adi əzadarlıq – sinə vuran dəstələrin yaradılması, ələm-bayraq götürülməsi, məhəbbət izhar edilməsi, şüar yazılması, oxumaq, ağlamaq – hissi əlaqəni günü-gündən daha da artırır. Bunlar çox yaxşı işlərdir. Bu, təbliğatın əhəmiyyətini göstərir[5].

---

[1] Bir qrup din tələbəsi və ruhani ilə görüşdəki çıxışdan. 13.XII.2009

[2] Maidə surəsi, ayə 55: "Həqiqətən, sizin vəliniz yalnız Allah, Onun peyğəmbəri və iman gətirənlər – namaz qılıb rüku halında zəkat verən kəslərdir".

[3] Nisa surəsi, ayə 59: "Allaha itaət edin, Onun peyğəmbərinə və öz əmr sahiblərinizə (də) itaət edin".

[4] Şura surəsi, ayə 23: "De: Sizdən bunun (ilahi tapşırıqların çatdırılmasının) müqabilində qohumların barəsində məhəbbətdən başqa bir muzd istəmirəm".

[5] Din tələbələri və ruhanilərdən ibarət bir dəstə ilə görüşdəki çıxışdan. 13.XII.2009

68.

## İmam Hüseyn (ə) səhabələrinin səylərinin Aşura gününə məna verməsi

İlin günləri təbii halda və öz-özlüyündə eynidir. Günlərin arasından bir günü çəkib çıxardan, onu səciyyələndirən, başqalarından üstün edən, fərqləndirən və başqalarına yol göstərmək üçün bir bayraq kimi dik saxlayan insanlardır. Aşura günü – məhərrəm ayının onuncu günü – öz-özlüyündə başqa günlərdən fərqlənmir. Həmin günə Hüseyn ibn Əli (ə) can verib, məna verib, onu ərşə kimi ucaldıb. Bu günü həssaslaşdıran və onu mühüm edən Hüseyn ibn Əlinin (ə) səhabələrinin səyləridir[1].

69.

## Həzrət Zeynəbin (ə) məqamının Fironun möminə xanımının məqamı ilə müqayisəsi

Bu günlər səfər ayının son on günlüyü, ərbəindən sonrakı günlərdir. Əgər biz islamın ilk dövrlərinin tarixinə nəzər salsaq, bu günlərin Zeynəbi-kubranın günləri olduğunu görərik. Zeynəbi-kubranın (ə) gördüyü iş bu qəbildən olan iş idi, yəni təhlükə, möhnət və çətinliklər içində ancaq Allaha xatir görülən iş idi, dinin Zeynəbi-kubranın (ə) qətiyyətli simasında mənəvi və ilahi təzahürü idi. Bizim bu günə kimi düşüncə və idrak sahəsində bərəkət mənbəyi olmuş və inşallah, dünyanın axırına kimi də bərəkət mənbəyi olacaq çox dəyərli keçmiş tarixin sözlərini bilməyimiz və başa düşməyimiz yaxşı olar.

Zeynəb (ə) həm İmam Hüseynlə birlikdə Kərbəlaya doğru hərəkət edəndə, həm də Aşura günü baş verən hadisədə çətinlik və möhnətlərə qatlaşıb. Həmçinin o, Hüseyn ibn Əli (ə) şəhid olandan sonra yerdə qalan uşaq və qadınlardan ibarət sığınacaqsız toplunun idarə edilməsində Allahın vəlisi olaraq elə parlayıb ki, onun bənzərini, tarixdə onun oxşarını tapmaq mümkün deyil. sonra da bir-birinin ardınca hadisələr baş verir, Zeynəbin Kufə və Şamdakı əsirlik dövrü gəlir və nəhayət, həmin günlərin sonu və islami hərəkat, islam təfəkkürünün inkişafı və islami cəmiyyətin irəli aparılması üçün yeni bir mərhələnin başlanğıcı olan bugünkü günlər (səfər ayının son günləri) gəlir. Bu böyük şeylərə görə Zeynəbi-kübra (ə) Allah-taalanın yanında bizim təsəvvür edə bilməyəcəyimiz bir məqam qazanıb.

**Qurani-kərimdə möminə qadınların nümunəsi**

Siz diqqət edin, Allah-taala Qurani-kərimdə kamil iman nümunəsi kimi iki qadını, küfr nümunəsi kimi də iki qadını misal çəkir. "ضَرَبَ اللَّهُ مَثَلاً لِلَّذِينَ كَفَرُوا امْرَأَةَ نُوحٍ وَ امْرَأَةَ لُوطٍ كَانَتَا تَحْتَ عَبْدَيْنِ مِنْ عِبَادِنَا صَالِحَيْنِ"[2] Bu iki qadın küfr nümunəsi olan qadınlara aiddir. Yəni Allah-taala həm küfr, həm də iman barəsində nümunə kimi kişiləri deyil, qadınları göstərir". "وَ ضَرَبَ اللَّهُ مَثَلاً لِلَّذِينَ آمَنُوا امْرَأَةَ فِرْعَوْنَ"[3] Kamil iman nümunəsi kimi bir Fironun zövcəsini misal çəkir, bir də həzrət Məryəmi-kübranı: "وَ مَرْيَمَ ابْنَةَ عِمْرَانَ"[4]

Zeynəbi-kübra ilə Fironun zövcəsi arasında kiçik bir müqayisəsinin aparılması Zeynəbi-kübranın məqamının əzəmətini göstərir. Qurani-kərimdə Fironun zövcəsi dünyanın sonuna kimi tarix boyu kişi və qadınlar üçün iman nümunəsi kimi təqdim edilir. İndi siz Fironun Musaya iman gətirmiş, onun gətirdiyi hidayətə könül vermiş zövcəsini (Zeynəbi-kübra ilə) müqayisə edin. O, Fironun işgəncələrinə məruz qalıb və tarix və hədislərə əsasən, elə həmin işgəncələr altında da dünyasını dəyişib. O, fiziki işgəncəyə məruz qalanda belə fəryad qoparıb ki: "إِذْ قَالَتْ رَبِّ ابْنِ لِي عِنْدَكَ بَيْتاً فِي الْجَنَّةِ وَ نَجِّنِي مِنْ فِرْعَوْنَ وَ عَمَلِهِ"[5] O, Allah-taaladan cənnətdə onun üçün bir ev tikməsini istəyir. Əslində o, ölüm arzulayır, dünyadan köçmək istəyir. "وَ نَجِّنِي مِنْ فِرْعَوْنَ وَ عَمَلِهِ" Məni Firondan və onun azdırıcı əməllərindən xilas et. Halbuki Fironun zövcəsi xanım Asiyənin problemi, işgəncəsi, ağrı və acısı fiziki ağrı-acı idi və o, həzrət Zeynəb kimi neçə qardaşını, iki balasını, çoxlu qohumunu və qardaşı balalarını itirməmişdi, onlar onun gözü qarşısında qurbangaha getməmişdilər. Fironun zövcəsi xanım Asiyə Zeynəbi-kübranın qarşılaşdığı ruhi məşəqqətlərlə qarşılaşmamışdı. Zeynəbi-kübra Aşura günü bu qədər əzizinin qurbangaha gedib şəhid olmasının şahidi oldu: Şəhidlər sərvəri Hüseyn ibn Əlini gördü, Abbası gördü, Əli Əkbəri gördü, Qasimi gördü, öz övladlarını gördü, başqa qardaşlarını gördü. Onların şəhid olmasından

---

[1] "19 dey (9 yanvar)" qiyamının ildönümü münasibəti ilə Qum şəhəri əhalisi ilə görüşdəki çıxışdan. 09.I.2010

[2] Təhrim surəsi, ayə 10: "Allah kafir olanlara Nuhun zövcəsini və Lutun zövcəsini misal çəkdi. Onlar bizim bəndələrimizdən olan əməlisaleh iki bəndənin (kəbini) altında idilər".

[3] Təhrim surəsi, ayə 11: "Və Allah iman gətirən kişilər üçün Fironun zövcəsini məsəl çəkib..."

[4] Təhrim surəsi, ayə 12: "Habelə İmran qızı Məryəmi..."

[5] Təhrim surəsi, ayə: 11 "O zaman o dedi: Ey rəbbim, mənim üçün Öz yanında – Cənnətdə – bir ev tik! Məni Firondan və onun əməlindən xilas et".

sonra da o qədər möhnət gördü: Düşmənin hücumu, hörmətsizlik, uşaqların və qadınların qorunması məsuliyyəti. Məgər bu müsibətlərin əzəmətini fiziki müsibətlərlə müqayisə etmək olar?! Lakin bütün bu müsibətlərin müqabilində Zeynəb Allaha "**نَجِّني**" "Ey rəbbim, məni xilas et" demədi. O, Aşura günü belə dedi: "İlahi, bizdən qəbul et!" Zeynəb qardaşının tikə-tikə olmuş bədəni qarşısında və gözünün qabağında olan halda qəlbinin üzünü Allaha tutub "İlahi, bu qurbanlığı bizdən qəbul et!" deyir. Sonra ondan "necə gördün?" deyə soruşanda cavab verir ki: "**ما رأيت الا جميلا**" "Mən gözəllikdən başqa bir şey görmədim". Bu qədər müsibət Zeynəbi-kübranın gözündə gözəldir. Çünki o, Allah tərəfindəndir, çünki onun yolundadır, onun kəlamının ucalması yolundadır. İndi siz görün, bu məqam, belə bir səbir məqamı, haqq və həqiqətə vurğunluq Qurani-kərimin xanım Asiyə barəsində nəql etdiyi məqamdan nə qədər fərqlidir. Bu, Zeynəbin məqamının əzəmətini göstərir. Allaha xatir görülən iş belə olur. Buna görə də Zeynəbin adı və işi bu gün örnəkdir və dünyada yaşayır. İslam dininin yaşaması, Allah yolunun qalması, bu yolun Allahın bəndələri vasitəsi ilə qət edilməsi Hüseyn ibn Əlinin (ə) və Zeynəbi-kübranın (ə) gördüyü işə əsaslanır və ondan güc alır. Yəni həmin əzəmətli səbir, o müqavimət, müsibət və çətinliklərə qatlaşmaq nəticəsində siz bu gün dünyada dini dəyərlərin yayılmasının şahidisiniz. Müxtəlif məktəblərdə insanın vicdanı ilə üst-üstə düşən insani dəyərlərin hamısı dindən qaynaqlanan dəyərlərdir. Bunları din öyrədib. Allaha xatir olan işin xüsusiyyəti belədir[1].

**70.**

## Həzrət Zeynəb (ə) qanın qılınca qalib gəlməsinin əsas səbəbkarıdır

Zeynəbi-kübra (ə) tarixin ən mühüm məsələlərindən birində qadının iştirakının əzəmətini göstərən bariz tarixi nümunələrdən biridir. Deyirlər ki, Aşurada, Kərbəla hadisəsində qan qılınca qalib gəlib. O, həqiqətən, qalib gəlib. Bu qələbənin səbəbkarı həzrət Zeynəbdir. Yoxsa ki, qan Kərbəlada qurtarmışdı. Hərbi hadisə haqq qüvvələrinin Aşura səhnəsində zahiri məğlubiyyəti ilə sona çatmışdı. Lakin Zeynəbi-kübranın (ə) himməti, həzrət Zeynəbin öhdəsinə götürdüyü rol bu zahiri hərbi məğlubiyyətin qəti və daimi bir qələbəyə çevrilməsinə səbəb oldu. Bu, çox mühümdür. Bu hadisə qadının tarixin haşiyəsində olmadığını, mühüm tarixi hadisələrin içində olduğunu göstərir. Quran da müxtəlif məqamlarda bu məsələyə toxunub. Lakin bu, keçmiş ümmətlərə aid deyil, yaxın keçmişə aiddir. Yaşayan və hiss edilən bir hadisədir. Adam Zeynəbi-kübraya baxanda onun heyrətamiz və parlaq bir əzəmətlə meydanda peyda olmasının, zahirdə hərbi döyüşdə qalib gəlmiş müxaliflərinin kökünü kəsməsinin və zəfər taxtına çıxmış düşmənin öz güc mərkəzində, öz sarayında təhqir və xar olmasına səbəb olan bir iş görməsinin şahidi olur. Zeynəb düşmənin alnına əbədi xarlıq damğası vurur və onun qələbəsini məğlubiyyətə çevirir. Bu, Zeynəbi-kübranın işidir. Zeynəb (ə) göstərdi ki, qadının həya və ismətini mücahidcəsinə olan izzətə, böyük bir cihada çevirmək mümkündür.

### Həzrət Zeynəbin (ə) çıxışları həmin dövrün islam cəmiyyətinin vəziyyətinin geniş təhlilidir

Zeynəbi-kübranın çıxışlarından qalan və bu gün bizim əlimizdə olanlar onun hərəkətinin əzəmətini göstərir. Həzrət Kübranın Kufə bazarındakı xütbəsi adi danışıq deyil, böyük bir şəxsiyyətin adi nəzər bildirməsi deyil, islam cəmiyyətinin həmin dövrdəki vəziyyətinin həmin şəraitdə ən gözəl söz, ən dərin və zəngin ifadələrlə əzəmətli təhlilidir. Siz şəxsiyyətin gücünə baxın, görün bu şəxsiyyət nə qədər güclüdür. İki gün qabaq bir səhrada onun qardaşını, imam və rəhbərini bu qədər əzizləri, cavanları, övladları və sairə ilə birlikdə öldürüblər, onlarla qadın və uşaqdan ibarət bu dəstəni əsir ediblər, gətirib əsirlik dəvəsinin üstündə camaatın gözü qarşısında saxlayıblar, camaat da gəlib onlara tamaşa edib, bəziləri hay-küy salmaqla sevincini izhar edib, bəziləri də ağlayır. Belə bir böhranlı vəziyyətdə birdən bu əzəmət günəşi doğur və atası Əmirəl-mömininin xilafət minbərində öz ümməti qarşısındakı danışıq tonundan istifadə edir, onun kimi danışır, həmin sözlərlə, həmin fəsahət və bəlağətlə, həmin ali məzmun və məna ilə belə deyir: "**يا اهل الكوفة يا اهل الغدر و الختل**" "Ey Kufə əhli! Ey hiyləgərlər və xəyanətkarlar! Ey hiyləgərlər! Ey riyakarlar! Bəlkə, özünüz də İslam və Əhli-beyt davamçısı olmağınıza inanmısınız, amma sınaq meydanında özünüzü doğrultmadınız, fitnədə belə korluq göstərdiniz! "**هل فيكم الا الصلف و العجب و الشنف و الكذب و ملق الاماء و غمز الاعداء**" Sizin davranışınız, diliniz qəlbinizlə bir deyil. Məğrurlaşdınız, elə bildiniz imanınız var, elə bildiniz yenə də inqilabçısınız, elə bildiniz yenə də Əli davamçısısınız. Halbuki, əslində, məsələ belə deyildi. Fitnə ilə mübarizə aparmağın öhdəsindən gələ bilmədiniz, özünüzü xilas edə bilmədiniz. "**مثلكم كمثل َالَّتِي نَقَضَتْ غَزْلَهَا مِنْ بَعْدِ قُوَّةٍ أَنْكَاثاً**" Siz yunu əyirib sapa çevirən, sonra yenidən sapları açıb həmin əyrilməmiş yun və ya pambığa çevirən şəxs kimisiniz. Bəsirətsizliklə, şəraiti dərk etməməklə, haqq ilə batili bir-birindən ayırd etməməklə öz əməllərinizi, öz

---

[1] Hərbi Hava Qüvvələrinin komandanlıq və personalı ilə görüşdəki çıxışdan. 08.II.2010

keçmişinizi puç etdiniz. Zahir iman zahiri idi, ağız inqilabçılıq iddiası ilə dolu idi, amma batin puç idi, əks küləklərin qarşısında müqavimətsiz idi. Bu, cəmiyyətin xəstəliyinin patologiyasıdır.

Zeynəb bu güclü açıqlama, bu dolğun sözlərlə, özü də həmin ağır şəraitdə belə söhbət edirdi. Belə deyildi ki, bir dəstə dinləyici həzrət Zeynəbin qarşısında oturmuş olsun və ona qulaq assın, o da bir xətib kimi onlara xütbə oxusun. Xeyir! Bir dəstə düşmən, düşmənin əli nizəli adamları onların böyük-başını tutmuşdu. Ora toplaşanlar da müxtəlif tipli adamlar idi, Müslimi ibn Ziyada təhvil verənlər, İmam Hüseynə məktub yazıb vədinə xilaf çıxanlar, ibn Ziyada hücum etməli olduqları gün evlərində gizlənənlər idilər. Kufə bazarındakılar bunlar idilər. Bəziləri də zəiflik göstərmişdilər, indi də tamaşa edirdilər, Əmirəl-mömininin qızını görüb ağlayırdılar. Həzrət Zeynəbi-kübra belə ziddiyyətli və etibarsız dəstə ilə üz-üzə idi. Amma belə qətiyyətlə danışırdı. O, tarixin qadınıdır. O, daha zəif qadın deyil. Qadını zəif hesab etmək olmaz. Qadının bu möminlik çöhrəsi çətin şəraitdə özünü belə göstərir. Bu qadın örnəkdir – dünyanın bütün böyük kişiləri və böyük qadınları üçün örnək! O, Peyğəmbər və Əli inqilabının bu ictimai xəstəliyə tutulmasının səbəblərini təhlil edir, ümmətin fitnə zamanı haqqı seçə bilməmələrini, vəzifələrinə əməl edə bilməmələrini və bunun nəticəsində Peyğəmbərin ciyər parçasının başının nizələrə keçirildiyini deyir. Zeynəbin əzəmətini burada başa düşmək olur[1].

**71.**

## İmam Hüseynin (ə) Allahın dinini qorumaq üçün hərtərəfli səy göstərməsi

Bu məna, yəni tam mənada və mümkün olan bütün vasitələrlə dinin keşiyini çəkmək İmam Hüseynin (ə) müqəddəs vücudunda təzahür edir. Bunun mənası bu işi başqalarının görməməsi, yaxud görmək istəməməsi deyil. Onun mənası bu hərəkətin tam mənada İmam Hüseynin (ə) onillik imamət müddətində gerçəkləşməsidir. Peyğəmbər balasının islamın əzəmətli mirasını – onun babasının, atasının və onların həqiqi davamçılarının mirasını – qorumaq üçün istifadə etməsi mümkün olan bütün yollar İmam Hüseynin həyatında hiss olunur. Maarifləndirmə, Allahın əzabından qorxutma, təbliğat, Mina xütbəsində bizim "xüsusi zümrə" adlandırdığımız xüsusi ünsürlərin vicdanlarının oyadılması və həssaslaşdırılması – İmam Hüseynin həyatında bunların hamısı var. Sonra da böyük bir sapıntı qarşısında canı ilə durmaq. İmam Hüseyn bu hərəkətin sonunun necə olacağından xəbərsiz deyildi. Xeyir, onlar imam idilər. İmamın idrakı, elmi və geniş məlumatı bizim zehnimizə sığmayacaq qədər böyük məsələdir. Sadəcə o, örnək göstərmək məqsədi ilə mübarizə edir, təslim olmur və camaatdan kömək istəyir. Bir dəstə adam – kufəlilər – peyda olub o həzrətin yanında bu yolda addımlamağa hazır olduqlarını bildirəndə İmam Hüseyn onların istəyini qəbul edir və onlara tərəf gedir, sonra yolda peşman da olmur. Adam İmam Hüseynin sözlərinə baxanda görür ki, o həzrət bu işi sona çatdırmaqda qətiyyətli olub. İmam Hüseynin (ə) həmin vaxt olduqca təhlükəli bir sapıntı qarşısında dayanması bir dərsdir. Bunu o həzrət özü də təkrar edib. Yəni öz işini islamın göstərişlərinə əsaslandırıb. Həzrət Peyğəmbər (s) buyurub: "Əgər kimsə zalım hakimin Allahın haramlarını halal etdiyini, Allahın əhdini pozduğunu, Peyğəmbər sünnəsinə qarşı çıxdığını, Allahın bəndələri ilə günah və ədavətlə davrandığını görsə və öz dil və əməli ilə ona qarşı bir iş görməsə, həmin şəxsi o zalım gedən yerə aparmaq Allah-taalanın haqqıdır". O həzrət bunu bəyan etdi. Yəni mənim vəzifəm budur. Bu işi görürəm, mən ona qarşı çıxmalıyam, aqibətimin hər nə olmasından asılı olmayaraq, müxaliflər və müqavimət yolunda addımlamalıyam. Əgər aqibət qələbə olsa, lap yaxşı, əgər şəhidlik olsa, yenə lap yaxşı. Yəni İmam Hüseyn (ə) belə hərəkət etdi.

Bu, kamil fədakarlıq oldu və islamı qorudu. İslamı bu hərəkət qorudu. Dəyərlərin cəmiyyətdə sabit qalmasına bu hərəkət səbəb oldu. Əgər İmam Hüseyn bu təhlükəni qəbul etməsəydi, hərəkət etməsəydi, addım atmasaydı, qanı tökülməsəydi, Peyğəmbər ailəsi, Əmirəl-mömininin qızı və Peyğəmbər Əhli-beytinin övladları üçün o böyük faciə baş verməsəydi, bu hadisə tarixdə qalmazdı. O böyük sapıntının qarşısını alan bu hadisə cəmiyyət və tarixin zehnində həmin sapıntı böyüklüyündə şok yaratmalı idi və yaratdı da. Bu, İmam Hüseynin fədakarlığıdır[2].

**72.**

## Xatimə: Ayətullah Xameneinin Aşura məzmunlu duaları

• Ümid edirik ki, Allah-taala İmam Hüseynin (ə) bərəkətindən bizi hidayət edəcək, hərəkatımızı qoruyub saxlayacaq, bu cəmiyyətdə ruhaniləri – onlar hakimiyyət və quruluşun sütunudurlar – günü-gündən əziz edəcək

---

[1] İranın nümunəvi tibb bacılarından ibarət böyük bir dəstə ilə görüşdəki çıxışdan. 21.IV.2010

[2] İslam İnqilabı Keşikçiləri Korpusunun komandirləri ilə görüşdəki çıxışdan. 04.VII.2011

və biz ruhanilərin hamısına camaata islamı, dini, həmçinin islam, Quran və Hüseyn təlimlərini ən gözəl şəkildə çatdırmaq müvəffəqiyyəti nəsib edəcək.[1]

• Ümid edirik ki, Allah-taala Hüseyn ibn Əlinin bərəkətindən bizi o həzrətin yardımçılarından edəcək; bizi Allah yolunda çalışmaq səhnəsində öncüllərdən edəcək və imam Xomeyninin müqəddəs ruhunu bizdən razı edəcək; bizi imam Zamanın – ruhumuz ona fəda olsun – əsgərlərindən və köməkçilərindən edəcək və o həzrətin müqəddəs qəlbini bizdən razı edəcək.[2]

• Allahdan bizi onun yolunda cihad etmək kimi çətin yolda, həmçinin bütün səhnələrdə hidayət etməsini diləyirik ki, boynumuza düşən vəzifələri bilək, dərk edək və Allahın istəyi ilə peyğəmbərlərin, imamların (ə), Hüseyn ibn Əlinin (ə) və inqilabın yolunu qüdrət və qüvvətlə davam etdirək və inşallah, bizim müsəlman xalqımız və digər müsəlman xalqlar islamın sayəsində daha şirin və daha aydın gələcəyə malik olsunlar.[3]

• Ümid edirik ki, Allah-taala öz bərəkət və mərhəmətini nazil edəcək və imam Zamanın – ruhumuz ona fəda olsun – pak duaları sizə şamil olacaq. Ümid edirik ki, Allah-taala bu məhərrəm ayını islam cəmiyyətinin inkişaf və yüksəliş adı edəcək.[4]

• Ümid edirik ki, imam Zamanın – ruhumuz ona fəda olsun – diqqəti sayəsində həm siz, həm də biz hamılıqla bu böyük islami hadisə barəsində boynumuza düşən vəzifələrə əməl etmək müvəffəqiyyəti əldə edəcək, vəzifələrimizi yerinə yetirəcək və özümüzü Hüseyn ibn Əli (ə) və o həzrətin səhabələri ilə həmrəng etmək istiqamətində səy göstərəcəyik.[5]

• Ümid edirik ki, Allah-taala sizi həmişə Hüseynçi saxlayacaq, İmam Hüseynin hədəfləri yolunda daha çox hidayət və nuraniliklə, hərəkətdə sabitqədəmliklə başıuca edəcək. İmam Hüseynin qanlı bayrağının bizim gözümüzün önündə olması fövqəladə bir görüntüdür.[6]

• İlahi! Səni Hüseyn və Zeynəbə and veririk ki, bizi onların dostu, yardımçısı və davamçılarından et!

• İlahi, bizim həyatımızı İmam Hüseynin həyatı və ölümümüzü İmam Hüseynin ölümü kimi et!

• İlahi, bizi bu yola istiqamətləndirmiş İmam Xomeynini Məhşər səhnəsində Kərbəla şəhidləri ilə birlikdə gətir; bizim əziz şəhidlərimizi Məhşər səhnəsində Kərbəla şəhidləri ilə birlikdə gətir!

• İlahi, bu böyük milləti, bu Hüseynçi və Aşuraçı milləti bütün kiçik və böyük düşmənlərə qalib et, onun düşmənlərini məyus və nakam qoy!

• İlahi, səni and verirəm Məhəmmədə və onun Əhli-beytinə, islam ümmətini dünyanın harasında olmasından asılı olmayaraq başıuca et, onlara İmam Hüseynin vəzifəsini başa sal, həmin vəzifəni yerinə yetirmək müvəffəqiyyəti əta et![7]

• Ümid edirik ki, Allahın yardım və lütfü sayəsində əziz islamın cəhətləri və mühüm Aşura hadisəsinin cəhət və əməlləri hamıya aydın olacaq və hamı ondan, həqiqətən, bir çeşmə kimi istifadə edəcək; inşallah, siz möhtərəm cənablar, əziz qardaşlar, xüsusilə mömin, ixlaslı və enerjili gənclər, boynunuza düşən vəzifələrini ən yaxşı şəkildə yerinə yetirə və camaatı Aşuranın bərəkətli çeşməsindən sirab edə biləcək və imam Zamanın – ruhumuz ona fəda olsun – müqəddəs qəlbini özünüzdən razı sala biləcəksiniz.[8]

• Ümid edirik ki, Allah-taala sizə müvəffəqiyyət verəcək və inşallah, bu ayın – İmam Hüseyn (ə) ayının, fədakarlıq və şəhidlik ayının, əxlaqın ən ülvi cilvələrinin təzahür etdiyi ayın – bərəkəti sayəsində dolğun, möhkəm, mətin və müxtəlif təbəqələrə mənsub insanların ehtiyacı olan məsələlərə toxunmaqla cəmiyyətimizi və xalqımızı yüksəliş və kamilləşmə istiqamətində bir addım qabağa aparacaq və Allahın razılığını qazanacaqsınız.[9]

• İlahi, bizi İmam Hüseyn yolunda yaşat və İmam Hüseyn yolunda öldür![10]

• Allah imam Zamanın (ruhumuz ona fəda) duasını hamımızın halına şamil etsin və bizi Hüseyn ibn Əlinin (ə) həqiqi davamçılarından hesab etsin![11]

---

[1] Məhərrəm ayı astanasında bir dəstə ruhani ilə görüşdəki çıxışdan – 01.VIII.1998

[2] Məhərrəm ayının çatması münasibəti ilə müxtəlif təbəqələrdən ibarət xalq kütləsi ilə görüşdəki çıxışdan – 01.VII.1992

[3] Alim və ruhanilərlə görüşdəki çıxışdan – 29.VII.1992

[4] Məhərrəm ayı astanasında alim, din tələbələri və ruhanilərlə görüşdəki çıxışdan – 15.VI.1993

[5] "İnqilab Keşikçisi Korpusu günü" münasibəti ilə İslam İnqilabı Keşikçiləri Korpusunun və Nizam-İntizam Qüvvələrinin üzvləri xüsusi təyinatlı qüvvələrinin minlərlə üzvü qarşısındakı çıxışdan – 16.I.1994

[6] İmam Hüseyn (ə) Universitetinin səhər toplanışındakı çıxışdan – 08.XI.2005

[7] Cümə namazının xütbələrindəki çıxışdan (1416 h.q. ilinin Aşura günü) – 09.VI.1995

[8] Məhərrəm ayı astanasında ruhani və təbliğatçılarla görüşdəki çıxışdan – 15.V.1996

[9] Məhərrəm ayı astanasında alim, ruhanilərlə görüşdəki çıxışdan – 22.IV.1998

[10] Tehranın cümə namazı xütbələrindəki çıxışdan – 14.IV.200

[11] "19 dey (9 yanvar)" qiyamının ildönümü münasibəti ilə Qum şəhərinin əhalisi ilə görüşdəki çıxışdan – 08.I.2009